# AZƏRBAYCAN

**2'2025**

**1923-cü ildən çıxır**

**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI**



**Baş redaktor:** **İntiqam QASIMZADƏ**

**Baş redaktor müavini:** **Südabə AĞABALAYEVA**

**Məsul katib:** **Vüsal NURU**

**Şöbə müdirləri:** **Məmməd ORUC, Qəşəm NƏCƏFZADƏ, Mübariz CƏFƏRLİ, Azad YAŞAR**



**Redaksiyanın ünvanı:**
Bakı - Az1000
Xaqani küçəsi, 25

**Telefonlar:**
*Redaksiya –*
498-78-10
493-75-81

*Mühasibat –*
493-29-41



**Çapa imzalanıb:**
25.02.2025
**Sifariş 300**
Tiraj 500
**Kağız formatı**
70x108 1/16 - 6,5
kağız vərəqi
12 çap vərəqi
17,2 şərti çap vərəqi



**E-mail:**
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru
**www.azyb.az**



**Qiyməti**
**2 manat**

**Bakı şəhəri, "Azərbaycan" nəşriyyatının mətbəəsində ofset üsulu ilə çap olunur**



**Dərc olunmuş yazılar qəbul edilmir.**
**Əlyazmalara rəy verilmir və qaytarılmır.**
**Müəllifin fikirləri redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.**

## BU SAYIMIZDA:


### QAN YADDAŞIMIZ

RƏŞİD FAXRALI – Xocalının göylərinə sər ürəyimi! ....4
VAHİD MƏHƏRRƏMLİ – Üzü gülən Xocalı ....17

### POEZİYA

QƏŞƏM NƏCƏFZADƏ – Şeirlər ....19
KƏMALƏDDİN QƏDİM – Şeirlər ....85
RAFİQ YUSİFOĞLU – Şeirlər ....106
ADİL MƏMMƏD –Şeirlər ....113
ELÇİN MƏLHƏMLİ – Şeirlər ....119
PƏRVİZ QURBANLI – Şeirlər ....138
TƏRANƏ DƏMİR – Şeirlər ....142

### NƏSR

LOĞMAN RƏŞİDZADƏ – Yuxusu pozulanlar (Roman. Əvvəli ötən sayımızda) ....30

### AXTARIŞLAR, TAPINTILAR

HACI FİRUDİN QURBANSOY –Yaşıl gün – Novruz ....99

### YENİ TƏRCÜMƏLƏR

MİXAİL VELLER – Qılınclarla rəqs (Tərcümə edən: Azad Yaşar) ....122

### ƏDƏBİ SÖHBƏTLƏR

ÖZ "ÇEVRƏ"SİNDƏN "MƏTN QALAKTİKASI"NA ... –
Tənqidçi Nərgiz Cabbarlı ilə şair Salam Sarvanın söhbəti. ....147

### YÜZ İLİN BİRİNCİLƏRİ

SÜDABƏ AĞABALAYEVA – Əli Vəliyev ....160

### TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ

MƏHRUX DÖVLƏTZADƏ – Elçinin "Qarabağ şikəstəsi":
Vətəndaş yazıçının katarsisi ....164
RÜSTƏM KAMAL – Vaqif Səmədoğlunun duaları ....175

### YUBİLEYLƏR

ƏHMƏD QƏŞƏMOĞLU – Şeirlər ....128
SÜDABƏ AĞABALAYEVA – "Söyüdə barsız deməyin" ....136
VAQİF YUSİFLİ – Adil Babayev - 100 ....180
Dilsuzun 80 yaşı....182
SONA XƏYAL – Göylər qızı – Nisə Bəyim - 70....184

### KİTAB RƏFİ ....191




*"Xocalıya ədalət!" tələbimiz tam haqlı idi. Bu ədaləti döyüş meydanında təmin etməyimiz beynəlxalq hüquqa və tarixi ədalətə tam uyğundur. Biz tarixi ədaləti bərpa etmişik. Biz günahsız Xocalı qurbanlarının qisasını döyüş meydanında aldıq, onların qanını döyüş meydanında aldıq qoymadıq ki, onların qanı yerdə qalsın. Düzdür, buna 30 il vaxt lazım oldu. Ancaq bu 30 il ərzində görülmüş işlər, apardığımız məqsədyönlü siyasət bu günü burada yaşamaq üçün bizə imkan yaradırdı.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Rəşid FAXRALI*

# XOCALININ GÖYLƏRİNƏ SƏR ÜRƏYİMİ!

1992-ci ilin 25 fevral gecəsi...

O gecə dünyanın qurtaran yerində, şaxtada-ayazda yüzlərlə azərbaycanlının son gecəsiymiş. Yağan qar o gecə soyuqdan donanların da, alca qanı qara qarışanların da, məzarı son nəfəsinin isitdiyi qar qalağı olanların da, Yerdən üzülən əli Göydən üzülənlərin də taleyinə yağırmış. O gecə neçə ananın laylası dodağında dondu, bu ayamda neçə-neçə körpənin son bürüncəyi ölüm oldu, bu qadaya sinə gərməyi bacarmayanların ümidi yollardan üzülməyən baxışlarında söndü; o gecə Xocalı dünyanın qurtaran yeriydi...

* * *

Azərbaycanda milli-azadlıq hərəkatı Ermənistanın Azərbaycandan ərazi iddiasına görə genişlənmişdi. İmperiya Azərbaycanın ədalətli mübarizəsinə pəl vururdu, Ermənistanın iddiasına “yön basırdı” – Ermənistanın Azərbaycana qarşı ədalətsiz müharibəsinin dayandırılmasını tələb etmirdi. Azərbaycan xalqının iradəsi milli-azadlıq hərəkatına çevrildi, illərlə gizlin aparılmış müstəqillik mübarizəsi bu mübarizəylə – Ermənistanın ərazi iddiasına qarşı dəyanətlə qoşalaşdı, xalq müsəlləhləşdi, xalq əsgərləşdi. İmperiya Bakıda qırğın törətsə də bu hərəkatın üstündə “yel əsdirə bilmədi” – imperiyanın ilhaq zəncirləri parçalandı...



Müstəqil dövlət kimi Azərbaycanın yaradılan ordusu, əsasən, yerli müdafiə batalyonları kimi fəaliyyət göstərirdi.

Xocalı kəndi vardı. Min illərin o üzündə tariximizin bir

mərhələsinin ünvanı idi. Böyüdü, el oldu, elat oldu, böyüdü, neçə yüz illərdən sonra qəsəbə oldu. Böyüyüb şəhər olacaqdı. Min illərin tarixini yaşadan bu qədim kəndin cavan şəhər olacağının işığını camaat da görürdü, tikintidə işləyənlər də, Xocalını qoruyanlar da, ruhu Xocalıdan üzülməyənlər də. Bu işığın gurluğunu ruhən hamı görürdü...

Belə bir vaxtda Xocalıda yaşayış binaları tikilirdi, kənd kimi, çox qədim yaşayış məntəqəsi kimi neçə-neçə yüz illər yormuş Xocalı şəhər kimi böyüyürdü. 1990-cı ilin yazında "İnşaatçı" qəzetinin müxbiri kimi Xocalıda ezamiyyətdə olanda görmüşdüm ki, müdafiə batalyonunun döyüşçüləri mövqelərdən Xocalıya enəndə, bir neçə saat tikintidə də işləyir, tikintidə işləyənlər arada mövqelərə də gedirlər, döyüş növbətçiliyi də aparırlar. Min illərin tarixini yaşadan bu qədim kəndin cavan şəhər olacağının işığını camaat da görürdü, tikintidə işləyənlər də, biz də. Onlara qoşulub müdafiəçilərin yanına mən də getmək istəmişdim. Orta yaşlı döyüşçü əlini çiynimə qoyub doğmalıqla, bir qədər çəkingənliklə, "Gələn dəfə..." demişdi. Niyəsini soruşmamışdım...

"Gələn dəfə" uzun çəkdi – 33 il...

366-cı alayın fəal köməyilə ermənilər 1992-ci ilin 26 fevralında Xocalıda faciə törətdi. Bu faciə yüzlərlə ömrün sonu oldu, yüzlərlə insan əsirlikdə zillət çəkdi, neçəsinin öldüsü-qaldısı indi də bilinmir, 31 ildən sonra naməlum kütləvi məzarlıqlarda tapılanlar da oldu. Onlarla körpə atasız-anasız qaldı, bu dərd dünyanın hələ görmədiyi bir dərd idi – bunu dərdəcarlar görə bilərdi, ürəyi dərd üzünə açıq olanlar görə bilərdi...

Xocalı işğal olundu. Öz ərazilərimizdən öz ərazimizə gedə bilmirdik – işğal aşılmaz-keçilməz sərhəd yaratdı:

***O qış gecəsində Xocalılarla***
***Çovğuna, sazağa düşənləridik.***
***Dolaşıq düşmüşdü ruhun yolları,***
***Yoxsa üyüşmüşdü ruhun yolları? –***
***Özündən uzağa düşənləridik...***

* * *

1992-ci il idi...

Düşmən Xocalının dörd yanını tutmuşdu, Xocalıya aparan yollar fağırlaşmışdı. Elə bil o vaxtlarda Allahın Xocalıdan xəbəri yoxuydu. Camaat yazı yaz kimi yaşaya bilmirdi, qışı qış kimi. Dan yeri söküləndə də səksəkə yelləri əsirdi, şər qarışanda da. Gündüzləri gödəlmişdi Xocalının, gecələri uzanmışdı...

Kamil tikinti mühəndisi idi. Xocalını şəhərləşdirənlərin sırasında o da vardı. Döyüşçülərlə kəlmələşəndə deyirdi ki, siz də döyüşçüsünüz, biz də. Vətən sizə torpağı qorumağı tapşırıb, bizə tikməyi, qurmağı. Xocalını qoruyursunuz – Azərbaycanı qoruyursunuz, Xocalı böyüyür – Azərbaycan böyüyür...

Yolları-rizləri qar tutmuşdu...

Sovruq yolların qarını doqqaz qapılarına, böyük yola aparan yolun sağına-soluna kürümüşdü....

Düşmənlər Xocalının qəsdindəydi – evləri yandırırdılar, adamları güllələyirdilər, qaçanları qovurdular, uzaqlaşanları izlədirdilər. Müharibələr tarixində belə qəddarlıqlar olmayıb. Həm də rus ordusunun 366-cı alayı ermənilіyin buyruqçusuydu...

Yollar qaçanların, Xocalıdan uzaqlaşmaq istəyənlərin ayaqları altından qaçırdı...

...Haray ev-ev dolaşanda Səriyyə həyətə qaçdı, yola çıxdı, sağa baxdı, sola baxdı. Yol vurnuxanlara, qaçanlara darlıq edirdi. Gələn haraya sarı boylandı: "Qaçın! Ermənilər gəlir!" Atası görünmürdü. Qonşuları təkid elədi, Səriyyə getmədi. El yeriyib getmişdi. Yalqızlaşan qız yol boyunca boylanırdı. Uzaqdan bir qaraltı göründü – atasıydı. Yaxınlaşdı. Qızına: "Tez ol, qızım, əyninə qalın paltar geyin, gecikmişik...". Özü yan otağa keçdi, yükün altından çıxartdığı gümüş dəstəkli xəncəri şalvarının kəmərinə keçirdi...

Camaat görünmürdü. Yeyinləyirdilər. Yüyürürdülər. Arada yeriyə-yeriyə nəfəs dərib, yenə yüyürürdülər. Camaat Qarqarı keçmişdi. Onlar da özlərini suya vurdular. Şamil Səriyyənin əlini buraxmırdı. Arvadı öləndən sonra evlənməmişdi, 15 yaşlı bircəsini tək böyütmüşdü. Evin qayğılarına qız da qalırdı, əli işə-gücə öyrəşmişdi, çətinliyə dözümlüydü. Ata qəhərlənəndə kirimişcə qəhərlənmişdi, kövrələndə kirimişcə kövrəlmişdi. "Tez ol, qızım, tələsək, camaata yetişək..." – Səriyyənin yorulduğunu hiss edirdi...

Çayı keçdilər. Dağın ətəyinə çatanda arxadan onları güllәyə tutdular. "Görüblər..." – düşündü Şamil. Ürəyi uçundu. Bir arxaya baxdı, bir qarşıdakı meşəliyə. Qızının əlindən yapışıb meşəliyə tərəf qaçdı. Ümidsiz qaçışdı bu. Ancaq qaçırdılar. Ümidlə uzaqlaşmaq, meşəliyin qalın yerinə çatmaq istəyirdilər. Səriyyənin ayağı sürüşdü. Şamil qızını qaldırdı. Qız azca axsayırdı. Yıxıla-dura irəliləyirdilər...

Ermənilər bir güllə məsafəsindəydilər. "Məni vurub, qızımı əsir aparmaq istəyəcəklər. Ondansa ölüm yaxşıdı. Özümə də, qızıma da. Bundan qurtuluşa ölüm gərəkdi", – düşündü. "Qatil olacam, ancaq qızım namusuyla öləcək...". Dayandılar. Şamil göz dolusu qızına baxdı, bağrına basdı qızını. Səriyyə atasına sarıldı. Şamil qızını öpdü – doymadı. Bir də baxdı, bir də öpdü. Ağladı. Səriyyə çaşqınlıqla atasına baxırdı. Oturdular. Şamil sol qolunu qızının boynuna doladı. "Qızım...", – dedi. "Qı-zım... məni ba-ğış-la, qı-zım. Səni erməniyə verə bilmərəm, sən də ölməlisən, mən də...". Xəncəri Səriyyənin köksünə sapladı, sonra özünün şah damarını kəsdi. Səriyyə bircə kəlmə deyə bildi: "A-ta..."...

Qar yağırdı...

Qar Şamilin əlindən düşən xəncəri örtməkdəydi...

Ermənilər təəssüflə qar altında görünən xəncərə baxdılar...

Nə Ata sağ idi , nə də qızı...

* * *

Kamil də bir dəstə qocanın, qadının, uşağın şəhərdən çıxmasına kömək edirdi; yıxılanı qaldırırdı, halsızlaşanın qoltuğuna girirdi, anası nəfəsini dərənə

kimi körpəsini qucağına alırdı. İsti gödəkçəsini soyuqdan titrəyən hamilə gəlinə verdi...

* * *

Qaçanlar Əsgərandan keçməyə çəkindilər. Xocalıdan sağa tərəf döndülər. Ölümdən, ölümdən də betər olan əsirlikdən qurtarmaqda Qarqar çayının nicat, qurtuluş olacağına ümidlənib yolsuz yolla gedirdlər, izsiz izlə. Qarqara yetişməyə can atırdılar. Çayı keçib qarşıdakı meşəli dağa çatacaqdılar. Ağdama yol alacaqdılar. Bir az təhlükəsiz, bir az da ümidlə, bir ürək tutumunca cəsarətlə.

Qarqara çatanda nəfəs dərdilər, dönüb arxaya baxdılar. Hələ ölüm görünmürdü. Kimsə bildirdi ki, dəstələrdən biri xeyli qabaqdan dağa çıxmaqdadı. Tələssələr də fəhmlə çayın dayaz yerini müəyyənləşdirdilər. Dayaz bildikləri qədər də dayaz deyilmiş. Gücü, taqəti qalanlar heysizləşənlərə kömək eləyirdi – əl əldən yapışırdı, qol qoldan. Qadınlar körpələri belinə şələləmişdi, kişilər uşaqları qucağına almışdı. Çayı belə keçdilər.

Kətik dağının ətəyinə çatmışdılar, burdan Ağdama keçəcəkdilər. Dənəbir-dənəbir qar yağırdı. Bir azdan nəfəs dərəcəkdilər. Bir ümidin ətəyinə sığınacaqdılar. Sonra qar dizləyə-dizləyə Ağdama yol alacaqdılar...

Dönüb arxaya baxanlar da oldu. Arxalarınca gələn yoxuydu...

Qəflətən bayaqdan bəri dənəbir-dənəbir düşən qarın içindən bir göz tutumunca Günəş göründü. Ümid işığıydı, qarda-buzda inam hərarətiydi elə bil. O işığın səxavətindən yapışdılar. Kamil boğaz şalını anasının ağuşuna qısılmış 3-4 yaşlı qızın boğazına doladı. Gözucu aramla görünməzləşən Günəşə baxdı. Köks ötürdü. Ayağı sürüşən bir ananın qolundan yapışdı...

Kətik dağını aşmaqdaydılar. İyirmi-otuz addımdan sonra üzü aşağı – Ağdama sarı enəcəkdilər.

Qəflətən qənşərlərinə güllələr sancıldı – ermənilər ağacların arxasından çıxdıqca qaçanların rəngi avazıyırdı. Canı ağrıyanların, yaraları gizildəyənlərin ufultusu kirimişdi. Çoxusu nəfəsini içinə çəkib baxırdı. Hamısı qara çökdü. Sürünə-sürünə geriləmək, uzaqlaşmaq istədilər. Beş-on addım uzaqlaşan üzü Qarqara sarı qaçırdı. Minbir zillətlə çıxdıqları yoxuşu zillətlə də enirdilər. Digərləri kimi Kamil də yıxılanın əlindən yapışırdı, çarəsizlərin hoyuna çatırdı. Yıxıla-dura dağ aşağı enirdilər...

Qarqarın yaxasında dayandılar. Yaxın-uzaqlardan mərmi partlayışları, tankların nəriltisi-gurultusu gəlirdi, Kətik dağında sakitlikdi. Bayaq qarşılarını kəsənlərin getdiklərini düşündülər. Dağa bir də çıxmağı qərara aldılar. Başqa çarələri yoxuydu. Qalan yollar onları ölümə, əsirliyə aparardı...

Heç kim öz ömrünü yaşamırdı, hamı hamısının ömrünü yaşayırdı. Ətrafı dinşədilər. On-on beş addım sağı-solu, qarşı tərəfi diqqətlə nəzərdən keçirdilər. Dörd-beş saat əvvəl onları güllələyənlər gözə dəymirdi. Niyəsə, aşalaq-umalaq dağdan enənlərin dalınca düşməmişdilər, dönəcəklərini də gözləmirmişlər...

Kətik dağını enmişdilər...

Şellinin yaxınlığındaydılar...

Qara qayada pusquya düşdülər...

Xocalıdan qaçanları ancaq insanlıq xilas edə bilərdi. İnsaf kasadlığı, insanlıq qıtlığı Qarqarda da bəşəriliyin üzünə ağ oldu. 20-dən şox əli avtomatlının əhatəsində qeyrət neyləyəydi, cəsarət neyləyəydi, mərdlik neyləyəydi? Ermənilərdən biri bir gəlinin ətəyindən yapışmış uşağı dartışdıranda, Kamil yaxınlaşıb ermənini geri itələdi, erməni avtomatını çevirmək istəyəndə Kamilin yumruğu çənəsinin altına pərçimləndi. O biri erməni Kamili də, gəlini də, uşağı da güllələdi...

* * *

Xocalı işğal olunandan sonra öz ərazilərimizdən öz ərazilərimizə gedə bilmirdik. İşğal aşılmaz-keçilməz sərhəd yaratmışdı:

***O qış gecəsində Xocalılarla***
***Çovğuna, sazağa düşənlərdənik.***
***Dolaşıq düşübdü ruhun yolları,***
***Yoxsa üyüşübdü ruhun yolları? –***
***Özündən uzağa düşənlərdənik...***

* * *

Qarqar çayının sahilində ermənilərin güllələdiyi Kamilin oğlu Kamal əsgər atasıydı, oğlu Kamil tarixi Zəfərdən sonra hərbi ximətdəydi, babası haqqında bunları bilirdi. Qarqarın sahilində güllələnmişdi babası. Xocalını, şəhid babasının ruhunun dolaşdığı yerləri də işğaldan qurtaracaq döyüşlərin başlanmasını o da arzulayırdı. Xocalı döyüşlə azad ediləcəkdi, Kamil Qarqarın sahilinə gedəcəkdi, Kətik dağına sarı aparan yolu, cığırı fəhmiylə aşkarlayacaqdı, bu müqəddəs niyyətin gerçəkləşəcəyi günün intizarındaydı. Şəhid babasının ruhunun dolaşdığı yerlər də işğaldan qurtaracaq döyüşlərdə iştirak etməyə niyyətliydi.

Ali Baş Komandanın əmri ilə 2023-cü il sentyabrın 19-da antiterror əməliyyatı başladı.

Əsgər Kamil Qarayev də döyüşlərdəydi. Bölükləri döyüşə-döyüşə Xocalıya yaxınlaşırdı. Döyüşçü kimi, murazlı, niyyətli nəvə kimi ürəyindən nələr keçirdi Kamilin, nələr?! Qəflətən sol ayağı isindi. Güllə dəymişdi. Yaralanmışdı. Bir tərəfə çəkildi ki, kimsə görməsin, bilməsin. Döyüşdən çıxarda bilərdilər onu. Yarasını özü sarıdı. Gözucu döyüşlər gedən səmtə baxdı. Döyüşün son gülləsinə kimi özünə nəfəs arzuladı, döyüşə döndü. Ona elə gəlirdi ki, güllələrin çarpışma səsinin boğanağı içində babasının ruhunun harayını eşidir: Qolunuza qüvvət, balalarım, qəzanız Zəfər olsun!..

Düşmən təslim oldu, bölük dislokasiya yerinə qaytarıldı. Kamil Qarqarın sahilinə gedə bilmədi. Babasının son nəfəsini ruhən ziyarət elədi...

Xocalı işğaldan azad edilmişdi. Ürəyi Kamili Qarqarın sahilinə çəkirdi.

...Bu tərəfdən Ağdama başqa bir dəstə də getməkdəydi...

Taborun həkimi Məmməd düşmənlər Xocalıya girəndə iki yaralıya yardım etmişdi. Dikəlmək istəyəndə dedilər ki, komandir yaralanıb, ona yardım edilməlidi. O anlarda Xocalıdan qaçıb can qurtarmaq istəyənlər çıxdı qarşılarına. “Komandirə biz yardım edərik, həkim, sən bunlarla get. Yolboyu köməyin dəyər...”. Onu komandirin yanına aparan zabit belə qərar verdi...

Kətik dağının zirvəsinə yaxınlaşanda erməniləri görəndə səssiz-səmirsiz geriyə döndülər. Aralarında orta yaşlı kişilər də vardı. Onların məsləhətiylə üçbir-beşbir enirdilər dağı. Səs yaranmasın deyə. Aşalaq-umalaq Qarqarın sahilinə çatdılar. Yorulmuşdular. Vahimə içində bir müddət gözlədilər. Əsgəran səmtə getməkdən çəkindilər. Yenidən Kətik dağına yön tutdular.

Fəhmlə irəliləyirdilər. Ayağı çuxura düşən də olurdu – hoyuna yetirdilər, qolu burxulana, beli sərpənə, ayağı tutulana mədəd olurdular. Zaman dayanmışdı elə bil – yıxıla-dura enirdilər, zamanın vecinə deyildi, ötüşmürdü, sürünürdü...

Ağdama tərəf gedirdilər. Getmək getmək deyildi, qaçmağıydı, can qurtarmağıydı. Ermənilər yaşayan Dəhraz kəndinin yaxınlığındaydılar. Tələsik ötübkeçmək istəyirdilər ki, qarşıdan onları səslədilər, Azərbaycan dilində, Ağdamlıların danışıq tərziylə: Ağdamlıyıq, sizi gözləyirik. Tez olun!.. Dərdlilər dərdini unutdu, ağrıyanlar ağrısını. Kimsə duydu ki, səsə, səsin çalarına, rənginə aldanıblar. Tələsik geri dönəndə atəşə tutuldular. 150 nəfərlik dəstədə cəmi 8 silah vardı. Onlar atışa atışla cavab verdilər ki, qalanlar yaxınlıqdakı dərəyə doluşa bilsinlər. Güllələri azalırdı...

Gülləleri qurtaranda ermənilər onların başının üstünü kəsdirmişdi...

Dərədən çıxanda bir gəlinlə 9-10 yaşlı uşağı yaxınlıqdakı meşəliyə sarı qaçdılar. Onları gülləyə tutdular. Uşaq ayağından yaralananda Məmməd həkim özünü ona yetirdi. Köynəyinin qolunu cırıb uşağın yarasını sarıdı. Uşağı meşəliklə apara bilməyəcəkdi, buna cəhd eləsə, ermәni-






lər çatıb üçünü də güllələyərdi. Uşağa qıymadı, anasına qıymadı. Uşağı qucağına alıb geri, camaatın içinə qayıtdı Məmməd həkim...

Hamısını ferma tipli bir binaya doldurdular...

Əsirlərin üstündə nəyi vardısa, hamısını aldılar, qızıl dişlərini kəlbətinlə çıxart-dılar. Neçəsi bayıldi, birinin bayılması son nəfəsi oldu...

Kətik dağını enəndə Hümbət kişinin oğlu keçinmişdi. Onu bir daldaya qoyub üstünə şax-şəvər yığdılar. Anası Bəsti “Sağ qalsam, oğul əvəzi bu paltarları göz yaşımla isladaram, dərdim bir az yüngülləşər...” düşüncəsiylə oğlunun paltarlarını götürmüşdü. Bilirdilər ki, ermənilər hərbçiləri güllələyir, onlara daha çox əzab verirlər. Bu gümana görə Hümbət kişinin təklifiylə Məmməd həkim hərbçi paltarını soyundu, Hümbət kişinin oğlunun paltarlarını geyindi...

Gecə 13 nəfər cavanı eşiyə çıxartdılar, as sonra davamlı güllə səsləri eşidildi. Bir qədər keşmiş ora bir yük maşını yaxınlaşdı. Səhər açılanda gecə güllələnənləri orda görmədilər...

30 nəfəri seçib Abdal Gülablıya apardılar, qalanları 3 gündən sonra dəyişdilər...

İşğaldan azad edilmiş Xocalıda quruculuq işləri aparılanda xalça muzeyinin ərazisində qazıntı zamanı kütləvi qəbiristanlıq aşkar edildi. 18 nəfər atılmışdı eyni çalaya. Müxtəlif üsullarla işgəncələr verildiyi müəyyən olundu. Bəlkə həmin gecə güllələnənlərdi onlar? Tarix hələ ki, bunu açmır, ermənilər tarixdən, tarix bizdən gizləyir...

* * *

Natiq Qasımov Qarabağa, döyüşənlərin sırasına Gədəbəyin Kiçik Qaramurad kəndindən gəlmişdi. Batalyonun döyüşçüsüydü.

Martın 6-da komandirləri daha altı döyüşçü ilə birlikdə Natiqi də Xocalının Pirlər kəndi istiqamətində kəşfiyyat döyüşünə göndərmişdi. Bu yüksəklikdə Alban kilsəsi vardı. Müharibədə belə tikililər etibarlı səngər olur. Dəstə düşmənin mövqelərindən birinə hücum elədi, uzun çəkməyən döyüşdən sonra düşməni məhv etdilər. Bir qədər nəfəs dərmək üçün bu kilsədə daldalandılar. Alban kilsəsi 7 döyüşçüyə döyüş səngəri oldu. Müşahidə edəndə gördülər ki, ermənilər onların harda olduqlarını bilib. “Son döyüşümüz burda olacaq...” – düşündülər. Natiqin təklifiylə kilsənin divarlarından birinə bayrağımızı asdılar.

Ermənilər kilsəyə yaxınlaşa bilmirdilər – yaxınlaşan yaralanırdı, öldürülürdü. Döyüşün gedişi düşməni çaşdırmışdı. Düşmənə elə gəlirdi ki, kilsədə bir tağımdan da çox döyüşçü var...

Döyüşçülərin 6-sı həlak olmuşdu. Natiq tək qalmışdı – tək döyüşürdü. Müxtəlif tərəflərdən atırdı, müxtəlif fasilələrlə atırdı. Düşmən bunu taktiki döyüş bildiyindən yaxınlaşmağa çəkinirdi. Natiq idi, bir də həlak olmuş döyüşçü yoldaşlarının narahat ruhu. 5 gün belə keçdi. Natiq 5 gün yarıac-yarıtox döyüşdü. Martın 12-si oldu...

Kilsənin qənşərindən asdıqları bayrağı Vətən bilib döyüşürdülər. 6 döyüşçünün şəhidliyindən sonra Natiq təkbaşına belə döyüşürdü.

Natiq Səfər müəllimə baxdı, kirpiyi azca nəmləndi. “Bir cana görə 23 nəfərin ölümünü istəmirəm. Təslim oluram. Gedək...” dedi. İki damla göz yaşı Səfər müəllimin üzünü közə döndərdi...

Natiqin təslim olma möcüzəsinə yığışanlar arasında rus jurnalisti Konstantin Smirnovla italiyalı fotomüxbir Enriko Sarsin də vardı.

Xocalılı əsir Cəfər müəllim göründü, az sonra Natiq. Natiq qapıda görünəndə ermənilərdən biri onu vurmaq istədi. Səhra komandiri Vitali Balasanyan təslim olan döyüşçüyə ağır işgəncələr verməyə etiraz elədi, çünki bu döyüşçünü diri aparmaq istəyirdi. Natiq bayrağımızı götürəndə də ona bir neçə avtomat tuşlandı. Natiq bayrağımızı uca tutaraq, yorğun və ac-susuz olsa da, qətiyyətli addımlarla irəliləyirdi...

Bayrağımız Natiqin başı üzərində şəhidliyə aparan bu qısa məsafədə qürurla dalğalanırdı.

Vitali Balasanyan Natiqdən heç nə öyrənə bilmədi. Enriko Sarsin onun dəyanətinin, cəsarətinin son anlarını fotolentə köçürə bildi.

Ermənilər vədlərinə əməl etmədilər. Əsir xocalıları azad etmədilər, Natiqi harda, necə güllələdilər, bu gün də məlum deyil. Məlum olan budur ki, Natiq Qasımov və onunla son döyüşdə şəhid olan döyüşçülər ermənilərə böyük vahimə, qorxu yaşatmışdı. Bu qorxu Azərbaycan Ordusunun gücünün qorxusu idi...

Enriko Sarsin Natiqin dindirilməsini də çəkə bilib, onu dindirən səhra komandiri Vitali Balasanyanı da.

* * *

Xocalı işğaldan azad ediləndən sonra Xocalıdaydım, ezamiyyətdə. Əsgərlərlə söhbətləşmişdim. Mayor Elşən Veysəlli demişdi ki, əsgərlərimiz İkinci Qarabağ müharibəsi haqqında xeyli məlumata malikdirlər. Xocalı haqqında, Xocalı faciəsi haqqında, Xocalının işğaldan azad edilməsi haqqında da əhatəli məlumatları var. Söhbətimizi Qarqarın sahilində davam etdirməyi qərara aldıq...

Qarqarın sahilinə yaxınlaşanda ürəyimdə bir qəribəlik hiss etdim...

Gözaltı ayağımın altına baxdım. 31 il əvvəlin qışında burdan Kətik dağına, ordan da Ağdama aparacaq yolları, cığırları qurtuluş bilənlərin can sitəmini xatırladım, təntələk yerişlərini xatırladım, ayağı büdrəyənə uzanan əlləri xatırladım...

* * *

İkinci Qarabağ müharibəsi xalqın müharibəsi idi.

İkinci Qarabağ müharibəsindən əvvəl – ermənilər 1992-ci ildən 2020-ci ilin payızına kimi işğal etdikləri kəndlərə, qəsəbələrə, şəhərlərə gətirən yolları minalayırdı, çölləri-düzləri minalayırdı, yolları-rizləri minalayırdı, qaraltısından çəkindiyi meşələri minalayırıdı, əzəmətindən eymədiyi dağların yan-yörəsini minalayırdı. İkinci Qarabağ müharibəsində ermənilərin müdafiə sədlərini darmadağın edən Azərbaycan əsgəri dağlarda, dağlıqlarda, meşələrdə, meşəliklərdə cığırları yola

döndərirdi, yolların düyünlərini aça-aça – minaları təmizləyə-təmizləyə irəliləyirdi. Döyüşən əsgərlər üçün yol açanlarımız vardı; düşmənin torpaq altında gizlədilmiş niyyətləri ilə minaaxtaranlarımız "döyüşür-dü".

"Müharibədə neçə mina zərərsizləşdirdin?" – maraqdan yaranan suala aldığım cavabı Azərbaycan ordusunun hərbi qulluqçusunun mənəvi dünyasının işığı bilmişdim: Tarixi Zəfərimizə lazım olan qədər!..

Gözəl cavab idi! Xocalıda eşitdiyim o gözəl cavabı da, o cavaba görə yaşadığımız ovqatı da unutmamışam...

Mühəndis-istehkamçılar Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi yaxınlığında neytral sahədəydilər. Düşmənin postu ilə bizim post üzbəüz idi. Bir qədər diqqətlə baxanda neytral sahədə iki mina aydın görünürdü. Bir azdan döyüşçülərimiz burdan hücuma keçəcəkdilər. O maneə aradan qaldırılmalıydı. Neytral ərazini düşmən də nəzarətdə saxlayırdı, biz də. Atəş altında minanı zərərsizləşdirən zabitə döyüş ərəfəsində də, döyüşdən sonra da qəhrəman kimi baxmışdılar. Kənd həmin gün işğaldan azad edildi...

Daşaltıdaydılar. Qələbənin işığı görünürdü. Daşaltıdan Şuşaya aparan yolun döyüşçü yolçularıydılar. Yolu addım-addım yoxlayır, yoxlaya-yoxlaya irəliləyirdilər. Yol tamam təmizlənəndən sonra döyüşçülərimiz Şuşanın dağlarını nərdivana döndərəcəkdilər – Şuşaya belə çatacaqdılar. Şuşa döyüşləri mühəndis-istehkamçıların peşəkarlığından, cəsarətindən, əsgəri sədaqətindən asılı idi. On addım, on beş addım, iyirmi addım getmişdilər. Və çayın içindən sahillərə uzanan məftil gördülər. Dayandılar. Minalara bağlanmış məftillər sahildə ağaclara bərkidilmişdi. Bircə toxunuş bəs idi ki, çayın sağında da, solunda da düşmənin piyada əleyhinə OZM-72 qəlpəli minasının hər birinin 2400 qəlpəsi mühəndis-istehkamçıları yaxalasın. Münasib olmayan yerdə, gərginlik içində, vaxt darlığında da olsa, minaları təhlükəsizləşdirdilər. Xüsusi təyinatlıların bir hissəsi Şuşaya burdan getdi...

Yol dünənlərdən gəlib, sabahlara gedir. Yeni salınan yollar bu gündən başlayır. Yollar gözəlləşdirilir, genişləndirilir. Əhmədbəyli kəndindən başlayan, Füzuli şəhərindən, Topxana meşəsindən, Daşaltı kəndindən keçən təzə yol müharibə ərəfəsində riz olub, riz cığıra dönüb – cığır olub, İkinci Qarabağ müharibəsində cığır zərurətə görə – hərbi əməliyyatlara görə genişlənib, yol olub. İndi Zəfər Yoludu, Azərbaycan əsgərinin Zəfərinin yoludu...

Bu yolun bünövrəsini bir hərbi hissənin şəxsi heyəti, bu mühəndis-istehkamçılar qoyub. Şuşaya gedəndə Zəfər yolunun yan-yörəsini görəndə, Çanaxçı və Sığnax kəndlərinin yanından keçəndə düşüncələrimdə bir boy da dikələn qürur ucalığa can atırdı. Bu canatma tarixi Zəfər qazanmış döyüşçülərimizə, ümumən Azərbaycan Ordusuna ehtiramın təzahürüydü.

Müharibənin sonuncu gülləsini kimin atdığı bilinməyəcək, sonuncu gülləni atan əsgər Azərbaycan əsgəri ad-soyadıyla tanınır, tanınacaq. O əsgərə yazmışam ki:

***Tanrı çəkib bu dağların güllərinin şəklini,***
***Güllər görüb gülə dönən Gülərinin şəklini.***

***Son mərmini atmış əsgər, görüşünə gələcəm,***
***Sözlərimlə çəkmək üçün əllərinin şəklini...***

O əsgərin – Azərbaycan əsgərinin əllərinin rəsmini sözlə çəkməyə qüdrətim çatacaqmı? O əllərin rəsmini çəkəcək rəssam o qüdrəti yarada biləcəkmi? – Xocalıda bu düşüncələrin kürlüyünü Şuşada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışından bir məqamıyla yumşaltdım: “Azərbaycan torpaqları illərdi həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarı Bülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq, Araz nəğməsini daha güclü oxuyacaq. “Qarabağ şikəstəsi”ni oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır”.

* * *

Hər il fevralın 26-da xəyallarımızdan, gözümüzün önündən yüzlərcə azərbaycanlının o dəhşətli gecəsi keçir. Həmin gecə ölümdən can qurtaran gəlinlər indi nənədi. 33 il əvvəl həmin gecə Ağdama üz tutanlardan 5-6 ana körpələriylə birlikdə bir mağaraya sığınıb. Analardan biri ağlayan südəmər körpəsinin ağzını əlləriylə qapayıb ki, ermənilər səsə gəlməsinlər. Körpənin ağlartısı 5-6 ananın, 7-8 uşağın ölümünə səbəb olardı. Körpə keçinib. Ana hıçqırtı içində "Balamı çölün düzündə qoymaram!" – deyib, ciyərparasını özüylə Ağdamacan gətirib. Orda bilib ki, körpəsi sağdı, nəfəsi özündədi; xanimanı dağılan ananın sevinci gözlərindən yaş dərib...

O körpə sağdımı? O gecə nəfəsini itirən, dan üzü yenidən doğulan o körpə, yəqin ki, özünü Xocalı faciəsinin yaşıdı bilir. Haqlıdı. Ölüm fidan bir ömürə qıymayıb... O körpə indi anadı. Yaşıdı olan həmin gecəni heç zaman xatırlaya bilməyəcək – onda südəmər körpəydi. Ağrılar içində eşitdiklərini danışır balalarına. Bu illər ərzində həmin gecə ağzını qapayan əllərdən öpəndə anasının göz yaşları ürəyini isladıb. Deməyib, deyə bilməyib ki, bu əllər səni boğmuşdu, qızım...

* * *

Dünyanın heç bir xalqı heç zaman müharibə arzulamayıb. Biz torpaqlarımızın işğaldan qurtuluşu üçün Ali Baş Komandanın döyüş əmrinin təşnəsiydik. Hərbi xidmətə gedənlər də bu niyyətlə gedirdi, tərxis edilənlər də bu niyyətə görə təəssüflənirdi. İkinci Qarabağ müharibəsinə kimi mənim də düşüncələrimdə döyüşlər gedirdi, güllələr açılırdı, mərmilər partlayırdı. Azərbaycan əsgəri döyüş növbətçiliyində uca ruhların səsini eşidirdi: Torpaqların yaraları qaysaqlayacaq. Siz döyüşlərdə qətiyyətlə döyüşün, işğalı kürüyün! Ön xətdə əsgərlərlə söhbətləşəndə bu xatırlatma da düşüncələrimizin üfüqünə dönürdü...

İkinci Qarabağ müharibəsindən əvvəl bir Ana hərbi xidmətə yola saldığı oğluna demişdi: "Vətən olmayandan sonra sən nəyə lazımsan, biz nəyə

lazımıq. Get. Sərkərdəmiz əmr edəndə sən də kişi kimi döyüş...". Həmin vaxtlarda varlığı dosta nur, düşmənə gor olan Azərbaycanda bütün anaların öyüdü belə idi. Əsgərlər bu öyüdü Hərbi Andın mənəvi davamı bilirdilər, döyüşləri gözləyə-gözləyə ermənilərin Azərbaycanda törətdiyi faciələri də unutmurdular...

Bir xatirə: Xocalı faciəsinə yazdığım elegiyada haray da vardı, qəhər də, yaraların qaysaqlayacağına ümid də, işğaldan qurtuluşa inam da. Beyləqanda, düşmənlə təmas xəttinin "on-on beş addımlığında" "Əsgər ürəyindən başlanır Vətən!" deyirdik. Şeirlər səslənirdi, səslər nəqəratlaşırdı. Atası Xocalıdan olan Samir Qurbanov mənim "Xocalım, ay Xocalım!" şeirimi demişdi. Səsində – qəhər, kirpiklərində – iki damla göz yaşı...

O vaxtdan əsgər Samir Qurbanova vəfa borcumu Xocalıda qaytarmağı əhd etmişdim. Özü orda olmayacaqdı, ruhum ruhuna təzə şeir deyəcəkdi:

***Ümidini illər əymiş baxışlar döyüb***
***bir zamanlar daşlar döyən Kür ürəyimi.***
***O zamandan bu zamana yağışlar döyüb,***
***Xocalıda bir daş üstə gör ürəyimi...***

Onda Samirin qəhəri qəhərimiz olmuşdu:

– Babam, nənəm, dayım Xocalıda qətlə yetirilib. Onda atamın on beş yaşı olub. Xocalıların Xocalıdan necə qaçdığını, yolda-izdə, çöldə-düzdə necə öldürüldüyünü həmişə qəhərlə, ağrı-acılarla xatırlayırdı. Döyüşlər başlayanda Xocalı uğrunda döyüşmək istərdim. Xocalını işğaldan azad edənlərin sırasında olmasam, əzizlərimin ruhu məni bağışlamazdı. Niyyətimi komandirimiz də bilir, – Samir belə demişdi. Onda əsgərlərin hamısının qətiyyəti Samir üçün xeyir-duaya dönmüşdü: "Xocalı döyüşlərində hamımız sənin yanında olacağıq!". Yeddi il əvvəlin bu duyğusal kəlmələşməsi əsgər Sənan Bayramovu da duyğulandırmışdı:

– Xocalıda xidmət edəcəyimizi biləndə təhsil aldığım Texniki Universitetdə Xocalı faciəsinin 30 illiyinə həsr olunmuş tədbiri xatırladım. Faciədən danışılmışdı, faciənin ağrılarını sənədli filmdə biz də yaşamışdıq. Professorumuz bizə xitabən demişdi: Siz işğaldan azad edilmiş Xocalıda xidmət edəcəksiniz. Xocalıda hərbi xidmətin ilk gecəsi heç birimizin gözünə yuxu getmirdi. Bu, Azərbaycan əsgərinin qüdrətinin qüruruna görəydi. İndi işğaldan azad edilmiş Xocalıda xidmət etməyin qürurunu mən də yaşayıram. Qazaxdan olsam da, özümü həm də xocalılı hesab edirəm. Əsgərlərin hamısı belə düşünür...

Xocalıdaydım. 33 il əvvəl ermənilərin Xocalıya gəldiyi səmtdəydim. Mənə elə gəlirdi ki, həmin gecə düşmənə atılan güllələrin səsi 2023-cü ilin sentyabrında atılan güllələrin səsinə sarılıb. 33 il əvvəl döyüşən Xocalının da, döyüşün içindən sıyrılıb Şelliyə, Naxçıvanikə, Dəhraza, Qarqara, Ağdama... tərəf yol alanların, qurtuluşa can atanların da ruhunun səsi o səslərin içində çırpınıb, titrəyib, uçunub. Göylərin yağışına-qarına, əsən yelinə, coşan selinə qarışıb...

Tanıdığım xocalılıya özüm deyirdim, tanımadıqlarıma sözüm çatırdı:

***Sevgidə qüdrət var!..***
***Vətən sevgisi***
***Nisgili biryolluq itirəcəkdir.***
***Nənələr, babalar,***
***əsgər oğullar***
***sizi Xocalıya yetirəcəkdir!..***

Xocalı işğaldan, nisgillilər nisgildən azad oldu...

* * *

33 il əvvəl mən gördüyüm Xocalı yoxdu. Əkbər müəllimlə məhlə-məhlə dolaşdığımız, yollar seçib yol aşdığımız Xocalı deyil bu Xocalı. 33 il əvvəlin bir gecəsinin çəkilməz dərdi, ağrı-acısı bina-bina böyüyən, böyüyə-böyüyə şəhərləşən bu cavan şəhərin ürəyinə yük olmuşdu. Xocalı mənəvi sıxıntıdan, illər keçdikcə sükutu da qəhərə dönən ağrı-acılardan, xocalılığını Xocalıdan uzaqda yaşadanların fəryadından qurtardı. Bir qərinədən sonra göy üzü bayrağımızın titrəyişiylə süsləndi...

Ermənistan işğal etdiyi əraziləri öz ərazisi etmək niyyətiylə Xocalıda da hərbi hissə yaradıbmış. Azərbaycan əsgəri ermənilərin yaratdığı, möhkəmləndirdiyi, təkmilləşdirdiyi müdafiə sədlərini necə dağıtmışdısa, bu niyyətini də elə çiliklədi. İndi həmin hərbi hissənin qərargahı Azərbaycan Ordusuna məxsus hərbi hissənin qərargahıdı, əsgəri yataqxanası əsgəri yataqxanamızdı, silah-sursat anbarı silah-sursat anbarımızdı. Hərbi hissənin yaxasından uzanan yollardan biri Xankəndiyə aparır. Mayor Fuad Rəhimov dedi ki, əsgərlərdən biri bu yolun qırağında bir əsgər çəkməsinə rast gəlib. Erməni döyüşçü döyüşdən bir ayağı yalın qaçıb. Tarixin ironiyası da qüdrətə görədir: Xocalıya faciə törətməyə gələnlər necə gəlmişdi, ölümdən qaçanlar necə qaçıb! Bu, gerçəkliyin fəlsəfəsidi: Kələklə gələnləri küləklər aparır...

33 il əvvəl hərbçilər Xocalıda Xocalını qoruyurdular. İndi Xocalıdan Azərbaycanı qoruyurlar!..

Üzü meşələrə sarı dayanmışdım. Təbiəti sevən könlümdə bir sızıltı hiss etmişdim. Meşələr mehmansevəndi, dara düşənə sığınacaq verəndi, təntiyənə həyan olandı. 33 il əvvəlin faciəsinə görə günahsız meşələri, meşələrin günahsız ağaclarını niyə qınayırdım: körpəsini sinəsinə basan, səs salmasın deyə, əlləriylə ağzını tutan, nəfəssizlikdən keçinən o körpəni də, anasını da daldalaya bilmədiniz. Yaralı atasını güllələrdən gizlətmək istəyən yeniyetmə qıza koğuşunuzda yer vermədiniz, çör-çöpünüz düşmənin ayaqlarına dolaşmadı ki, qaçanlar uzaqlaşa bilsinlər... Mənə elə gəldi ki, sükut içində ruhların pıçıltısını eşidəcəm: Azərbaycan əsgəri Xocalını da işğaldan azad etdi, qınadığın ağacları da. O meşədə bir palıd koğuşuna bir baxışlıq sözüm var: 33 il əvvəlin qarlı qış günü gözlədiyin ağsaqqalı ermənilər sənə çataçatda öldürmüşdülər. Dədə Palıd...

*Hər ayın öz hökmü var, hökmü verən zamandı,*
*Ötən aylar ömrümə bir möhlətdi, amandı,*
*Həsrət var ki, duyana ölümdən də yamandı,*
*Ömür keçir, gün keçir, sənsiz necə qocalım,*
*Xocalım, ay Xocalım?!*

2023-cü il sentyabrın 19-da Azərbaycan Ordusunun hücumu dünyanın nizamını dəyişən tarixi Zəfəri Azərbaycan dövlətçiliyinin qətiyyəti ilə tamamladı.

*Güllə-güllə sökülürdü dan yeri,*
*Qələbə harayına bükülürdü dan yeri,*
*Sənə aparan yola tökülürdü dan yeri,*
*Dumantək dağılırdı illər çəkən məlalım,*
*Xocalım, ay Xocalım!*

*Döyüş son döyüşüydü, neçə dağ döyüşürdü,*
*Yaralı əsgər görən daş-torpaq döyüşürdü,*
*Azərbaycanım üçün hər bayraq döyüşürdü,*
*Dərə keçdi, dağ aşdı əsgərləşən xəyalım,*
*Xocalım, ay Xocalım!*

*Döyüşçü ruhu idi "Qarabağ şikəstəsi",*
*Sal daşları oyatdı daşan sellərin səsi,*
*Qanına qəltan oldu işğalın son nəfəsi,*
*Döyüşçü hökmü imiş son sorğum, son sualım,*
*Xocalım, ay Xocalım!*

Əvvəlki şeir də, bu şeir də ruhumun sözüdü. 1992-ci il fevralın 27-də Xocalı faciəsinin qəhərini "köynəyindən keçirən" könlüm 2023-cü il sentyabrın 20-də dünyanın bu üzünü "suya çəkən" bir qələbənin sevincini də "köynəyindən keçirdi". O qəhər könlümün sıxıntısına dönüb 31 il gündüzlər düşüncələrimin, gecələr yuxularımın "ömrünə vay verirdi", bu sevinc könlümün sultanı oldu. Onda göz yaşlarım ürəyimi isladırdı, indi də belə oldu. Xocalının göylərinə sər ürəyimi, İlahi, Xocalının göylərinə sər!..

# Üzü gülən Xocalı

30 ildən çox idi ki, ürəyimizdən həm gedib Xocalının gözəlliyini görmək, həm də insanların öldürüldüyü yerləri ziyarət etmək keçirdi. Ümid edirdik ki, günlərin birində Xocalıya gedən yollar açılacaq.

Nəhayət, 19-20 sentyabr 2023-cü ildə Azərbaycan Ordusunun Qarabağda erməni separatçılarına qarşı həyata keçirdiyi uğurlu antiterror əməliyyatından sonra Xocalıya gedən yollar açıldı. Üçrəngli bayrağımız sancıldı.

Ağdam keçid məntəqəsinin qarşısında xeyli maşın dayanıb. Bizim kimi hamı Qarabağı – Əsgəranı, Xocalını, Xankəndini, Şuşanı və işğaldan azad olunmuş başqa gözəl məkanları görməyə tələsir. Yoxlanışdan sonra yolumuza davam edirik.

Əsgəran qəsəbəsinə yaxınlaşdıqca yolumuzun üstündəki tarixi abidə olan Əsgəran qalası bizi qarşılayır. Düşüb fərəhlə, qürurla, sevinclə ziyarət edirik. Qarabağa gələnlərin ziyarəti bu qədim qaladan başlayır. Qalanın üstünə xeyli adam çıxıb. Buradan çox gözəl bir mənzərə açılır.




Qəsəbənin küçələrində sakitlikdir. Mağaza və dövlət idaərələrinin qarşısına vurulmuş lövhələr diqqətimizi cəlb edir. Binaların ən yüksək nöqtəsində üçrəngli bayrağımız dalğalanır.

Əsgəran qəsəbəsindəki məktəb binasının qarşısında təmizlik işləri aparan gənc bir oğlanla tanış olduq. Söhbət zamanı öyrəndik ki, Baxşeyiş Rüstəmov əslən Laçın rayonundandır. Hərbi xidmətdən qayıdıb. Hazırda qəsəbədəki bərpa işləri aparan şirkətlərdən birində çalışır. B. Rüstəmov deyir: "Qarabağı görmək çoxdankı arzum idi. Xeyli müddətdir ki, Əsgəranda işləyirəm. Xocalını, Xankəndini, Şuşanı və başqa kənd və qəsəbələri də gedib gəzmişəm. Qarabağın bərpasında iştirak etməkdən qürur duyuram. Sevinirəm ki, az da olsa, bu işlərdə mənim də payım var."

Hələ uzaqdan yolun qırağındakı lövhədə böyük hərflərlə yazılmış "Xocalı" sözünü oxuyuruq. Şəhərin adını oxuyanda özümüzdən asılı olmadan kövrəlirik, əllərimiz titrəyir... Bu da illərdən bəri həsrətini çəkdiyimiz Xocalı torpağı!

Bir zamanlar həsrətini çəkdiyimiz şəhərin küçələri ilə addımlaya-addımlaya doğma ocaqlarına qayıtmış keçmiş köçkünlərlə söhbət edir, onların sevincinə şərik oluruq. İlk həmsöhbətimiz olan Zeynəb Sadıqova deyir ki, 1992-ci ilin fevral ayının əvvəllərində şəhərdə vəziyyət gərginləşdi. Ağdama gedən yol bağlanmışdı. Ümid ancaq vertolyota qalmışdı. Belə bir imkan fevral ayının 13-də yarandı. Həmin gün Xocalıdan vertolyot uçurdu. Çətinliklə də olsa, övladlarımla birlikdə mühasirədən çıxa bildik. Amma əzizlərimin, doğmalarımın çoxu Xocalıda qaldı. Rəhmətlik yoldaşım Mahir də şəhərin müdafiəsində iştirak edirdi. 32 ilə yaxın yaramız qaysaqlamadı. Ağrısını hər gün yaşadıq. Bir gün də olsa, Xocalını unutmadıq. Doğma ocaqların həsrətini çəkə-çəkə qocaldıq. Xocalını görmək üçün burnumun ucu göynəyirdi. Axır ki, həmin gün gəlib.

Həmsöhbətimiz Tahir Alıyev əslən Laçın rayonundadır. "Azərişıq"ın işçisidir. Hazırda Xocalının küçələrinin, evlərinin işıqlandırılması ilə məşğuldur. Hələ kiçik yaşlarından ermənilər başqa laçınlılar kimi onun da ürəyinə sağalmaz yaralar vurub. Həmin ağrı-acılarla dolu günləri xatırlayan Tahir Alıyev deyir ki, "1992-ci ilin may ayının 8-də Şuşanı ələ keçirən ermənilər bir müddətdən sonra Laçın rayonuna hücum çəkdilər. Onda səkkizinci sinifdə oxuyurdum. Ermənilər Laçını ələ keçirən kimi evləri yandırdılar. Həmin günlərdən yaddaşımda çox dəhşətli səhnələr qalıb. Həmişə ürəyimdən keçirdi ki, Xocalı şəhərini görüm. İndi arzuma çatmışam, artıq neçə vaxtdır ki, bu gözəl məkanda işləyirəm. Yavaş-yavaş Xocalını qaranlıqlardan, zülmətlərdən aydınlığa çıxarırıq.

Keçmiş köçkünlərdən eşitdiyimiz xoş sözlərdən sonra başımızı qaldırıb yaşıllığa bürünmüş dağlara baxdıq. Başı buludlara söykənən uca dağların əzəmətinə, qüruruna baxanda əmin olduq ki, onların qəddi bir daha heç vaxt əyilməyəcək, torpağın, daşın üzü həmişə güləcək. Çünki artıq bu yerlərin əsl sahibləri həmişəlik olaraq geri qayıdıb, şəhərlərinə sahib çıxıblar.

Ata-baba yurdlarına qayıtmış Xocalı sakinlərindən minnətdarlıq dolu xeyli xoş sözlər eşitdik. Artıq 1992-ci ilin fevral ayında üstünə qan çilənmiş torpağın bu gün üzü gülür. Bu gün həm Xocalı, həm də xocalılar ömürlərinin ən gözəl günlərini yaşayırlar. Əminik ki, bundan sonra heç vaxt Qarabağda, Xocalıda güllə səsləri eşidilməyəcək. Doğma ocaqlarına yenicə qayıtmış sakinlər dövlətin diqqət və qayğısı altında daim firavan yaşayacaqlar.




***Vahid MƏHƏRRƏMOV***



*Qəşəm NƏCƏFZADƏ*

**HALALIMA**

Sən mənim qəmimə halalsan elə,
Halalsan axşamlar ac qalmağıma,
Maaşdan-maaşa borc almağıma.
Ağrıyan sözümə halalsan elə,
Sən mənim sözümə halalsan elə.

Mən işdən gəlmişəm, susuzam, acam,
De görüm, qazanın kefi necədir?!
Əllərinin dostu sevimli qaşıq
Sevdiyi qazanda oynar hər gecə.

Bu nədi... əl açıb oynadı mətbəx,
Yenə soyuducunun ürəyi dolub.
Sənin məxbəxinin başına dönüm,
Mətbəxin bolluq havası calır.

**HARDASAN?**

De, hansı şəhərdə, hansı kənddəsən,
De, hansı ağacın yarpağındasan,
De, hansı yarpaqda sarısan, göysən?
Yoxsa şüşədəsən, pəncərədəsən,
Bəlkə yerdə deyil, təyyarədəsən?

Saat birdəsənmi, ikidəsənmi?
Bu gündə, sabahda, dünəndəsənmi?
Bakıda, Gəncədə, Şəkidəsənmi?
Metroda, küçədə, səkidəsənmi?

De, hansı yağışın damlasındasan,
De, hansı qəbirdə, hansı paltoda,
De, hansı barmağın ucundasan, de,
Yeddimdə, qırxımda, üçümdəsən, de?

Bəlkə yüz il əvvəl burda olmusan,
Bəlkə bu gün səhər çıxıb getmisən.
Bəlkə kim üçünsə sən tapılmısan,
Bəlkə kim üçünsə qəfil itmisən.

## ƏBƏDİYYƏT HAQQINDA SİRAC

***Az TV-nin şəhid operatoru Siracın xatirəsinə***

Adam inana bilmir ki, çiçəklərin gözü qabağında
Ölə bilərsən.
Adam inana bilmir ki, öldüyün yerdə
Gülə bilərsən.
O günü heyrətdən sular şəlalə oldu,
O günü bir qumbara kədərli lalə oldu.
Utandı torpaq,
Belə lalə bitirdiyinə,
Utandı yollar,
Atlandı yollar,
Yüz yerdən qatlandı yollar,
Səni ağırlığının aldatdığna,
Səni əbədiyyətə
Gətirdiyinə.
Əbədiyyət həm də ayrılıqdı,
Bir az da kədər,
Bunu bilirdinmi, Sirac?

## YENƏ QAR

Qar yağsın,
Göyün gözü çıxınca yağsın.
Quyuların dibində su,
Başına çıxınca yağsın.

Qarğalar eyləsin qar-qar,
Ağarsın qara damlar.
Ağ təpə olsun adamlar,
Quşlar təpələrə
Qonunca yağsın.

Yağsın, xatirələr ölüncə,
Şaxta dilincə yağsın.
Yağsın, istilər gülüncə,
Dağ başında qarların
Rəngi solunca yağsın.

Görən,
Bu qar kimin göz yaşıdı?
Gözlərim dolunca yağsın,
Gözlərim doyunca yağsın...

Bəlkə də indi bir şeyə təəssüf eləyirsən,
Kaş özün öz ölümünü çəkə bilsəydin...

Sirac, səni min yaşa,
Əbədiyyət oldun ölənəcən.

## SƏHRA

Ey qəm, səni daddıqca şəmi-səhra oluram,
Qoy mənə Qəşəm yox, qəmi-səhra desinlər.

Yollar, küçələr, metrolar yoxdur əslində,
Bakı səhradı indi,
Bir dəli Leyladı indi...
Bir qoşa misradı indi...
Xəzər dənizi də su tozudur, bax, dağılıb üstümə,
Gəzirəm qan-tər içində,
Gəzirəm bir könül səhra içində...

Hamını itirmişəm, hamı də itirib məni
Dayandığım yeri də itirmişəm lap çoxdan,
Varlıqdan qovulmuşam,
Asılmışam bir “yox”dan...

Günəşin batışı gözümü qamaşdırır,
Yorğun ağappaq külək

Ayağıma dolaşır,
Ayaqlarım vurulub, canımdan qopub düşən
Qum dənəsinə,
Gah düşürəm qum dərəsinə,
Gah qalxıram qum təpəsinə...

Heç bilmirəm bu səhraya hardan gəlib düşmüşəm,
İndi xatırlayıram:
Bir qəm vardı içimdə,
Bir ah çəkdim,
Səhra çıxdı içimdən...

Ey qəm, səni daddıqca şəmi-səhra oluram,
Qoy mənə Qəşəm yox, qəmi-səhra desinlər.

## ŞƏKLİM...

Öləndən sonra istəyirəm bir şəklim qalsın,
O şəkli heç kəs oxuya bilməsin,
Ortasını qat kəssin,
O şəkil sandıqda olsun,
Sandığın içində bir qara çantada olsun.
Çantanın içində albomda olsun,
Albomun içində bir qara kağıza bükülmüş olsun...
Bir qara kağızın içində
Bir barmaq izinin altında olsun...
Mənə bəs eləyər bu ağırlıq,
Sonra heç kəs məni xatırlamasın...
Nə gözəldi bir barmaq izinin
Ağırlığı altında yaşamaq.

## TƏRS KİMİ

Tərs kimi yağış da yağmadı,
Tərs kimi külək də əsmədi.
Tərs kimi ürək də darıxmadı,
Tər kimi zəng də gəlmədi…

Tərs kimi çayxanada bir adam da yoxuydu.
Tərs kimi cayxanada Dayandur da yoxuydu.
Tərs kimi sındırdığım stəkanı
Çayçı yadıma saldı.
Tərs kimi məni ağlamaq tutdu…

Dedim payızda sınan şeyləri
Heç adamın yadına salarlar?
Tərs kimi çayçı da ağladı.
Smovar da ağladı,
Çaynik də ağladı,
Tərs kimi cibimdəki çaypulu da ağladı…

## BARIŞIN GÖZ YAŞLARI…

Küçədəki uşaqlar xəbər gətirdilər ki,
Barış mamasından ötrü ağlayır.
Barış mənim nəvəmdi.
Barışın səkkiz yaşı var.
Barış anasından ayrı yaşayır.
Qızlardan biri barmağını
Barışın göz yaşına batırıb dodağına vurur.
– Duzludur.
O birisi də eynən, – çox duzludur.
Uşaqlar Barışın göz yaşını dadırlar.
Uşaqların biri:
– Göz yaşı deyil bu, yağışdır.
Barış daha da bərk ağlayır,
Yağış deyil, mamamdı.

## METRODA

Uşaqlar sinif otaqlarında
partalara doluşan kimi
adamlar qatarın oturacaqlarına
dolur.
Elə bil elektrik məftillərinin
üstündə quşlar oturur.
Tək-tək ayaq üstündə qalanları
müəllimə bənzətmək olar.
Müəllim ürəyində dərsi soruşur
Hərə ürəyində dərsini danışır.
Stansiyalar tənəffüsdü
Göründümü
Adamların bəziləri tələsik
çölə dolur.
Elə bil quşlar məftillərin
üstündən "pırr" eləyib uçur.
Ən uzun dərs "Bakı soveti"ndən

"Həzi Aslanov"a qədərdi.
Ən qısa dərs
"Bakı soveti"ndən "Sahil"ə kimi.
Qatarda hamı mehriban və tanışdı.
Bəlkə ona görə hamıya mənsub
eyni vaqonun içindəyik.
Eyni uğultuya qulaq asırıq
Eyni tutacaqdan tutmuşuq.
Qatar səbəbsiz dayanan kimi
Eyni şəkildə qorxuruq.
Qızlar ayaq üstə daha gözəldi
Yer versən gözəllik əziləcək.
Ayaq üstə güclə dayanan qadının
əlində tutduğu uşaq
alma zənbilinə oxşayır.

## QANIMI TÖKÜRƏM, TORPAQ, ÜSTÜNƏ

Bu bağlı qapımın paslı açarı
Bir adam əlində yoxdumu görən?
Altmış il axtardım "Qəşəm" adımı,
Bir insan dilində yoxdumu görən?

Ay məni qəbrimdə gəzən qarışqa,
Sənə qan qalmadı, məni bağışla.
Yazında, yayında, polyar qışında,
Ayında, ilində yoxdumu görən?

Qaş yenə əyilib gədiyim kimi,
Ömür başa çatdı dediyim kimi.
Mən onu sevdiyim, gördüyüm kimi,
Vətən də bir mənə baxdımı görən?

Yığılıb el-oba gəlmir tüstümə,
Bir adam səs vermir yanan səsimə.
Qanımı tökürəm, torpaq, üstünə,
Qarışsın neftinə... çoxdumu görən?

## SEVGİLİ YAĞIŞ

Sevgili bir yağış yağa üstümə,
Könlümə yamyaşıl çəmənlər düşə.

Min ildi qar altda qalıbmış deyə,
Buzu çiçək-çiçək sökülə qışın.

Gəlib danlayalar məni nənələr,
Utana-utana evdən dünyaya
Çəkib apardığım, çox istədiyim
Qəşəmi doyunca döydüyüm üçün,
Böyüyə-böyüyə ötərgilərin
Dalınca yıxılıb öldüyüm üçün.

Sevgili bir yağış yağa üstümə,
Qaçan ürəyimə, lap yüz yaşıma.
Qovlaya-qovlaya çatdıra məni
Hardasa atasız uşaqlarıma.

Yağışdan qız düşə, düşüb çağıra,
Gözümü silməyə bir dəsmal verə.
Dəsmalı götürüb elə qaçam ki,
Anam da qışqıra, oğlumu tutun.
Yorulub, dəsmalı açıb baxam ki,
Bəxtimə yazılmış sevgi məktubu.

Sevgili bir yağış yağa üstümə,
Könlümə yamyaşıl çəmənlər düşə.
Min ildi qar altda qalıbmış deyə,
Buzu çiçək-çiçək sökülə qışın.

## DÜNƏN AĞLAMIŞAM, XƏBƏRİN VARMI?

Dünən ağlamışam, xəbərin varmı?
Bu yaylıq küləklər demədimi bəs?
Göylərə boşaltdım baxışlarımı,
Göylər niyə dolub bilmədinmi bəs?

Qarışıb yuxuma bir qatar səsi,
Yuxumda bir qatar yolu qalıbdı.
Gəl ki baxım sənə, ömrüm nəğməsi,
Bir aydı gözlərim dolu qalıbdı.

Mən dəli oğlanam, bilirsənmi heç,
Həsrətim saçını daraya bilər.
Ölüm gəlsə səndən ayırmaz məni,
Təkcə soyuqluğun ayıra bilər.

Ağlayıb sonradan kirimişəm mən,
Ütü çəkməmişəm öz yerişimə.
Axı oğlanlarla yerimişəm mən,
Ayağım uyuşmur qız yerişinə.

Dünən ağlamışam, xəbərin varmı?
Bu yaylıq küləklər demədimi bəs?
Göylərə boşaltdım baxışlarımı,
Göylər niyə dolub, bilmədinmi bəs?

## GƏLİN APARDILAR

Gəlin apardılar qəlbi yox kimi,
Hıçqırıq ürəyin son nəğməsiydi.
«Volqa»da gəlinin əyilən başı
Bu işə bir sual işarəsiydi.

Biri qəlbdə gedir, biri «Volqa»da,
Biz də gülə-gülə alqışlayırıq.
Ürəyə köçəndən xəbərimiz yox,
Evlərə köçəni xoşbəxt sayırıq.

## MƏNİ ALDADAYDIN

Məni aldadaydın payıza kimi,
Solan yarpaqlara çataydım barı.
Məni aparaydın payıza kimi,
Məni ağlayaydı payız toyları.

Elə bahar kimi sevəydin məni,
Bir ağac olaydım baxışlarında.
Açıb hisslərimi qız saçı kimi,
Axıb durulaydım baxışlarında.

Bir məktub yazaydın mənim adıma,
Tufanlı dənizdə ada tapaydım.
Bir məktub yazaydın mənim adıma,
Yerimi məktubda salıb yataydım.

Yaşıl yarpaqlarda ölə bilmirəm,
Məni bu baharda düşürməyəydin.
Məni aparaydın payıza kimi,
Orda yarpaqlarla ölüb gedəydim.

Orda bir qatara minik başlanıb,
Məni aldadaydın payıza kimi.
Orda yollar toylu, göylər yağışlı,
Üzəydim, üzəydim dənizə kimi.

## NİZAMİ KÜÇƏSİNƏ

Həmişə Gəncəyə yolum düşəndə,
Sizin küçənizdən gərək keçim mən.
Gərək pedinstitutu ziyarət edəm,
İçdiyin sulardan gərək içəm mən.

Nizami küçəsi məni tanıyır,
Gedərəm, yarpaqlar qabıqdan çıxar.
Başımı aşağı salıb gedərəm,
Dönüb ev nömrəniz dalımca baxar.

Sizin küçənizdən başlayam gərək,
Əkdiyim güllərin cərgəsini də.
Burdan Bakıyacan, gərək, mən gərək,
Uzadam Nizami küçəsini də.

Salam göndərirəm burdan hər evə,
Hər evin işığı ulduzum olub.
Təbiət bir oğul veribdi mənə,
Eşitdim sənin də bir qızın olub.

## ELƏ UŞAQ KİMİ SEVİRƏM SƏNİ

Elə uşaq kimi sevirəm səni,
Əllərin, saçların oyuncağımdı.
Havatək, torpaqtək gəzirəm səni,
Bu sevgi yanmağım yaşamağımdı.

Ağ yollar nağara, döy ayağını,
Bir qarış sinəmdən qopan sədasan.
Həyat dənizində ürəyim qayıq,
Üz tutub getdiyim yaşıl adasan.

Götür radionu ürəyinə sıx,
Yenə nəğməsini deyir biz haqda,
Görən "xalxa nə var", atam balası,
Toyda oxuyublar sevgimiz haqda.

Əlini, saçını istəyirəm mən,
Sözünü, kəlməni əzbərləyirəm.
Vətənin köksündə bitən çiçəksən,
Mən elə sənə də vətən deyirəm.

## KİTABIM ÇIXACAQ

Kitabım çıxacaq iki, üç günə,
Kitabım çıxacaq, canım çıxacaq.
Siz mənim qanımı görməmisiniz,
Görün, yaxşı görün, qanım çıxacaq.

Baxın o kitabda sonuncu şeirə,
Sevdiyim gözəldi, adı Gülüşdü.
Mənim misralarım bostan tağları,
Nöqtələr qarpızdı, nida yemişdi.

O neçə evlərdə, neçə əllərdə
Oxunub-oxunub əziləcəkdi.
Məni unudan qız bəlkə illərlə
Onu çantasında gəzdirəcəkdi.

O kitab bir ovuc torpaqdı mənə,
Vətən torpağıdı, ürək torpağı.
Birini Təbrizə göndərin, nolar,
Təbrizin gözləri yoldadı axı.

Kitabım çıxacaq, gülüm, əl boyda,
O kitab kəsilən əlimdi, çıxır.
Çox yerdə sözümü kəsiblər mənim,
O kitab kəsilən dilimdi, çıxır.

## İNANDIR, MƏHƏBBƏT BELƏ OLURMUŞ

İnandır, ömrümüz burdan başlayır,
İnandır, məhəbbət elə beləymiş.
Dilinlə söyləsən, yox, inanmaram,
Qızılı saçından qoşa tel ayır,
İnandır, məhəbbət belə olurmuş.

Guya səhv düşübmüş o söz dilindən,
Düşəntək başlayıb qəlbin yanmağa.

Guya məni məndə tapmadığımdan,
Küsüb gedibsənmiş məni tapmağa.

İnandır, gecələr yuxun gəlməyib,
Gözünlə gecəyə ulduz taxmısan.
Üstümə yağışlar ətirli gəlib,
Suları öpmüşəm, demişəm, susan.
İnandır, yağışa dönüb gəlmisən.
İnandır, məhəbbət elə beləymiş.
Üç aylıq, beş aylıq küsmək olurmuş.
Küsüb gedibsənmiş ağlına tərəf.
Görübsən, yolunda bir oğlan durmuş,
Guya tanıyıbsan, məni o anda
Alıb qanadına geri dönmüsən.
Məni sevmisən.
İnandır, məhəbbət belə olurmuş,
elə beləymiş.

## NAZLI YAĞIŞ

Yamanca sellənir bu nazlı yağış,
Nəsə pıçıldayır bu sözlü yağış.
Bu işıqlı yağış, ulduzlu yağış
Əlimdə, saçımda boy atır mənim.

Ağaclar qız kimi ətirlənibdir.
Bulud damcı-damcı sətirlənibdir.
Dünyada nə seçib, nə bəyənibdir
Bu xəzəlli yağış, gözəlli yağış.

Bu torpaqlı yağış, bu tozlu yağış
Kimin ayağında yuxalır belə.
Dəliqanlı yağış, dənizli yağış
Göyləri torpağa axıdır yenə.

Başımın üstündə ürəyim çətir,
Quş kimi harasa uçur yağışlar.
Sənin gözlərində pərvaz eyləyir,
Mənim gözlərimə köçür yağışlar.

*Loğman RƏŞİDZADƏ*



# YUXUSU POZULANLAR*

♦ *Roman*

…Rayon qəzetinin redaktoru Sadıq Salamzadə səhər tezdən işə gələn kimi məktublar şöbəsinin müdirini yanına çağırıb bərk-bərk tapşırıq verdi:

– Son bir-iki həftədə redaksiyaya daxil olmuş zəhmətkeş məktublarını, ştatdankənar müxbirlərin məqalələrini gətir tök mənim stolumun üstünə. Görüm neynirəm, görüm bir şey tapıb çıxara bilərəmmi ortaya?.. Özü də bax, şöbələrə də tapşır, bəlkə gözünüzə maraqlı bir şey dəydi…

Çox keçmədən balacaboy, dazbaş, baməzə şöbə müdiri bir qalaq məktubu gətirib redaktorun stolu üstünə səpdi və:

– Müdir, bunun hamısına baxacaqsız? – şübhəylə soruşdu. Birtəhər olarsız ki… – dedi.

– Sən baxmısan?.. – Redaktor da şübhəylə onu süzdü.

– Baxmışam deyəndə, vallah, içində ağıl kəsən bir şey yoxdu e, hamısı it gəldi, örkən apardı. – Şöbə müdiri dodaq büzdü. – Bir-ikisinin ora-burasını düzəldib xəbər kimi vermişik. Qalanı?.. – yenə şübhəylə dodaq büzüb çiyinlərini çəkdi.

– Eybi yox, qoy mən də baxım bir… Sən də kəndlərnən, təsərrüfatlarnan telefon əlaqəsi saxla, bəlkə maraqlı bir fakt tapdın, yoxsa batdıq, işimiz şuluqdu, – deyib stolun üstündəki "BT" siqaretindən birini yandırıb işə girişdi.

Redaktor siqareti siqaretə calayır, sanki uğursuz fəaliyyətinin acığını siqaretdən çıxırdı. Nəticə isə hələ də hasil olmurdu ki, olmurdu. Heç nahar fasiləsinə də çıxmamışdı. Katibəyə tapşırmışdı ki, kim zəng vursa, denən yoxdu burda. Əsas Birinciydi, onun da birbaşa telefonu var idi. Katibə hərdənbir girib-çıxır, çay gətirir, hər dəfə də otağı bürümüş siqaret dumanı arxasında silueti güclə sezilən redaktora baxıb ona yazığı gəlirdi. Redaktoru heç vaxt bu kökdə, belə çarəsiz görməmişdi. Həmişə şən, zarafatcıl, üzügülər kişinin simasından zəhər damırdı. Odur ki, katibənin də pişik pəncəsilə sakitcə girib səssiz də sivişib çıxmaqdan başqa çarəsi qalmamışdı.

***** – Əvvəli jurnalımızın ötən sayında**

Gün axşama əyilirdi, elə məktublar da qurtarhaqurtardaydı. Birdən redaktoru elə bil tok vurdu, diksindi, tezcənə çeşidləyib bir tərəfə yığdığı məktub qalağına cumdu. Eşələyib-eşələyib bir az bundan öncə oxuyub laqeydliklə tulladığı məktublardan birini tapıb çıxardı. Təzədən açdı, dama-dama şagird vərəqində əyrim-üyrüm xətlə yazılmış məktubu əlinin böyrüylə bir-iki dəfə sığallayıb səliqəyə saldı, arxayınca oxumağa başladı. Məktubu oxuya-oxuya üzü təbəssümləndi, sonra da qəhqəhə ilə gülüb:

– Mən başıboş bu boyda faktı gözucuna almayıb, götürüb kənara tullayıram. Nə yaxşı, birdən-birə yadıma düşdü, ağlım kəsib bu məktuba təzədən baxdım, – razılıqla öz-özünə dedi.

Sonra kürəyini kresloya söykəyib rahatlandı, dərindən köks ötürdü, elə bil yüz ilin ağrı-acısı canından çıxdı. Bir “BT” yandırıb tüstünü bu dəfə ləzzətlə sinəsinə çəkdi və məktuba nəzər yetirib dodaqaltı mızıldandı.

– Fakt deyirsən, bu da fakt. Əsl katib deyən mövzudu. Üç-dörd nəfər qoca kişi gününü məsciddə keçirir, namaz qılır, ibadət eləyir, hətta hər namaz vaxtı azan verirlər. Hələ azmış kimi, gecə yarısı saat üçdə də azan verilib hamını dəli edib yuxudan durğuzurlar. Yuxusu pozulan zəhmətkeşlər, məktəblilər işə, məktəbə gecikirlər. Gənc nəslin kommunist tərbiyəsinin pozulmasına əsl nümunə…

Sadiq müəllim məktubu yenə də bir o yana, bir bu yana çevirdi və turş alça yemişmiş kimi, ağzını büzdü:

– Düzdü, çox bəsit və savadsız yazılıb, amma fakt faktlığında qalır da… Nəsə felyetonvari, satirik, yumoristik bir şey yazmaq istəyib, amma alınmayıb. Neyniyəsən, istedad olmayanda, qalır çabalamalar. Necə deyərlər, aşığın sözü qurtaranda, keçir dalay-dalaya. Eybi yoxdu, özüm qoyub qabağıma, təzədən bir şey çıxardaram. Yaxşı süjet fikirləşib yığcam bir felyeton eləmək olar. Belə baxanda, hadisə özü maraqlı süjetdir, qalır ona bədii don geyindirmək, o da bizim əlimizdə.

Redaktor katibəyə məktublar şöbəsinin müdirini çağırmağı əmr etdi. Şöbə müdiri içəri girəndə redaktoru özgə halətdə gördü, onun da çiçəyi çırtladı. Redaktor məktubu bayraq kimi qaldırıb onun gözləri önündə yellədi və kefikök halda soruşdu:

– Sən bu məktubu oxumuşdun?..

– Hansı məktubu, müdir?.. –Şöbə müdiri maraqla boğazını irəli uzadıb gah redaktora, gah da məktuba baxdı.

Redaktor eynəyini taxıb məktubu gözlərinə yaxınlaşdırdı və dedi:

– Göyəmli kəndindəndi, müəllifi də Musa Babaşov.

– Düzü, müdir, o, bir həyasız-abırsız adamdı, gündə bu redaksiyanın qapısını kəsdirib zibərimizi aparır. Özü də küt savadsız, istedadsızın biridi. Odur ki, vallah, son vaxtlar onun məktublarını heç oxumadan verirəm arxivə.

– Sənin o axmaq, primitiv dediyin adam bilirsən nə gözəl bir fakt yazıb göndərib?.. Əsl Birinci deyən həyat hadisələrindəndi. Bizi xilas eləsə, bu fakt xilas eləyəcək.

– Vallah, müdir, deyirsən də… Dünya dağıla, inanmaram. Onun öz ağlına gəlməz, görünür, kimsə onun fikrinə salıb.

Redaktor əlindəki məktubu şöbə müdirinə verib yorğun-arğın əsnədi:

– Oxumayıbsan axı, oxusaydın, bilərdin. Al, bax, – deyə məktubu ona uzatdı.

Şöbə müdiri işgüzarcasına məktuba tələsik göz gəzdirdi və təəccübünü gizlətmədən:

– Amma müdir, əntiqə faktdı a… Yüz faiz bunu ona kimsə başa salıb, onun öz ağlına gələn şey döyül, – dedi.

– Əşşi, bizə nə lazımdı, özü yazdı, ya kimsə yadına saldı. Zəng vur kənd sovetindən-zaddan dəqiqləşdir ki, belə bir hadisə olub-olmayıb?.. Birdən olmaz, sonra verərik qəzetdə, biabır olarıq özümüz də. Qaş qayırdığımız yerdə vurub göz çıxardarıq. – Redaktor şöbə müdirini tələsdirdi.

Redaktor sönmüş siqaretini təzələdi, otaqda bir az var-gəl edib felyetonun süjeti barədə götür-qoy etdi. Sonra katibəni çağırıb stolun üstündəki məktubları yığışdırmağı tapşırdı. Bu vaxt şöbə müdiri xısın-xısın gülə-gülə içəri girdi:

– Müdir, kənd sovetinin sədriynən danışdım. Olub, belə bir şey olub, özü də dünən… Bu, elə belə, saya bir şey yazıb. Sən demə, həngamə bir şey olub e, kənd dəyib bir-birinə, – şöbə müdiri həvəslə izah etdi.

– Hmmm… – redaktor cod bığlarını sığalladı. – Deməli, olub. Lap yaxşı, bu məktubları yığışdırın, – katibəylə şöbə müdirini tələsdirdi.

Onlar çıxandan sonra redaktor kabinet boyunca yenə xeyli var-gəl etdi. İstədi qollarını çirməyib işə girişsin, gördü ki, faydası yoxdur, çox yorulub, heç cümlə qura bilməyəcək. Fikirləşdi ki, yaxşı olar gedim evə, bir az uzanım, sonra girişim işə. Bu yannan da yoldaşlar onu qonaqlığa dəvət etmişdilər. Boyun qaçırmalıydı, ayrı yolu yox idi. Yerinə keçib telefonun dəstəyini qaldırdı, harasa zəng vurdu... Kiminləsə hal-əhval tutandan sonra, yorğun-yorğun dedi:

– Bu dəfə mənsiz keçinin. Bakıdan gələn yoldaşlara da mənim adımdan üzrxahlıq edin. Qalası olsalar, sabah görüşərik.

Xəttin o başındakı deyəsən təkid edirdi. Redaktor qəti şəkildə boyun qaçırdı.

– Yox, vallah, üz vurma. Birincinin tapşırığı var, sroçnudu, sabah tezdən məqalə çatdırmalıyam.

Sadıq müəllim dəstəyi aparatın üstə qoydu, yır-yığış edib çıxdı. Qəbul otağından keçərkən katibəyə bərk-bərk tapşırdı:

– Sabah gecikmə, material olacaq, makinada yazmalıyıq.

* * *

…Redaktor felyetonu makinada yazdırıb əl-ayağını yığışdırana qədər saat on iki oldu. Düşündü ki, indi getsəm, nahar fasiləsinə düşəcəm, yaxşı olar saat ikidən sonra arxayın gedərəm. Amma yenə bərayi-ehtiyat, katibin köməkçisinə zəng vurub Birincinin yerində olub-olmaması, işinin azlığı-çoxluğu barədə soruşdu. Köməkçi mehribanlıqla cavab verdi:

– Qəbula gəlmək istəyirdiz, Sadıq müəllim?..

– Deyirəm, bəlkə nahar fasiləsindən sonra gəlim? Bəlkə indi işi çoxdu, yaxud yorğundu, fasiləyə az qalır axı...

Köməkçi işgüzarlıqla:

– Bir dəqiqə trubkada gözləyin, – dedi.

Az keçmədən köməkçinin səsi eşidildi.

– Sadiq müəllim, gəlin, sizi gözləyir...

Katib redaktoru hörmətlə qarşıladı.

– Sözlü adama oxşuyursan? – deyib sual dolu gözlərini ona dikdi.

– Yoldaş katib, – redaktor işgüzar görkəm aldı. – Dini fanatizmə qarşı maraqlı bir fakt keçdi əlimə, bir felyeton düzəltdim... – Bir az pauza verdi, katibin marağını hiss edib daha da cəsarətləndi. – Aktuallığını nəzərə alıb dedim qəzetdə dərc edilməmişdən qabaq, bir siz də baxasınız...

Katib felyetonu ildırım sürətilə oxudu. Gözünü vərəqlərdən ayırmadan:

– Maraqlı faktdır, dedim axı, axtarsanız, belə hadisələr tapa bilərsiniz. Belə bir hadisə dəqiqliyilə olub də?.. – sual verdi.

– Bəli, kənd sovetinin sədri ilə dəqiqləşdirdim.

– Balam, Göyəmli müasir kənddir, nə əcəb orda belə-belə işlər baş verir? – Sanki öz-özünə sual verdi. Sonra da gülə-gülə əlavə etdi: – Eləcə müasir, inkişaf eləmiş kənd olduğuyçün belə üstün texniki vasitələrdən istifadə eləyirlər də. Amma doğrudan da əsl felyetonluq hadisədir. Elə bizə də belə şeylər lazımdır.

Katib felyetona bir də nəzər yetirib əlavə etdi:

– İcazə versəydin, mən də yüngül bir əl gəzdirərdim.

– O nə sözdü, yoldaş katib?.. – Redaktor sidq-ürəkdən razılıq verdi.

– Çox ləngitməyəcəm, beş-on dəqiqə qəbul otağında gözlə, – dedi. Sonra əlavə etdi. – Qəzet sabah çıxır?..

– Bəli, yoldaş katib, – redaktor tələsik cavab verdi.

– Sabahkı nömrəyə qoyun, təcili. Karikatura da verərsiz!..

– Oldu, yoldaş katib!..

...Redaktor materiala eləcə ikinci mərtəbədən enərkən pilləkəndəcə göz gəzdirdi. Oxudu. Adını “Gecə azanı” qoymuşdu. Maraqlı imza da tapmışdı: Ateist. Bərk təsirlənmişdi. Pilləkənin sürahisinə söykənib dərindən köks ötürdü və pıçıldadı:

– Bax, buna deyərəm redaktor. Zalım oğlu, jurnalistikadan da bizə əməlli-başlı dərs deyir e... – öz-özünə etiraf etdi.

* * *

Rəhim müəllim məktəbə çatanda xadimə otağı təzəcə silib-süpürüb çıxırdı. Bugünkü qəzetləri soruşdu. Xadimə dedi ki, hələ gətirməyiblər. Həmişə bu vaxtlarda gətirərdilər. Nəsə bu gün gecikdiriblər. Rəhim müəllimin uzun illik vərdişiydi. Qəzetləri səhər tezdən vərəqləməmiş işə başlamazdı. Tətil olduğuyçün məktəbdə sakitlikdi. Ustalar divarları ağardır, döşəmənin sınıq taxtalarını dəyişir, dam örtüyünə təzə şifer döşəyirdilər. Rəhim müəllim otaqdan çıxıb ustaların işinə bir-bir göz qoymağa başladı.

Belə şeydə çox intizamlı və səliqəliydi. Ümumiyyətlə, geyimindən tutmuş otur-duruşuna, danışığına, davranışına, insanlarla ünsiyyətinə qədər hər şeydə səliqəli, nümunəvi, xoşməramlı və qılıqlı idi. Son dərəcə ciddi və zabitəli olsa da, yeri gələndə mənalı, şirin və məzmunlu zarafatlarından da qalmazdı. Həmişə şən olardı, gümrah görünərdi. Savadlıydı, istedadlıydı, işinin, peşəsinin ustasıydı, rayonda barmaqla sayılan ziyalıydı. Hamıya hörmət qoyar, özünə də həmişə hörmət tələb eləyərdi. Əl-ayağı təmiz, gözü-könlü tox idi. Başqa məktəb direktorları min oyundan çıxıb, min fırıldaqla pul qazananda, əksinə, məktəbin bəzi ehtiyacları üçün lazım gələndə öz maaşından belə, müəyyən məbləğ ayırmağı qızırğanmazdı. Ovqatı həmişə yüksək olardı. Özü həmişə deyərdi ki, min şükür, evi-eşiyi, balaları, bir tikə halal çörəyi, heç kimin qarşısında onu gözükölgəli qoymayan peşəsi… Tələbə yoldaşı rayona birinci katib gələn gündən dəfələrlə təkid edib onu raykoma işə aparmaq istəmişdi, boyun qaçırmışdı. Qulluqda qolubağlı dayanıb "bəli", "baş üstə", – deməyi bacarmırdı. Müəllimlikdən azad peşə?.. Bir adama borcun yox, bir adamın qarşısında öhdəçiliyin. Necə deyərlər, az aşım, ağrımaz başım. Beşdə alacağın yox, üçdə də verəcəyin… Əl-ayağın təmiz, hörmətin hörmət, izzətin izzət. Əsas da odur ki, rüşvətdən-filandan uzaqsan. Rüşvət alan da, verən də bir-birinə nifrət edir. Artıq pul, var-dövlət onsuz da sənin deyil. Elə yaşa ki, gecələr yatağına girəndə səni rahat yuxu aparsın, səhər də camaatın üzünə çıxanda hamının gözünün içinə dik bax! Bundan böyük xoşbəxtlik? Bu, onun kredosu idi. Dəfələrlə ərizə yazıb direktorluqdan da çıxmaq istəmişdi. Amma birtəhər dilə tutub qoymamışdılar.

Rəhim müəllim gecəni pis yatmışdı. Səhərdən də ovqatı təlx idi. Nəsə, qanı qaraydı. Elə bil pis bir hadisənin baş verəcəyini sövq-təbii hiss edirdi. Özü də məəttəl qalmışdı ki, bu ruhi gərginlik, bu narahat duyğular nədən qaynaqlanırdı, onu hardan yaxalamışdı? Öz-özündə ha fikirləşirdi, ciddi səbəb tapa bilmirdi. Eləcə, bu əhval-ruhiyyəylə də ustaların işinə göz gəzdirdi. Görülən işlərə necə baxdı, necə baxmadı, özü də bilmədi. Daxili bir nigarançılıq, dolaşıq bir huş onu haralara aparmırdı?..

Təmir işlərinə bəzi müəllimləri də cəlb eləmişdilər. Avqust müşavirəsinəcən təhvil verilməliydi. Odur ki, hər kəs əlindən gələni edirdi. Müəllimlər otağından mığır-mığır gəlirdi. Ustalardan ayrılıb müəllimlər otağına keçdi, hamıyla salamlaşdı, çonra kabinetinə sarı meyilləndi. Amma müəllimlərin xısın-xısın pıçıltıları, müəmmalı davranışları da nəzərindən yayınmadı. Təzə qəzet qalağı stolun üstündəydi. Adəti üzrə birinci "Kommunist" qəzetini açdı, baş məqaləyə baxdı, maariflə, təhsillə bağlı materialları gözdən keçirdi, sonra büküb kənara qoydu, fikirləşdi ki, bəzi məqalələr var, onları sonra oxuyaram. Sonra rayon qəzetini açdı. Qəzetləri adətən axır səhifədən əvvələ oxuyurdu. Odur ki, bu dəfə də dördüncü səhifədən başladı. Dördüncü səhifənin təxminən yarısını tutmuş felyeton və karikatura diqqətini ilk andaca çəkdi. Ötəri göz gəzdirən kimi boynunun ardından soyuq bir tər şırnağı kürəyinin ortasıyla düz qurşağınadək süzüldü. O boyda kişi büzüşüb yumağa döndü, yayın bu cırhacırında çovğuna düşmüş quzu kimi titrədi, bədəninə üşütmə gəldi. Əllərilə başını tutub xeyli dayandı. Qızdırmalı adamlar kimi öz-özünə pıçıldamağa başladı, sanki sayıqlayırdı:

– Həəə... bircə bu çatmırdı. Hər yarağımız düzəlmişdi, qalmışdı saqqal darağımız.

Gözünü yumub xeyli ufuldadı. Dünəndən yaşadığı daxili narahatlıqlar yavaş-yavaş çin olurdu. Yenə öz-özünə pıçıldadı:

– Çeynəyənim azdı, bəyəm?.. Hərəsi bir tərəfdən kölgəmi qılınclayır, kənd kənd yerində, rayon rayon yerində... Gözü götürməyənlər, xəlvəti düşmənlər, saxta dostlar, azdı bəyəm? Deyirəm axı, səhərdən müəllimlər otağındakı bu tülkülər, xısın-xısın nəyə sevinirmişlər. Nadürüstlərin hamısı marığa yatıb də...

Qəzeti yenidən açdı, bir də nəzərdən keçirdi:

– Görəsən kim yazıb bunu, kim ictimailəşdirib bu faktı? Bu hadisə, eləcə srağagün baş verib. Bunu kim əlüstü çıxarıb qəzetə?..

Suallar çox idi, amma bu suallara cavab verməyə iki daşın arasında Rəhim müəllimin heyi qalmamışdı.

İmzaya göz gəzdirdi. Şərti bir imza qoyulmuşdu: "Ateist".

– Hə də... belə-belə imzalar altında özlərini gizlədirlər də... – Yenə bərk xəyala getdi. Fikir onu uzaqlara apardı.

– Rəhmətliyin oğluna söz başa salmaq olur ki?.. – Atasının qarasınca deyinməyə başladı. – Lap əzəl gündən dedim ki, əşşi, rədd elə o yana bu azanı-mazanı. Bunun axırı bir çıxacağı olacaq. Məscidin yolunu ağartdığın, gecə-gündüz orda yatıb qaldığın bəs deyil, hələ bir üstəlik dəfə-darağnan azan da verirsən... Kimə deyirsən, tutduğunu dədəsinə də verən döyül... İndi mən neyniyim?.. Çaqqal-çuqqal hərəsi bir tərəfdən töküləcək üstümüzə. İstəyən var bəyəm?.. Barmağımızın beşini də bal eləyib kimin boğazına soxuruqsa, zəhrimardır, deyib, durur. Kimə əl tuturuq, yaxşılıq eləyirik, eləcə onlardan pislik görürük.

Durub pəncərəni açdı, otağa təmiz hava doldu. Bayırda xoş bir yay havası vardı. Günəş yeri-göyü yavaş-yavaş qızdırırdı. Amma Rəhim müəllimin titrətməsi keçmirdi. Təzədən qayıdıb yerində oturdu, qəzeti açıb yenə də baxmağa başladı. Düşünürdü ki, bir də baxım, bəlkə səhv görmüşəm. Bu vaxt qapı açıldı, Yusub əmi canhövlü özünü içəri saldı:

– Nədi, noolub, İrəhim müəllim, nöş belə pəjmürdəsən?.. – Həyəcanla soruşdu.

– Nə bilim, belə də... – Rəhim müəllim könülsüz cavab verdi.

– Sən əminin canı, noolub?.. – Yusub əmi stul çəkib əyləşdi. Sonra da qəzeti göstərib: – Nə yazıblar orda belə?.. – soruşdu. – Kənsələrdə (kanselyariya, dəftərxana – müəllimlər otağına belə deyirdilər) o eşşəkdən əmələ gəlmişdər qarğa-quzğun kimi almışdılar qəzetin üstünü, oxuyub dişi pişik kimi dişdərin ağardırdılar. Dedim ədə, dəli güzgüyə baxıb qəşş eləyən kimi orda nə yazıblar, belə hırıldayırsız?.. Həyasız-həyasız dedilər ki, sizdən yazıblar... Sən əminin canı, orda nə yazıblar?..

Rəhim müəllim pəncərədən həyətə, ordan da uzaqdan alçalıb-dikələn çılpaq dağlara baxa-baxa fikir-xəyal içində mızıldandı:

– Heç nə... Əmin oğlunun qəhrəmanlıqlarından yazıblar...

Yusub əmini bir az da maraq götürdü:

– Sən Allah, kimi deyirsən?.. – Yusub əmi səsini alçaldıb boynunu bir az irəli verdi.

– Kimi deyəcəm, Maşd Həsən oğlu Əlini, – Rəhim müəllim rişxəndlə güldü.

– Məni ələ salırsan?.. – Yusub əmi incik görkəm aldı.

– Nöş ələ salıram, inanmırsan, götür oxu. – Rəhim müəllim qəzeti ona tərəf itələdi. Yusub əmi də öz növbəsində qəzeti əvvəlki yerinə sürüşdürüb dedi:

– Əşşi, bu balaca-balaca hərfləri mənim gözüm hardan seçsin, özün oxu, mən də qulaq asım.

Bu vaxt xadimə içəri girdi, əlindəki çay stəkanını qoyub çıxmaq istədi. Xadimə də özünü nəsə suçlu aparırdı. Yəqin ki, ağzıgöyçəklər məsələni bütün məktəbə yaymışdılar. Rəhim müəllim həlim səslə xadiməyə:

– Birini də, Yusub əmiyə gətir, zəhmət olmasa, – başını qaldırmadan dedi.

Yusub əmi qəti etiraz etdi:

– Bala, əlin-qolun var olsun, bu saat içmişəm, lazım döyül, çox sağ ol.

Xadimə çıxan kimi Yusub əmi qırğı kimi Rəhim müəllimin üstünə şığıdı:

– Rəhmətliyin oğlu, çay vaxtıdı, bağrım çatdadı, oxu görək bu köpəyuşağı nə yazıblar… – Qeyzlə dedi.

Rəhim müəllim felyetonu başdan-ayağa oxudu, sonra da karikaturanı göstərdi.

– Hə, indi bildin vəziyyət nə yerdədi?.. – Vurnuxdu-vurnuxdu, axırı bir oyun çıxartdı də… Rəhim müəllim asta səslə, soyuq-soyuq dedi. Sanki, hirsi-hikkəsi də yavaş-yavaş soyuyur, fikri aydınlaşmağa başlayırdı. İndi əsas odur ki, fikirləşib nəsə bir tədbir tökmək lazımdır.

– Ədə, Allah bu kişiyə insaf versin. Nüzl oğlu nüzlə hələ sənnən xəlvət mən nə qədər dəlil-dəlayil eləyirdim ki, əşşi, daşı tök ətəyindən, bu isdərdən əl çək. Ənhar evin-eşiyin, yıxıl orda nə qədər namaz qılırsan qıl, ibadət eləyirsən elə… Sənin məçiddə nə işin var?.. Məçidə getmək cəhənnəm, bu tərəfdən də bir zınqırov çıxdı, azan verməyə başladı, nə bilim, özünnən təzə pişik başı bəzədi. Əminin canıyçün, İrəhim müəllim, sənin əziz canuyçün, elə bil Qurana əl basıram, günnərnən, həftələrnən zeh yerə qoydum, bunu inadından döndərə bilmədim. Vallahi-billahi, get-gedə lap uşaqlaşır e…

Yusub əmi bir papiros yandırıb yüngülcə nəfəsini dərdi. Sonra yenə eyni ahənglə davam elədi:

– Zinhara gəldim deməkdən əşşi, biz cəhənnəm, sənin dağ boyda oğlun var, rayonnan bir adı, hörməti, bir elin, bir obanın ağzı, getdiyi yerdə qan bağlanır, heç olmasa onu mülahizə elə, öhd eləmədi ki, eləmədi. Urus kimi “net” – deyib, durdu. Nə desə yaxşıdı, namazı mən elə onunçün qılıram. Öz payımı qılıb qurtarmışam. İndi ailəmçün, uşaqlarımçün qılıram. Deyirəm, a kişi, sənin oğlun kommunistdi, güzgü kimi təmiz adamdı, un atsan üstünə yapışmaz, sən onu qorumalısan. Nə faydası, kor tutduğun buraxmayan kimi bu da elədiyindən əl çəkmir ki, çəkmir. Deyir getsin kommunistliyini eləsin, mən ona mane oluram? Başa sala bilmirəm ki, mane olmaq bə nə təhər olur? Bax, indi budu, saldı bizi bəlaya, indi gəl keçini çaydan keçir…

Yusub əmi bir az susub xəyallandı. Sonra eyni ahənglə sözünə davam etdi:

– Görürsən, a kişinin oğlu, belə bittə-bittə, yerri-yataqlı yazıblar e… Kənar işi döyül. Qırağın biznən nə işi? Öz qırılmışdarımızdı. Özümüzkülərdi.

Düşmən ocaq başındadı də… – Bir az pauza verib, qəzetə nəzər yetirdi. – Hələ bir bu çəkdikləri şəklə bax? Biədəb uşağı camaatı nə təhər biədəb məsxərəyə qoyurlar e…

– Karikaturadı də, belə olmalıdı… – Rəhim müəllim başa salmağa çalışdı.

– Nə, nə təhər dedin? – Yusub əmi karikatura şözünü başa düşmədiyindən bir də soruşdu.

– Əşşi, karikatura də… Belə, necə deyim, satirik şəkil. – Rəhim müəllim izahatı yerli-yataqlı verdiyindən, sanki sevinən kimi oldu.

– Nə olursa olsun… – Yusub əmi, görünür, karikatura sözü dilinə yatmadığından yenə də mücərrəd danışdı. – Bu qəzetdi e, kommunistlərin qəzetidi, gərək burda abırsız, eybəcər, biədəb şeylər verməsinlər. Belə bax, belə bax, sən Allah. – Əliylə karikaturanı göstərdi. – Məçidi ələ salırlar e… Məçid sizə qənim olsun. Kommunist olanda noolar?.. Kommunistin Allahı olmur?.. Biz də kommunistik də… Amma noolsun, Allahımızı da tanıyırıq, Peyğəmbərimizi də… Ona qalanda yoldaş Brejnev özü də kilsəyə gedir də… Vallahi, frontda o qədər görmüşəm ki, döyüşə girəndə biz dua oxuyurduq, urusdar da xaç vururdular. Vallah, bizimkilər həmişə küyə gedəndi e… Bu təzə qərarı heç urusdar özdəri boş buraxırlar gedir, bizimkilərdi e, eləcə yaxacırdısına çıxanlar. Başa düşürəm, təbliğatdı-nədi, onu apar, ta Allahnan nə işin var? Allahın işinə əl aparanda, bilmirsən o da sənə qəzəb eləyər?..

Yusub əmi danışdıqca coşur, çilləşib özündən çıxırdı. Rəhim müəllim öz-özünə dodaqaltı pıçıldayırdı:

– Balam, görəsən bunu qəzetə kim çıxarmış ola?..

– Bə altında yazılmayıb?.. – Yusub əmi ciddi şəkildə soruşdu.

– Yooox, eləcə mücərrəd bir imza qoyulub: – “Ateist”… – Rəhim müəllim yenə də xəyal içində dilləndi.

– O nə deməkdir? – Yusub əmini maraq götürdü.

– Yəni dinsiz. – Rəhim müəllim fərqinə varmadan söylədi və yenə də öz-özünə pıçıltıyla dedi:

– Balam, doğrudan da görəsən bu kimin işidir?

Yusub əmi hər şeydən xəbərdar kimi:

– Ədə, kimin işi olacaq?.. O mürtəd oğlu mürtəddən başqa bunu kim eləyəcək ki?.. Elə dinsiz, imansız da odu. Bu kənddə bərkdən asqır, vəssalam, rayon rəhbərlərinin ovcundadı. Həyasız oğlu həyasızı Allah elə bil bu kənd üçün bir bəladı, göndərib e… Bu kəndin də vallahi, bir qram qeyrəti yoxdu. Qeyrəti ola, sözü bir yerə qoyub kəndə buraxmaya, itirə buralardan əlli-ayaqlı, – deyə Yusub əmi özünü boğub tamam başqa görkəm aldı, sanki rola girirdi. – Oğrəş oğlu oğrəş, özünü də xoruz kimi elə çəkir ki, guya bu ədəli-dədəli müxbirdir. Köpəyoğlu adın yazammır e, gəlib mənimçün müxbir olub. İşi-gücü cuğulluq, danos vermək, onu-bunu şərrəməkdi. Axxx,.. – beləsi frontda düşə adamın əlinə, verəsən cəmdəyini “Maksim” pulemyotunu ağzına, “uf”da deməyəsən.

– Əşşi, kimi deyirsən e? – Rəhim müəllim hövsələsiz soruşdu. – Sənin də keçmə də bu xasiyyətindən, qızışanda baş alıb gedirsən. – Rəhim müəllim incik halda üzünü yana çevirdi.

– Kimi deyəcəm, özün bilmirsən?.. Bu kəndin bir çuğulu, bir mərdiməzarı, bir sukası var də… Musa Babaşov, – dedi. – Qəzetə ondan başqa yazan var? Bu kənddə sir-söz qoymayıb. Çöpü çöp üstə qoya bilmirik. Hamısı irayon rəhbərlərinin ovcundadı. Vallah, biədəblik edirəm, sən də məni bağışla, İrəhim müəllim, məndən uşaq olsan da, hayana dönə rəhbərsən, ağsaqqalsan, yolun böyükdü, əşşi, gecə arvadın yanına da qorxa-qorxa giririk ki, birdən bu şəklimizi çəkib qəzetə verər.

Rəhim müəllim sanki yuxudan ayıldı. Fikirli-fikirli dedi:

– Həəə… Düz deyirsən, o məlundur!.. Allahın bəlasıdı də, keçib boğazımıza.

– Onnan da pisdəri burdadı. – Yusub əmi bir az da qəzəbləndi. – Ocağuvun başında oturanlar, çörəyüvü yeyənlər, üzüvə gülüb ayağuvun altını qazanlar. Onnarın da barmağı var bu işdə. İlana zəhər verən kərtənkələlərdi. Hamısı Kufə əhlidi. Şər-şəbədəçi, yalançı, xəyanətkar, satqın, etibarsız, gözüynən görən binamusdardı. – Yusub əmi danışdıqca qızışırdı. – Tfu, – deyib döşəməyə bir lomba tüpürdü. – Tüğeyi-lənət köpəyuşağı. Hamısı Yeziddən dönmədi, mülhid uşağı mülhid…

Yusub əmi bir az toxtadı, susub o da xəyala getdi. Sonra canıyananlıqla, bir az da şübhəylə soruşdu:

– Bə indi neyniyək, İrəhim müəllim?..

– Heç nə… Gözləyək, görək də… Əslində burda elə böyük faciə də yoxdu… – Rəhim müəllim duruxa-duruxa dedi. – Konstitusiyaynan bizdə din dövlətdən ayrıdır. Din hər kəsin şəxsi işidir. Dini etiqad azadlığı qanunla təsbit edilir. Bu da imkan verir ki, hər kəs mənsub olduğu dinə sərbəst şəkildə qulluq eləsin, ibadətilə azad məşğul olsun…

Yusub əmi ona sözünü bitirməyə imkan vermədi, yarıda kəsdi:

– İrəhmətdiyin nəvəsi, nə qoyub nə axtarırsan? Tülkü tülkülüyünü sübut eləyincə, dərisi boğazından çıxır. Buna Sovet hökuməti deyəllər e… Dovşanı arabaynan tutur. Vallahi, sən də son vaxtlar sayıqlığını lap itirirsən e… Bir tədbir fikirləşmək lazımdır. Görmürsən, it uşağı qulaqlarına səs dəyib deyə, canavar sürüsü kimi ağız-ağıza yatıblar, – deyə hiddətləndi.

Rəhim müəllim yenə xəyallanmışdı. Öz-özünə pıçıldayırdı:

– Məsələnin qəlizliyi ondadır ki, gəlib bu kampaniya dövrünə düşdü. İşin tərsdiyindən dünən ateizm tərbiyəsilə bağlı o boyda zırıltı müşavirə keçirilsin, bu gün də qəzetdə belə bir yazı dərc olunsun. Təsadüfə oxşamır, heç oxşamır.

Yusub əmi yenə qızışdı:

– Bə mən nə deyirəm?.. Təşkildi də… Bizə duzaq hörüblər… Sən bunnarı mənim kimi tanıya bilməzsən. Səni görəndə tülkü kimi quyruq bulayıb min dona girirlər, mənə isə əsl sifətdərini göstərirlər. Mən bilirəm bunnar nə yuvanın quşudu. Hamısı da bunnarın işidi. O Musa Babaşov lənətullahı da yol üstə qoyan bunnardı. Axxx, Allah kələyimi kəsib də, hanı o müharibə dövründəki Yusub? Düşəydi o vaxtıma, o partkom işdəyən dövrümə, hamısını vesilka elətdirərdim. Neynim, indi əlimdə nə var ki?.. Zəmanə də ki, ayrı zamanədi. Sovet hökumətinin boşalan vaxtıdı. – Yusub əmi dərindən köks ötürüb xəyallandı, ülgüc kimi iti dövrlərinə səyahət etdi.

Rəhim müəllim bir az ümid və nikbinliklə onu sakitləşdirməyə çalışdı:

– Eybi yoxdu, əşşi, belə ütülərdən çox çıxmışıq. Bu dəfə də qələbə bizimdir. Heç narahat olma, ürəyivi buz kimi saxla, – dedi.

Yusub əmi sanki Rəhim müəllimin qırımını yoxlayırmış kimi, ehtiyatla astadan dedi:

– Get onun yanına, Mamedovun, işi soyutma, isti-isti, elə bu dəyqə. Hayana dönə, tələbə yoldaşısız, özü də xətrüvi istəyir. İndi getməyib bə nə vaxt gedəcəksən?.. – Yusub əminin yadına nəsə düşübmüş kimi, gileyli səslə əlavə etdi. – Allah sənə də insaf versin. O vaxt səni raykoma işə aparanda gərək gedəydin. Yazıq ilan dili çıxartdı. Özü də nə az, nə çox – təbliğat şöbəsinin müdiri. Sənin də körpükeçməz yolların var e… Heç olmasa indi get, ağız aç də… Bundan pis günümüz olacaq?.. Vallah, görürəm bu işə barmaqarası baxırsan. Belə baxma. Bu elə belə iş döyül e, səyasi məsələdi. Qoy bilsin nə var, nə yox? Deynən qoca kişidi, bir işdi olub. Ləngisən, sənnən qabağa düşüb qulaq-burnun dolduracaqlar, bürüb-büküb hər şeyi yıxacaqlar sənin üstünə. Bax, mən ölü, sən diri, bu yaramazlar bu boyda toru hörüblərsə, onu da sənin üstünə qaldıracaqlar.

Rəhim müəllim fikirli-fikirli, amma inamlı tərzdə cavab verdi:

– Yox, Yusub əmi, mən onun yanına getməyəcəm, lazım olsa, özü çağırtdırar məni. Qaldı qulaq-burnunu doldurmağa… Narahat olma, o, elə də səbatsız adam deyil, məni də yaxşı tanıyır. Prinsipial, obyektiv insan, sədaqətli kommunist olduğumu da yaxşı bilir. Odur ki, mini gedib deyə, mənə qarşı onun münasibətini dəyişə bilməz. Yüz faiz deyim ki, o bilməyib burda mənim atamın adı keçir. Bilsəydi, dünya dağılsaydı da bu yazının getməyinə imkan verməzdi. Mən ona inanıram. O, etibarlı dostdur. Qaldı ki, raykoma işə getməməyimə, o tamam başqa məsələdir… Gəl o barədə, heç danışmayaq. Mən azadlığımı heç nəyə dəyişmərəm. Odur ki, mənnən vəzifə adamı çıxmaz… Biz o vaxtı da bir-birimizi yaxşı başa düşdük və inciksiz, mehriban ayrıldıq.

– Nə deyirəm vallah, sən bilən daha yaxşı olar. – Yusub əmi çar-naçar razılaşdı.

– Özünü tox tut, hamının qarşısında başı uca gəz, narahat olma. Replikalar atsalar da, məhəl qoyma. – Rəhim müəllim bərk-bərk tapşırdı.

Yusub əmi yenə də qızışdı:

– Sən öləsən, bir köpəyoğlu yanımdan yel olub ötəmməz. Hünərləri nədir?.. Heç meyidimə yaxın düşə bilməzlər. Deyəsən, hələ məni yaxşı tanımırsan e… Sənə sən öləsən deyənin özü ölsün, mən ülgüc kimi adamam, mənə yaxın düşə bilərlər, şürala cızaram hamısını… Sərçə topasına bir sapand daşı kifayətdir, – dedi.

Məktəbdə adam az olsa da, qaynaşma vardı. Ustalar da əllərindəki işi buraxıb müəllimlərə qoşulmuşdular. Hərə bir küncə çəkilib pıçıldaşır, bugünkü felyetondan danışırdılar.

…Vaxt ötdükcə yara sanki soyuyur, dərd boyatlaşırdı. Rəhim müəllim kabinetində oturub çay içir, Yusub əmiylə danışıb-gülürdü. Nədənsə, o qədər arxayınlaşmışdı ki, elə bil heç bir hadisə baş verməmişdi. Gün günortadan əyilmişdi. Bu zaman Rəhim müəllimin kiçik qardaşı Həsən hövlnak içəri girdi.

Sifətində çaşqın bir təlaş vardı, çırtma vursaydın, qan çıxardı. Salamsız-kəlamsız boğuq səslə:

– Lələgili tutub milisiyəyə apardılar, – deyib dayandı, gözlərini pəncərədən uzaqlara dikdi. Günahkar kimi baxışlarını böyük qardaşından hər vəchlə yayındırırdı.

Rəhim müəllim cəld qalxdı, gah qapıya sarı yeridi, gah pəncərəyə sarı, gah kitab şkafına yaxınlaşdı, gah stolun üstündəki qarmaqarışıq kağız-kuğazı qaydaya saldı... Əlhəmdini çaşmışdı. Bilmirdi nə etsin. Yusub əmiynən Həsən diqqətlə onun hərəkətlərini izləyir, nə dinə, nə də danışa bilirdilər. Rəhim müəllim, beləcə, key-key bir xeyli vurnuxdu, sonra bir az toxtayıb təzədən yerində oturdu. Həsənə baxmadan qeyri-müəyyən tərzdə sanki öz-özünə, qarasına soruşdu:

– Nə vaxt aparıblar?

– Bir-iki saat olar, – Həsən həsrətlə gözlədiyi suala fövrən cavab verdi.

– Tək Əli əmini?.. – Yusub əmi nitqi qurumuş kimi, zəif səslə soruşdu:

– Yooox, – Həsən söhbətə aydınlıq gətirdi. – Ordan Hüseyn kişini, Şıx Qasımı, bir də aşağı başdan əmioğlu Qulamhüseyni. – Həsən yenə tələsik dedi.

– Hə də, felyetonda adı keçənləri də... – Rəhim müəllim öz-özünə pıçıldadı. Evi yıxılmışdar iş açdılar də, başımıza... – Sonra bir az ucadan: – Bə sən hardan bildin? – Həsəndən soruşdu.

– Heç nə, klubun qabağındaydıq, dedim gedib evdə bir tikə çörək yeyib qayıdım. – Həsən yenə də tələsik dedi. – Evə çatanda nə görsəm yaxsıdı?.. Həyətdə tutun altında vay-nəfsanədi. Kəndin arvadları elliklə tökülüşüblər bizim qapıya. Tutun altında adam əlindən tərpənmək olmur, iynə atsan, yerə düşməz. Bir ağlaşmadı, gəl görəsən. Ürəyim düşdü ayağımın altına. Dedim yəqin ölüb-itən var. Gəlib çatdım, dedilər hali-qəziyə iş belə... Ta çörək-zad yada düşər? Tez mindim maşına, xod verib basdım qaza...

– Ədə, gözüynən görən olub? Hay-küy arvad xeylağının köhnə şakəridi. Onsuz da yığışmağa mahna gəzirlər. Bəlkə yalan eşidiblər? – Yusub əmi məsələni dəqiqləşdirmək üçün Həsəni sorğu-suala tutdu.

– Əşşi, bu boyda zarafat olar? – Həsən narazılıqla dilləndi. – Bura gələndə bərayi-ehtiyat, dəllək Babaşın dükanına dəydim, dedim o, simsiz teleqrafdı, hər şeydən xəbərdardı. Elə ağzımı açıb soruşmaq istəyirdim ki, özü məni qabaqladı. Dedi, Həsən, bu nə əhvalatdı? Bu kişiləri it maşınına basıb hara apardılar? Ta ona heç cavab verməyə kiridarım qalmadı. Başılovlu gəldim bura. – Həsən müsahiblərini bir daha inandırmağa çalışdı.

Rəhim müəllim bir az özünə gəldi, fikir-xəyaldan ayrılıb sakit, təmkinli səslə Həsənə dedi:

– Get maşını xodda, gəlirəm.

Həsən key-key gözlərini döyüb nigaranlıqla soruşdu:

– Hara gedəcəyik?..

– Prokuraturaya. – Rəhim müəllim inamlı şəkildə bildirdi.

Rəhim müəllim telefonu qaldırıb prokurorluğa zəng vurdu. Köməkçidən öyrəndi ki, prokuror yerindədi. "Ya Allah", – deyib ayağa qalxdı.

– İrəhim müəllim, mən də gedim? – Yusub əmi nagüman soruşdu.

– Yox əşşi, sənnik bir şey yoxdu. Sən burda qal. Buranı da yiyəsiz qoymaq olmaz. Hər şeydə gözün olsun, – Rəhim müəllim dedi. – Bir azdan da bizə tərəf ayağını qoy, o arvaddarı-zadı itirin oradan. Hamısı qaraçı bayquşdardı. Yer axtarırlar qərəmətlərini tökməyə. – Rəhim müəllim çıxa-çıxa əlavə etdi.

* * *

Birinci katib felyetonu oxuyandan sonra məmnunluqla kresloya yayxandı. Öz-özünə "elə fakt, fakt deyib, durublar. Bundan maraqlı fakt?" – deyə əlini selektorun düymələrindən birinin üstündə saxladı. O biri tərəfdən prokurorun tox, gur səsi gəldi.

– Eşidirəm yoldaş katib, sabahınız xeyir, – dedi.

– Hər vaxtınız xeyir, – katib də gümrah səslə cavab verdi. – Qəzeti oxuya bildiz? – soruşdu.

– Bəli, yoldaş katib, oxuduz da sözdü?.. – prokuror katibin sualından sanki incidi.

– Necədi, xoşunuza gəldi?.. – Katib şəstlə soruşdu.

– Əladı, yoldaş katib, əla…

– Redaktor pis-yaxşı öz işini gördü. Növbə sizindir. Ağsaqqalları dəvət edin, profilaktik söhbətlər aparın, – katib bir az pauza verib davam etdi. – İzahatlarını da alın ki, bir də belə işlərə yol verməsinlər. Sonra da raykoma geniş bir arayış hazırlayın. Biz də onu ümumi arayışa əlavə edib göndərək yuxarı… Elə fakt deyib dururlar. Bu da fakt. Arayışı əhatəli və məzmunlu hazırlayın. Sağ olun, – katib qəfil zəng vurduğu kimi qəfil də söhbətini bitirdi.

Prokuror telefon dəstəyini yerə qoyan kimi işgüzar görkəm aldı. Tez milis rəisinə zəng vurdu. Dəstəyin o başından köntöy bir səs gəldi:

– Eşidirəm, yoldaş prokuror…

– Salam, rəis, – prokuror da yüksək tonla, xoş əhval-ruhiyyəylə cavab verdi. – Təcili mənim yanıma gəl, – deyə göstəriş verdi.

Prokurorluqla milis idarəsi yanaşı yerləşirdi. Odur ki, çox keçmədən rəis artıq prokurorun kabinetindəydi. Prokuror bir az da özünü boğdu, məsələnin ciddiliyi barədə daha dərin təəssürat yaratmaq üçün nömrəsiz, birbaşa qırmızı telefona işarəylə:

– Birinci zəng vurmuşdu, ciddi tapşırıq var. Bugünkü rayon qəzetini oxuyubsan?.. – soruşdu.

Rəis bir az laübalı cavab verdi.

– Elə belə, baxmışam…

Prokuror bu cavabdan hücum vasitəsi kimi istifadə etdi:

– Vallah, sizin işiniz Allaha qalıb e… A yoldaş, siz rəhbər işçisiz, heç olmasa, bu rayon qəzetinə bir göz gəzdirin də… Aləm dağılıb gedir, sən isə fil qulağında yatıbsan. Felyetondan xəbərin yoxdu?.. – Prokuror sual dolu gözlərini ona dikdi.

– Uşaqlar oxuyurdu…

– Sən özün oxumamısan?.. – prokuror başını buladı. – Vallah, dünya vecinə deyil, buğda yeyib cənnətdən çıxmısan, – tənəli-tənəli rəisi süzdü.

– Vallah, ay qardaş, özünüzə baxmayın e, oturubsuz kabinetdə. Biz it zülmü çəkirik. Son vaxtlar camaat da azğınlaşıb. Günümüz-rüzgarımız yoxdu. Elə indicə çıxırdım, siz zəng vurdunuz. Bu dağ kənddəri tərəfdə gecə oğurruq olub, ora hazırlaşırdım getməyə. Qəzet oxumağa vaxt tapırıq ki?.. Vallah, yasatoya da getməyə çatdırmırıq. – Rəis bütün qərəmətini töküb özünə bəraət qazandırmağa çalışdı.

– Yaxşı, bütün dünyanın qara-qarğısını tökmə üstümüzə. Vallah, söz də deməli döyül, adam özü günahkar çıxır. – Prokuror bir az sərtləşdi. Rəisin qarşısına qələm-kağız qoyub dedi: – Yaz, Göyəmli kəndindən Qasımov Əli Həsən oğlu, Talıbov Hüseyn Talıb oğlu, Rəhmətov Qasım Rəhmət oğlu, Quliyev Qulamhüseyn… bir az pauza verdi, qarşısındakı qəzetə diqqət elədi, təzədən siyirmədən bir kağız çıxarıb baxdı… – Hə, Quliyev Qulamhüseyn Hüseyn oğlu. Kəndə qruppa göndər, bu adamları danaboyun eləyib gətirib soxsunlar dama. Kənd sovetiynən qabaqcadan əlaqə saxlayın, bu məqaləni yazan gədə də orda işləyir, sizə adam versin, kömək üçün. Yoxsa onları tanımaqda, yaşayış yerlərini müəyyən eləməkdə çətinlik çəkərsiz. Onları təcili götürüb gətirərsiz, sonra mənə məlumat verərsiz. – Prokuror göstərişlərini yerli-yataqlı verib, ciddi görkəm aldı.

– Bə mən oğurluq olan kəndə getməyim?..

– Ağzımda bir Quranlıq söz danışıram, bu da oğurluq deyib, durur. A yoldaş, bu, çox vacib işdir, siyasi məsələdir. Dedim axı, Birincinin şəxsi göstərişidir. Ora ayrı adam göndər. Özün rəhbərlik elə bu əməliyyata, – prokuror sözünü qəti şəkildə yekunlaşdırdı.

Rəis tələsik getdi. Prokuror otaqda bir xeyli var-gəl etdi, fikirlərində dağı arana, aranı dağa apardı. Kombinasiyalar qurur, planlar cızırdı. Fikirləşirdi ki, burda elə bir ciddi şey yoxdur. Uzağı, inzibati bir xəta, ictimai tənbeh-filan. Amma yaxşı oynasan, yüngülvarı qurğu qurub məsələni qəlizləşdirsən, yaxşı qazanmaq olar… Görəsən kimin adamlarıdı bu qocalar?.. Öz-özünə sual verdi. – Göyəmli yaxşı kənddi, camaatı da imkanlıdı, həm də üzüyoladı.

Fikir-zikir, sanki onu bir balaca yordu. Dərindən əsnədi, ürəkdən gərnəşib təzədən yerinə keçdi. Təşkilatlara gedəsi məktubları, arayışları, təqdimatları oxuyub qol çəkdi. Sonra qalaqlanmış poçtu araşdırdı, bəzi məktubları oxuyub dərkənar qoydu. Amma hövsələsi tutmadı, nəsə darıxdı. Divar saatına baxdı. Saat on ikidən birə sarı əyilmişdi. Məktubların əksəriyyəti necə var, eləcə də qaldı. Köməkçini çağırıb dərkənar qoyulmuş məktubları ünvanına göndərməyi tapşırdı. Otaqdan çıxa-çıxa köməkçiyə:

– Soruşan olsa, "iş dalınca getdi", – deyərsən. Nahar fasiləsindən sonra gələcəm, adəti üzrə saat üçdə, – deyib pilləkənlərə sarı yönəldi.

* * *

…Rəhim müəllim qəbul otağına girəndə prokurorun köməkçisi ədəbərkanla yerindən qalxıb onu ehtiramla qarşıladı. Salam-kəlamdan sonra Rəhim müəllim başı ilə yan otağı işarə edib:

– Yerindədi, – soruşdu.

– Nahar fasiləsindən təzəcə gəlib. Əyləşin, bu saat məruzə edərəm, – deyə köməkçi qoşa meşin qapını itələyib içəri keçdi.

Köməkçinin qayıtmağı bir az çəkdi. Bu uzanan vaxtın özü elə Rəhim müəllim üçün göydəndüşmə oldu. Biruzə vermək istəməsə də ciddi sarsıntısını gizlədə bilmirdi. Üzünə baxan naşı adam da o saat bilərdi ki, iş nə yerdədir. Qalmışdı prokuror ola. "Bunnar çekistdi, kitabı arxasından oxuyurlar..." – öz-özünə düşündü. İstəmirdi ki, prokuror onu həyəcanlı görsün. Özünü tox tutmaq istəyirdi ki, prokuror onun qorxduğunu, narahatlığını hiss etməsin. Nə qədər soyuqqanlı olsa, bir o qədər işin xeyrinəydi. Odur ki, güzgüdə xeyli özünə baxdı, üz-gözünü əzib-büzdü, sifət cizgilərini, mimikalarını qaydaya saldı. Cib darağını çıxarıb saçına çəkdi. Bir az toxtadı və bu zaman qapı açıldı, köməkçi onu içəri dəvət etdi.

Prokurorla çox mehriban görüşdülər. Doğrudan da biri-birilərinə qarşılıqlı hörmətləri var idi. Prokuror Rəhim müəllimin savadına, səviyyəsinə, şəxsiyyətinə, rayondakı müsbət imicinə görə yolunu çox saxlayırdı. Üstəlik də Birinci katib amili də var idi. Hamı kimi prokuror da yaxşı bilirdi ki, o, Birinciylə tələbə yoldaşıdır və onu da yaxşı bilirdi ki, Birinci Rəhim müəllimin xətrini dünyalarca istəyir. Ondan da xəbərdar idi ki, Birinci onu raykoma təbliğat-təşviqat şöbəsinin müdiri vəzifəsinə dəvət edib, amma o razılıq verməyib. Hətta bundan sonra da katib Rəhim müəllimdən inciməyib, əksinə, hər yerdə bunu misal çəkib onun öz peşəsinə, müəllimliyə bağlılığını hamıya nümunə göstərib.

Prokurorla Rəhim müəllim ordan-burdan, dünyanın gərdişindən, rayonun əzvayından xeyli danışdılar. Hələ heç biri mətləb üstünə gəlmirdi. Prokuror hiss eləyirdi ki, Rəhim müəllim qocalara görə gəlib. Bilirdi ki, kəndin ağcaqqalı, başbiləni odur. Həm də ürəyində sevincək idi ki, elə belə yaxşıdı. Rəhim müəllim hal əhlidi, işbilən, söz qanan, işarə anlayan adamdı. Yaxşı ki, elə özü gəlib. Rəhim müəllimlə bir-iki dəfə iş görmüşdü, özü də razı qalmışdı. Əl-ayağı təmiz, gözü-könlü tox, tamahsız, özü də ağzıbütöv adamdı. Aldığını-verdiyini it də bilməzdi. Ətini kəsəsən də, dilinin qıfılı qırılmazdı. Prokuror bunları fikirləşə-fikirləşə soruşdu:

– Rəhim müəllim, qəzetdəki felyetonu oxumusan da, yəqin? Bu azan məsələsi nədi belə?..

Rəhim müəllim kürəyinin tərlədiyini hiss etdi, amma tövrünü dəyişməməyə çalışdı.

– Oxumuşam, bəli! Elə ona görə sizi narahat edirəm.

Prokuror qəlbində sevindi və "əhə, iş yiyəsi özü öz əl-ayağıyla gəlib çıxıb", – düşündü. Amma özünü o yerə qoymadı.

– Kimdi bu qocalar, sizə simsar adamlardı? – Prokuror sözü uzatmayıb mətləbə keçdi.

– Əvvəla, kənd-kəsək hamı bir-birinə qohum-qardaşdı, qəbilədi... – Rəhim müəllim bir az dayandı, sanki güc toplayırdı. – Üstəlik, onlardan biri də mənim atamdır.

Prokuror elə bil şad bir xəbər eşitdi, əllərini əlinə vurub qəşş elədi. Xeyli güləndən sonra cibindən dəsmalını çıxarıb əvvəlcə yaşarmış gözlərini, sonra

da başının ortasında yenicə yaranan daz yerini cidd-cəhdlə sildi. Rəhim müəllim təmkinini itirmədən gözlərini ona dikmişdi. Prokuror hiçqırığa bənzər səslə bir-iki dəfə də qırıq-qırıq gülüb, dolu bədənini yırğalaya-yırğalaya dedi:

– Oyunun olsun, Rəhim müəllim, bu lap sürpriz oldu ki... Rəhmətliyin oğlu, sən böyük bir ziyalı, kommunist, məktəb direktoru, bir dəstə adamın kommunist tərbiyəsi sənə həvalə olunub, sənin atan mövhumatnan məşğul olur? Adamın heç inanmağı gəlmir. Sən öz atanı tərbiyə eləyə bilmirsənsə, bu boyda gənc nəslin tərbiyəsilə necə məşğul olursan?..

Rəhim müəllim bozardı, sərt səslə dedi:

– Əvvəla, mənim atam ağsaqqal adamdır, kəndin, elin-obanın xeyir-şərində həmişə başdadır, bir sözüynən yüzlərlə adam arxasınca gedir. Camaat ondan öyüd-nəsihət, tərbiyə alır, o, mənim kimi, sizin kimi çoxumuza tərbiyə verməyə qadir insandır. Onu sizin tərbiyəsiz hesab eləməyiniz, nə yaşınıza, nə təhsilinizə, nə də tutduğunuz bu yüksək vəzifə kürsüsünə yaraşmır. İbadət etmək, namaz qılmaq, oruc tutmaq, Allah itaətində olmaq nə vaxtdan tərbiyəsizlik sayılıb?..

Prokuror onun sözünü kəsib nəsə demək istəyəndə Rəhim müəllim əlini qaldırıb ötkəm səslə onu dayandırdı və sözünə davam etdi:

– Əvəz müəllim, sözümü qurtarmamışam, qoyun deyib qurtarım, sonra nə qədər istəsəniz, danışarsız. Bu adam uşaqlığından oruc tutub, namaz qılıb, ibadət eləyib. Bu yaşında onu tutduğu yoldan çəkindirmək olar? Bu da onun əqidəsidir də... Partiyamız insanda əqidə saflığını ən yüksək mənəvi keyfiyyət hesab edir. Kommunist Partiyasının əxlaq kodeksində bilirsiz ən əsas önə nə çəkilir? Kommunist əqidəsi! Çox təəssüf ki, bizim əksər kommunistlərdə, məhz bu çatışmır: Lenin əqidəsi, Lenin prinsipiallığı. Təki bizim indiki kommunistlərimiz öz prinsiplərinə, inamına, əqidəsinə mənim atam öz dininə, Tanrısına olduğu kimi sadiq olaydı. Bu məsələləri srağagünkü müşavirədə Rayon Partiya Komitəsinin Birinci katibi yoldaş Məmmədov da çox incə nüanslarla təhlil elədi. Biz dinə qarşı yox, onun zərərli təsirlərinə qarşı mübarizə aparmalıyıq...

Rəhim müəllim pauza verib bir qədər toxtadı. Diqqətlə prokuroru süzdü. Prokuror:

– Danışın, danışın, mən dinləyirəm, – laqeydliklə dedi.

– Bir də ki... – Rəhim müəllim yenə də eyni tonla davam etdi. – Əslində bu, sizin işiniz deyil, siz bununla məşğul olmamalısız. Bu ideoloji işdir, cinayət işi deyil ki... Bu yazıq kişilər neynəyib ki?... Adam öldürüblər, ev yarıblar, yoxsa quldurluq ediblər? Noolsun, səhvən gecə yarısı azan səsləndirilib. Burda cinayət tərkibi var?.. Burada olsa-olsa, mənəvi məsuliyyətdən söhbət gedə bilər, bu da prokurorluğun işi deyil. Gəlib kəndin hörmətli ağsaqqallarını qatı cinayətkar kimi basıblar maşına, gətirib milisiyədə saxlayıblar. Sizcə, yarıyar bu?..

Rəhim müəllim sözünü deyib sanki sakitləşdi. Prokuror da tamam sakit və təmkinli tərzdə soruşdu:

– Qurtardız?..

– Hələlik, bəli. – Rəhim müəllim də kinayə ilə cavab verdi.

– Siz mənim yanıma iş üçün gəlibsiniz, yoxsa davaya? – Prokuror yarızarafat, yarıəsəbi dedi. – Ünvanıma olmazın sözlər söyləməyiniz bir yana, üstəlik mənə hüquq və mənəviyyat dərsi keçirsiz. Bu da yaramaz axı! Ən azından biz dostuq axı!.. – Prokuror sanki ağ bayraq qaldırıb vəziyyəti yumşaltmağa çalışdı.

– Atamı təhqir etdiniz, mənə toxundu… – Rəhim müəllim sakitcə mızıldandı.

– O söz mənim ağzımdan mexaniki çıxdı. – Prokuror peşman kimi dilləndi. – Bilsəydim sizə bu qədər toxunacaq, heç vaxt elə bir sözü dilimə gətirməzdim. Ona görə üzr istəyirəm sizdən, – prokuror həqiqətən sidq-ürəkdən dedi.

– Əstəğfur, Allah eleməsin, Əvəz müəllim, nə üzrbazdıqdı? Siz Allah, bir sözdü, oldu, keçdi də… Mən də bir az çılğınlıq elədim, – Rəhim müəllim tələsik cavab verdi.

– Yox, Rəhim müəllim, halal olsun sizə, diliniz də var, dilçəyiniz də. Əsl kişi gördüm sizi. Siz ki, atanızı belə sevirsiz, onu uca tutursuz, halal olsun sizə. – Prokuror mütəəssir görkəm aldı. – Atanıza olan məhəbbətin çox yox, beş-on faizi kaş bizimkilərdə olaydı. – Prokuror başını tutub ufuldadı. Sanki qaysağı qoparılmış yarasına iynə soxdular. – İtnən-qurdnan üz-göz olub nazı-nemət içində bəsləyib böyüdürsən, di gəl ki… – Prokuror təəssüflə əlini yellədi. – Nə isə… söhbətimizə qayıdaq. Hansıdı sizin atanız?..

Rəhim müəllim də prokurorun insani davranışlarından mütəəssir olub xəyala dalmışdı. Qəfil müraciətdən diksinən kimi oldu. Handan-hana pıçıltıya bənzər asta səslə dedi:

– Qasımov Əli…

Prokurorun əhvalı yenə dəyişdi, ucadan şaqqanaq çəkərək:

– Ay qardaş, deynən ta bu kişi dəstəbaşıymış ki…

Rəhim müəllim dillənmədi. Prokuror yenə də nikbin ovqatla davam etdi.

– İndi nə məsləhət görürsən, Rəhim müəllim, nə edək? – Prokuror bir az susub davam etdi. – Əslində, sizin dediyiniz kimi, burada ciddi bir şey yoxdu. Cinayət tərkibi-filan da tapmaq çətindir. Amma özünüz də yaxşı bilirsiz ki, məsələnin qəliz tərəfi siyasi faktordur. Mərkəzi Komitənin qərarı, özü də Moskvanın, srağagünkü müşavirədəki müzakirələr, üstündən bir gün keçməmiş, felyeton… Bütün bunların hamısı ağırlaşdırıcı hallardır… Adi vəziyyətdə bəlkə də heç buna fikir verən olmazdı özü də ki... – Prokuror bir az susub yenə davam elədi. – Bilmirəm bilirsiz, ya yox, Birinci özü bərk maraqlıdı. Səhər tezdən özü mənə zəng vurdu ki, felyetonda qaldırılan məsələlər barədə tədbir gör…

Prokuror müəmmalı şəkildə susub gözlərini qarşısındakı kağızlara dikdi. Rəhim müəllimi də fikir aparmışdı. Necə hərəkət edəcəyini kəsdirə bilmirdi. Bilmirdi döyüşsün, vuruşsun, mübarizə aparsın, ya da mülayim davransın, xahiş-minnət eləsin, yeri gəlsə, lap elə yalvarsın… Prokurorun qəfil sualı onu xəyaldan ayırdı.

– Sizin atanızın bu işdə olmasını bilir? – deyə başını yuxarı qaldırıb himcimlə raykom binası tərəfə işarə vurdu.

– Ovcuna qoymayıblarsa, yəqin bilməz. – Rəhim müəllim də müəmmalı cavab verdi.

– Bəlkə özünüz bir girəsiniz yanına? – Prokuror könülsüz təklif etdi.

– Yox... yox... qətiyyən, – Rəhim müəllim birmənalı cavab verdi. – Lap özümü də tutsalar, onun yanına getmərəm...

– Niyə balam? – Prokuror aşkar bir təəccüblə soruşdu. – Mən biləni, sizin xətrinizi istəyir...

– Elə ona görə də getmərəm də... İstəmirəm aramızdakı səmimiyyətə xələl gəlsin. Partiya işidir, birdən nə səbəbdənsə o da eləyə bilməz, sözüm yerə düşər, illərlə qazanılmış dostluqda soyuqluq yaranar. – Rəhim müəllim fikirli-fikirli dedi.

– Onda bə neyniyək? – Prokuror sözü deyib yenə müəmmalı tərzdə susdu. Sanki doğrudan da dilemma qarşısında qalmışdı.

Rəhim müəllim özünü toparlayıb ürəyindəkiləri dilinə gətirdi. Onsuz da prokuroru çoxdan tanıyırdı, araları da açıq idi. Odur ki, sözünü kəsə dedi:

– Əvəz müəllim, dünya görmüş adamsınız. Qolunuzu çirməyin, işi qoyun yoluna, şirinniyi də nədi, qardaşınız hazırdı.

Bu təklifdən prokurorun sir-sifəti açıldı, kefi duruldu. Amma bu halını bildirməmək üçün sifətinə qayğılı görkəm verib dedi:

– Yooox, mən özüm tək qərar verə bilmərəm. Gərək ondan dabro alam. Deyərəm də, biri sizin atanızdır.

– Yox, yox, Əvəz müəllim, xahiş edirəm, onu deməyin. Sizi öyrətmək olmasın, Birinciyə deyin ki, inzibati qaydada həll edək, qurtarsın getsin. Ya cərimə, ya məzəmmət, bərk ayaqda yoldaşlıq məhkəməsi-filan... O, səviyyəli, savadlı, həm də ədalətli adamdı, yəqin ki, sizi başa düşər. – Rəhim müəllim inamla söylədi.

– Yaxşı, – prokuror dərindən köks ötürdü, – görüm neynəyə bilirəm...

Rəhim müəllim işi yekunlaşdırmaq üçün sağ əlini yuxarı qaldırıb baş barmağını şəhadət barmağına sürtüb dedi:

– Bunu da deyin, mən işimi bilim!

– Əşşi, qaçaqaçdı bəyəm, danışarıq də, – prokuror özünü tox göstərməyə çalışdı.

– Yox də, Əvəz müəllim, şərti şumda kəsək, xırmanda yabalaşmayaq. Sözünüzü deyin, mən də gedib tədarükümü görüm, – deyə Rəhim müəllim məsələni konkretləşdirmək istədi.

Prokuror bir qədər fikrə getdi, sonra da qarşısındakı kağıza nəsə yazıb Rəhim müəllimə göstərdi. Rəhim müəllim gördü ki, kağıza 8 min rəqəmi yazılıb, yəni 8 min manat. Yəqin dörd nəfərdir, hərəsinə 2 min manatdan hesablayıb. Rəhim müəllim qəti etiraz etdi:

– Yooox, yooox, ona gücümüz çatmaz, – dedi.

– O birilərini də qoş işə də... – Prokuror məsləhət verdi.

– Əşşi, o birilər yazıq, kasıb adamlardı, cındırlarından cin hürkür, hamısı mənim çiynimdədi. – Rəhim müəllim səmimi şəkildə etiraf etdi.

– Yaxşı, siz nə təklif eləyirsiniz?.. – Prokuror laqeydcəsinə soruşdu.

– Vallah, əlləşib-vuruşub yarısını düzəldə bilsək, böyük şeydir. – Rəhim müəllim çarəsiz halda qeyd etdi.

Aralarındakı çək-çevir xeyli uzandı, bazarlıqları bir az çətinə düşdü. Axır ki, razılığa gəldilər. Yarı-yarıya… Rəhim müəllim çox təkid etdi ki, ağsaqqalları elə bu saat buraxsın. Prokuror, "olmaz", – deyib durdu və əlavə etdi:

– Sabah siz gələnədək mən bütün sənədləri yerbəyer eləyərəm, biz görüşən kimi göstəriş verərəm, ağsaqqalları buraxarlar.

Rəhim müəllim sağollaşıb çıxdı. Düzdü, məsələni həll eləmişdi. Amma indi də canını başqa bir qara qayğı almışdı. Evdə 2 min manat ehtiyatı vardı. Dar günə saxlamışdı. "Bu da dar gün", – fikirləşdi. Yaxşı, bə qalan 2 mini hardan tapacaqdı?.. Bu sual ağır bir daş kimi ürəyindən asılıb qalmışdı. Kimin ağlına gələrdi ki, başları belə bir qovğaya düşəcək…

Həsən aşağıda gözləyirdi. Qardaşına sarı şığıdı:

– Necə oldu? – deyə həsrət və ümidlə soruşdu.

– Narahat olma, – Rəhim müəllim yorğun və bezgin halda dedi.

Həsən güvənli bir şəkildə əllərini yuxarı qaldırıb:

– Allah səni bizə çox görməsin. Kölgən üstümüzdən əskik olmasın. Allah səni həmişə ümid yeri eləsin, – deyə duanı duaya calamağa başladı.

Rəhim müəllim sanki bu deyilənləri heç eşitmirdi. Qayğılı şəkildə soruşdu:

– Ədə, Həsən, onnara yeməkdən-zaddan aparıb verə bildin?

– Hə, narahat olma, lüləkabab, təndir çörəyi, mer-meyvə də alıb verdim. O kişi tərs oğlu tərsdi. Bilirəm də onnarın verdikləri payoka gözünün ucuyla da baxan döyül. Çox aldım ki, axşama da çatsın. – Həsən geniş məlumat verdi.

– Özüylə görüşə bildin? – Rəhim müəllim kövrək bir səslə soruşdu.

– Görüşdüm, yaxşıdı, amma bağrı az qalır çatdasın. Heç özünü-sözünü bilmir, – deyə Həsən də kövrəldi.

– Eybi yoxdu, sabahacan birtəhər dözək. – Rəhim müəllim xəyallandı.

* * *

…Ceyranın vay-şivəninə, qaraqışqırığına, yaxacırdısına bütün kənd arvadları tökülüb gəlmişdi. Tut ağacının kölgəsində böyük bir yığnaq yaranmışdı. Ağız deyəni qulaq eşitmirdi. Ceyran dizinə döyür, saçını yolurdu:

– Baba!.. Baba!.. Sənə kim qıydı, baba? Sənə qıyanın əlləri çolaq olsun! Sənə əl qaldıranın əlləri qurusun. Sənin kimi kişiyə qıymaq olar?.. Allah bəlasın versin bunnarın. Sən axı bu kəndin baş kişisisən!

– Qıza, bəsdi də, ölüb-itən var?.. Nə səsüy başuva atıb qaraçılıq eləyirsən. Babova noolub ki?.. Davaya getməyib, sürgünə göndərməyiblər. Bu gün-sabah, budee, bir də gördün, vurub gəldi… – Kifayət özünəməxsus ərkyanalıqla dedi. – Vallah, bu qızın ağlı lap çaşıb e…

Gec xəbər tutmuş, qaça-qaça gəlmiş qonşu Mənzər tövşüyə-tövşüyə yerini rahatladı. Eləcə, tövşüyə-tövşüyə də soruşdu:

– Qıza, noolub e?.. Bir məni də başa salın də…

– Əh, kül olsun sənin də ölüvün gözünə. Dünya lillənib, aləm dəyib bir-birinə, bu hələ indi deyir noolub? Xəbərin yoxdu?.. Əli əmigili, Hüseyn əmigili milisiyə tutub aparıb. – Kifayət yenə ötkəm-ötkəm dedi.

– Boooy, – Mənzər əlini ağzına aparıb heyrətləndi. – Qıza, bə nöşün? Qoca kişidilər, onnarın milisiyəynən nə işi?.. – soruşdu.

– Ay-hay, – Kifayət eyni tərzdə əlini yellədi, – bə bilmirsən, o günkü gecə azan verdilər e, hə, onu götürüb qəzetə yazıblar. Ona görə də kişiləri tutub dustağa salıblar, – dedi.

– Boooy, – Mənzər yenə də əlini təəccüblə ağzına apardı. – Qıza, get o yana e, – dedi, – azana görə də adam tutallar?..

– Tutublar də… – Kifayət yenə əllərini yellədi. – Bə tutmaq nə təhər olur? Vallah fil qulağında yatıbsız e, görsəydin bir-iki saat bundan qabaq kənddə nə vur-haray, qaçdı-qovduydu. Milisionerlər təpilmişdi kəndə, əllərinə keçən kişini basırdılar it maşınına…

– Balam, bu kişilər nə günahın yiyəsidi ki, tutub aparıblar?.. – Mənzər yenə də anlaşılmaz nəzərlərlə key-key ora-bura baxdı.

– Ta mən bilmirəm, odeee… ordakılardan soruş. – Kifayət bezgin halda əlini mücərrəd bir istiqamətə yellədi və yaxasını Mənzərdən qurtarmağa çalışdı.

Bu ara Mixək bibi özünü yetirdi. Birbaşa Ceyranın yanına tərəf istiqamətləndi. Hamı hörmət əlaməti olaraq aralaşıb ona yer elədilər. Ceyranın yanında oturub:

– A köpək qızı, nədi o, səsin kəndi götürüb başına?! Nə qatıb-qarışdırıbsan aləmi bir-birinə? – ərklə Ceyrana dedi.

– Əh, bəxtəvərin qızı, sənin dünyadan nə xəbərin, odee, əziz-girami əmivi aparıb salıblar türməyə, sən də deyirsən bu nə hay-küydü? Bə bilmirsən? – Ceyran yana-yana dedi.

– Qıza, belə əməlli-başdı tutub aparıblar?.. – Mixək bibi heyrətlə soruşdu.

– Tutmağın əməlli-basdısı var?.. Tutmaq elə tutmaqdı də… – Ceyran yorğun səslə bildirdi.

– Qıza, əmim onnara can verən döyüldü axı… Onu nə təhər tutublar?.. – Mixək bibi təəccübünü gizlətmədi.

– Qıza, o qəzetdə yazılanı bərkdən oxuyun, biz də halı olaq, görək orda nə yazılıb?... – Suru camaatın arasından boylanıb qışqırdı.

– Kim oxuyacaq?.. Savadımız var?.. – Kifayət ötkəm-ötkəm yerindən gileyləndi.

– Bə Ceyran nədi, onun savadına savad çatar, qoy oxusun də… – kimsə yerindən söz atdı.

Hamı bir ağızdan iltimas elədi ki, “Ceyran, nənə, sən Allah, bərkdən oxu, biz də qulaq asaq”. Ceyran o qədər ağlayıb-sıtqamışdı ki, səsi batmışdı. Boğazını birtəhər arıtladı, qəzeti əlində tutub bir o tərəfinə, bir bu tərəfinə baxıb dedi:

– And olsun Allaha, bunu oxuyanda qanım coşa gəlir, bədənim əsir, amma ta neyniyim, deyirsiz oxu, canıma cəfa basıb oxuyum də… – deyə Ceyran felyetonu oxumağa başladı.

Qəzet oxunduqca camaatın içindən qəribə uğultular keçirdi. Felyetonun sərt cümlələrinə, lağ-loğaz yerlərinə çatanda Ceyran nəfəsini dərir, ricət çıxır və: “qoldan olasan, ay bunu yazan, heç mənim babam belə kişidi, siz onu bu cürə bəzəyib ələ salırsız?..” – deyə öz əlavələrini də eləyirdi. Bu da məclisi daha da cuşə gətirir, riqqətləndirir, həyəcanlandırırdı. Ceyran felyetonu oxuyub qurtarandan sonra məclisin hər tərəfindən nalə-nifrin eşidildi. Kəndin

ağsaqqallarını bu şəkildə təhqir etmək, ələ salmaq arvadlara çox ağır gəlirdi. Kimsə təklif etdi ki, qıza, yığışıb hamımız gedək düz raykoma, bizi yeməyəcəklər ki?.. Bəziləri onun hayına hay verdi ki, gedəyin, ayağımızı dirəyək yerə, öldü var, döndü yoxdur, ağsaqqalları buraxdırmadan ordan əl çəkməyək. Bir başqa dəstə də cavab verdi ki, hə, bircə o qalmışdı, busəfərki bizi də tutub bassınnar içəri. Hökumətnən hökumətdik eləmək olar?.. Əlqərəz, qadınların qeyrət damarı qalxmışdı, içərilərində elələri vardı ki, lap üsyana hazır idi. Ceyran da, Gülbahar da, Qızyetər də hamıya təşəkkür etdilər, dedilər ki, bu yaman gündə bizə simsarlıq eləyirsiniz, elə bu bəsdi. Ceyran əlavə etdi ki, narahat olmayın, lələm ölməyib ki... – Görərsiz, sabahdan o yana onnarı qoymaz orda. Mixək bibi də onun səsinə səs verdi:

– Qıza, İrəhimin ölkəynən belə, adı-sanı var… Bu ox, eləcə, onun özünə atılıb. Düşmənnəri, gözü götürməyənnəri, yamannarı, paxılları azdı bəyəm?.. Amma Allahın köməyliyiynən heç bir qələt eləyə bilməyəcəklər. İt qapıdan nə aparar, köhnə çarıqdan başqa. Kor-kor, gör-gör, düşmən işidi də… Özü də içimizdəkilərdi… Gör necə də yerri-yataqlı yazıblar e, biri də alt-üst döyül. Qıraq köpəyoğlu, bunu hardan bilir?..

– Bə bilmirsən ilmə kimnən keçib?.. – Kifayət oxu atıb yayı gizlətdi.

– Kimnən keçib, de biz də bilək də… – Mixək bibini maraq götürdü.

– Guya sən bilmirsən?.. – Kifayət yenə mücərrəd danışdı. – Bütün aləm bilir, sən bilmirsən?..

– Toba, əgər elmi-ilahim yetirsə. Mən qoca arvadam, naxoş canımnan əlləşirəm, evdən çölə çıxmıram, nə bilim kənddə noolur? İndi də əmimin sorağını eşitdim, dedim, ölə-ölə də olsa, durum gedim bir xəbər öyrənim. – Mixək bibi xəstəhal zarıdı.

– Qıza, bilmirsiz kimdi?.. Bu kənddə bir çugul var də… Pıçıltı olan kimi aləmə yayılır. Bir dənə sirrimiz-sözümüz özümüzdə qalmır, qorxumuzdan asqıra da bilmirik, bütün dünyaya səs düşür. – Suru da qeyzli-qeyzli deyindi…

– Qıza, sən Allah, kimdi e, bu əbləh?.. – Mixək bibi ona-buna baxıb yalvarıcı nəzərlərlə iltimas etdi.

– Qıza, kim olacaq, budee, çəpər qonşumuz Musa Babaşov. Bu kənddə nə olur, yazır göndərir qəzetə. – Suru dedi.

– Nə danışırsan, qıza, onun əmimnən nə alış-verişi? Əmimin ona nə pisdiyi keçib ki?.. – Mixək bibi heyrətlə soruşdu.

– Pisdiynən döyül ki, pisdiy elədin, ya yaxşılıq, onuncün eyni şeydi. – Kifayət Mixək bibinin sualına hamıdan qabaq, özü də qeyzlə cavab verdi. – Hüseyn əmi ona neynəyib? Şıx Qasım, Qullələ (Qulamhüseyni nəzərdə tuturdu) bəlkə başına daş salıb?.. Məmmədağa müəllim yazığı kim dilə-dişə saldı? Yazıq ev tikəndə əlli dənə kubik daşı sən demə dokumentsizmüş. Götürdü yazdı, o cür gözəl adamı partiyadan çıxartdılar, özünə də iki il iş verdilər, gedib yatıb gəldi. Məmmədağa müəllim neynəmişdi ona?.. Gözünə ağ salmışdı?.. İntəhası, işi odu, çörəyi mərdiməzarlıqdan çıxır. Elə bilirsən o boyda dudimanu sovxozda hesabdar işdəməknən düzəldib? Onu qorxudub daş alıb, bunu qorxudub sement alıb, bir ayrısını şərrəyib taxta alıb. Görmürsən, tikdiyi övü xan sarayına oxşayır. Top vursan, dağılmaz. Amma

bilmir ki, top dağıtmayan övü haram dağıdar. Haynan gələn, vaynan gedər. – Kifayət uzun nitqini qurtarıb qəzəblə susdu.

Mixək bibi əlini ağzına aparıb:

– Booy... əstəgfur, əstəğfur, – dedi. – Vallah, qulaq gündə bir söz eşitməsə, kar olar, düz deyiblər, – heyrətlə dedi.

Bənövşə başının dingənəsini düzəldə-düzəldə söhbətə qoşuldu:

– Qıza, bə bu kişiləri harda tutublar, qaçıb gizdənə bilmirdilər?.. – soruşdu.

– Nə təhər gizdənəydilər, xəfələyib hərəsini bir yerdə girə salıblar də. – Ceyran izah eləməyə başladı. – Gizdənməyə macal veriblər ki?..

– Qıza, bə onnarı kim nişan verib?.. Milisionerlər onnarı necə tanıyıb?.. – Yenə Bənövşə yaşmağını çəkə-çəkə soruşdu.

– Qıza, ağzımızda bir Quranlıq söz danışırıq, bə səhərdən çuğul deyib, dad çəkirik, sən də avam oğlunun qızı avam, hələ bir soruşursan da... – Ceyran əsəbi şəkildə cavab verdi. – Göstəriblər də, nişan veriblər... Babam xəstə inəyi ətdiyə aparmışdı, ordan da dönüb bazara, şey-şüy alıb. İrəhmətdiyin oğlu da, bazara girəndə çıxmaq bilmir ki, gərək bütün bazarı alıb silib-süpürə. Bazar zənbilini də görənlər görüb də, iki adam apara bilməz. Zənbili doldurub, üstəlik də yekə bir qarpız alıb. Dəyirman boyundan qarpızı arxa atıb ki, gəlib evin yanında tutsun. Ağırrıq eləyib də... Şoğərib qarpız da Şahbabagilin evinin tuşunda ilişib qalıb körpünün altında. Kişinin başı qarışıb qarpız şoğəribə, xəlvətcə yaxalayıblar. Əvvəl-əvvəl heç bilib ki, məsələ nə yerdədir?.. Görənlər deyir. Yoxsa onnara can verərdi?.. Elə zənbili də qalıb yolun ortasında. Yenə sağ olsun Nağı babanın nəvələri, uzaqdan görürmüşlər, gəlib, Allah razı olsun, zənbili götürüb gətiriblər evə... Maşallah, o qədər tərbiyəli uşaqlardı, o zənbildən çıxarıb hərəsinə bir dənə prenniyi zorla verdik. Həəə... Harda qaldım, – Ceyran sözünə yenə də şövqlə davam etdi. – Ordan da gəlib, burdan Hüseyn əmini, sonra Şıx Qasımı, ordan da basıb keçiblər aşağı başa, Qulamhüseyni tutub atıblar maşına, de bayax, bir də rayonda bənd alıblar. Bir su içim saatda eləyiblər e, bunları, heç kim də xəbər tutmayıb. Elə bil əlnən qoyubmuşlar. – Ceyran dərindən nəfəs alıb dayandı.

– Qıza, Qulamhüseyni də tutublar? – Mixək bibi təşvişlə soruşdu.

– Qullələ evdə təkmiş. Maşını sürüblər həyətə. Soruşublar ki, məçidin xuddamı Qulamhüseynin evi buradı? Qullələ yazıq nə bilsin. Fikirləşib ki, yəqin məçidnən əlaqəli bir sözdəri-zadı var də... Xuddam deməkləri, görükür kişini çaşdırıb də... Deyib mənəm xuddam Qulamhüseyn. De bayax, tutub basıblar maşına, özü də ayağındakı şap-şapnan. Ha deyib, əşşi, qoy ayaqqabımı geyim, kimdi qulaq asan?.. Elə elənçik götürüb gediblər e... – Ceyran yerli-yataqlı informasiya verəndən sonra Mixək bibidən soruşdu: – Nə əcəb siz tərəfə dönməyiblər, bibi?.. Axı sizin evin yanından ötüblər.

– Lap dönsünlər, onsuz da Kərim evdə yoxdu ki... – Mixək bibi xofla cavab verdi və şübhəli-şübhəli ətrafa boylandı. – Kərim dünəndən Sumqayıta bə getməyib? Uşaqlara dəyməyə gedib. – Mixək bibi sanki hamını inandırıb iz azdırmağa çalışdı. Neynəsin, söz gəzirdi ki, gəlib hələ kişilərin çoxunu aparacaqlar. Kimin ayağı məçidə dəyib, guya onların hamısını axtarırlar. Odur ki, milis maşını gələndə əri Kərimi samannıqda gizlətdilər. Milislər gedən kimi

Kərim əynini dəyişib "Nallar"lıqla (evlərin arxasındakı geniş əkin sahəsinə "Nallar" deyirdilər) təzə poçt yoluna üz tutdu və doğrudan da bir-iki günlüyə, ara sakitləşənəcən Sumqayıta getdi.

* * *

Nə qədər dilxor və qanıqara olsa da, Rəhim müəllim Mixək bibini xoş ovqatla qarşıladı.

– İrəhim, başuva dönüm, bu nə vurğundu bizi vurdu?.. – Mixək bibi sızıldadı.

– Olacağa çarə yoxdu. Təki can sağ olsun. – Rəhim müəllim Mixək bibiyə ürək-dirək verdi.

– Əmim nə təhərdi?.. Barı, görə bildin?.. – Mixək bibi nigarançılıqla soruşdu.

– Dedim axı, narahat olma, hər şey yaxşıdı, bacı canı, – Rəhim müəllim Mixək bibinin isti, həlim münasibətindən kövrəldi, əlini onun çiyninə qoyub özünə tərəf sıxdı və nikbinliklə: – Mən ölməmişəm ki?.. – dedi.

– Allah sənə yüz il ömür versin, ay qardaş, Allah səni min budaq eləsin. Allah kölgəni üstümüzdən əskik eləməsin. Allah bizim ölümümüzü sənin qabağında eləsin. Sən olmasaydın, biz neyniyərdik?.. – Mixək bibi duanı duaya, sananı sanaya calayırdı.

Rəhim müəllim söhbətə sanki yekun vurmaq üçün Mixək bibini evə dəvət elədi:

– Keç evə də, eləcə burda dayanacağıq?..

– Yox, başuva dönüm, sən get, yorğunsan, bir hovur dincini al. Mən də gedim evə, niyaz vaxtıdı, uşaqlar mənsiz keçinə bilmir.

Mixək bibi uzaqlaşdı. Ceyran atasına yaxınlaşıb "Lələ, babam…" – deməklə Rəhim müəllim acıqlı onun sözünü ağzında qoydu:

– Uşaqsan, uşaq işinlə məşğul ol, – deyib evə sarı yönəldi.

Ceyran nə pərt oldu, nə də rəncidə, atasının xasiyyətinə bələd idi. Odur ki, əmisini yannadı. Bilirdi ki, əmisi hər şeydən məlumat verəcək.

…Rəhim müəllim çayını içib stəkanı yenicə nəlbəkiyə qoymuşdu ki, həyətdən mığır-mığır gəldi. Öskürək səsindən bildi ki, Qasımla Məhəmməd əmidi gələn. Sonra Yusub əmi, Abbasqulu kişi gəldi, sonra Kərim, sonra Ağalı, sonra… Nə başınızı ağrıdım, bütün qonum-qonşu, qohum-əqrəba dəstə-dəstə gəlirdi. Heç kimi qınamalı deyildi, necə deyərlər, ürək yanmasa, gözdən yaş çıxmaz…

Rəhim müəllim isə ayrı haldaydı. İçindəki qara qayğılarla əlbəyaxaydı. İki min manat, dediyi kimi, evdə var idi, köhnədən tədarük etmişdi, bərayi-ehtiyat, lazım olar, – deyə saxlamışdı. Bəs iki mini hardan tapacaqdı, kimə ağız açacaqdı?.. Əvvəla, hər adamdan pul istəmək olmazdı, ağız açdığın da hələ verəcəkdi, verməyəcəkdi, bir yana, zurna-balaban götürüb aləmə car çəkəcəkdi. Ondan sonra gəl ölünü qoyub, dirini ağla. Qaş düzəltməkdənsə, vurub göz çıxardacaqdın. Bu, elə bir şeydi ki, gərək it də bilməsin. Sabah bu faktın özündən adama qarşı istifadə eləyə bilərdilər. Bəs nə etməli, başına haranın daşını salmalı?.. Fikir və düşüncələri onu haralara aparmırdı?..

Qonaqlar isə hərəsi bir tərəfdən sualı sual dalınca yağdırırdılar. Rəhim müəllim tez-tez saata baxır, yerində qurcuxur, nə edəcəyini bilmirdi. Yusub əmi arif adam idi. Rəhim müəllimin narahatlığından işin nə yerdə olduğunu başa düşdü. Üzünü camaata tutub:

– Balam, gecə yarıdan ötüb, durun gedək, camaat da başının ağrısını bilsin. İrəhim müəllim də yorğundur, qoy bir balaca dincini alsın. Durun, durun, haydı, – deyə ərklə hamını qalxmağa məcdur etdi.

Rəhim müəllim də ayağa qalxdı. Qonaqlarla sağollaşıb qayıtdı. Həsəni Yusub əminin arxasınca göndərdi. Həsən Yusub əmiyə çatıb qulağına pıçıldadı:

– Yusub əmi, İrəhim dedi ayağuvu bir az saxlayasan.

Yusub əmi də astaca cavab verdi:

– Ədə, mən hara gedirəm? Qayıdıram e, bunnarı qoy hürküdüb itirim burdan… Bekar adamlardı də, boş-boş söhbət üçün yer axtarırlar. Ta demirlər ki, camaatın dərdi-səri var. Səhərdən qara kəl kimi böyürlərini veriblər yerə, vallahi, səsüy çıxarmayasan, heç tükləri də tərpənməz.

Yusub əmi deyinə-deyinə geri qayıtdı. Süfrəyə yemək gətirildi.

Rəhim müəllim Yusub əmini süfrəyə dəvət elədi:

– Gəl, Yusub əmi, gəl bir tikə çörək kəsək. Günortadan dilimə heç nə dəymir. Heç olmasa, iştahımızı bir bekara küsdürək.

Yusub əmi qəti etiraz etdi:

– Nuşcannıqnan ye, mən toxam. And olsun Allahın izzəti-cəlalına, Xanımbacı (həyat yoldaşını nəzərdə tuturdu) xoruz kəsmişdi, təzə bozbaş bişirmişdi, qıpqırmızı xına kimi. Bu saat bir kasa yeyib durub gəlmişəm bura.

Həsən də təkid etdi:

– Əşşi, bu da elə təzə dana ətinin bozbaşıdı. Heç olmasa ətindən, kartofundan-zaddan bir bekara dadsanam.

– Vallah, əmi canı, xirtdəyəcən yemişəm. Utanmıram ki… Özgə yerdi bəyəm?.. Öz evimizdi də…

Süfrə yığışdırılandan sonra Yusub əmi intizar dolu gözlərini Rəhim müəllimə zillədi:

– Ədə, danış görüm neyniyə bildin... Bağrım çatdayır e… Xəbərin yoxdu, məktəbdə o çaqqal sürüsü toy-bayram edir, çildiri-bistiri vururlar e…

Rəhim müəllim prokurorla söhbətini təfsilatı ilə danışdı. Yusub əmi belini sürahiyə söykəyib dərindən nəfəs aldı.

– Ədə, bunu səhərdən de də, canım çıxdı axı, – deyə dəsmalını çıxarıb boyun-boğazının tərini sildi, damağına bir “Avrora” qoyub yandırdı. – Bu şüllüyçülər də gəlib lövbərlərini salıblar bura, durmaq da istəmirlər. Elə bil kök atıblar yerə. Bu müddətdə mən nələr çəkdim, nə qədər hicran ayaqladım, bir olan Allah bilir. Hər şey o yana qalsın, bu prinsip məsələsidir, kişi gərək prinsipial olsun. Bilirsən, nə qədər tamaşaya durub sevinən var, nə qədər əlin qızdıran var?.. Bunlar da gəlib oturub loppaz-loppaz danışmaqdan başqa bir şey bilmirlər. Elə bil əllərindən bir iş gəlir. Yanasan, üstüvə bir qaşıq su atmazlar, – deyə sönmüş papirosunu yenidən yandırıb dərindən qullab vurdu.

– Əşşi, hayana dönə, qohum-əqrəbədi də, ürəkləri yanır ki, gəlirlər də… – Rəhim müəllim dilləndi.

– Nəəə... Əhhh... keçmə də sənin də bu ürəyiyuxalığından. O saat suya gedirsən, inanırsan e... Əvvəla, o gələnlərin içində elə bilirsən sevinən yoxdu?... Vallahi, paxıllıqdan partlayanları var. Qaldı ki, qohum-əqrəbalığa, qohum-əqrəba belə gündə tanınır də... Biri ağzından qıfıl götürüb dedi ki, bəlkə bir şey lazımdı, bizim köməyimizə nə ehtiyac var?.. Deməzlər axı... Hamısı Kufə əhlidi. – Yusub əmi bir az da coşdu.

– Əşşi, yazıqların nəyi var e, nə də umaq olardan. Vəzifələri yox, pulları yox. – Rəhim müəllim yenə də sülh yaratmağa çalışdı.

– Necə, pulları yoxdu? Sən öləsən, götürüb çırpasan, bilirsən nələr tökülər onlardan? Onnarın pulları səninkindən, mənimkindən qat-qat çoxdu. Di gəl ki, adam döyüllər. Az eləyibsən onnarçün? Hansıyçün eləməyibsən? Qəfil asqıran kimi, kəsdiriblər qapının ağzını. Bu prokuratura, o milisiya, bu voyenkom, o qoskontrol... Hansını deyim? İndiyəcən birindən bir köpük umubsan?.. – Yusub əmi yenə də qəzəblə dedi.

– Əşşi, Allah məni heç vaxt onnara möhtac eləməsin. – Rəhim müəllim ciddiləşdi.

– Allahın köməkliyilə eləməz də. Sən kişi oğlu kişisən... Mən yaxşı bilirəm, onnarın milyonu da olsa, sən onnardan ucadasan, varrısan. Səni Allah belə yaradıb. Mərd, dönməz, yenilməz, uca. Sən elə-belə İrəhim müəllim olmamısan ki... Bütün aləm səni belə tanıyır. İntəhası, noolar, cannarı çıxar gəlib yalannan da olsa, deyərlər ki, əmioğlu, bəlkə bizim köməyimizə bir ehtiyac var?.. Dilləri lal olar?..

Nə isə, Yusub əmi çox asıb-kəsdi, çox adamın qarasınca deyindi, çox adamı yamanladı, sonra qəfil soruşdu:

– Dördə razılaşdız?..

– Hə, – deyə Rəhim müəllim konkret cavab verdi.

– Əlində-ovcunda bir şey var?.. – Yusub əmi aşkar maraq göstərdi.

– Hə, iki min ehtiyatım var. Saxlamışdım ki, bu oğlanın (Həsəni göstərdi) maşınını təzələyək. İndi iş gəldi oldu belə. Nə isə, maşın qaçmır, sonra da ala bilərik, əsas iş budu. Gərək sabah günortayacan iki də tapım ki, söz danışıqdan keçər. – Rəhim müəllim nəzərlərini yerə dikdi. – Çox adam var e, ağız açmaq olar, amma özümü sındırmaq istəmirəm. Bir də ki, bu ərəfədə kimdən borc istədin, biləcəklər ki, nəyə görə lazımdır. Mən də çalışıram ki, sirrimiz faş olmasın. Bilsələr ki, kişini pulnan buraxdırmışıq, rayonda tamam nüfuzdan düşərik, gücsüzlüyümüz üzə çıxar...

Rəhim müəllim bu sözləri deyib susdu, bir qədər fikrə getdi.

– Tamamilə düz deyirsən, sənnən min faiz razıyam, özümüzü sındıra bilmərik. – Yusub əmi də fikirli-fikirli Rəhim müəllimin sözünə qüvvət verdi.

Həsən fürsətdən istifadə edib dedi:

– İrəhim, bəlkə Mikayıla ağız açaq?.. Az eləməyibsən ki, onunçün...

– Kimə, – Rəhim müəllim tapança kimi açıldı. – Bilsəm ölürəm, onun bir qara köpüyüynən diriləcəm, ondan da imtina edərəm. Mikayıl da kişidi? Kölgəsindən qorxan yaramazın biridi. Tüpürüm onun varına da, dövlətinə də... O var-dövlətdən kimə nə fayda? Atasına xeyir verməyən köpəyoğludur. Sizin xəbəriz yoxdu, bu qəzet məsələsi çıxan kimi maşın göndərib arvad-

uşağını yığıb aparıb rayondakı evinə. Elə bir təəssürat yaradıb ki, guya bu, kənddə yaşamır, çoxdan rayonda olur. Odur ki, heç nədən də xəbəri yoxdu. Birdən bunun vəzifəsinə xələl gələr, deyərlər ki, vəzifəli adamsan, sənin gözünün qarşısında dini fanatizmnən məşğul olurlar, sən də susursan. Uzaqgörənlik eləyir də, özlüyündə. İndi sən də deyirsən, gedib belə yaramazdan borc istəyim?..

Yusub əmi qalxıb şəstlə Rəhim müəllimi qucaqladı, o üzündən, bu üzündən dönə-dönə öpüb dedi:

– Dilivə qurban olum, de, dedikcə ürəyimdən tikan çıxardırsan. And olsun o gözəl Allahın izzəti-cəlalına, nəslin qızıldı. De, dilüvə qurban olum, de... Yaxşı deyirsən. Vallah, bu el-obada baş kişisən... Allah səni həmişə var eləsin. Düz deyirsən, adam yıxılıb ölər, amma Mikayıl kimi nadürüstün qapısına getməz.

Həsən bərk pərt oldu, dili dolaşa-dolaşa:

– Mən nə dedim ki?.. Dedim el-oba adamıdı də... Həmişə də xeyir görüb bizdən...

– Ona görə, bilmədiyin şeyi danışma. – Rəhim müəllim əsəbi şəkildə qardaşını danladı.

Çəkən olmasa da, Rəhim müəllim bir “Avrora” alışdırıb qoydu damağına.

Həsən əsəbiləşdi, Rəhim müəllimə irad tutdu:

– Ədə, İrəhim, bu nədi, ədə, itir o yana e, bu papirosu, – dedi.

Yusub əmi etiraz etdi:

– Dəymə, ədə, qoy çəksin... Yorğunnuğun çıxartsın.

Araya yenə də üzücü bir sükut çökdü. Rəhim müəllim çəkdiyi papirosu yarımçıq söndürüb sükutu pozdu.

– Həsən, o kişinin axı başqa pulu da olmalıydı, – Rəhim müəllim şübhəli-şübhəli soruşdu.

– Yooox, İrəhim, dünya ətlə-qətlə gedə, ona əl dəyə bilmərik. Bə bilmirsən, o, məçidin puludu? Götürsək, sonra o kişinin qabağında dayana bilərik?.. Vallahi, tufan qopardar, qılınc-qırğına verər bizi... – Həsən bir az pauza verib fikrini tamamladı. – Üstəlik, yerini də bilmirik a... Harda gizdədibsə, özünnən başqa heç kim yerini bilmir. O biri pulu budeee, burdaydı, həsirin altında, hamı da bilirdi. Lap bildik... Yooox, mən yerini bilsəm də, ona yaxın düşəmmərəm...

Yenə araya üzücü bir sükut çökdü. Gecə yarıdan ötürdü... Ay da bulud kimsəsizliyində vurnuxurdu. Tənbəl-tənbəl gah bulud çarşabına bürünürdü, gah da üzə çıxırdı. Həsən nəsə tapıbmış kimi, uşaq sevinciylə qəfil səsləndi.

– Eeee... Mənim də yadıma ox batsın. Yaddaş qalıb ki?.. Bu dağ kəndində, Şıxlar tərəfdə bir dostum var, xozeyin adamdı, varı-dövləti başından aşır. Sürüynən mal-qarası, əkin-biçini... Həm də kömür işinə baxır. Ənhar meşədi də, əlli yerdə kömür basdırır, yaxşı da qazanır. Sağlığına qismət, hər şeyi də var...

Rəhim müəllimin dinləməyə hövsələsi çatmadı, bir az əsəbi şəkildə:

– Yaxşı, sənin dostunun bu işə nə dəxli var?..

– Elə onu deyirəm də, – Həsən həvəslə yenə də sözünə davam etdi. – Həmişə deyir ki, nə vaxt pul lazım olsa, utanma, mənə de. Ötən dəfə soruşdu ki, niyə maşını təzələmirsən? Dedim pul var e, başından bir az kəmdi. Bir

min-iki min çatmır, cibindən şəstlə bir paçka onnuq çıxardıb atdı bardaçoka. Dedi, yenə, nə qədər lazım olsa, deyərsən. Havaxt əlüvə düşər, qaytararsan. Mənim hələ ki, ehtiyacım yoxdu. Pulu bardaçokdan götürüb zornan soxdum cibinə ki, əşşi, hələ lazım döyül. Ehtiyac olanda, deyərəm. İndi gecdi, sabah tezdən gedib ondan min manat alaram.

Rəhim müəllim şübhəylə Həsəni süzdü:

– Dəqiq deyirsən?.. İndiki adamlara etibar qalmayıb e, bu gün dediyini sabah danır, – deyə sual dolu baxışlarını Həsənə dikdi.

– Əşşi, yox e, – Həsən inamla davam etdi, bu, sən deyənnərdən döyül. Bu, ayrı cür adamdı e… Səni də uzaqdan-uzağa tanıyır, hörməti var, Allah qoysa, tanış eləyərəm sizi. Ürəyini buz kimi saxla, sabah min manat mən gətirərəm.

Yusub əmi də sanki Rəhim müəllimi inandırmaq üçün sözə qoşuldu.

– Ədə, ta ağzında bir Qurannıq söz danışır. Arxayın olmasa, deməz ki,.. Uşaqdı bəyəm?..

– Bə nə adnan alacaqsan? – Rəhim müəllim yenə şübhəli nəzərlərlə Həsəni süzdü.

– Əşşi, deyəcəm, lazımdı də… Lap elə deyərəm təzə maşın var, beh verəcəm. – Həsən inamla cavab verdi.

– Yooox, aldatmaq olmaz… Ayıbdı. Maşın almayanda, onda nə cavab verəcəksən?.. – Rəhim müəllim fikirli-fikirli dedi.

– Əh, sən də bu vasvasılığınnan əl çəkmədin də, – Həsən ərköyüncəsinə böyük qardaşına irad tutdu. – İrəhmətliyin nəvəsi, camaat dəvəni dəngə verir, bu da durub nəyin fikrin çəkir. O, elə çürüyçü adam döyül e, mərd kişidi. Deyəcəm, belə, mənə lazımdı. O da heç nə soruşan, vəçinə-vüçünə gedən döyül e… Sən narahat olma.

– Nə deyirəm, kor nə istər, iki göz, biri əyri, biri düz. Əsas odur ki, iş düzəlsin, biabır olmayaq. – Rəhim müəllim yenə də Həsənə şübhəli-şübhəli baxdı. – Deyirsən yəni arxayın olaq?..

– Dedim min faiz e… Ürəyini buz kimi saxla. – Həsən yenə inamla səsləndi.

– Hə, lap yaxşı, işdər yoluna düşdü. Dur, rahat yıxıl yat. Sabah işimiz çox olacaq. – Yusub əmi əmin-arxayın dedi.

– İşlər necə düzəldi, min manat problemi də var axı… – Rəhim müəllim nigarançılıqla ora-bura döyükdü.

– İrəhmətliyin nəvəsi, mağazin-zaddı, bəlkə, üstünə qiymət yazıb qoyublar? Denən, elə bunu düzəldə bildim, yoxdu. Lap bərkə düşsə, deyərsən ki, elə bil borclu qaldım, sonra çatdıracam. Üç min az puldu, getsin papağını atsın göyə, – Həsən şən əhval-ruhiyyə ilə məsləhət verdi.

– Yooox, Həsən, sənin ağlın elə oracan kəsir. Mən yolnan keçən gədə-güdə döyüləm axı. Mənim özümə görə adım-sanım var. Mən burda bir söz, orda başqa bir söz danışan olsaydım, bu ad-sanı qazana bilməzdim. Mən kişiyəm, sözümü yeyə bilmərəm. Haq-nahaq, ağzımnan çıxıb, aparıb verməliyəm, – deyə Rəhim müəllim Həsənin iradına iradla cavab verdi. Bir az susub sözünü yekunlaşdırdı. – Yusub əmi, gecdi, sən də dur get evə, bir az dincəl. Sabaha çox var hələ, Allah kərimdi, – deyib ayağa qalxmaq istədi.

Bu heyndə Yusub əmi inamla dilləndi:

– Sənə dedim axı, get kəlləni at yerə, rahat yat. Min çatmır? O da məndə. Neçə müddətdi cöngəni satmışdım, bir köpüyünə də əl dəymədən saxlayırdım. Bilirsən də, o ortancıla payızda toy eləmək istəyirəm. Toy qaçmır ki… Lap bərkə düşsə, bu il olmasın, gələn il elərəm!.. – dedi. – Sonra üzünü Həsənə tutdu. – Gedək bizə, verim gətir. Sən də arxayın yıxıl yat! – Rəhim müəllimə tərəf çevrildi.

Rəhim müəllimin üstündən elə bil dağ götürüldü, kövrəldi, bərk mütəəssir oldu, dərindən köks ötürüb ancaq bunları deyə bildi:

– Sağ ol, Yusub əmi, ölüncən unutmaram bunu…

Rəhim müəllim necə təsirlənmişdisə, hələ bir xeyli də dayanıb xəyallandı… Yusub əminin qəfil təklifi onu qara qayğıdan qurtarmışdı. Ürəyində Allaha dua eləyirdi ki, "ey yeri-göyü yox yerdən yaradan, sənə inanmayana lənət. Heç ağlıma gəlməzdi ki, işlər belə rahatlıqla düzələ bilər. Allah işlərimizi həmişə belə avanda çəksin". Düşüncələr içində Yusub əmiyə deyəcəkləri vacib tapşırıqları da dilinə gətirdi:

– Amma, Yusub əmi, incimə, sən Allah, söhbətimiz elə burda qalsın a… Onsuz da bişərəflər çeynəməyə, şəbədə bağlamağa hazırdılar. – Rəhim müəllim dedi.

Yusub əmi bunu eşitcək, çilləşdi, qəzəbli və incik tonda etiraz səsini ucaltdı:

– Ədə, sən nə danışırsan? Nə qoyub, nə axtarırsan?.. Deyəsən sən məni hələ də yaxşı tanımırsan e… Məndən söz çıxar?.. Mən cühüd quyusu kimi dərin adamam. Nə atdım içəri, qaldı çinədanımda, çölə çıxmaz…

Rəhim müəllim Yusub əmini pilləkənə sarı ötürəndə birdən nəsə xatırlayıb ayaq saxladı. Həsənə sarı çevrilib:

– Ədə, Yusub əmiyə dedin, sabah milisə getməyi? – soruşdu.

– Vallah, baş qarışdı, heç yadıma düşdü ki?.. – Həsən günahkarcasına çiyinlərini çəkdi.

Rəhim müəllim incik halda başını bulayıb Yusub əmiyə sarı çevrildi:

– Yusub əmi, sabah sən də hazır ol, təmiz kostyum geyinib elə, prokuror dedi ki, iki nəfər də müharibə veteranı, kommunist olsun, ağsaqqalları zaminə götürsünlər. İndi ta nə eləyə bilərik? Fiikirləşdim ki, kimə deyək, elə biri sən özün olarsan. Problem olmaz ki?.. – Rəhim müəllim həlim bir ehtiyatla soruşdu...

– Ədə, irəhmətdiyin nəvəsi, hələ bir soruşursan da?.. Mən getməyib bə kim gedəcək?.. – Yusub əmi şəstlə dedi. – O biri kimi nəzərdə tutubsuz?.. – maraqla soruşdu.

– O biri də, dedik, elə Fərəculla kişi olsun. Fağır, məğmun adamdı. – Rəhim müəllim dedi və üzünü Həsənə çevirdi. – Həsən, – dedi, – ona xəbər göndəribsiz?.. – soruşdu.

– Hə, demişik. Adam göndərdim ki, heç yerə getməsin, yaxşı geyinibkeçinsin, sabah bizə lazım olacaq, rayona gedəcəyik. Dalınca gələcəm. – Həsən məlumat verdi. – Deyib ki, əşşi, hara çıxıram ki, qoca kişiyəm, evdə olacam. Havaxt istəyirlər, gəlsinlər.

Yusub əmi üz-gözünü turşutdu, hiss olundu ki, söhbət onu açmadı.

– Allah sənə kömək olsun, İrəhim müəllim, adam tapmadız?.. Ədə, onun heç adam içinə çıxarılması var ki?.. Saç-saqqal basıb onu, it günündədi. Cununa oxşayır, özü də curumdu, qarnının gurultusu bir günlük yola gedir, adam biabır eləyəndi. İtir o yana e, onu, başqa bir adam yoxdu? – Yusub əmi açıq-açığına etiraz etdi.

– Vallah, neyniyək, kənddə belə bir ülgüyə gələn başqası yoxdu də… Prokuror da dedi ki, müharibə veteranı olsun, özü də mütləq kommunist. İkinizdən başqa beləsi yoxdu… – Rəhim müəllim günahkarcasına dilləndi. Sonra da bir az fikirləşib təbəssümlə dedi: – Bir də ki, əşşi, saçı da, saqqalı da, cunnuğu da qoy qalsın özüyçün, onu sərgiyə aparmırıq ki?.. Qarnı da özü bilər, nə qədər guruldayır, qoy guruldasın. Onsuz da sənədlər hazır olacaq. Eləcə, bir dəqiqəlik qol çəkib çıxacaqsız. – Rəhim müəllim gülə-gülə dedi.

– Nə deyirəm vallah, köpək oğlu, belə beçort adamdı e… Eşşək oğlu, özü də nə qanır, nə qandırır. Belə, elə bil bu saat meşədən tutub gətiribsən e… Qulağının, burnunun tükünü qırxsan, bir dənə balış düzəltmək olar. Vallahi, indi də inana bilmirəm ki, bu heyvan Berlindən belə, necə gəzib-dolaşıb gəlib. Həyasız oğlu həyasızın, dokumentdəri yəqin fiktivnidi e…

– Dokunentdərini bilmirəm, saç-saqqalı sabaha hazır olacaq. Dəllək Babaşa tapşırdım, cibinə də bir üçlük basdım, dedim get axşam, onun başını-gözünü sahmana sal. Əsas da tapşırdım ki, burnundan, qulağından çıxan tükləri ütüb təmizdə. – Həsən gülə-gülə dedi. – Vallah, Yusub əminin sözdərini qəribçiliyə salmaq olmaz. Köpəyoğlunu görəndə adam üşənir e… Elə bil cəhənnəmdən bezbilet çıxıb.

– Əşşi, nə olur-olsun, sabahı yola verək, getsin, ondan sonra Fərəcullaynan-mərəcullaynan nə işimiz?.. Hər kəs öz həyatını yaşayır də… – Rəhim müəllim danışa-danışa Yusub əmiylə Həsəni yola saldı, özü də qayıdıb acı-arxayın yorğan-döşəyə girdi.

* * *

Ağsaqqallar çaşbaş qalmışdılar, mahiyyətini hələ də düz-əməlli kəsdirə bilmirdilər. Bu nə tutatutdu, maşına doldurub onları hara aparırlar?.. Nə xəta törədiblər, kimin çəpərini basıblar, kimin toyuğuna daş atıblar?.. Kimin ayağı altını qazıblar, kimin başına daş salıblar?.. Ha götür-qoy eləyir, seçib-sonalayıb bir yerə çıxara bilmirdilər.

Maşından düşən kimi, yüngül meh vurdu. Hamısı bir ağızdan “oxxxay”, – dedi. Elə bil yüz ilmiş yel-hava görmürmüşlər. Əvvəl-əvvəl gözləri bir xeyli qamaşdı. Qaranlıqdan çıxdıqlarından hələ harda olduqlarını bir müddət kəsdirə bilmədilər. Onları dar, balaca bir otağa saldılar. Üfunətdən baş çatlayırdı. İsti də bu yannan. Skamyaya bənzər qəribə oturacaqlar vardı. Yorulduqlarından çar-naçar oturmalı oldular. Hüseyn kişi yarışübhə, yarımaraq dolu gözlərini Əli kişiyə tutub dedi:

– Əli, sən bilərsən, bizi nöşün danaboyun eləyib gətirib soxdular bura? Ha fikirrəşirəm, vallah, bir yerə yoza bilmirəm. Belə, adamın fikri min yana gedir e...

– Mən də sənin kimi, nə bilim, ovcumun için iynəmişəm? Bu hökumətin işdəklərindən baş açmaq olur ki?.. Onsuz da heç nəyin üstündə adamın afanağını kəsirlər. Mən ölü, siz diri, indi görəcəksiz, axırda məlum olacaq ki, bizi heç nədən gətirib salıblar bura. İt gəldi, örkən apardı. – Əli kişi əsəbi şəkildə dedi.

– Yooox, görünür, nəsə var, səbəbsiz iş olmaz. – Şıx Qasım da söhbətə qoşuldu.

– Deyirəm də, səbəb noolacaq?.. İt gəldi, örkən apardı. – Əli kişi yenə də qəzəblə söyləndi.

– Ədə, bə nöş elə bizi, dördümüzü tutub gətiriblər?.. Bu da müəmmadı. – Şıx Qasım fikirli-fikirli soruşdu.

– Vallah, mənim qulağım belə çaldı ki, kişilərin hamısını yığıb gətirməliymişlər. İntəhası, girlərinə keçən biz olmuşuq. – deyə Qulamhüseyn də söhbətə qoşuldu.

– Ədə, dəngüş-dəngüş danışma e… – Əli kişi sərt şəkildə onun sözünü kəsdi. – Saqqal tərpədib bu da söz danışdı. Yox bir, kişilərin hamısını, – deyib onun ağzını əydi. – Neynirlər kişilərin hamısını, gözdərinə soxurlar?..

Araya müdhiş bir sükut çökdü. Hamısı ürəyində dağı arana, aranı dağa daşıyırdı. Əlac nəydi, gözləməliydilər işin sonunu. İçərinin kəsif havası qəfil müsafirləri boğurdu. Yeganə pəncərə isə bərk-bərk bağlıydı. Əli kişi Qulamhüseynə ərklə təpindi:

– Ədə, Qulam, dur o pəncərəni aç, heç olmasa bir yüngül nəfəs alaq də…

Qulamhüseyn durub xeyli əlləşdi, amma pəncərəni aça bilmədi.

– Əli əmi, deyəsən bu, heç ilahi-qiyamətdən açılmayıb e. – Qulamhüseyn günahkarcasına çevrilib Əli kişinin üzünə baxdı.

– Əh, sən də… İş görən döyülsən e… – Əli kişi əsəbiləşdi.

– Ədə, qapıdakı milisəneri çağır, qoy açsın də… Heyvan kimi təpiblər bizi bu qəhələ, heç olmasa, hava alaq də… – Bunu da Şıx Qasım dedi.

Qulamhüseyn qapını döyəsi oldu. Daş divarlar nə qədər sərin olsa da, bürküdən ürək bulanırdı… Milisioner qapını açdı… Məsələdən halı olanda, qətiyyətlə dedi ki, o pəncərə açılmır. "Onda qapını açıq qoy", – deyəndə, – "Yox-yox, qapını açıq qoya bilmərəm. Ustava ziddi…" – dedi. Sonra da əlavə etdi:

– Əşşi, bir az dözün, onsuz da indi müstəntiqin yanına aparacaqlar, – dedi.

– Həəə… balam, deyəsən iş yoğunuyur?.. – Hüseyn kişi dərindən köks ötürdü.

– Müstəntiq olanda noolar ki?.. Adamyeyəndir?.. – Əli kişi yenə əsəbi dilləndi.

– Sən hardan biləsən, mənim başım çəkib axı… Gördüyümü görmüşəm… Bu silistçilər ki, var ha… əzrayıldan betərdilər… Gözdər olsun, görməsin. Allah düşmənimə də qismət eləməsin.

– Əh, sən də, di bir qoy görək e… Çox da şişirtmə, – deyə Əli kişi işgüzarcasına ora-bura boylandı, dodaqaltı mızıldandı. – Ədə, burda təmiz bir yer tapılmayacaq, namazımı qılmamışam e, mən… – nigaran-nigaran dedi.

– Biz qılmışıq, – Hüseyn kişi əmin-arxayın dilləndi və əlavə etdi. – Əşşi, dünya dağılmayacaq ki? Sonra qəzasın qılarsan də…

– Əşşi nöşün e... vaxt varkən elə qılım də... – deyə Əli kişi yenə də işgüzarlıqla ora-bura boylandı. – Ədə, – Qulamhüseynə müraciət etdi, – gör bir qarış quru yer tapa bilərsən?.. Quru yer mındar olmaz.

Otaq başdan-başa nəm içindəydi. Xeyli axtarıb axır ki, pəncərə tərəfdə, günvuranda bir əlçim quru yer tapdılar. Əli kişi axır ki, kəmali-səliqəylə namazını qıldı.

– Səhərdən dilimə su da dəyməyib, ipliyim üzülür acından, – Şıx Qasım üzüntülü səslə dedi. – Burda da elə simsar adam yoxdu ki, ərk eləyib bir şey istəyəsən...

Əli kişi qurdalanmağa başladı. Ciblərini axtarıb səssiz-səmirsiz bükülü çıxartdı.

– Elə bilirsən, biz cücə-plov yemişik?.. Hamımız eyni gündəyik də... Hələlik bunu yeyin, sonrası Allah gərimdi, – deyə Əli kişi cibindən çıxartdığı bükülünü açıb iki ədəd pryanniki ortaya qoydu. İki bölüb dörd tikə elədi, hərəyə bir tikə verdi. – Bir tikə dağ aşırar, deyərlər, bir dişdək olsa da atın ağzınıza, ürəyinizə heç olmasa yüngül də olsa quat gəlsin...

Qismətlərini hələ heç yeyib qurtarmamışdılar ki, qapı açıldı, milisioner başını içəri salıb:

– Gəlin, müstəntiq sizi gözləyir, – dedi və qapını geniş açıb dayandı.

...Müstəntiq otuz-otuz beş yaşlarında orta boylu, arıq, caydaq cavan bir adam idi. Özünü çox ciddi aparmağa çalışırdı. İçəri girən ağsaqqalların salamını düz-əməlli almadı, başını yüngülcə tərpətməklə kifayətləndi. Milisioner sanki onun əvəzinə qocalara yer göstərdi. "Burdan əyləşin", – dedi.

Müstəntiq özünü çox məşğul göstərirdi. Cidd-cəhdlə makinada şaqqaşaraq salıb nəsə yazırdı. Otaqda cansıxıcı bir sükut yaranmışdı. Getdikcə bu sükut qurğuşun kimi ağırlaşır və qocaları məngənə kimi sıxırdı. Arabir məlul-müşkül bir-birinə baxır, sanki nə etmək lazım olduğunu baxışlarıya kəsdirmək istəyirdilər. Açıq-aşkar görünürdü ki, bir gərgin situasiyanı müstəntiq qocalara təsir mexanizmi kimi özü qəsdən yaradırdı. Əslində burada vəziyyət eləydi ki, süni təsir mexanizminə heç ehtiyac da yoxdu. Əvvəla, açılması qeyri-mümkün görünən gizli bir cinayət faktı yox idi ki, nəsə bir qurğu qurub "cinayətkarlar"dan müəyyən bir sirr öyrənəsən. Hər şey açıq-aydın, məlum, göz qabağında...

Bu kimsəsiz və biçarə qocalardan onsuz da nə soruşsan, yerli-yataqlı cavab verəcəkdilər. Dediyimiz kimi, ortada ciddi bir kriminal da yoxudu. Üstəlik də bu qocaların təmiz qəlbli, biclik, hiylə bilməyən sadə adamlar olduğu üzlərindən də, baxan kimi bilinirdi. Heç sual vermədən də hər şeyi özləri açıb danışardılar. Sadəcə, bu, müstəntiqin adı bir idiotizmi, peşə xəstəliyi idi.

Handan-hana müstəntiq yazısına ara verib oturduğu stulun arxasına yayxandı, dərindən gərnəşdi və yenə də ciddi görkəm alıb dedi:

– Həəə... Deyirsiz başlayaq?..

Ağsaqqallardan səs çıxmadı. Deyiləsi bir sözləri də yox idi axı. Desinlər başlayaq, axı bu onlara aid olan iş deyildi, başlamayaq, bunu da onlar həll eləmirdi. Müstəntiq xeyli qurdalanıb, axır ki, kağız topasının arasından bir vərəq çıxardı, əlində xeyli sanballadı və axır ki, insafa gəlib oxumağa başladı.

– Qasımov Əli Həsən oğlu, Talıbov Hüseyn Talıb oğlu, Rəhmətov Qasım Rəhmət oğlu, Quliyev Qulamhüseyn Hüseyn oğlu… Sizsiz?.. – Şübhəli-şübhəli soruşdu.

– Bəli, bizik, – ağsaqqallar bir ağızdan xorla cavab verdilər.

Müstəntiq yenə sual verdi:

– Bilirsiz, sizi niyə bura gətiriblər?..

Hamının əvəzinə Əli kişi cavab verdi.

– Biz nə bilək?.. Deyərsiz, bilərik də… – dedi.

Müstəntiq dinmədi. Bir xeyli susdu. Hiss olundu ki, Əli kişinin cavabı onu açmadı.

Sonra əlindəki vərəqi bir xeyli də ora-bura çevirdi, əvvəlinə baxdı, axırına baxdı, dönüb arxasına nəzər yetirdi. Elə bil nəsə itirmişdi, axtarırdı. İntizardan qocaların ürəyi çəkilirdi. Amma səbrlə dözürdülər. Əli kişi kəmhövsələlik etdi, səbrini basa bilməyib soruşdu:

– Ədə, bala, bizi bura nöş gətiribsiz? Biz bekar adam döyülük e… min dənə dərd-sərimiz var. Sözünü de, başımızın ağrısını bilək də…

Müstəntiq əsəbiləşən kimi oldu:

– Əvvələ, mən nə ədəyəm, nə də bala. Mən burda müstəntiqəm, siz də şübhəli qismində saxlanılmış şəxslər. Dövlət adamına müraciət formasını bilmirsinizsə, onu da sizə öyrədərəm. Mənə ya yoldaş müstəntiq, ya da yoldaş Səfərov deyə müraciət edə bilərsiniz. Bildiz?..

Müstəntiq əlindəki kağıza yenə bir nəzər salıb, axır ki, rəhmə gəlib dedi:

– Qasımov Əli Həsən oğlu… – Sonra da başını qaldırıb nüfuzedici nəzərlə qocalara baxdı. – Hansınızdı Əli? – deyə soruşdu.

Əli kişi oturduğu yerdən qalxmadı. Müstəntiqin hərəkətləri onda tədricən ikrah hissi doğururdu, odur ki, yerdəncə cavab verdi:

– Mənəm, – dedi və laqeydcəsinə kənara baxdı.

Müstəntiqin üzündə saxta bir təbəssüm yarandı.

– Həəə… belə de! Bandanın başçısı sənsən demək? – Müstəntiq şit-şit irişdi.

Əli kişini əsəbdən əsməcə tutdu, bədənindən qəribə bir gizilti keçdiyini hiss etdi. Qəzəbini boğa bilmədi, müstəntiqin üstünə şığıdı:

– Nə dedin, nə dedin? Qulağım yaxşı çalmadı, onu bir də de!

Müstəntiq Əli kişinin hücumundan diksindi, özünü itirən kimi oldu. Damar Hüseyn Əli kişinin böyrünü dümsükləyib sakitləşdirməyə çalışdı. Əli kişi şəstlə onun əlini yana itələyib eyni tonda davam etdi.

– Əbləh adam, səhərdən ağına-bozuna baxmadan elə naqqallayır, tapdeyib keçirsən üstümüzdən, Allahın quru salamı nədi, onu da almağı çox görürsən bizə. İndi də başdayıb banda belə gəldi, banda belə getdi. Sən öləsən, əzrayıla can vermərəm, qalmışdı sənin kimisi ola. Sənin kimilərin o qədər görmüşəm ki… Mən səninçün oğruyam, qulduram, yolkəsənəm, çapovulçuyam – nəyəm, mənə banda deyirsən. Banda yaxşı şeydisə, özün ol də… banda başçısı…

Əli kişi danışdıqca coşur, coşduqca özündən çıxırdı. Köynəyini yuxarı qaldırıb sinəsini açdı, cəsarətlə müstəntiqin üstünə yeriyib dedi:

– Yox e… canımı almaq istəyirsən al, öldürmək istəyirsən öldür. Onsuz da o gözəl Allaha bir can borcumuz var. Elə bilərəm mən də bir şəhidəm, İmam

Hüseyndən artıq kişi olacam?.. – deyib durdu. Bir-iki kəlmə də söylənəndən sonra qayıdıb yerində oturdu. Oturduğu yerdə də dodaqaltı donquldanmağında davam etdi.

– A yoldaş, sən deyəsən dava axtarırsan, qan-qan deyirsən ki!.. – Müstəntiq çaşqın nəzərlərlə qocalara baxdı. – Bunun, deyəsən psixoloji problemi var... Mən buna nə dedim ki, bu ağsaqqal özündən belə çıxdı?.. Vallah, bu adam şər-xatadı e, deyəsən? Mən adam öldürənə oxşayıram?.. Mən müstəntiqəm, xidməti vəzifəmi yerinə yetirirəm. Söz də soruşmamalıyam? Bir sözdü də, oldu getdi... – deyə yenə də gah qocalara, gah da ora-bura boylandı. Elə bil nəsə, özünə kömək axtarırdı. Şıx Qasım gərginliyi yumşaltmaq mənasında müstəntiqə işarə vurdu və astadan dedi:

– Ona fikir vermə, işində ol. Görmürsən, biz də onnan pişim-pişimlə keçinirik?..

Müstəntiq söhbətin bu yerə gəlib çıxacağını ağlına belə gətirməzdi. Əli kişinin cəsarəti onu əməlli-başlı sarsıtmışdı. Amma geriləmək də olmazdı. Özünü bir balaca ələ alıb o da hücuma keçdi.

– Vətəndaş, danışığına, davranışına fikir ver. Bəlkə elə bilirsən kənddə tay-tuşuynan söhbət eləyirsən? Unutma ki, sən dövlət idarəsindəsən, rəsmi dövlət adamının, müstəntiqin qarşısındasan, – dedi.

Əli kişi də ayaq geri qoymadı:

– Məni avam hesab eləyirsən? Bəlkə üstümüzü unnu görüb adımızı dəyirmançı çağırırsan, həy?.. Mən yaxşı bilirəm hardayam. Onu sən bilmirsən. Müstəntiqsən deyə, canımızı alacaqsan? Günahımız var, ver cəzamızı. Yoxsa, səhərdən bir burun-tırın, bir naz-qəmzə, elə bil qapına çörəyə gəlmişik? Bura sovet hökumətinin ən hörmətli idarələrindən biridir. Camaat da, gəlib-gedənlər də burada hörmətlə qarşılanıb yola salınmalıdır. Sənin kimilər o hörməti nifrətə çevirirlər...

Əli kişi ürəyini boşaldıb susdu. Bir anlıq gərgin və üzücü sükut yarandı. Müstəntiq gördü yox, daş qayaya rast gəlib. Qocanın savadlı danışığı onu lap çaşdırdı. Bir az xəyallandı və axırı ki, sükutu pozub dilləndi.

– Həəə... ölmədik, bu günü də gördük... Hər cinayətkar ünsür gəlib bizə belə-belə moizələr oxusa, əxlaq, tərbiyə dərsi versə, onda işimiz düppədüz olar...

Müstəntiq bir az da susub sonra davam etdi:

– Nə isə, Allah şeytana lənət eləsin. Ağsaqqal adamsan də, noolar? Lap məni təhqir elə. Hesab eləyərəm ki, ağsaqqaldı, haqqı çatır, – deyib ab-havanı yumşaltmağa çalışdı. – Bilirsiz, bura niyə dəvət olunubsuz?.. – Cavab gözləmədən davam etdi. – Siz qanunu pozubsuz, sovet qanunlarının əleyhinə gedibsiz. Məscidə yığışıb dini fanatizmi təbliğ etməyiniz bir yana, hələ üstəlik azan da verirsiz, özü də gecə yarısı, zəhmətkeşlərin istirahətini pozursuz. İndi bildiz də niyə burdasız?..

– Həəəə... – deyəsən, xoruzun quyruğu yavaş-yavaş görünür axı... – Əli kişi dodaqaltı pıçıldadı.

Müstəntiq onun pıçıltılarına məhəl qoymadan sözünə davam etdi:

– İndi də, vətəndaş Qasımov Əli, mənim suallarıma cavab ver, – deyib makinada yenə nəsə şaqqıldatı. Sonra əl saxlayıb soruşdu:

– Nə vaxtdan bəri namaz qılıb oruc tutursan?.. Amma düzünü de, – müstəntiq sınayıcı nəzərlərlə Əli kişiyə diqqət elədi.

– Əvvəla, mənim dilimə heç vaxt yalan söz gəlməyib. Bax, Allah şahidləri burdadı, – əliylə tay-tuşlarını göstərdi. Onlar da başlarını yellətməklə bir ağızdan dillərinə gətirməklə təsdiq etdilər. – İndi durub ağsaqqal vaxtımda yalan danışıb bu dünyam cəhənnəm, o dünyamı yandıracam?.. Üstəlik də burda nə var ki, məni asmırlar, kəsmirlər, – deyib müstəntiqə baxdı.

Hiss olunurdu ki, müstəntiqin əsəbləri tab gətirmir. Ha çalışırdı ki, hisslərini cılovlasın, olmurdu ki, olmurdu. Əli kişi hər dəfə nəsə tikanlı bir söz deyib ovqatına soğan doğrayırdı. Ürəyində onu işə saldığı üçün prokuroru lənətləyirdi. Özü də yaxşı bilir ki, burda heç nə yoxdu, amma bir ucdan deyir ki, möhkəm, ciddi yanaş. Nəyə ciddi yanaşım? Nə qədər artistlik eləmək olar? Nəsə, müstəntiq bir az da rəsmi görkəm alıb dedi:

– Sualıma cavab ver!.. Xahiş edirəm, artıq-əskik söhbətlərə yol verməyəsiniz.

– Gözümü açandan evimizdə "Allahu Əkbər" səsi eşitmişəm, hamını namaz qılan, oruc tutan, ibadət eləyən görmüşəm. Mən də eləcə o vaxtlardan, cavannıqdan oruc tutub namaz qılıram. Heç yadıma gəlmir neçə yaşım olardı. Nədi, yaşın bu məsələyə dəxli var? – Əli kişi də öz növbəsində sual verdi.

– Sualı burda mən verirəm, vətəndaş, – müstəntiq özünü bir az da boğdu.

– Ver, noolar?.. Allah canuy sağ eləsin. – Əli kişi yüngül sezilən bir istehza ilə dilləndi. – Elə, əsl sual verən vaxtındı…

– Bəs bu, nə vaxtın işidir? – müstəntiq yenə ironiyanı udub növbəti sualı verdi.

Əli kişi də suala sualla cavab verdi:

– Nə nə vaxın işidir?.. Nəyi soruşursan?..

– Azan məsələsini deyirəm, – müstəntiq sualı dəqiqləşdirdi. – Nə vaxtdan məsciddə azan verirsiz? Hələ, üstəlik bir – istehza ilə gülüsmündü, – reproduktor vasitəsilə aləmə də car çəkirsiz… Gecələr də camaatı yatmağa qoymursuz, – deyib əlindəki qəzeti havaya qaldırdı. – Sərgüzəştlərinizin hamısı bax, burda yazılıb. – Müstəntiq candərdi irişdi.

– Aləmə car çəkəndə noolar ki?.. Azan Allahın səsidi, elə hamıya çatmalıdı də… – Əli kişi bəyan elədi. – Bir də… O nə qəzetdi elə?.. – Əli kişi nigarancasına soruşdu.

– Xəbəriniz yoxdu?.. – Müstəntiq qəzeti qaldırıb baxmağa başladı. – Sizdən yazıblar… Sizin gecə azan verməyinizdən.

– Bizim azanın qəzetə nə aidiyyəti? – Əli kişi təəccüblə səsini qaldırdı. – Qəzetin işi-gücü qurtarıb?.. Biz küçə, qəzet küçə, yazmağa şey qurtarıb, indi Allahın namazına, azanına əl aparırlar?..

– Ta denən batdıq də, – Hüseyn kişi təəssüflə sözə qoşuldu. – Denən ta evimiz yıxıldı də… Qəzetə düşən adamı salamat buraxarlar bə?.. Mən də deyirəm görən nə eləmişik bizi tutublar? Elə ona görə tutub gətiriblər də bizi bura. – Hüseyn kişi vaysına-vaysına başını tutdu. – Əli, sənin bir xatan vardı, axırı bizim başımızda çatdadı. – Hüseyn kişi Əli kişiyə qolaylandı.

– Ədə, sən nə sızıldayırsan burda sınıq saz kimi, yekə kişisən, qəzet olmur, cəddi-abası olsun. Namaz qılmağa görə kimi indiyəcən asıblar ki?.. Ürək-

göbəyini nöş yeyirsən?.. Nə olsa, mənnikdi. Hər şeyi mən eləmişəm, sizə nə aidiyyəti var? Ürəyüvü buz kimi saxla. – Əli kişi inamla dedi. – Cəzası varsa da, mən özüm çəkərəm.

Müstəntiq yenidən mətləb üstə qayıtdı. Mədəni şəkildə dedi:

– Xahiş edirəm, suala dəqiq cavab ver, – müstəntiq yenə də ciddi tövr aldı.

– Dəqiq deyəndə ki, ötən qışdan bəri olar də… – Əli kişi müəmmalı cavab verdi. – Sonra üzünü tay-tuşlarına tutub soruşdu: – Ədə, Qaraxanın əsgərrikdən gəldiyi nə vaxt olardı?..

– Ötən ilin axırlarıydı də… O bərk qar yağan dönəmində. – Damar Hüseyn laqeydcəsinə cavab verdi.

Əli kişi üzünü müstəntiqə çevirib dodaqaltı nəsə saya-saya dedi:

– Hə də, elə belə olar... Olsa-olsa, beş-altı aydı…

– O Qaraxan kimdi?.. – Müstəntiq soruşdu.

– Qonşu uşağıdı, necə bəyəm?.. – Əli kişi yenə də suala sualla cavab verdi.

– Axtarmışıq, tapa bilməmişik... Amma uzaq gedə bilməz. O da, mantyor Gülağa da əlimizdən qaça bilməzlər. Tapıb onları da məsuliyyətə cəlb eləyəcəyik. – Müstəntiq inamla dedi.

– Nöşün balam, onlar nə günahın yiyəsidir? – Əli kişi təəccüblə soruşdu. – Savab iş görüblər, ona görə?..

– Ona görə ki, onlar da sizin günah ortağınızdı, törədilən qanunsuzluqda sizinlə şərikdirlər. Biri maqnitafonu və azan kasetini gətirib, o biri də repraduktoru quraşdırıb, – deyə müstəntiq yerli-yataqlı dedi.

– Həəə… – Əli kişi içdən gələn təəssüflə sızıldadı. – Deyəsən, vəçiynən-vüçüynən qoyublar ovcunuza. Lap elə, biri azanı gətirib, o biri də quraşdırıb. Cinayət eləyiblər? Sizə bunu çatdıran köpəyoğluna deyəmmirdiz ki, sənin nə borcuna? Burda nə var ki?.. Onların nə günahı?.. Günah varsa da, o da mənimdi. Hər şey mənim boynumdadı. O uşaqların adını çəkmə burda. – Əli kişi yenə çilləşdi.

– Onların qaçıb gizlənməsində də deyirlər, sənin əlin var. – Müstəntiq hərləyib-fırlayıb açıq-aşkar Əli kişini hirsləndirmək istəyirdi.

– Əvvəla, onlar nə günahın sahibidi ki, qaçıb gizlənsinlər?.. Qaçıb gizləniblərsə, düz eləməyiblər. Buna görə adamı yeməzlər ki… Qaldı ki, mənim onları qaçırmağıma. Elmi-ilahım çatmaz, mənim xəbərim yoxdur. Mən heç onnarı günnər olar ki, görməmişəm. Yox, haq-nahaq onu da mənim boynuma yükləmək istəyirsizsə, yükləyin, onsuz da mən yük götürən bəndəyəm.

Müstəntiq görürdü ki, bu kişi ipə-sapa yatana oxşamır. Ha fırlayır, kriminal bir şey tapıb boynuna qoysun, əli boşa çıxırdı. Daş qayaya rast gəlmişdi. Bu yandan da prokuror tapşırmışdı ki, bir şey tap, çıxar ortalığa. İş dərinə getdikcə, bu qoca kişi az qalırdı onların özünü günahlandırsın. Odur ki, məsələni siyasi müstəviyə yönəltdi.

– Ola bilsin ki, sizinçün bu fakt adi, sıradan bir hadisədir, amma əslində çox ciddi siyasi bir məsələdir. Siz bu əməlinizlə dövlətin və partiyanın siyasi xəttinə qarşı çıxmış olubsunuz, – dedi müstəntiq və sözünün təsirini yoxlamaq üçün altdan-altdan qocalara göz qoydu.

Qocalar üşəndilər, bir az da büzüşdülər və ürəklərində “yaxşı yerdə axşamladıq”, – deyə onların başına iş açmış Əli kişini ürəklərində yamanlamağa başladılar. Amma Əli kişi də can verən adama oxşamırdı. Müstəntiqin bu tutarlı dəlilinə eləcə tutarlı dəlillərə cavab verdi.

– Həəə… İndi də yapışdın partiya-hökumətdən? Ta gör nə var?... Havaxtdan namaz qılmaq, oruc tutmaq, ibadət eləmək dövlət əleyhinə iş oldu?.. Böyük-böyük şəhərlərdə məciddərin minarəsindən hər gün beş-altı dəfə azan verirlər, heç o dövlətlər yıxılmır. Sən Allah, bəsdir e, ya sən özünü ələ salıbsan, ya da bizi. Elə bir ucdan kommunist deyib durubsan. Mən bilmirəm kommunist nədi?.. Ya kommunist görməmişəm?.. Odeee… ən mötəbər kommunistlərdən biri elə mənim evimdə – Əli kişi yerində qurcalandı.

– Məsələ burasındadır ki, belə əməllərinlə onu də bəlaya çalıbsan də, – müstəntiq bir az da codlaşdı. – Mötəbər kommunist belə şeylərə yol verər?.. Atası zərərli vərdişlərlə məşğul olsun, partiyanın ateizm tərbiyəsilə bağlı mühüm qərarının həyata keçirildiyi bir vaxtda, dini fanatizmi yaysın, mötəbər kommunist də əlini əlinin üstünə qoyub oturub baxsın?.. Elə bilirsən o məsuliyyət daşımır?.. Partiya ondan sorğu-sual etməyəcək? O, partbiletilə cavab verməyəcək? – deyə müstəntiq sanki fürsətdən istifadə edib sərt hücuma keçdi.

– Ədə heyyy, mənim oğlumnan işiniz olmasın, o, heç kimə bənzəməz. O, əsl kommunistdir. Vallahi, Lenin kimi adamdı. Əli-ayağı təmiz, gözü-könlü tox, halal zəhmətlə dolanan namuslu ziyalıdı. Götür üstünə un at, yapışmaz. Günahım var, canım çıxar, çəkərəm, oğlumun bura nə aidiyyəti?.. – Əli kişi də arxa yerə vermədi, bozarıb sifət göstərdi.

Əli kişi bir az pauza verib, nitqini yeni coşğuyla davam etdirdi:

– Qaldı ki, partiyanı, hökuməti sən mənnən çox istəyirsən? Mən on səkkiz yaşında komsomolçu kimi gecə-gündüz bu küçələrdə, meydanlarda əldə bayraq hökumət quranda sən hardaydın?..

Müstəntiq gördü ki, iş qəlizləşir, səsini ucaldıb tez-tələsik Əli kişinin sözünü kəsmək istədi:

– A yoldaş, a vətəndaş, eləcə ucundan tutub ucuzluğa gedirsən. Dediklərinin məsuliyyətini başa düşürsən?.. Unudubsan ki, bura dövlət ibarəsidir, mən də dövlətin rəsmi nümayəndəsi?.. – qəzəblə dedi.

– Nooldu, yenə iş bərkə düşəndə dövlət nümayəndəsi olursan? Sual veribsən, qoy cavabını verim də… Düz söz acı olur axı… Mən bu hökuməti quranda sən hələ heç anadan olmamışdın. İndi mənə partiya-hökumət dərsi keçmək istəyirsən? – Əli kişi eyni tonla sözünə davam etdi.

Bu zaman Hüseyn kişi onun ətəyindən dartıb sakitləşdirməyə çalışdı. Əli kişi zərblə Hüseyn kişinin əlinin üstündən vurub dedi:

– Sən də az dart də mənim ətəyimi, az qalıbsan pencəyimi cırasan, qoy sözümü deyim də… müstəntiq olanda noolar, canımızı alacaq?.. – deyə acığını Hüseyn kişinin üstünə tökdü.

Müstəntiq də arxa yerə verənə oxşamırdı:

– Partiya və hökumətimiz dini fanatizmə qarşı durmadan mübarizə aparır. Bu yaxınlarda Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi

zəhmətkeşlərin ateizm tərbiyəsini yaxşılaşdırmaq tədbirləri haqqında tarixi qərar qəbul edib. Xəbəriniz var?.. – Müstəntiq sözünə davam etdi. – Hardan xəbəriniz olsun? Partiyamız zəhmətkeşlərin ateizm tərbiyəsini inkişaf etdirmək, təkmilləşdirmək üçün müxtəlif vasitələrdən istifadə edir, siz isə sovet gənclərinin kommunist tərbiyəsinə zərbə vurursuz, dini fanatizmi yayırsız. Siz öz zərərli vərdişləriniz və əməllərinizlə gənc nəslin təlim-tərbiyəsini pozursuz. Onların kommunist əxlaqı ruhunda formalaşmasına mane olursuz. Bu, bütövlükdə cəmiyyətə, kommunizm quruculuğuna qarşı yönəlmiş əməldir. Buna görə də məcəllədə ciddi maddələr yer alır, inzibati və cinayət məsuliyyəti nəzərdə tutulur, – deyə müstəntiq ciddi görkəm aldı.

– Necə dedin, gənc nəslin tərbiyəsini pozuruq?.. – Əli kişi təəccüblə müstəntiqə baxdı. – Gənc nəslin tərbiyəsi var ki, onu da pozaq?.. Gənc nəsil… gənc nəsil… – Əli kişi təəssüf dolu qüssəli bir səslə təkrar etdi… – Gənc nəsil bilirsən necə böyüyür? Gələcəyimiz yoxdur e… Gənc nəsil… O nəslə baxan gözlərin özü kordur. Çox pis böyüyür gənc nəsil. Adamın sabaha zərrəcə ümidi qalmayıb. Hamısı oğru, tülüngü, müftəxor, yalançı, fırıldaqçı… Canım sənə desin, daha nələr… nələr… İman yox, əqidə yox… Əqidələri bir butulka araqdı. Hamısı araq butulkasının dibində batıb qalıblar. Araq hamısının beynin yuyub aparıb. Ata-ana məhəbbəti yox, qohum-əqrəbaya canıyananlıq yox, dostluq, yoldaşlıq, el-oba təəssübü yox, hamısı bir-birinin kölgəsini qılınclamaqla məşğuldu. O bunu satır, bu onu şərrəyir, o bunu çuğullayır, bu onu ələ verir… Hansını deyim? – Birdimi, ikidimi?...

Aralığa qəribə sükut çökmüşdü. Əli kişi sanki əxlaq və tərbiyədən mühazirə oxuyur, içi müstəntiqqarışıq hamı ona qulaq asırdı. Dərindən nəfəs alıb sözünə davam etdi:

– Vallahi-billahi, indiki cavanlarda insanlıq adına işartı belə, yoxdu. Elə bil hamısı həşaratdı, şeytan törəmələridi. – Təəccüblə çiynini çəkdi. – Məəttələm, vallah, qurban olduğum bunları nöş yaradıb töküb bu yer üzünə. Yer üzünün dərd-səri azdı bəyəm? Bunlar da bu yandan dərd-azara dönür dünyayçün. – Yenə bir az fasilə verib davam elədi. – Nə dərs oxumaqları var, nə bir işin qulpundan yapışmaqları… Son vaxtlar, evlənməyə də, ailə-uşaq sahibi olmağa da yadırğayıblar. Eləcə araqdan içsinlər, səllimi gəzsinlər. Bunlara cavan demək olar? Elə bil urufları uçub quru qəfəsləri qalıb. Yooox, boynuma diri ilan salalar, mən bunnara cavan deyə bilmərəm… Yenə Allah versin köhnə nəslə…

Müstəntiq replika atdı:

– Öz nəslinizi nəzərdə tutursan?

– Ağzımda nəsil dedim axı… Bizim yaşıdlar nəsil mərhələsini çoxdan ötüb. Biz nəsil deyilik, çıxdaş olmuş bir ovuc dəstəyik, təbəqəyik. – Əli kişi fikirli və kövrək halda dedi. – Qoca adamın gələcəyi olmur, oğul (“Oğul” sözünü elə isti, elə səmimi, elə məhrəm dedi ki, müstəntiqin ruhu sızıldadı, damarlarındakı qanı oynadı. Heç bəlkə atası da ömrü boyu “oğul” sözünü ona bu doğmalıqla deməmişdi). – Gələcəyi olmayanları da nəsil adlandırmaq olmaz. Biz çıxdaşıq, dəngül-düngül beş-üç nəfər qalmışıq. Mən bizdən aşağıları, orta nəsli nəzərdə tuturam. Yenə nə qalıb, onlarda qalıb: abır, həya, ismət, hörmət, izzət, ataya-anaya məhəbbət, ehtiram, din, iman, savad…

Hamı susmuşdu. Heç kim söhbətin belə bir məcraya gəlib yetişəcəyini gözləmirdi. Hamı mütəəssir olmuşdu. Əslində, Əli kişinin söhbəti gərdişi-dövran, olum və ölüm, həyatın fanliyi və əbədi dəyərlər haqqında hamını düşündürən fəlsəfi fikirlər idi. Daha çox da müstəntiq təsirlənmişdi. Hisslərini biruzə verməmək üçün makinanın dillərini çaqqıldadırdı. Baxan olsaydı, görərdi ki, nə gəlir yazır, başdan-ayağa xaotik, qarmaqarışıq cümlələr. "…Bu kişinin içində nələr varmış, ilahi", – deyə düşünürdü. "Xoşbəxt adamdı. Ən azından, həyatda nəyçün yaşadığını yaxşı bilir. İnamı, əqidəsi, güvənc yeri, istinad nöqtəsi var. Allah deyib, durub, din deyib, iman deyib haray salıb. İnsanın ki, əqidəsi oldu, həqiqəti də olacaq. Onda həyat da öz mənasını itirməyəcək. Yoxsa biz?.. Nə partiyaya inanan kimi inanırıq, nə hökumətə, nə Allaha, nə Qurana. Nəyçün yaşadığımızı bilmirik. Yalan, xəyanət, saxtakarlıq içində itib-batmışıq. Nə şəxsiyyətimiz qalıb, nə mənliyimiz. Nə qədər qanun, partiya, hökumət adından alver eləmək olar? Nə qədər yetim-yesiri aldadıb qəpik-quruşunu əlindən almaq olar? Nə qədər özündən yuxarıların qabağında ikiqat əyilib pəyəndaz olmaq, özündən aşağıların önündə canavara dönmək olar?.. Hər şeyə, hər şeyə xəyanət edirik, hər şeydən də qabaq özümüzə. Cavan adamam, ömrüm hələ qabaqdadır, bütün həyatımı beləmi yaşamalıyam? Qibtə edirəm bu kişiyə, halal olsun, necə də azad, əqidəli, imanlı, məsləkli adamdı. Xoşbəxt taleli insandı… Allah gərək, məni mütləq bununla qarşılaşdıraydı?.. Başımı aşağı salıb yaşayırdım də… Bu, mənim ruhumu təlatümə gətirdi, düşüncələrimi dağıtdı, həyatımı alt-üst etdi. Mən bundan sonra necə yaşayacam? Sakit həyatımı bu kişi lap alt-üst etdi". Fikirləri onu haralara aparmadı? Başını ikiəlli tutub xeyli sükuta daldı. Ağsaqqallar da onun bu halını görüb lal-dinməz başlarını aşağı saldılar.

Müstəntiq hiss etdi ki, bundan sonra çətin işləyə bilsin. Əli kişinin son sözləri onu lap alıb aparmışdı. Ürəyində partiyanı da, dövləti də çalın-çarpaz söyüb-yamanlayırdı. Bu kişinin əqidəsinə, dininə, imanına, sədaqətinə heyran qalmışdı. "Əsl kişilik budu", – düşünürdü.

Milis nəfərini çağırdı. Ağsaqqalları aparmaq işarəsi verdi. Qocalar sağollaşıb çıxdılar. Müstəntiq nə fikirləşdisə, milis nəfərini yenidən çağırdı və ciddi şəkildə tapşırdı.

– Onları təmiz, səliqəli otaqda yerləşdirin, – dedi.

Milis nəfəri sanki bu tapşırıqdan sevinən kimi oldu və tələsik: "Baş üstə", – deyib çıxdı.

Müstəntiq prokurorun birbaşa telefonunu qaldırıb məruzə etdi. Dindirilmə barədə ətraflı məlumat verdi. Dedi ki, "mən əvvəl fikirləşirdim, cinayət işi qaldırmaq lazım gələcək. Amma sonra gördüm ki, burada olsa-olsa, mənəvi məsuliyyətdən başqa bir şey yoxdur. Mənə elə gəlir ki, zamin-filan da artıq şeydir. İcazə versəydiniz, elə bu saat buraxardım onları".

Prokuror bu gün buraxmağın əleyhinə oldu. "Mən də bilirəm, orda elə ciddi bir şey yoxdu", – dedi. "Amma sabah günortadan sonra buraxarsan. Belə lazımdı. Sənədləşməni də dediyim kimi apar. Zamin-filan da öz yerində"…

* * *

Ağsaqqaları təmiz, səliqəli bir otağa saldılar. Hətta divan da vardı. Sıx Qasımla Damar Hüseyn divanda yayxandılar. Qulamhüseyn bir kuncdə büzüşüb oturdu. Əli kişi əsəblərinə yiyə dura bilmirdi. Otaqda var-gəl eləyirdi.

– Əli, bizim axırımız noolacaq?.. – Sıx Qasım şübhəli-şübhəli soruşdu.

– Axırımızda da, görmürsən, bir-iki saata aparıb güllələyəcəklər, – Əli kişi rişxəndlə dedi və əlavə etdi. – Axxx, sizi Allah nöşün yaradıb, bilmirəm. Hərəsi bir elin, nəslin ağsaqqalıdı, di gəl ki, heç birində ağıl deyilən şey yoxdu. Ürək də ki, sərçə ürəyi. Axırımız noolacaq? Axırımız nooolacaq? Yannarından yel ötcək, sızıldamağa başlayırlar e… Ədə, bir təpəriniz olsun, dözümünüz olsun, dəyanətiniz olsun, – deyib yoldaşlarını məzəmmətlə süzdü. – Erməni kimi bir qaşıq qanınızdan qorxursunuz e… Ölmək ölməkdi, xırıldamaq nə deməkdi? Ömrümüzün çoxu gedib, azı qalıb, nədən qorxursuz? – Yenə tənə vurdu.

– Bəxtəvər oğlu bəxtəvər, sənə nə var ki? Buğda yeyib cənnətdən çıxıbsan. Mənim başım çəkib, mən bilirəm o türmə xaraba nədi? – Hüseyn kişi başını bulaya-bulaya davam etdi. – Bilirsiz də o vaxt mən, xırman qarovulçusu olanda, heç nəyin üstündə, bir ovuc buğdaya görə hərrəyib-fırrayıb iki il yüklədilər belimə?.. – Hüseyn kişi yana-yana dedi. – İndi bu da nədən qorxursuz, deyir. Şər-şəbədədən heç Allahın da xəbəri yoxdu e, yoxdu… Göz gördüyündən qorxar də… Başım çəkib axı… – Hüseyn kişi başını aşağı salıb susdu.

– Düz deyir də, – Şıx Qasım da sözə qüvvət verdi. – Boynumuza nəsə yükləyib tutdular, neyniyəcəyik?.. Əlimiz hara çatacaq?.. Bu yaşımızda indi də get türmədə otur. Yaxşı yerdə axşamladıq, – deyə Şıx Qasım da ufuldaya-ufuldaya susdu.

– And olsun Allahın birliyinə, mən bu neçə illəri kürkümü eləcə günə yandırmışam e… Gör kimlərnən oturub-durmuşam, kimlərnən yoldaşlıq eləmişəm e… Sizin ki, canınızda bu qorxaqlıq var, vallahi, bir su içim saatda adamı bədfanəyə verərsiz e… – Əli kişi təəssüflə dedi.

Yaralı qıçı Əli kişini yaman incidirdi, sümüyü sızıldayırdı. Ağrısı bayaqdan başlamışdı, indi getdikcə şiddətlənir, ağrı başına vururdu. Tufli də bu yannan sıxırdı ayağını. Stullardan birini çəkib oturdu. Sövq-təbii yarasına diqqət yetirdi. Tənzif qanın içindəydi. "Yəqin yara açılıb", – düşündü. Bu zaman milis nəfəri qapını açıb kimisə içəri dəvət etdi. Həsən içəri girdi. Əlindəki şey-şüyü stolun üstünə qoyub atasını qucaqladı, kövrəldi. Əli kişi onun kövrəldiyini hiss edib oğluna təpindi:

– Nədi, körpə uşaqsan, nəsən?.. – dedi.

Həsən özünü yığışdırdı, dönüb ağsaqqallarla bir-bir görüşdü, sonra da özüylə gətirdiyi süfrəni geniş stollardan birinin üstündə açdı, təndir çörəyinin qoxusu ətrafı bürüdü. Şoru, pendiri, göy-göyərtini, lüləkababı, dombulakababı, mer-meyvəni kağız torbalardan çıxarıb süfrəyə düzdü, yüksək əhval-ruhiyyəylə hamını süfrəyə dəvət elədi. Elə bil bu niyabət otağa yeni, xoş ovqat gəldi.

– Əşşi, gəlin bir şey atın ağzınıza. Bilirəm səhərdən dilinizə heç nə dəyməyib, – deyə Həsən lüləkababdan, pendirdən, göy-göyərtindən təndir çörəyinin arasına qoyub milisioner üçün apardı.

– Allah səndən razı olsun. Allah ölənlərüy irəhmət eləsin. Allah əvəzini min versin – deyə Hüseyn kişi razılıq elədi.

Ağsaqqallar pərtliyi və incikliyi unudub yeməyə girişdilər. Ayağının sancısı Əli kişiyə aman vermirdi. Yediyi-içdiyini də elə bil qulaq-burnuna yeyib-içirdi. Ağrıdan qıvrılır, sir-sifəti əyilirdi. Bunu hiss edən Həsən, qəfil yadına düşübmüş kimi, soruşdu:

– Əşşi, ayağın necədi?..

– Nə bilim, tənzifə bir bekara qan çıxıb, macal eləyib açıb baxa da bilməmişəm, – aşkar ağrı içində dilləndi və özünü o yerə qoymayıb davam etdi. – Mənə fikir vermə, çörəyini ye, belə şeyləri çox görmüşəm, ağrıyıb-ağrıyıb axırda dayanacaq də… – etinasızcasına dilləndi.

– Vallah, sən canuvun düşmənisən. – Həsən aşkar narahatlıqla dilləndi. Tikəsi ağzında şişib qaldı. – Evi yıxılmamışın oğlu, simləyib eləyər, xanxarab olarıq e… Qıçını kəsib-eləyərlər, ondan sonra başımıza haranın daşını salarıq?... Tez gedim bir doxtur tapım, yaranı açıb-bağlasın. Gün batabatdadı, sonra doxtur-moxtur da tapılmayacaq e…

Həsən deyinə-deyinə cəld ayağa qalxdı. Əli kişi onun qolundan yapışıb aşağı oturtdu:

– Ədə, doxtur qaçır bəyəm, çörəyini ye, gedib gətirərsən də… – dedi.

Əli kişinin bütün cidd-cəhdlərinə rəğmən, Həsən qalxıb tələsik getdi. Çox keçmədən feldşerlə qayıtdı. Feldşer yaranı açıb perekislə yudu, təmizlədi, dərman qoyub sarıdı. İşini qurtarandan sonra səhərdən lal-dinməz işləyən feldşerin axır ki, dili açıldı.

– Bir gün də gecikdirsəydik, problem yaranacaqdı. Yara irinnəməyə başlayıb. Hər gün açılıb təmizdənməlidi, – deyə məsləhətini verdi.

Yeməkdən sonra qocalar hərəsi divanın bir küncündə dirsəkləndilər. Həsən sağollaşıb çıxanda qocaları arxayın saldı:

– Bu günü birtəhər yola verin, sabah gəlib özüm aparacam sizi, narahat olmayın, – dedi.

Həsən qapıdan çıxmaq istəyəndə Əli kişinin ürəyi dözmədi, oğlunu yanlayıb:

– İrəhim nə təhərdi?.. Onun üzünə söz-zad gəlmədi ki?.. – soruşdu.

– Yox əşşi, narahat olma, hər şey yaxşıdı. Kimdi İrəhimin qatına gedən? – Həsən qardaşının nüfuzu ilə qürrələndi.

– Yox də, namərd zamanadı, düşmən ölməyib ki… İndi elə vaxtdı ki, dost da ayaq qazır, düşmən də… Köpəyuşağının hamısı Kufə əhlidi. Ayağımızın sürüşməyini gözləyirlər. Vallahi, himə bənddilər. – Əli kişi içdən gələn kədərli yanğıyla dedi.

– Lələ canı, hər şey yaxşıdı, narahat olma. Bir küləydi də, gəldi, əsib keçdi. Pisdik özdərinə qalacaq. – Həsən cavab verdi. Və şən əhval-ruhiyyəylə çıxdı.

Ağsaqqallar tirtap hərəsi bir tərəfə uzanıb yuxuya getdilər.

* * *

“Bütün səhərlər ümidlə açılır. Hər səhər bir arzu-kam gətirir. İnsanı yaşamağa çağırır, təkcə çağırmır, həm də təhrik edir. Eləcə hər gün səhərlər yuxu-

dan durub ümid dolu duyğularla evdən çıxıb harasa tələsməyin özü Allah-təalanın insana bir lütfüdür. Oldu, keçdi. Yara yeri tez soyuyur, sağalmağı uzun sürsə də… İnsanın başına iş gələnəcən ağır olur. Çətini hadisənin baş verməsidir. Olacağın bir adı var, bir səbəbi, bir nəticəsi. Çözümü, həlli yolları yüzdür, mindir. Əslində, həyat əndişə və çətinliklərin üstündə bərqərardı. Hər şeyin də bir cəmi, çözümü və yozumu var. Bütün ağrı-acını kişi kimi, mərd-mərdanə qarşılamalısan. İş adamın başına gələr. Ölümə də hazır olmalısan, onun da üzünə gülməyi bacarmalısan, ona da qeyrətlə "xoşgəldin" deyə bilməlisən. Həyat bir dərsdir, bir imtahandır. Həmişə cavabsız suallara da hazır olmalısan. Həyat hadisələrini aydın aksiom hesab edənlər səhvdədir, həyat daim həlli vacib teoremdir. İnşallah, bu da keçər…"

Rəhim müəllim səhər sübh tezdən beləcə, kabinetində oturub fikri-fikrə, xəyalı-xəyala calayır. Həyatın gərdişi barədə götür-qoy edirdi. "Qurban olum o qana ki, üstündən üç gün keçsin", – öz-özünə pıçıldayırdı. Bu məqamda qapı açıldı, Yusub əmi şəstlə içəri girdi. Təzə paltar geyinmişdi, təpədən-dırnağa par-par yanırdı. Ələlxüsus, döşünə taxdığı orden-medalları… Rəhim müəllim, deyəsən, həqiqətən şaşırdı, bir balaca ayağa qalxıb Yusub əmini qarşıladı:

– Gəl-gəl, …Əşşi, bazburutundan adam özünü itirir, – şövqlə zarafat etdi. – Mən heç bilməzdim sənin bu qədər orden-medalın var, – dedi.

– Əşşi, irəhmətdiyin nəvəsi, hələ yarısı da evdədir e… – Yusub əmi də zarafata zarafatla cavab verdi. Sonra da ciddi görkəm aldı.

– Bə neynim?.. Adam içinə çıxanda gərək abırlı çıxasan də… Sonra da deyərlər ki, Rəhim müəllim bu dəngül-düngülləri hardan tapıb? Özümüz cəhənnəm, sənin adına-sanına layiq olmalıyıq axı… – Yusub əmi təntənəylə dedi; sonra da nigarancasına soruşdu. – Bu sübh tezdəndən sən xeyir ola?..

– Eləcə, Həsən tezdən o dediyi dostugilə getdi, pul dalıycan. Dedim vaxtlı getsin, insandı də, birdən səhər durub harasa gedər, əldən çıxar, tapammarıq, sonra peşmançılıq olar. Elə mən də tezdən durdum, dedim, məni qoy məktəbə, sonra get. – Rəhim müəllim cavab verdi.

– O dağ adamları çox ayıq olur, gecə-gündüz yatmırlar ki… Düz eləyibsən Həsəni səhərgözü göndərməkdə. – Yusub əmi təsdiq etdi.

Adamlar bir-bir, iki-iki, üç-üç, beş-beş toplaşırdılar. Bir az keçmədən məktəb dəhlizində canlanma başladı. Ustaların səs-küyü aləmi aldı başına. Rəhim müəllim dərindən köks ötürüb gülümsündü və xoşbəxtcəsinə dedi:

– Bu məktəb dəhlizindən gələn səslər adamı haralara aparmır?.. Vallah, ən böyük xoşbəxtlik bu məktəb həyatının səsindədi. Bu səsləri eşidəndə adamın yaşamağa həvəsi artır…

– Sənə noolub bu sabah-sabah? – Yusub əmi şübhəylə Rəhim müəllimə baxdı.

– Yusub əmi, hər şey yaxşıdı, narahat olma, – deyib Yusub əminin qəfil yaranmış şübhəsini dağıtmaq üçün xadiməni çağırıb iki stəkan çay xahiş elədi. Təxminən bir saatdan sonra Həsən gəldi. Yusub əmi cəld soruşdu:

– Oğlan gəlibsən?...

– Hə… Yaxşı ki, tez getmişəm, eləcə çataçatda gördüm hazırlaşıb həyətdən çıxır.

– Mən öldüyüm günü bilmirəm, dedim də, dağ adamları ayıq olurlar, diribaş olurlar, yaxşı ki, vaxtında çatıbsan. – Yusub əmi şövqlə dedi.

Həsən cibindən bir bükülü çıxarıb verdi Rəhim müəllimə. Rəhim müəllim onları tələsdirdi.

– Vaxt gözdəmir, gedib o Fərəculla kişini də götürün, gedin milisiyəyə. Mən də, bu ustaların bəzi problemləri var, onu qaydaya salım, saat on ikiyə, birə olmalıyam prokurorun yanında, – dedi və üzünü yenidən Həsənə tutub:

– Yusub əmigili qoy, sonra bir-iki saata gəl mənim dalımca, – dedi.

Yusub əmi maşına otura-otura Həsəndən iltimas elədi:

– Həsən, sən əminin canı, məni apar qoy o xaraba milisiyədə, sonra qayıt gəl o kəlniyyəti götür. Əmi canı, belə, onun üzünü görmək istəmirəm e… O niyabətnən bir maşına minməkdənsə, biyara getmək min pay yaxşıdı, – dedi.

– Əşşi, yazıq, fağır adamdı, onun sənnən nə işi?.. – Həsən Yusub əmini yola gətirmək istədi. – Otur qabaqda, o da oturacaq arxada. Sən düz yola bax, heç onun üzünü də görməyəcəksən. Sən Allah, məni işə salma, get, qayıt, yollar da xaraba… – Həsən qəti etiraz etdi.

– Yaxşı də, ta nə deyim? Necə məsləhətdi, elə də olsun. – Yusub əmi çarnaçar razılaşdı.

Həsən maşını əsas yoldan döndərib kəndin içinə tərəf yönəltdi. Fərəculla kişi hazır geyinib həyətdə onları gözləyirdi. Maşına oturmaq istəyəndə Yusub əminin döşündə orden-medalları görüb hündür səslə:

– Ədə, Həsən, irəhmətdiyin nəvəsi, bə mənə nöş demədin medallarımı asım?..

Fərəculla kişi ağır eşitdiyiyçün Həsən də çığıra-çığıra dedi:

– Əşşi, toya-bayrama getmirik ki… Sənin medalların kimə lazımdı e?.. Əsas odur ki, pasportuy, partbiletüy, voyenni biletüy götürübsən, bu, bəsdi.

Fərəculla kişi cır səsini başına atdı:

– Bə Yusub nöş asıb?.. – Yenə inad etdi. – Gözdüyün məni, bu saat medallarım o biri pencəyimin döşündədi, qoy pencəyimi dəyişim, gəlirəm.

Fərəculla kişi evə tərəf getdi. Yusub əmi əsəbiləşdi:

– Görürsən, eşşək oğlu eşşəyi, başını başdara qoşur də… Deyən lazımdı, sənin harana yaraşır medal? O qarazırtıq meymun sifətüvə?.. Sənə ona görə deyirdim də, bunun qoy üzünü görməyim. Yaxşı nastrayeniyam vardı, içinə azar qoydu bu köpəyoğlu, – Yusub əmi xeyli deyindi, Fərəculla üçün dişinin dibində bir şey qoymadı.

– Əşşi, hara qaçırıq ki?.. Hələ vaxtımız var. İndi gələr də, – deyə Həsən aranı yumşaltmağa çalışdı.

Fərəculla sinəsi dolu dəmir-dümürlə qayıdıb maşında oturdu. Onun orden-medalları sayca Yusub əmininkindən çox idi. Buna görə Yusub əminin qanı lap qaraldı. Fərəculla kişi də az aşın duzu deyildi. Yusub əminin qabaqda oturub onu saya salmaması deyəsən şəninə toxunmuşdu. Odur ki, Yusub əmiyə söz atdı:

– Yusub, balam, əskiyin çıxıb-nədi, sabah-sabah niyətüy töküb oturubsan, Allahın quru salamını da vermirsən adama?

Yusub əmi də çilləşdi:

– Nədi, Şah Abbasın nəvəsisən, nəsən, düşüb pəyəndaz olmalıydım qabağında?.. Yoxsa "Heyvagülü" oynamalıydım? Bəxtəvərin oğlu, ürəyimizdən qara qannar axır, başımıza bu boyda müsibət gəlib, biz nə hayda, bu nə hayda?..

– Qudurub gedəsən Yusub, mən sənə nə dedim ki?.. Dedim bir Allahın salamı…

Yusub əmi onun sözünü ağzında qoydu, bir balaca arxaya çevrilib qəzəblə qışqırdı:

– Sən öləsən, and olsun Allahın izzəti-cəlalına, bu saat maşını saxladıb düşərəm, səni dolayaram qapaza. Sabah-sabah xeyir-şər eləməmiş, şingilə saqqız kimi nə yapışıbsan yaxamızdan? Elə bilirsən kefə gedirik?..

– Vallah, sən şər-xata adamsan e, Yusub. Söz də deməli döyül sənə. – Fərəculla kişi aciz-aciz zarıdı.

Allahtərəfi, Fərəculla kişi yarmanı verdi içəri, səsini ta çıxarmadı. Həsən ona beş-on manat pul boyun almışdı. Yəqin onun əldən çıxacağından ehtiyat eləyib dərinə getmədi. Bir balaca yaranmış sakitlikdən istifadə eləyən Həsən veteranları yüngülcə danlamağı da unutmadı:

– Vallah, özünü lap uşaq kimi aparırsız. Nəvə-nəticə yiyəsisiz, heç nədən bir-birinizin xətrinə dəyirsiz. Sən Allah, bir az təvaxül eləyin, bu işi sakitliknən yola verək, sonra can durub, ağacan durub. Bir də ki, nə bölünməz malınız var, sözünüz bir-birinizin boğazından keçmir!..

İnsafən, veteranların heç biri dinmədi. Həsən vəziyyəti bir balaca da yumşaltmaq, qanqaraçılığa şuxluq qatmaq üçün şən ovqatla Fərəculla kişiyə sarı dönüb:

– Babaş deyəsən, səni əməlli-başlı abıra salıb, əşşi, – dedi.

– Hə… – Fərəculla kişi də ironiya ilə cavab verdi: – Yaxşı abıra saldı, qoluna çöpdən dirək, axırda da qulağımı kəsib məni qana qəltan elədi. Səhərə qədər qan kəsməyib, elə hey axıb. Axırda o kleyli şey var e, evdə uşaqlar ondan yapışdırdılar, – əlini qulağına apardı, – bax, indi də qulağımdadı, birtəhər qanı dayandı. Yurdu itmişin oğlunu elə bil daldan atdı qovur. Dilim qabar oldu deməydən ki, ədə, sənə noolub, nə canhövllü işdəyirsən, qaçaqaçdı, nədi?.. Kimə deyirsən, axırı qulağımı verdi qayçının ağzına, onnan sonra köpü yatdı. Günahı da mənim boynuma yıxır. Deyir qulağın çox tüklüdü, ona görə çaşdım. Uçurdu axı. Adam tüknən əti nə təhər qarışdırar?.. Əlqərəz, xatadan qurtardım. Yaxşı ki, cəld tərpənib qayçını tez çəkdi. Yoxsa qulağım bütöv qayçının ağzında gedəcəkdi, bu yaşımda məni xanxarab eləyəcəkdi.

Yusub əmi üz-gözünü əzib-büzür, biruzə verməməkçün gülüşünü cidd-cəhdlə içində boğur, öz-özünə deyirdi: "Get ağzın tökülsün, belə olarsan… A köpəyoğlunun Babası, kəsirdin, elə bunu dibindən xırp ataydın, ürəyimizdən bir tikan çıxaraydın də…"

Araya bir müddət sükut çökdü. Maşına oturandan Fərəculla kişinin qarnı guruldayırdı. Get-gedə də gurultu artır, şaqqıltıya çevrilirdi. Elə bil qarnında orkestr çalırdı. Həsən özünü saxlaya bilməyib soruşdu:

– Əşşi, səhər ayaqyoluna getməyibsən?

– Bu gurultu-murultunu deyirsən?.. – Fərəculla kişi fitini anladı və əlavə etdi. – Şoğərib, bu da bir azardı də, keçib mənim boğazıma, əl çəkmir yaxamnan.

– Bə doxtura-moxtura göstərməyibsən? – Həsən məsələnin dərininə getdi.

– Əh, sən də, irəhmətdiyin nəvəsi, indi doxtur var? Hamısı hüllüyçüdü. İrayonun baş doxturlarından belə, gəzmişəm, çarə olmayıb. Elə hərəsi yalan-dan-palandan dərmannan-zaddan yazıblar, o da fısdirinkə...

– Bəlkə pul-paraların kəsibsən, ona görə yaxşı baxmayıblar, başdangetdi eləyiblər?.. – Həsən bir az da qıdıqlamağa başladı.

-Ədə, sən də söz danışdın? Nə pul, nə para? – Fərəculla kişi incik tonla cavab verdi. – Bə bilmirsən, frontoviklərə hər şey pulsuzdu? Mənim pulum hardaydı doxtura verim...

-Hə də, ta səhərdən belə de də... Boş torbaya at gələr?.. Pulsuz işin axırı, beləcə, gurultu-murultu olacaq də... – Həsən baltanı lap dibindən vurdu.

Yusub əmi söhbətə ləzzətlə qulaq asır, ürəyində xısın-xısın gülür və öz-özünə deyirdi: "Get köpəyoğlu, ağzın tökülsün, belə olarsan. İrəhim müəllimin də, vallah, körpükeçməz yolları çoxdu. Bu köpəyoğlu adam içinə çıxarılmalıdı ki?.. Bu, adam biabır eləyəndi e... Müstəntiqin yanında neyniyəcəyik, bilmirəm? Oturub bunun qarnının konsertinə qulaq asacağıq?.. – Vay, dədəm vay, rüsvay olacağıq..."

Bu minvalla bir də gördülər ki, milis idarəsinin qabağındadılar. Ağsaqqallarla görüşdülər, xoş beş, on beş elədilər. Hamısının kefi yaxşı idi, Əli kişidən başqa... Sir-sifətindən yorğunluq və əsəbilik yağırdı. Özü də çox sınıxmışdı. Elə bil illərdi ki, burdaydı. Hikkəsindən də bağrı çatlamağa qalırdı. Stolun üstündəki süfrə hələ yığışdırılmamışdı. Yağ, pendir, soyutma yumurta, təndir çörəyi, bal, qaymaq... Allah verəndən nə desən, vardı. Həsən veterannarın dalınca getməmişdən qabaq, səhər tezdən bazarlıq eləyib gətirmişdi ki, kişilər ac qalmasınlar. Ağsaqqallar süfrədən çəkilmişdilər. Artıq çaya girişmişdilər. Yeməyin çoxu stolun üstündəydi. Həsən fikir verib gördü ki, nimçələrdən biri təmizdi, əl vurulmayıb. Narahat oldu, çanyananlıqla soruşdu:

– Lələ, bir şey yeyə bilibsən?..

Hüseyn kişi ərklə:

– Lələ adamdı bəyəm? Zeh yerə qoyduq, bu nüzül oğlu nüzül, ağzına bir tikə atmadı ki, atmadı. Zornan ancaq bir stəkan çay içirdə bilmişik, – dedi.

Həsən azaylana-azaylana:

– Ay lələ, vallah sən canuvun düşmənisən. Nöş özüvə zülm eləyirsən? Canuva yazığın gəlmir?.. Burda nə var ki... Bir-iki saata, Allahın köməyliyilə, evdəyik də... – yenə canıyananlıq etdi.

– Ədə, siz bilmirəm özüvüzü ələ salıbsız, ya məni? Uşağam, nəyəm, düşübsüz üstümə, qabağınıza qoyub məni dannayırsız, iştaham olsa, yeyərəm də!... Nə vəzzariyyət oxuyursuz qulağımın dibində, – deyə Əli kişi qəzəblə müzakirəyə yekun vurdu.

Həsən çar-naçar susdu. Sonra Yusub əmiyə müraciətlə:

– Yusub əmi, siz də bir qismət kəsin də, – dedi.

– Yox, Həsən, Allah bol eləsin, evdə xirtdəyəcən yemişəm.

Həsən Yusub əmidən də əlini üzüb Fərəculla kişiyə təklif elədi:

– Əşşi, heç olmasa, sən bir tikə ye, heyifdi, qalmasın burda.

Fərəculla kişi həvəslə stolun arxasına keçdi:

– Hə, bala, Allah köməyin olsun. Evdə naharımın bir az çəmi olmamışdı. Tələsdiyimdən heç çay da içə bilməmişdim, – deyib yeməyə girişdi. Balı qaymağa qatıb qarışdırmağa başladı. Bal-qaymaq hazır olana qədər yekə bir pendir-dürmək eləyib atdı ağzına. Yusub əmi üzünü kənara çevirib öz-özünə pıçıldadı:

– Heyvanuva şükür, ilahi… Ədə bu şulum oğlu şulum elə bil meşədən çıxıb e… Qarın otarmağa yer axtarır e… Elə bil yemək-içmək heç görmüyüb e… Bu ləlöyün köpəyoğlu, axırda qorxasan basıb özümüzü də yeyə e… Basıb yeyəcək qaymaqdan, sonra da qarnının gurultusu bir günlük yola gedəcək… Axxx… – Yusub əmi dişlərini qıcartdı.

Həsən sağollaşıb çıxdı. Ağsaqqallar ərşdən-kürşdən danışıb vaxtı öldürür, müstəntiqi gözləyirdilər. Səhər olsa da, hava təndir kimi alovlanır, hər tərəfi qarsırdı. Göydən elə bil yanar köz tökülürdü. Soyumağın da əhəmiyyəti yox idi, isti insanların canına elə oturmuşdu ki, sanki çöldən yox, içəridən, daxildən qaynayırdı. Hamı canıyla əlləşirdi, kimi tərini silir, kimi kağız parçasından-zaddan bir şey tapıb özünü yelpikləyirdi. Bircə Fərəculla kişinin dünya qulağına deyildi. Tər-qan içində basıb yeyirdi.

Çox keçmədən onları müstəntiqin yanına çağırdılar. Müstəntiq çox əzgin görünürdü, elə bil gecəni dirigözlü açmışdı, gözləri də qan qoymuşdu. Ağsaqqalları çox hörmətlə qarşıladı. Salamlaşanda, hətta, bir balaca ayağa da qalxdı. Dünənki hökmündən-hikkəsindən əsər-əlamət qalmamışdı. Bir az da dalğın idi, elə bil fikri ayrı yerdəydi. Bir-iki sənədi ağsaqqalların qabağına qoyub barmağıyla işarə elədi:

– Bax burdan, burdan, bir də burdan qol çəkin.

– Biz hara, qol çəkmək hara… Biz elə gözümüzü açandan, özümüzü tanıyandan, barmaq basmışıq. – Damar Hüseyn məlul-müşkül dedi.

– Ay əmi, burda nə var ki, götürün qələmi, eləcə bir xətt çəkin, qurtarsın getsin.

Ağsaqqallar ehtiyatla, çəkinə-çəkinə bir-bir qələmi götürüb kağızlara ilan-qurbağa şəkilli imza etdilər. Fərəculla kişinin qarnı da öz işindəydi. Hər dəfə səs eləyəndə müstəntiq də diksinirdi. Yusub əminin dişi bağırsağını kəsirdi. Dodaqaltı öz-özünə deyinirdi:

– Səni görüm biabır-biismət olasan, bizi gör necə xəcil eləyir e… bu biabır oğlu, biabır… – Bunun şoğəribində nə var belə, gur-gur guruldayır? Həyasız oğlunun, elə bil qarnında bütöv bir polk marş gedir…

Yusub əmi dodaqaltı pıçıldaya-pıçıldaya yanında oturan Fərəcullanı dümsükləyir, him-cimlə qarnına nəzarət eləməyə işarə vururdu. Amma gör heç Fərəculla kişinin eyninəydi?.. Çoxdan öyrəşmişdi, odur ki, vecinə deyildi. Yusub əmi axır ki, him-cimdən kar aşmadığını görüb əyilib onun qulağına pıçıldadı:

– Ədə, yurdu itmişin oğlu, biabır olduq axı, dur bir az çöldə gəziş, ayaqyoluna dəy… Gör bu şoğəribüvün səsini kəsə bilərsən?

– Ədə, nə düşübsən e, canıma? Nə veribsən mənə ala bilmirsən?.. Bəyəm kefimnən eləyirəm? Bu curumluq da bir naxoşduqdu də, çöküb canıma, çıxmaq bilmir. Elə bilirsən özxoşunayam?.. – Fərəculla kişi də acıqlı cavab verdi.

Müstəntiq arifanə nəzərlərlə altdan-altdan, xısın-xısın veteranları süzür, onların bozalaşmasına göz qoyurdu. Axırda vəziyyəti sahmanlamaq üçün veteranlara söz atdı:

– Görürəm, orden-medallarımız kifayət qədərdir. Deyəsən, şərəfli döyüş yolunuz olub.

Yusub əmi sözü onun ağzından aldı:

– Yoldaş müstəntiq, gözlər olsun görməsin. Bu müharibədə od ayaqlamışıq, Allah düşmənimə də göstərməsin. Ayıb olar e, burda soyunub yaralarımı göstərsəm… And olsun Allahın izzəti-cəlalına, bədənimdə salamat yer yoxdu.

Yusub əmi qurtara-qurtarmaz, Fərəculla kişi qışqıra-qışqıra sözə başladı:

– Yoldaş müstəntiq, Yusubun deməyinə baxma e, çox şeyi uçurdur. Kirpiyiynən od götürən mən olmuşam. Burdan Berlinəcən pay-piyada vuruşa-vuruşa gedib çıxmışam, başımın tükü sanıycan nemes öldürmüşəm. Bir dəfə də elə biliblər ölmüşəm, atıblar ölüxanaya. Orda yaxşı ki, bir əməlisaleh adama rast gəlmişəm, dənəm üzülməyibmiş də, götürüb gətirib qospitala təhvil verib. Qarnımın bu şoğərib naxoşluğunu da elə orda tapdım. Dedilər qorxudandı… Gör nə qədər orden-medalım var, Lenin ordeni də var, Geroyluğa düşürdüm e, paxıllıqdan adımı pozdular, – deyib pencəyinin yaxasını göstərdi. – Özü də mənim voyenni biletim qırmızı biletdi. Yusubgildə göy biletdi, o ikinci sortdu, yəni döyüşən orduda almayıblar. Eləcə Qroznıdan o yana ötməyiblər…

– Ədə, nə düşüy-düşüy danışırsan? Səni bura özünü loppaz-loppaz öyməyə çağırıblar? Kül o Berlinin başına ki, ora sən gedib çıxıbsan. Gör Hitler nə günə qalıb ki, onu Fərəculla yıxıb. Nə sözüy bilirsən, nə özüy… Sənin heç Allahın yoxdu, yalannan qırıldadırsan? Mənnən frontda olubsan, utanmaz-utanmaz deyirsən ki, Yusub Qroznıdan o yana keçməyib. Yalansa sənin dilin lailahəillallaha dönməsin. Mənim Qroznıda nə itim azmışdı?.. Mən davanın birinci günündən ən qırğın döyüşlər gedən Kerçdə olmuşam. – Üzünü müstəntiqə tutub davam elədi. – Yoldaş müstəntiq, sən səyası adamsan, bizdən də yaxşı bilərsən. Noolsun cavansan, dərs oxuyubsan, məktəb qurtarıbsan, yaxşı bilərsən Kerç döyüşləri nə döyüşlərdi. Vallahi, o Qara dənizin üzündə meyitlər balıq sürüsü kimi üst-üstə üzürdü. Mən pulemyotçuydum. Vallahi, "Maksim" pulemyotu hər dəfə kəklik kimi qaqqıldayanda, bir sürü nemes yonca vəri kimi üst-üstə qalanırdı. Şairlər gəlmişdi ora, bizə baş çəkməyə, Süleyman Rüstəm üç-dörd gün bizim yanımızda qaldı. Vallahi, Süleyman Rüstəm hər dəfə şeir deyəndə mən cuşə gəlib "Maksim"in dalına keçirdim, nemesdəri ot kimi biçirdim. İndi gör mənə kim şəbədə eləyir? Süleyman Rüstəm ki, ölməyib. Bu dəyqə gedim, məni qucaqlayıb qarşılayar. – Yusub əmi axır ki, uzun sürən qəzəbli nitqinə ara verdi.

Müstəntiq veteranların yaxacırdısına maraqla qulaq asır, iki dəcəl uşağın dalaşmasını xatırladan bu deyişmələrdən sanki zövq alırdı.

– İkiniz də kommunistsiniz? – soruşdu.

Veteranlar bir ağızdan: "Bəli" – dedilər. Müstəntiq, sanki tələsirdi, elə bil canını bu tamaşadan qurtarmaq istəyirdi.

– Ağsaqqalları çoxdan tanıyırsız? – soruşdu.

Yusub əmi tələsik cavab verdi:

– Necə yəni çoxdan, lap uşaqlaqdan. Əmioğlu döyülük?..

– Sənin adın, familiyan necə oldu?.. – Müstəntiq Yusub əmidən soruşdu.

– Qasımov Yusif Səməd oğlu. – Yusub əmi şəstlə özünü təqdim elədi.

– Bəs səninki?.. – Müstəntiq üzünü bu dəfə Fərəculla kişiyə tutdu.

– Əsədov Fərəculla Sədulla oğlu, – deyə Fərəculla kişi ayağa qalxıb farağat görkəm aldı.

– Əyləş, əyləş, – müstəntiq Fərəculla kişiyə əliylə oturmaq işarəsi verdi və üzünü ona tutub soruşdu:

– Hörmətli veteran, bizim bu ağsaqqalları yaxşımı tanıyırsan, onlar barəsində fikrin necədi?

– Kəndimmizin ağsaqqallarıdı də... Xeyir-şərimiz onnarın çiynindədi. Onnarsız bir günümüz olmasın. Onnarın daş qoyduqları yerə biz baş qoyarıq. – Fərəculla kişi ona öyrədilənləri əzbərçi şagirdsayaq səliqəylə söylədi.

– Yəqin sən də eyni fikirdəsən...

Müstəntiq bu dəfə də Yusub əmiyə tərəf baxdı. Yusub əmi danışmaq istəyəndə müstəntiq əliylə gözləmək işarəsi verdi və ikisinə də birdən müraciət etdi:

– İndi siz ağsaqqalları zaminə götürməyə razısınızmı? Onları zərərli vərdişlərindən çəkindirməyə, dini fanatizmdən uzaqlaşdırmağa söz verirsinizmi?..

– Yoldaş müstəntiq, nə danışırsan, şəxsən mən özüm gecə-gündüz gözümü onların üstündən çəkmərəm, Marksdan, Lenindən onnara dərs deyərəm. Arxayın olun. Hər addımlarına nəzarət edərik, ürəyini buz kimi saxla, qoymarıq sənin kimi dövlət adamının üzünə söz gəlsin, – deyə Yusub əmi alovlu nitqini yekunlaşdırdı.

Yusub əmi danışdıqca Əli kişi altdan-altdan ona tərs-tərs diqqət yetirirdi. Yusub əmi də bunu hiss edirdi, amma özünü o yerə qoymurdu. İndi əsas odur ki, yalan-palandan da olsa söz verib kişiləri bu əjdahanın ağzından qurtarmaq lazım idi. Bu vaxt Fərəculla kişinin qarnı yenə bir partiya dərindən yallı getdi. Müstəntiq başını qaldırıb veteranlara müəmmalı nəzər saldı və dedi:

– Mən bu saat zaminlə bağlı sənədləri qaydaya salıb sizi yola salaram. Bir də ki... – müstəntiq ani pauza verib sözünə davam elədi. – Havanızı dəyişmək istəyirsizsə, çıxın bayıra, sənəd hazır olanda sizi çağırarıq...

* * *

Gün günortaya yaxınlaşdıqca prokurorun narahatlıqları artırdı. Birbaşa telefonun səsi onu diksindirdi. Birincinin zəngiydi, özünü cəld telefonun üstünə atdı.

– Bəli, eşidirəm, – deyib qulaq asmağa başladı.

Birinci katiblə prokurorun arasında qəribə bir dialoq oldu. Katib soruşdu:

– Nə oldu, siz arayışınızı niyə göndərməmisiniz?.. Bir əlçim kağızı hazırlamaq belə çətin oldu bəyəm?..

– Yoldaş katib, uzağı yarım saata, bir saata göndərərik. Müstəntiq dindirmələri hələ də yekunlaşdırmayıb. Bu gün kənddən iki müharibə veteranı dəvət etmişik ki, ağsaqqalları zaminə götürsünlər. Ona görə ləngiyib. İndilərdə hər şey hazır olacaq, – prokuror tələsik hesabat verdi.

– Başa düşmürəm, – katibin intonasiyası sərtləşdi. – Bu adamlar yol kəsiblər, nəsə oğurlayıblar, yoxsa xuliqanlıq ediblər, onlara üstəlik bir zamin də axtarırsız?..

– Yoldaş katib, dedik, hər şey qoy əsaslı olsun, dindirmə protokoludu, izahatlardı, dillərindən iltizamdı, hamısı qaydasındadı, bircə zamin sənədləri qalıb, o da indi hazır olacaq, günortadan sonra buraxacağıq, arayışı da göndərəcəyik... – prokuror ehtiyatla geniş, yerli-yataqlı məlumat verdi.

– Sən heç bilirsən nə danışırsan?.. Sən heç dediklərinə məsuliyyət hiss eləyirsən?.. Sən o ağsaqqalları orda gecə saxlayıbsan deməli?.. – katib qəzəbli qışqırdı.

– Bəli, yoldaş katib, məsələni gərək hərtərəfli araşdırıb qərar qəbul edəsən, – deyə prokuror özünü doğdu.

– Sən neçə ildi hüquq-mühafizə orqanlarında işləyirsən? – katib qəfil soruşdu.

– İyirmi ildən yuxarıdı, yoldaş katib, – prokuror cəld cavab verdi.

– Bu illərdə hüquqi prosedurlara belə yiyələnibsən?.. Bu, hüquq deyil, hüquqi nihilizmdir. Sənə kim ixtiyar verib günahsız insanları, özü də yaşlı, bəlkə də xəstə adamları qeyri-qanuni KPZE-də saxlayırsan? Sən bunun məsuliyyətini dərk eləyirsənmi? Bu nə hüquq, ədalətli sovet qanunları, nə də kommunist humanizmiylə bir araya sığır, – katib bir az pauza verdi, nəfəsini dərdi… Hiss olunurdu ki, əsəbdən və həyəcandan boğulur. Prokuror nəsə demək istədi, katib onun sözünü ağzında qoydu:

– Hələ mən qurtarmamışam. Yoldaş prokuror, – katib bir az da rəsmiyyətə keçdi. – Mən sənə nə tapşırmışdım?.. Demişdim ki, o ağsaqqalları bir-iki saatlıq çağırın, profilaktik söhbət aparın, – təkrar etdi, – profilaktik söhbət, izahatlarını alın, bir də dillərindən iltizam alın ki, bu kampaniya dövründə, ateizm tərbiyəsilə bağlı qərarın müzakirəsi davam elədiyi dönəmdə məscidə getməsinlər. Mənə də əsas o lazımdı ki, yuxarı gedən arayışda bütün bunları fakt kimi göstərim. Çünki quru sözlərə qane olmurlar, iki ayaqlarını bir başmağa dirəyib fakt istəyirlər. Əslində, bu qocalar nə edib ki, məscidə gedib namaz qılıblar, bir də azan səsləndiriblər. Başqa vaxt olsaydı, min dənə belə fakta heç fikir verən olmazdı. Bir daha qeyd edirəm, bu gün bu qocalar situasiyanın qurbanıdır. Adi vaxtlarda qəzetdə yüz dənə belə felyeton dərc edilsin, heç gözümün ucuyla fikir verməərəm. Sadəcə, indi bu fakt bizə təbliğat üçün lazımdır. Siz isə bundan yararlanıb şəxsi ambisiyalarınızı ortaya qoyursunuz, korporativ maraqlarınızı qabardırsınız. Bu, nə hüququn aliliyinə, nə də partiya etikasına sığan iş deyil… Sənin bu hərəkətində nə hüquqi məntiq, nə də partiyalı hərəkət vardır. Bu dəqiqə o ağsaqqalları buraxın, xüsusi bir maşına əyləşdirib hörmətlə evlərinə yola salın. Bir gecə saxladığınıza görə isə onların hər birindən üzr istəyin. Təcili, elə bu dəqiqə, – katib qəti göstəriş verdi.

– Baş üstə, yoldaş katib, bu saat göstəriş verərəm, – prokuror müntəzir cavab verdi.

– Bir də yadımdan çıxmışdı, o ağsaqqallardan biri Göyəmli məktəbinin direktoru Rəhim müəllimin atasıymış, – katib dedi.

Prokuror istədi xəbərsiz olduğunu desin, amma düşündü ki, gec-tez bilinər, bu da bir problem olar. Bəlkə, eləcə Rəhim müəllim, mənə boyun almadığına baxma, özü gedib yanına, xahişə… Odur ki, qeyri-iradi:

– Bəli, bilirəm, – dedi.

– Rəhim müəllimi yaxşı tanıyırsan də… – katib müəmmalı tərzdə soruşdu. – Savadına, səviyyəsinə bələdsən də… Bəs cəsarətinə, prinsipiallığına necə?.. Qorxmursan ki, sarılar qələmə, Kremldən belə, aləmi tökər bura?.. Sən onun atasını heç nədən türməyə salırsan?..

Katib cavab gözləmədən, qəzəblə selektorun düyməsini basdı, az qaldı aparat qırılsın. Üzünü yana tutub bərk tüpürdü və hirslə dedi:

– Sənə yurist deyənin… – Dönüb arxada Leninin portretinə baxdı, demək istədiyi söyüşü dilinin ucundan qaytarıb boğazının dərinliyində boğdu.

Prokurorun canına vicvicə düşmüşdü:

– Vallah, imanımı da yandırıram, deyəsən, bunlar sözləşib axı?.. Belə, iş işə oxşayır e… Rəhim müəllim dünən yəqin ağzımı boza verdi ki, "mən ona heç nə deyə bilmərəm". Görünür, xahiş eləyib. Yoxsa katibə nə düşüb ki, bu qocaları canı-dildən müdafiə eləsin… Yooox, bu Rəhim müəllimlə ehtiyatlı olmaq lazımdı. İlişdirib-eləyər məni… Görmədin, katib məni açıq-açığına hədələdi, – öz-özünə pıçıldadı.

Prokuror öz yerində oturub bir xeyli düşüncələrə daldı. Necə hərəkət eləmək barədə aşağı-yuxarı götür-qoy elədi. Sonra qəfil nə yadına düşdüsə, barmağını selektorun düyməsinə basdı. Xəttin o başında müstəntiqin səsi eşidildi.

– O qocaları təcili burax, arayışı da elə bu saat mənə çatdır, – dedi.

Elə bu dəm köməkçi içəri girib Rəhim müəllimin gəldiyini xəbər verdi. Prokuror xeyli susdu, fikrə getdi. Handan-hana başını qaldırıb:

– Qoy gəlsin, – dedi. – Sonra da əlavə etdi, – içəri heç kimi buraxma.

Rəhim müəllim içəri girəndə prokuroru kefsiz, halsız və pərişan gördü. Salam-kəlamdan sonra Rəhim müəllim cibindəki bükülünü çıxarıb stolun üstünə qoydu və əlavə etdi:

– Danışdığımız kimi, dörd dənədir…

– Rəhim müəllim, biz dostuq, – prokuror bacardıqca sözlərinin səmimi səslənməsinə çalışdı. – Bizim aramızda belə söhbətlər yaramaz. Dünən bir zarafatdı, elədim, sən də bunu əməlli-başlı ciddi qəbul eləyibsən. Götür pulunu, qoy cibinə, dünya dağılsa da qəbul eləyə bilmərəm. Müstəntiqə də göstəriş vermişəm, gedin ağsaqqalları götürüb aparın evə…

– Bu nə söhbətdi, Əvəz müəllim, biz kişiyik axı, ağzımızdan söz çıxıb. Qızıl da olsa, onun köpüyü də mənə lazım döyül. O, sənindir, ananın südü kimi halalın olsun, – Rəhim müəllim sidq-ürəkdən dedi.

– Yox-yox, Rəhim müəllim, mümkün döyül e, götürmərəm, – prokuror da inad etdi. – Xahiş edirəm, məni incitmə, onu geri götür, nə olar, başqa vaxt mənə hörmət eləyərsən, əvəzi çıxar.

Rəhim müəllim söz güləşdirməyi əbəs bilib qəfil ayağa qalxdı və "sağ ol", – deyib cəld qapıdan çıxdı.

* * *

...Sonra uzun, darıxdırıcı günlər başladı. Əli kişi gecə-gündüzün sırasını da itirmişdi. Üzü payıza get-gedə havalar daha da istiləşirdi və günlər sanki uzanırdı. Elə bil eləcə ömür də uzanırdı. Çox ağır, üzücü günlər idi. Günəş də vardı, meh də, Ay da çıxırdı, ulduzlar da. Amma dünyanın rəngi dəyişmirdi, eləcə bombozdu ki, bomboz. Vaxt çiskin payız yağışı kimi töküb-kəsib qurtarmırdı. Elə hey narın-narın səpələnirdi. Lazım olmayan hər şey həmişə adamın üzünə gülür. Qovmadığın həmişə qaçır. Lazım olan Əlinin altındaykən onu görməzdən gəlirsən. Həmişə daha uzaqlara can atırsan. Yaşamaq ağır olanda lap şirinləşir. Yaxşı günlər ümidiylə yaşayırsan.

Əli kişi sanki havasızlıqda, necə deyərlər, külək ağzına düşmüş quru yarpaq kimi sərgərdan qalmışdı. Düşüncələri də, fikirləri də korşalmışdı, həyata marağı itmişdi, quşdan ayıq olan bir insan get-gedə böyür-başına, ətrafa, həyət-bacaya, insanlara laqeydləşirdi. Gözünə heç nə görünmürdü. Bütün günü tayanın böyründəki kötüyün üstündə oturub dağı arana, aranı dağa daşıyırdı. Pişik də böyründən əl çəkmirdi. Yayın cırcırasına rəğmən, arabir sərin meh əsirdi, adamın ruhunu sığallayırdı. Tayadan quru yonca ətri yayılırdı. Bu şirin yonca ətri əvvəllər gənclik xatirələrinin xoş anları kimi Əli kişinin içinə damla-damla süzülürdü. Gənclik havası vururdu başına. İndi o hayda deyildi. Asta meh pişiyin də iyini yonca ətrinə qarışdırırdı. Amma Əli kişi bu qarışıq qoxudan bir təməsöy anlaya bilmirdi. Deyəsən, get-gedə qoxu hissini də itirirdi. ...Fikir-xəyalı yenə qarışdı. Fikir-xəyal deyəndə, düz-əməlli fikirləşməyi, düşünməyi də yox idi, özünə qapılıb qalmışdı. Bəzən fikirləri dünyanın faniliyinə cumurdu. İçində öz-özünə pıçıldayırdı: "Qurban olum sənin izzəti-cəlalına, dünya buydusa, nöş yaradırdın onu?.." Sonra da Allahın işinə qarışmaq ona ağır gəlirdi: "Əstəğfur, əstəğfur", – deyirdi. "Dilim-ağzım qurusun, gör nələrə əl aparıram e? – O kişinin işlərinə qarışmaq olar?.." – söylənirdi. "Bu dünya bir köç mənzilidi. Biz də ki, köçərilər... Sınaq məkanında yaşayırıq də... Di gəl ki, başa düşən var?.. Axirəti fikirləşən var?.. Elə indinin özü axır zamandı də... Qurani-Kərimdə axır zaman haqqında deyilənlərin hamısı gəlib yetişib: kiçik böyüyün üzünə ağ olur, olur, halal-haram qarışır, qarışır, namus-qeyrət, din-iman itib-gedir, gedir... Hansını deyim, hansını sadalayım?.. İndi də deyirlər, namazı da tərk elə, orucu da, məçidə də getmə! Bu dünyanın duracağı, varı-yoxu nə qalıbsa, elə bu namazda, orucda, ibadətdədi. Onu da tərk eləyəndən sonra bu dünyanı nə xilas edəcək?.. Onnan sonra nəyə güvənək? Belə dərd olar?.. Nə bilim, vallah, o gözəgörünməzin səbri dəryalar qədərdi. Yenə özü bilən məsləhətdi".

...O hadisədən sonra kişi günü-gündən geri gedirdi. Arıqlasa da, boy-buxunu yerindəydi, ama içi koğuşlu ağac kimiydi. Getdikcə lap uçunurdu. İştahdan düşmüşdü, əl-ayağı işdən-gücdən soyumuşdu, həssaslığını, sayıqlığını itirmişdi. Daim quş yuxusu yatan, gözünün acısını çox vaxt atüstü, ayaqüstü

alan Əli kişi yatmağa yaman mehr salmışdı. Hər namazdan sonra başını yastığa atırdı. Deyirsən yatırdı?.. Yata da bilmirdi. Bu uzun, cansıxıcı isti günlərin axırına bə nə təhər çıxsın? Bütün günü həyətdə tayanın böyründəki kətilin üstündə oturub Günəşə baxırdı. Gözlərini yumurdu, Günəşi sanki içinə çəkirdi. Günəş indi onun içində yanırdı, üşüyən ürəyini gün işığına verib qızdırırdı. Sonra da uzun-uzadı məscidə sarı boylanırdı. Hər dəfə də üzüntülü köks ötürürdü. İçindən sökülür, tarmar olur, ruhu sızıldayır, cuna kimi süzülüb soğan kimi soyulurdu. “Yəni doğrudan mən bu məçidə gedəmməyəcəm?..”

Doğrudan da məscid onun üçün dünyanın sonuncu mənəvi dayaqlarının simvoluydu. Ruhi rahatlığı, daxili sakitliyi, bu fani dünyaya məhəbbəti, az-çox bağlılığı burda tapırdı. O, burda qəlbinin ən əziz guşəsində yaşatdığı öz gözəgörünməz Allahıyla çox rahat, arxayın və xoşbəxt idi. Bir də ki, bu məscid ona həm də atası Məşədi Həsənin yadigarı, dədə əmanətiydi. Fikri yenə çözələndi, xatirələrin dərin qatlarına getdi, məscidin bünövrə daşlarının qoyulduğu günləri yaddaş süzgəcindən keçirdi. “Goru nurnan dolsun Dədəmin, hər işdə olduğu kimi, bu məsələdə də sinəsini mərd-mərdanə irəli verdi. Kənddə məscidin olmaması arına gəlirdi, gecə-gündüz səbr-qərarını kəsir, yaman yer eləyirdi ona. Onda Niqolayın axır-axırlarıydı, hərki-hərkilik dövrüydü. Yoxsa, məçid qoyardılar tikməyə?.. O vaxt dəstək uşaq olsam da, hər şey dünənki kimi yadımdadı. Dədəm kənd camaatını bir yerə yığıb, məçid məsələsini ortaya atdı. Bizim bu kəndin adamları elə əvvəldən karsız, xeyirə-şərə yaramayan camaatdır. Hərə bir vəzzariyyət oxudu. Çoxu da pul verməyin dərdindən ilim-ilim itdi. Ortada tək-tük adam qaldı, o da bizim ən yaxın simsarlarımız. Yusubun dədəsi Səməd əmim, İbrahim əmim, Məhəmməd əmim, Hüseynin dədəsi Talıb əmim… Belə də, dəngül-düngül ata-qardaş… Onların da gücü nəyə çatardı ki?.. Onnan Fatıya tuman olmazdı. Amma, hər nə, necə deyərlər, heçdən kosa yaxşıdı. Xırda-xuruş olsa da köməkdi. Güc düşdü yenə Dədəmin üstünə. Dedi ki, dünya ətl-qətlə gedə, ağzımdan söz çıxıb, ev-eşiyi satmalı olsam da, gərək məçidi tikəm.

İrəhmətdik, o vaxt İrana tez-tez gedib-gəlirdi. Sonradan bildik ki, Ərdəbildə qohum-əqrəbanı tapıb, onnarnan ticarət qurub. Zirəkdi, erkək quşdan ayıqdı. Düzdü, o vaxt İranda da, elə sən deyən aşıb-daşmırdı. Amma dədəmgilin əli yaxşı gətirirdi. İrandan hər qayıdanda yekə bir torba dolu qızılnan gəlirdi. Hamısı Niqolayın imperialları: beşliklər, onluqlar… Belə-belə, evdə beş-altı torba qızıl pul yığılmışdı, nənəm sandıqda saxlayırdı. O vaxt pul elə də xərclənmirdi e… Maşallah, qapımızda on-on beş baş heyvanımız, geniş əkin-biçin yerlərimiz, ənhar taxılımız, çəltiyimiz, canım sənə desin, qapımızın toyuq-cücəsi, bağımızın mer-meyvəsi… Pul yada düşürdü, pula ehtiyac vardı?..

Dədəm, kişi kimi qızıl torbalarının hamısını qoydu ortalığa. Gedib nə zülümnən tikintiyə icazə aldı. Sonra da kəndin güşad yerində, yaşıllıq, ağaclıq bir ərazidə bax bu məçidin bünövrəsi qoyuldu. Sonra pul azlıq elədi, heç nəyə baxmadı, nənəmin boyun-boğazını da soyub-soymalayıb qoydu bu işə. Lap axırda pul üzündən məçidin damı yarımçıq qaldı. Adəti üzrə hamı qaçıb

gizləndi. Allah o dünyasını versin, yenə də mərd-mərdanə sinəsini irəli verdi. Bir qızıl cib saatı vardı, İrandan gətirmişdi, həngamə bir şeydi. Deyirdilər, nə bilim Germaniya malıdı, yoxsa Amerika?.. Əlqərəz, ağır bir şey idi. Uzun qızıl zənciri vardı. Eləcə zəncirinin ağırlığı, yalan olmasın, bir yarım kilo gələrdi. İki göz istəyirdi tamaşasına. Vallahi, əziz balana qıyıb verməzdin. Özü də gündə beş dəfə namaz vaxtı azan verərdi. İrəhmətdik, özü də üst-başına, geyim-keçiminə baxan adam idi. Səliqəynən geyinərdi, saatı da jiletinin döş cibinə qoyub zəncirini sallayardı aşağı. Pah!.. İndi sən gəl, bu kişiyə tamaşa elə. Əsl kişiydi, tək gəldi, tək getdi. Biz onun tozuna da çata bilmərik. Cənnətdik, axır macalda saatı da qoydu ortalığa, kəndin bir-iki cahıl-cuhulu vardı, dedi ədə, aparın satın, məçid yarımçıq qalmasın. Saatı aparıb Qala bazarında zərgərə vermişdilər, bir ətək pulnan qayıtmışdılar. İmanımı yandırmaram, o vaxtlar söz-söhbət gəzdi ki, saatı satanlar pula özləri də calaq vurublar, başından qırtıblar. Dədəm söz-söhbətə fikir vermədi. Əsas oydu ki, saatın pulu məçidin tikintisinə gen-bol bəs elədi. Başından girib ayağından çıxdı. Belə də dərd olar? Dədəmin izi qalmış Allah evinə mən indi həsrət qalmalıyam? Hə… Yəqin vaxt-vədə tamam olur. Mənim bundan sonra yaşamağım, vallah, günahdır”.

* * *

…Baş verən hadisədən bir aydan bir az artıq vaxt keçmişdi. Bir aydan bir az artıq vaxt idi ki, qocalar məscid üzünə həsrət qalmışdılar. O birilərinin elə də vecinə deyildi, amma Əli kişi hər gün saatlarla məscidə baxa-baxa içindən ovulurdu. Onun qabağını heç bir qüvvə, partiya, hökumət-filan ala bilməzdi. İndi çoxdan basıb getmişdi məscidə. Amma oğlu Rəhim müəllim ilişib qalmışdı boğazında. Onsuz da bilirdi ki, bu məsələdə İrəhim ütüdən qurtardı. O qədər istəməyənlər var ki, hamısı da marığa yatıb fürsət gözləyirlər. Yoxsa onu saxlamaq olardı? Məscidin havası uzaqdan-uzağa vururdu onu. Durub tamaşa etməklə, baxmaqla gözünün qurdunu birtəhər öldürürdü. Bir də ki… o ecazkar səs üçün, azan səsi üçün ürəyinin başı göynəyirdi. Yaralı quş kimi çırpınırdı bu səsdən ötəri. Bu yannan da payız gözəgörünməz islaq qədəmlərilə yavaş-yavaş yaxınlaşırdı. Yaş ləpirlərinin şappıltısı indidən eşidilirdi. Noolsun ki, Günəş yandırırdı hələ, yer-göy gün işığında alıq-balıq vururdu. Allahın öz qanunları var. Bir saatın, bir dəqiqənin içində fəslin üzü dönə bilər. “Bir də gördün ki, şəppədənxeyir payız çıxdı böyürdən. Yağışlar başladı, nə başladı?.. Kəsmək biləcək? Elə bil lüləyəndən tökəcək. İndi gəl, ölünü qoy, dirini ağla. Allah mərdiməzara lənət eləsin, axtarmağnan döyül ki, iyləyib-çüyləyib özü tapır də bizi”. – Əli kişi öz-özünə düşünürdü. “Mərdiməzar oğlunun dədə-babadan iy dəyəni də, hamısı mərdiməzardılar, çuğuldular. Bircə bu döyül ki… Bütün gorbagorrarı da bu kənddə çuğulluqda ad qoyublar adıbatmışlar. Bu da onlardan artıq olmayacaq ki… (Musa Babaşovun qarasınca söylənirdi). Yoxsa indiyə çoxdan məçidin üstünü əldən çıxartmışdım. Özüm gedə bilmirəm, kimə də deyirəm, daş atıb başını tutur. Elə bil məçidnən bu günüqaraların arasına qurd yağı vurulub?..”

Sonra bir az da var-gəl elədi. Dönüb yenidən məscidə sarı boylandı. Dərindən ufuldadı, əlacsız körpə kimi naçar-naçar sızıldadı. Yenə ürəyində vərəvürd eləməyə başladı. “Camaatı da nə qınayasan? Bu yurdudağılmışın oğlu, Musa, bir iş tutdu ki, yönü-yönbərəsi olsun?.. Hamı canından qorxur də... Hökumətnən hökumətdik eləmək olar? Neyniyək? Səbrdən başqa əlacımız yoxdu. Təvəkkül Allaha. Mıxı mismar eləyən kişi var. Əlimizi o kişinin ətəyindən üzməyək. Köpək uşağı, o maqnitafonu da saxladılar e, milisiyədə. Bu gün qaytararıq, sabah qaytararıq, hələ soraq yoxdu. Gərək Həsənə deyəm, ayağını qoysun o tərəfə, alıb gətirsin. Öz malımızdı, yiyə durmalıyıq də... Heç olmasa evdə, ara-bərədə xəlvətə salıb barı o azana qulaq asardım...” Sonra yenə də bir xeyli xəyala gedib daxili monoloquna qayıtdı. “Mən də lap avam-avam danışıram e... Denən onnar bir də sənə o azanı qaytararlar? Ay-hay!.. Lap elə, denən maqnitafonu verdilər, kaset olmayandan sonra maqnitafon kimə lazımdı. Muğamat oxudacam?..”

Kişi yorulmuşdu, çox yorulmuşdu. Deyəsən, özü də yaşamaqdan yorulmuşdu. Bu dünya ona suyu sovulmuş dəyirman kimi gəlirdi. Hər şey dayanmışdı, dünyanın gərdişi də, ömrün sərgüzəşti də... Nə açılan səhərin ləzzəti vardı, nə də düşən axşamın. Yemək-içməyin də dadı-tamı qalmamışdı. Elə bil çörək-xörək yemirdi, arpa-saman yeyirdi. Heç nə canına sinmirdi.

...Həyətdə bir xeyli key-key gəzişəndən sonra evə keçdi. Təzə paltarlarını geyinib çıxdı. Gülbahar, əlahiddə bir hadisə baş veribmiş kimi, onun qabağına qaçdı. Əli kişi gəlininin sualını gözləməyib dedi:

– Dəlləyə gedirəm. Saç-saqqal basıb məni, gedib baş-gözümü düzəltdirim, – deyə həyətə düşdü.

Evdəkilər sevindiklərindən bilmədilər neynəsinlər. Şad-şalayınlıq, deyib-gülmək, sevinib-qanadlanmaq qarışdı bir-birinə. Bir aydan yuxarı sürən intizara və nigarançılığa deyəsən, son qoyulurdu artıq. Deyəsən, buzlar əriyirdi.

Əli kişi dəyirmanın qədim-qayım divarına söykənib yanını yerə qoydu. Papağını da, araxçınını da çıxarıb dizinin gözünə keçirdi. Təzəcə qırxılmış başının, boyun-boğazının tərini cib dəsmalıyla quruladı. Bəzi yerləri saralıb solmuş, yaşıllıqlar içində tala-tala gümüşü rənglərlə naxışlanmış, sanki saçına dən düşmüş çəmənliklərdə gün işığı oynaşırdı. Günəş tellərinin bir ucu da uzanıb-uzanıb dəyirmanın divarlarının bişmiş qırmızı kərpiclərində gəzişir, bu qədim divarlara sanki köhnə, etibarlı dost kimi sığal çəkirdi. Şüalar sınıb qayıtmırdı, əks olunmurdu, qırmızı kərpiclərin çopurlarında batıb qalırdı, bu dəlmə-deşiklərə qarışıb itirdi. Qaynar odda bişmiş qırmızı kərpiclər oda hərismiş kimi, gün işığını somurub ehtirasla kamına çəkirdi. Elə köhnə xatirələr də Əli kişini beləcə öz kamına çəkirdi. Ömrün sevincli, fərəhli günləri, ümidli gənclik çağları oyanmağa başlayırdı xəyallarında.

Kişi qəlbinin bütün səmimiyyətilə cod və qabarlı əllərini kərpiclərə sürtür, kələ-kötür barmaqlarıyla qəlbinin incə məhəbbətini kor-kobud daşlara hopdururdu. Ürəyinə sanki su səpilirdi, şüuru aydınlaşırdı. Üzündə təbəssüm cilvələnir, gözlərinin qırağındakı qırışlar ahəstəcə ləpələnirdi. Sövq-təbii gözləri işıqlanır, üz-gözündəki şəfəqlər gün işığıyla sanki yarışa girirdi. İndi o, həyatın o tayındaydı, ömrünün ən gözəl, ən xoş anlarını yaşayırdı. Gənclik

zamanını. Bu saat hər şeyini “uf” – demədən verərdi, o günlərin bircəciyini belə qaytarsaydılar. “İnsan yaşayır, çalışır, vuruşur, nə qazanır?..” öz-özünə pıçıldamağa başladı. “İtirə-itirə gedir. Heç qazandığı olur ki?.. Eləcə, ancaq itirir.”

* * *

...Əli kişi sübh namazından sonra həyətə çıxdı. Günəş təzəcə çırtlayırdı. Uşaq nəfəsi kimi təmiz, saf hava vardı. “Oxxay”, – deyib havanı dərindən içinə çəkdi. Günəşin şəfəqləri tut ağacının budaqlarında ilişib qalır, damlaya çevrilib muncuq-muncuq üzüaşağı diyirlənirdi. Kişi başını qaldırıb göyə millənən tut ağacının sağlam budaqlarını seyr etdi. Yarpaqlar arasından boylanan əlçim-əlçim gün işığı üz-gözünü yaladı, gözləri qamaşdı. İşıqlı damla muncuqlardan bir-ikisi də alnına düşdü. Bumbuz təmizlik alnından içinədək süzüldü, ürəyinə xoş bir sərinlik gətirdi. Əllərini belinə qoyub həyəti dörd dolandı. Bir-bir baxır, diqqətlə nəzər yetirir, sanki hər şeyi yadda saxlamağa çalışırdı. Hərlənib-fırlanıb yenə də öz doğma yerində ot tayasının qabağındakı köhnə kətilin üstündə əyləşdi. Pişik də bir göz qırpımında hardansa peyda olub onun böyründə şöngüdü. Kişi pişiyə qıyğacı nəzər yetirib qımışdı, yenə öz xəyallarına qayıtdı. Bu ev-eşiyi, bu həyət-bacanı o, necə də zülmlə, necə də əzab-əziyyətlə başa gətirmişdi. Bir özü bilirdi, bir də Allahı. “Çox şükür verdiyinə İlahinin. Övladlarım pis çıxmadı, narazı döyüləm. Beş kişidən biri də elə mənim oğlanlarımdı. Bir qızım gəlinkən getdi Tanrı dərgahına. Yarası bu gün də içimdə qan verir. Şükür o kişinin yazısına. Bəlkə elə, belə məsləhətmiş?.. Bu dünyadan bir elə giley-güzarlı da döyüləm. Amma... Bu çal vaxtımda bihörmət, biismət elədilər. El içində şərməndə oldum... Yooox, baxıram, ömrün sonu, heç də yaxşı gəlmir.

Beləcə, fikir-xəyal içində bir-iki saat keçdi, sonra Əli kişi ayağına qısılmış pişiyi astaca kənara itələdi. Tələsmədən, asta-asta ayağa qalxdı, evə tərəf yönəldi. Təzə pal-paltarını geyindi, möhürünü canamaza büküb qoydu cibinə. Çölə çıxıb tut ağacanın altında yenə bir xeyli dayandı. Yorğun, nigaran baxışlarla ətrafı süzdü. Elə bil hər şeylə vidalaşırdı. Bu məqamda Gülbahar evdən çıxıb:

– Əmi, bu təzə pal-paltarlarını da geyinib hara belə hazırlaşırsan? – heyrətlə soruşdu.

– Nədi, mənə təzə paltar geyinmək yaşaqdı?... – tənəylə cavab verdi.

Gülbahar pərt oldu. Dili dolaşa-dolaşa:

– Yox eee... dedim yəni uzaq gedirsən?.. – soruşdu.

Bu vaxt Ceyran içəridən çıxdı. Gülə-gülə:

– Ay tünbətün oğlu tünbətün, söz də soruşmaq olmaz?.. Nədi, ayıya dəyirmançı dedi?.. Soruşur ki, hara gedirsən də...

– Sən də az şəbədə bağlamaqla məşğul ol, yekə qızsan e... Ta uşaq vaxtın çoxdan ötüb. Bu gün-sabah bir evə yiyəlik eləyəcəksən e... Özüy nadan kimi aparma. – Əli kişi ciddi şəkildə Ceyrana təpindi.

Araya ani sükut çökdü. Əli kişi uzaqlara baxıb yenə də xəyallandı, ürəkparçalayan ufultuyla dərindən köks ötürdü. Sonra da dönüb qəti səslə dedi:

– Gedirəm məçidə.

– Nə?.. Məçidə?.. – Gülbaharla Ceyran hər ikisi xorla soruşdu.

– İstixarə eləmişəm, – deyə kişi onların sualına məhəl qoymadan davam etdi, – üç gün, üç gecə məçiddə oruc tutub, namaz qılıb zikr eləyəcəm. Bir köpəyoğlu, köpəyqızı bu üç gündə məçidə tərəf üzüksə, vallahı, qırğın qopardaram. Açın qulağızı, eşidin, hamıya da deyin, bir adam ora ayağını qoysa, iki qıçını da sındıraram.

* * *

Kişinin gedişinin üçüncü günüydü. Vaxt-vədə tamam olmuşdu. Amma məscid tərəfdən səs-soraq yoxudu. Həyat öz ahəngindəydi. İşə gedən işə gedirdi, təsərrüfatla məşğul olan təsərrüfata, həyət-bacada eşələnənlər də hakəza. Amma Əli kişinin ailəsində nigarançılıq baş alıb gedirdi.

Axır ki, arvadlar sözü bir yerə qoyub məscidə sarı yön aldı. Məscidin həyətinə çatanda hamısı dayandı. Məscidin həndəvərində mistik bir sakitlik vardı. Arvadların əksəriyyəti üşəndi, tükləri biz-biz oldu.

– Qıza, mən məçiddən uşaqlıqdan qorxuram, e… – Bənövşə əsə-əsə dedi. Sanki titrətmə tutmuşdu onu.

Ceyran ona sarı qanrılıb ərklə:

– Kül qoyum elə sənin ağlına. Qıza, adam da məçiddən qorxar? Məçiddən əmin yer?.. – dedi.

Dəstə ahəstə-ahəstə, ehmalca məscidə yaxınlaşmağa başladı. Amma hiss olunurdu ki, hamı üşənir. Hamı barmağının ucunda yeriyir, sanki məscid həyətinin müqəddəs torpağını incitmək istəmirdilər. Doğrudan da məscidə yaxınlaşdıqca qadınların qəlbini vahiməqarışıq səksəkəli bir hiss bürüyürdü. Bu, məscidin mistik ovqatındandı, kişinin nigarançılıqlarından yanaydı, nəydi, hər bir halda, qadınların içində qəribə bir üşənti qaynayırdı.

Məscidin binası hündür kürsülü bir tikiliydi. Eyvana qalın palıd taxtalar döşənmişdi. Arvadlar pilləkənlərlə yuxarı qalxmaq istəyəndə bir də gördülər ki, pişik yuxarıda dayanıb onlara tərəf boylanır. Hamısı diksinib “bismillah… bismillah”, – dedi.

– Qıza, bu şəppədənxeyir hardan çıxdı belə?.. Bizi deyəsən qabaqlayıb e, bu?.. – Kifayət heyrətlə dedi. – Qıza, gör bu taxtaları nə qədər cırmaqlayıb e, xırman boyda yer eləyib e, burda. Az qalıb cırmaqları taxtanı deşib keçsin e… – Kifayət harasa baxıb təzədən təəccüb dolu səsini qaldırdı. – Belə bax e, belə bax e… şəlməni də cırmaqlayıb töküb e… Qıza, vallah, sirri-Xudadı…

Pişik dəstəni bir az süzüb özünü vurdu pəncərəyə. Bu səfərki sonsuz bir qəzəblə pəncərənin şüşəsini cırmaqlayıb fınxırmağa başladı.

– Qıza, bu pisniyyət belə ki, özünü yeyib-tökür, dilim-ağzım qurusun, babamın başında bir qəziyə olmasın, – Ceyran səksəkəli dedi.

– Qıza, ona bax, gözləriylə adamı yeyir, az qalır dil olub dillənə, – Kifayət də Ceyranın sözünə söykək oldu. – Xatasını Allah bu kişidən uzaq eləsin.

Qapını itələyib ahəstə içəri keçmək istədilər. Ayaqqabılarını soyundular. Bu dəm pişik, de bayax, özünü hamıdan qabağa atıb içəri dürtüldü. Qaçaqaça minbərin yanında dayandı, gələn dəstəyə tərəf çevrilib miyoldamağa başladı. Məscidin böyük zalında qəribə bir sərinlik və sakitlik vardı. Sərinlikdən ürək titrəyirdi, sakitlikdən qulaq tutulurdu. Çöldəki qaynar istinin, vay-həşirin elə bil bura dəxli yoxdu. Qəfilə yumşaq xalçalar üstündə sanki yerimirdi, süzürdü. Divarlarda müqəddəslərin şəkilləri asılmışdı. Həzrət Əliylə İmam Hüseynin nurlu simaları, gözəl çöhrələri ürək parçalayırdı. Qəfilədəkilər heyrətdənmi, qorxudanmı, nədənmi, səslərini içinə çəkib asta və yüngül addımlara minbərə yaxınlaşdılar. Pişik isə dayanmadan canhövllü miyoldayırdı.

Əli kişi namaz üstəydi. Alnı möhürdə necə vardısa, eləcə də səcdədə qalmışdı. Dəstənin gəlişini, deyəsən, heç hiss eləmirdi. Babasını görən kimi Ceyranın ürəyi atlandı. Sanki məsciddə olduğunu da unutmuşdu. Məscidin xofu silkinib canından çıxmışdı. Odur ki, ucadan dedi:

– Baba, ay baba, qabağında ölüm, ay baba…

Babadan isə səs çıxmırdı. Necə var, eləcə səcdəyə əyilib qalmışdı.

Mixək bibi nəsə anlayıbmış kimi, Ceyranı bir az kənara itələdi:

– Qıza, bir dayan görüm. Keç bu yana… Keç bu yana, – deyib kişiyə yaxınlaşdı. Bir yüngülvari kişinin çiyninə toxunub: – Əmi, əmi, – dedi.

Eləcə, yüngül bir toxunuşa bəndmiş, Əli kişinin cansız bədəni böyrü üstə yerə yıxıldı. Axirət yuxusuna getmişdi. Pəncərədən düşən çəpəki gün işığı Əli kişinin boyun-boğazında oynayırdı. Sanki onunla vidalaşırdı. Gözləri ağara qalmışdı. Gözlərinin dərinliyinə elə bil dan parıltısı hopmuşdu… Qanı sovr¬ulub çəkilmiş nurlu sifətinə ölümün solğun kölgəsi hakim kəsilmişdi. Deyəsən, canını təzəcə tapşırmışdı. Bədəni hələ istiydi, soyumağa çatdırmamışdı.

Mixək bibi bir addım irəli yeriyib kişinin gözlərini qapadı və qalxıb qarasına:

– Qıza, Ceyranı aparın o yana, – deyib iki əlilə üzünü örtüb hönkürdü.

Ceyran heç nəyə fikir vermədən yumub-tökür, yaxasını, üz-gözünü cırır, az qala, canına qəsd edəcəkdi.

– Ay camaat, açın qulağınızı, eşidin. Mənim babam ölmədi, şəhid oldu. Allah yolunda, din yolunda, iman yolunda şəhid oldu. Öz şəhadətiynən İmam Hüseyn şəhadətinə qovuşdu… İndi orda, onun ruhuyla bir yerdədi…

***SON***



*Kəmaləddin QƏDİM*

**DUR AYAĞA, QONAQLARI QARŞILA...**

Ölüm haqdı, yüz götür-qoy, yüz çevir,
İçin-için yan, haqları qarşıla...
Soyuq-soyuq dodaqlara üz çevir,
Nəmli-nəmli yanaqları qarşıla...

Yaraşıq ver qamətinə, şəstinə,
Kimdi baxan başdan çıxan tüstünə...
Baxma belə qoşun çəkib üstünə,
Son dərdləri, son ahları qarşıla...

Mən ki elə şeirimnən, sözümnən,
Od qalayıb oynamışam közümnən.
Savabları aparmışam özümnən,
Saxladığım günahları qarşıla...

Gündü, aydı, keçəcək, bil, sevdiyim,
Üçdü, qırxdı, bir də ki, il, sevdiyim.
Gözlərinin yaşını sil, sevdiyim,
Dur ayağa, qonaqları qarşıla...

## GÖYƏ

Paklan, təmizlən, durul,
sirdaş ol sıx-sıx göyə.
Sev də, aşiq ol, vurul,
bənzə azacıq göyə.

Bu yaxın şaha yaxın
Bahadan baha yaxın,
Saraydan daha yaxın
bax, bu alaçıq göyə.

Ha gözlə ki, dinə tab,
Cin atına minə tab.
Çəkilməzə bu nə tab,
bu necə acıq göyə?

Yapılacaq yapılar,
Çapılacaq çapılar.
Pəncərələr, qapılar
taybatay açıq göyə...

Ömür naxış, gün naxış
Bu son payız, bu son qış.
Bu da, bu da son yağış,
tut ucundan, çıx göyə...

## ASTARI ÜZÜNDƏN BAHA ÇIXACAQ

Aldığım, verdiyim nəfəsi saysan,
Çoxusu çəkdiyim aha çıxacaq.
Bülbülə yuvadı qəfəsi saysan,
Mənə də bir uçuq kaha çıxacaq.

Doğuşdan alnıma yazılı dərdim,
Gör necə nizamlı, düzülü dərdim...
Yenə havalanıb Füzuli dərdim
Bəxtəvər-bəxtəvər dağa çıxacaq.

Mən elə bir könlüpaşanın biri,
Yüz yol danışdırın, yüz yol dindirin.
Bir ucu boynuma keçən kəndirin,
Axtarsan bir ucu şaha çıxacaq.

Canım, dahası var hələ, dahası,
Canımı hələ çox oda yaxası.
Keçəcək əlimə adam yaxası,
Əlimdən sevdiyim yaxa çıxacaq.

Bir gün gətirəcək əlim, gələcək,
Mənim də vurğunum, dəlim gələcək.
Gələcək, bir gözəl ölüm gələcək,
Astarı üzündən baha çıxacaq...

**MƏN SƏNİ YAZMIRAM Kİ...**

Sən bir ömrə bədəlsən,
yaşamla tən gəlirsən,
Çəkirsən yurd yeritək,
mənə vətən gəlirsən.

Əlimə qələm keçir,
ağlıma sən gəlirsən,
Mən səni yazmıram ki...

Söykəyib bir ümidə
kürəyimi, yazıram,
Arzumu, istəyimi,
diləyimi yazıram.
Sənsən ürəyimdə, sən
ürəyimi yazıram,
Mən səni yazmıram ki...

Bir cürə car olmuşam
dostun, yadın dilində,
Nə deyirlər görəsən
buna qadın dilində?
Əzbərə çevrilsə də
hər gün adın dilimdə,
Mən səni yazmıram ki...

Hər gün vaxtla, zamanla
küsürəm, barışıram,
Hər gün baxtın, taleyin
işinə qarışıram.

Həsrətinlə gizlicə
yanıram, alışıram,
Mən səni yazmıram ki...

O nur dolu surətin
əslini çəkirəm mən,
Təbiətin sən adlı
fəslini çəkirəm mən.
Üzündəki gülüşün
rəsmini çəkirəm mən,
Mən səni yazmıram ki...

Bir kəlmə söz deyirsən
sözünü köçürürəm,
Yana-yana odunu,
közünü köçürürəm.
Tanrı yazısısan sən,
üzünü köçürürəm,
Mən səni yazmıram ki...

## HƏLƏ BİR DUANIN ÜSTDƏYƏM...

Əli dəyənəkli, qılınclı vardı
fələk mən astanın, yavanın üstdə.
Tək bircə davalıq qələbə vardı,
mən gedə bilmədim davanın üstdə.

Meydan meydan idi, fürsət tək əldi,
Axı, kim tək əlin səsinə gəldi?
Hələ də həvəs yox yuva dikəldim
o uçub, dağılan yuvanın üstdə.

Boşuna hər arzum, istəyim elə,
Bir kövrək, bir yanıq bəstəyəm elə.
Hələ bir duanın üstdəyəm elə,
o sən eylədiyin duanın üstdə.

Həmin dilsizinəm, o həmin lalın,
O həmin dərdlinəm, həmin bəlalın.
Yenə saatdabir dəyişir halım,
atırlar yenə də havanın üstdə...

## KİMİNSƏ UNUDUB GETDİYİ ADAM

Bir ac sərçəsinə dənəmmişəm mən,
Bir tox sərçəsinə ögeyəm, yadam.
Bu yolayrıcında mənəmmişəm, mən,
Kiminsə unudub getdiyi adam.

Həsrətə halım yox, dərdə tabım yox,
Dözümü hardasa qoyub gəlirəm.
Bitməyir özümlə haqq-hesabım, yox,
Özümü hardasa qoyub, gəlirəm.

Baxın, bu qurağa axan su mənəm,
Özüyəm, qurağın özüyəm ya da.
Dəyişik salmayın mənəm, bu mənəm –
özünü hardasa axtaran adam.

Bir qadın sevmişdim, şirin, çox şirin,
Şəkərdi, unutdum, baldı, unutdum.
Gözlərim ardınca yeriyib getdi,
Əllərim əlində qaldı, unutdum.

Nə hələ gün düşür o çəkən dağa,
Nə hələ o adlı yaram sağalıb.
Vallah, əzrayıl da tapmır almağa,
Canım o qadının yanında qalıb.

Bir ac sərçəsinə dənəmmişəm mən,
Bir tox sərçəsinə ögeyəm, yadam.
Bu yolayrıcında mənəmmişəm, mən,
Kiminsə unudub getdiyi adam.

## HƏLƏ ZAMAN TUTUR, VAXT TUTUR MƏNİ...

Hələ zaman tutur, vaxt tutur məni,
Hələ özübilən sayaq saxlayır.
Unutmaq istəyən unudur məni,
Kimdəsə var bir az maraq, saxlayır.

Xəlvət dayansa da qəsdimdə ölüm,
Uca qamətimdə, şəstimdə ölüm.

Gəzdirir gözünün üstündə ölüm,
İlahi, nə gözəl qonaq saxlayır...

Ətrafda nə varsa adamsayağı,
Yerişlər, duruşlar saxta, bayağı.
Gör necə götürür üzlər boyağı,
Üzləri gör necə boyaq saxlayır...

Qərib şəhərlərin, qərib köylərin
Dustaq adamları, zindan öyləri.
Nəyin üzərində durur göyləri,
Göyləri hansı güc, dayaq saxlayır?

Bilmirəm yuxumu, gerçəkmi adı,
Vallah, bir başqadır ləzzəti, dadı.
Hər gün ziyarətə gəlir bir qadın
qəbrimin yanında ayaq saxlayır.

Nə yaman qəribə, qərib bu dünya,
Nə üzlər, sifətlər görüb bu dünya...
Divini yuxuya verib bu dünya,
Hərdən cırtdanını oyaq saxlayır.

## QARI NƏNƏMİN SON GÜNLƏRİ

Oturur ağrıyır, durur, ağrıyır,
"Allahım bu nə can, bədən?" deyinir...
Gərək tez gələydi deyir, bu gələn,
Gərək getməyəydi gedən, deyinir...

Qalmayıb ağrının ləzzəti, dadı,
Ayıra bilməyir qohumu, yadı.
Üstdə "yarıgəlin, yarıqız" adı,
Tənha qoyub gedib dədəm, deyinir...

Deyirəm, bəlkə də, azı, ən azı
darğındı, küskündü, çəkilmir nazı.
Kimdən narazıdı, nədən narazı,
Özü də bilmir ki, nədən deyinir...

Elə, uzun-uzun yollara baxır,
Torlanmış gözündə şimşəklər çaxır.

“Harada sülənir bu ölüm axı,
Gəlib çatmadımı vədəm?”, deyinir...

## MƏN ELƏ SONRAKI AĞIL KİMİYƏM

Diksinməz ahıma, naləmə Tanrı,
Çatsın adamlara nalәm çətin ki...
Qutsaldır, and içib qələmə Tanrı,
Büdrəsin əlimdə qələm çətin ki...

Bu şər dedikləri minillik şərsə,
hələ çox gedəcək işimiz tərsə.
“Aləm ölər, deyir, alim ölərsə”,
Alim ölüb gedir... aləm çətin ki...

Əlimin bayrağı, ələmi dərddən,
Bağrıbadaş olur beləmi, dərddən?
Eşq ilə tutmuşam şələmi dərddən,
Çətin ağır gələ şələm, çətin ki...

Bir az son kimiyəm, axır kimiyəm,
Bir az röya kimi, nağıl kimiyəm.
Mən elə sonrakı ağıl kimiyəm,
Qayıdıb başıma gələm çətin ki...

## ÜSTÜNDƏ SƏBRİN OLMAZ?

Hər quş xəbər gətirməz,
Hər quş göyərçin olmaz.
Nə yuxular görərsən,
Birisi də çin olmaz.

Ha qoru, çək keşiyin
bu bumbuz, boş beşiyin.
Yaşarsan, ev-eşiyin,
Ölərsən, qəbrin olmaz.

Vaxt da kəskin, sərt gələr,
Əldə min cür şərt gələr.
Bir gün Qiyamət gələr,
Hesabın, cəbrin olmaz.

Gözlərində nəm artıq,
Kədər artıq, qəm artıq.
Dözə bilmirəm artıq,
Üstündə səbrin olmaz?

## ÇƏTİNLƏR BU QƏDƏR ASAN SEVİLMƏZ...

Yarımaz dünyaya hər gələn adam,
Dünyaya hər ayaq basan sevilməz.
Gözdən uzaqlarda köhnələn adam,
Qaydan bəyənilməz, yasan sevilməz.

Zaman bir başqadı, qardaş, sən başqa,
Torpaqda dən başqa, saçda dən başqa.
Üstündə kağızdan, qələmdən başqa
bir şey tapılmayan masan sevilməz.

Söylə, görmədinmi darda, çətində
nələr zahirdəydi, nələr bətndə?
Sevilməz Yezidlər səltənətində,
sevilməz, Hüseyn, Həsən sevilməz.

Çox da korun-korun əriyən şamsan,
Nolacaq, əriyib dibinə damsan?
Hələ də deyirlər çətin adamsan,
Çətinlər bu qədər asan sevilməz..

## PIÇILDAR MƏNİ

Mənsizlik məndən sonra
əlbət pıçıldar məni.
İtirmədiyim abır,
ismət pıçıldar məni.

Tənhayam, təkmişəm ki,
Kimə gərəkmişəm ki?
O qədər çəkmişəm ki,
həsrət pıçıldar məni.

Çox qalmaram canda, çox,
Damarda çox, qanda çox.

Eldən-obadan da çox
qürbət pıçıldar məni.

Tək adı yar evində,
Nəfəsi dar evində.
Bir qadın var, evində
xəlvət pıçıldar məni.

Arıtmasa su daşı,
Göz yaşınla yu daşı.
Bu qayanı, bu daşı
tərpət, pıçıldar məni...

## SEÇİM YANLIŞ OLUB...

Bir ömür sürmüşəm yaxşı-yamanlı,
Çox da işim-gücüm çalışmaq olub.
Çox da ki, oğulun-qızın yanında
alnım açıq olub, üzüm ağ olub.

Seçim yanlış olub, seçim, bəlkə də,
Gərəkmiş üstündən keçim bəlkə də.
Ən böyük günahım, suçum bəlkə də
bu bəxtlə, teleylə barışmaq olub.

Ha sev sevdiyini, sev, gedən, artıq
saçımda, başımda sevgi dən artıq.
Eh, mənim sevgim də, sevgidən artıq
birinə öyrəşib, alışmaq olub.

Hərdən olmamışam özümdə, Tanrı,
Yox olub bu dünya gözümdə, Tanrı.
Bağışla, şeirim də, sözüm də, Tanrı,
Sənin işlərinə qarışmaq olub.

## BİLİRƏM Kİ, MƏLƏK BİLİR...

İtiriblər bir apaydın səhərdə,
ya dumanda, çəndə məni, fərqi yox.
Gəzən yoxsa bu qosqoca şəhərdə,
Görən yoxsa məndə məni, fərqi yox.

Nəsən, yağış, çölün sudu, için su,
Sənə dözmək nədir ki, bir içim su.
İslanmışın yağışdan nə qorxusu,
Sən də islat, sən də məni, fərqi yox.

Son şərqimdi ac sərçənin oxusu,
Nəfəsim yox dırmanım bu yoxuşu.
Ya torpağı yem eyləsin, ya quşu
bu bədəndə, təndə məni, fərqi yox.

Nə "baxaq", nə "görək" bilir Allahım,
Gərəkəni gərək bilir Allahım.
Bilirəm ki, mələk bilir Allahım,
Kim bilirsə bəndə məni, fərqi yox.

## ÇIXIN İÇİNDƏN BOYANIN

Kimdi bu saxlayan məni,
Özünə bağlayan məni?
Kimdi, kim, ağlayan məni
qəbrin dalında gizlənib?..

Min ayəsi var kitabın,
Aç kitabı, haqqa tapın.
Elə hər kəs bir hesabın,
cəbrin dalında gizlənib.

Bu şan-şöhrət, bu var, kişi,
Yaşamağa nə var, kişi?
Nə boyda laydivar kişi
səbrin dalında gizlənib...

Çıxın içindən boyanın,
Məndən uzaqda dayanın.
Mən ölmüşəm bir həyanın,
abrın dalında gizlənib...

## KÜÇƏNİZDƏ ÜMİDLƏRİM DƏFN OLUB

İllər sonra küçənizdi, bir də mən,
Nə çağrışa, nə dəvətə gəlmişəm.
Evinizin yanındakı məscidə
bu gün yenə ibadətə gəlmişəm.

Yollar elə çən-dumandı, qar-qışdı,
Dörd yan sanki bədduadı, qarğışdı.
Görüşümüz qiyamətə qalmışdı,
Qiyamətmi, qiyamətə gəlmişəm.

Keçib artıq, harda yanlış, səhv olub,
Bəlkə Tanrı dərgahında əfv olub?
Küçənizdə ümidlərim dəfn olub,
Məzarını ziyarətə gəlmişəm...

## ÖMÜR-GÜN YOLDAŞIMA, ÖVLADLARIMA

Bir nəfəslik havaymış, bir içim su,
Adı nədir, dadı nədir, yaşadım?
İslanmışın yağışdan nə qorxusu,
Heç bilmədim nəydi çətir, yaşadım.

Xiffətini eyləmirəm dünlərin,
Hansısa xoş sədaların, ünlərin.
Bir-birinin təkrarıydı günlərim;
"Ələk apar, xəlbir gətir" yaşadım.

Bir az saldım sözə meyil, göründüm,
Görən deyir, bilən deyir göründüm;
Hardan baxsan şeir-şeir göründüm,
Misra-misra, sətir-sətir yaşadım.

Bu boyda yük daşımağa dəyməzdi,
Ağac olsam yük bu qədər əyməzdi.
Bircə gün də yaşamağa dəyməzdi,
Mən bu ömrü sizə xətir yaşadım.

## BİR CÜRƏ

Hələ tən deyiləm, tən, özümə də,
Hələ bir cürəyəm, qadam, bir cürə.
Nədən kənara yox, mən özümə də
doğmayam bir cürə, yadam bir cürə.

Bütövəm bir başqa, kəməm bir başqa,
Dəryada qərq olub gəmim bir başqa.
Sevincim bir başqa, qəmim bir başqa,
Qəmliyəm bir cürə, şadam bir cürə.

Hələ də damıram, o dam kimiyəm,
Çölü nəm, içi nəm odam kimiyəm.
Vaxtsız çiçəkləyən badam kimiyəm,
Aldanır hər bahar badam bir cürə.

Nədən gərəkməz ki, gərək deyilən,
Bir gün adam olmaz mələk deyilən.
Göydə iqtidardı fələk deyilən,
Yerdə müxalifdi adam bir cürə.

## ORDA BİR EV CAN VERİR...

Yarım idi nə varsa,
Artıq nə var tam ölür.
Anam ölür yenidən,
Sonra da atam ölür.

Göz görən nə var uçur,
Uçur, ay havar, uçur.
Ağnayıb, divar uçur,
Tavan ölür, dam ölür.

Çıxmır qapının səsi,
Pəncərənin nəfəsi.
Üstündə pərvanəsi,
Şamdanımda şam ölür.

Bu gül son nəfəsdə, tut,
Tut, bu güldən dəstə tut.
Ölür ayaq üstdə, tut,
nar ölür, badam ölür.

Yan, ümidin içində,
don, ümidin içində.
Son ümidin içində
min cür arzu-kam ölür.

Var hələ imkan, verin,
Hava verin, qan verin.
Orda bir ev can verir,
Burda bir adam ölür...

## HƏR GÜN ÖZ EVİNƏ YIXILIR ADAM

Tənhadı, yalqızdı müdam içində,
Fərqi yox, ya çöldə, ya dam içində.
Yüzlərlə, minlərlə adam içində
yamanca darıxır, sıxılır adam.

Bir haqlı sözünə yer tapa bilmir,
Bir doğru, düzünə yer tapa bilmir.
Hərdən heç özünə yer tapa bilmir,
Çəkilir, içinə yığılır adam.

Aşkarca görünür hər gün bir az da,
Yaşamır, sürünür hər gün bir az da.
Vurulur, bölünür hər gün bir az da,
Bir az da azalır, çıxılır adam.

Eşidir, bir qəfil xəbərdən düşür,
Dizləri taqətdən, təpərdən düşür.
Büdrəyir, qosqoca şəhərdən düşür,
hər gün öz evinə yıxılır adam.

## DUR, GEDƏK, BİRLİKDƏ AZAQ ŞƏHƏRDƏ

Sonunda sıradan sakinik biz də
bu qara şəhərdə, bu ağ şəhərdə.
Doğma kəndimizdən-kəsəyimizdən
nə boyda aralı, uzaq şəhərdə.

Nəyi kəsir qoyduq, itirib gəldik,
Nəyi tamamladıq, bitirib gəldik.
Yarım bəxtimizi götürüb gəldik,
Gəldik davamını yazaq şəhərdə.

Nələrə öyrəşdik gəldik-gələsi,
Hamı qaçaqaçda, hamı tələsik.

Yaman dəli-dəli küləklər əsir
bu soyuq şəhərdə, sazaq şəhərdə.

Zaman ötüb keçdi, yaş da haqladı,
Əl-ayaq titrədi, diş də laxladı.
Hara ayaq qoyduq tutub saxladı,
Nə çoxmuş bu tələ, duzaq şəhərdə.

Tutmasın məscidlər, kilsələr bizi,
Yetər ki, bilənlər bilsələr bizi.
Axtarıb tapmasın kimsələr bizi,
Dur, gedək, birlikdə azaq şəhərdə.

## BU DƏRDİN DƏ ÇƏKİLMƏLİ DƏRD İMİŞ...

Demirəm ki, elə dərdli tək mənəm,
O dərd, bu dərd, Əli, Vəli dərd imiş.
Taxtı-tacı, padişahı, vəziri,
Varı-mülkü, dürrü, ləli dərd imiş.

Dimdiyində son nəğməsi Qu – dərddə,
Dərddə, vallah, hava dərddə, su dərddə.
Deyirlər ki, Səndən gəlib bu dərd də,
Tək naxışlı, tək ilməli dərd imiş.

Ötüb-keçən dərdlər düşür yadıma,
Məqamında yetişmişdin dadıma.
Barına bax, günah yazma adıma,
Bu dərd necə əkilməli dərd imiş...

Gözlərimin biri sevinc, biri qəm,
Adətimdi ölüb-ölüb, diriləm.
Çəkilməsə verməz idin, bilirəm,
Bu dərdin də çəkilməli dərd imiş...

*Hacı Firudin QURBANSOY*



# YAŞIL GÜN – NOVRUZ

Soyuğa, qaranlığa, qış fəslinə şər qüvvələrin təzahürü kimi baxan xalqımız onu hissə-hissə "bölüb", hər parçasına da bir ad verib. 21 dekabrdan 22 dekabra keçən gecə ilin ən uzun qaranlığı ilə qış fəsli gəlir, "Böyük çillə" başlayıb 30 yanvaradək 40 gün çəkir. 31 yanvardan 20 fevraladək 20 gün çəkən "Kiçik çillə"gəlib keçəndən sonra, ilağır çərşənbələr başlayır. Səhvən "ilaxır çərşənbə" – deyirlər, çərşənbə axşamı Mərrixin (Mars) günüdür, bu da dava-dalaşla müşayiət olunduğundan "ağır çərşənbə" adlanır. Çərşənbə günü "Ütaridin (Merkuri) günü ticarətin, yazıçılığın və məmurların günü sayıldığından, uğurlu hesab olunur. İlağır çərşənbələri bayram kimi qarşılayırlar ki, Novruzqabağı umu-küsü, söz-söhbət olmasın. Kiçik çillə vaxtı, 9 fevral gününü Xızır/Xıdır bayramı adı ilə keçirmək ənənəsi tarixi Şirvan vilayətində yaşamaqdadır. Səməni böyütmək Xızır Peyğəmbərə (ə.s.ə.) ehtiramdan irəli gəlir. İnama görə, Xızır Peyğəmbər (ə.s.ə.) kaddımını qoyduğu yerlərdə yaşıl ot bitirdi.

Soyuğa düşmən kimi baxmaq "Əl bərdu ədüvv ud-Din" (Şaxta dinin düşmənidir) ərəb el məsəlində də öz əksini tapıb. Bu misaldan İmadəddin Nəsimi Şirvani bir beytində belə istifadə edib:

***Əgərçi firqətin qışdır ki, "əl bərdu ədüvv ud-Din"***
***Haqqa minnət ki, vəslindən gül açıldı, bəhar oldu.***

*(Əgər ayrılığın qışdırsa, "şaxta dinin düşmənidir, Allaha minnətdarıq ki, vəslin gəldi, gül açıldı, bahar oldu".)*

Günəşin Qoç bürcünə girməsi anından yaz fəsli və bununla təqvimini hesablayan xalqların yeni ili başlayır. Bu gün yeni həyatın başlanğıcı kimi qəbul edilib böyük, təntənəli bayram sayılır.

Farsların əqidəsincə, Novruz Cəmşiddən qaldığı üçün, onların bayramıdır. Əgər belədirsə, Əhəmənilər sülaləsinin ən böyük şahı I Daranın Bisütun qayasında miladdan öncə 522-ci ilin 21 martında

yazdırdığı 3 dilli kətibələrdə "Novruz" sözündən də istifadə olunardı, ancaq yoxdur.

Novruza zorla dini status vermək istəyənlərlə, mili-mifoloji konteksdə görmək arzusunda olanların sayəsində tarixi mahiyyət təhrif olunub. Novruz ərəbi aylardan fərqli olaraq, Ayın hərəkətilə yox, Günəşin bürclər üzrə dövr etməsinə görə təyin olunur. Ona görə də, dini (xüsusilə Ramazan) bayramlardan fərqli olaraq, Novruzun təyinatında Ayın hansı səhfədə olduğu heç bir rol oynamır. XIX yüzilin tanınmış şairi Qasım bəy Zakir Novruz bayramının Günəşlə bağlı olduğunu unudub dini bayramların ilk gününü təyin etmək üçün Aya baxıldığını yazıb:

***Nola nəzzareyi-ruxsarına el cəm olsa,***
***Eydi-Novruz gələn dəmdə kişi Aya baxar.***

*(Üzünə baxmaq üçün el bir yerə yığılırsa, Novruz bayramının gəlişi anı camaat Aya baxar.)*

İranda uzun yüzilliklər boyu saxtakarlıq edib Novruz bayramının İmam Əlinin xəlifə seçildiyi günə görə keçirildiyini deyirdilər. Əslində, birinci imam Əli ibn Əbu Talib hicrətin 35-ci ili Zilhiccə ayının 25-ində xəlifə seçilib. Miladi təqvimə çevirəndə, həmin gün 656-cı ilin 24 iyununa təsadüf edir. Odur ki, Novruzun 24 iyundan bir qədər əvvəl gəlməsi hamıya məlumdur.

Bizim tərəfdən Dədə Qorqudun, digər yandan Salmani Farsinin Məhəmməd Peyğəmbərlə (s.ə.s.) görüşüb İslamın əsaslarını öyrənməsi tarixi faktdır. Missiyasını yerinə yetirən Dədə Qorqud el-obasına tez qayıtmış, qədim dastanlarımızı söylərkən islamı təbliğ etməyə başlamışdı. Məsələn, boy qəhrəmanının iki rikət niyyət namazı qılıb, əlində qılınc "Ya Allah" – deyərək döyüşə girdi, – deməsi Dədə Qorquda imkan verirdi ki, dediklərini birbəbir camaata izah edə bilsin. Beləliklə, çox qısa zamanda coğrafiyamızda islam ənənələri geniş yayıldı. Salmani Farsi isə orada qaldı, fars nücəbasının Peyğəmbər və ailəsilə görüşlərini təşkil etdi. Belə görüşlərdən biri Novruzla əlaqədardır. Əbu Reyhan Muhəmməd ibn Əhməd əl-Biruninin (04.09.973 - 09.12.1048) **"Əl asar ul-bağiyyə ən əl ğurun ul-xaliyyə"** (Ötən nəsillərin canlı əsərləri) əsərində yazıb: "Əbd ul-lah ibn Abbasdan rəvayət edərək Əbd us-Soməd bin Əli nəql edir ki, Novruz günü şirniyyatla dolu gümüş camı Peyğəmbərə (s.ə.s.) peşkeş etdilər. Soruşdu: "Bu nədir?" Dedilər: "Novruzdur." Soruşdu: "O nədir?" Dedilər: "İranlıların böyük bayramıdır." Dedi: "Bəli, bu həmən gündür ki, Xudavənd ləşkərini diriltdi." Soruşdular: "Ləşkəri nədir?" Dedi: "Onlar öz diyarlarından çıxıb getdilər. Minlərlə adam öldü. Allah həmin adamları o gün diriltdi"..." *(Əbu Reyhan Biruni. "Asari-bağiyyə", fars dilinə Peyruz Sepitman Əskaeinin tərcüməsi, Tehran, Nəşri-Ney, 1392/2013, səh.281)* Əbu Reyhan bu yalan hədisə münasibət bildirmir, öz oxucusunun öhdəsinə buraxır.

Novruz bayramının keçirilməsini çox vaxt Zərdüşt Peyğəmbərin adı ilə bağlayırlar. Miladdan öncə II yüzilliyin əvvəli, I yüzilliyin sonlarında yaşamış yunan filosofu, elm tarixçisi Laertli Diogen "Məşhur filosofların həyatı, təlimi

və kəlamları" adlı kitabında yunan əsilli filosoflara qədər Zərdüştü ilk yunan filosofu, onun maqlarını isə bu işi davam edən ardıcılları kimi tanıdır. Azərbaycan Peyğəmbərinin yaşadığı tarixi dövrü isə 6480 il göstərir. *(Диоген Лаэртский. «О жизни, учениях и изречениях знаменитых философов». Москва, «Мысль», 1979, из серии «Философское наследие», стр.63)* Miladdan öncə I yüzili və XXI yüzilliyi əlavə etsək, Zərdüştün zamanını, 2025-ci il daxil olmaqla hesabladıqda, 6480+2125= 8605 tarixi alınır. Zərdüşt = İbrahim Peyğəmbər olduğu tarixi faktdır, bunu Qurani-Kərimin 21 Ənbiya surəsinin 51-ci ayəsi təsdiq edir. Maraqlananlar üçün deyim ki, bu barədə "Azərbaycana göndərilən peyğəmbərlər" (Bakı, 2017) kitabımda geniş yazmışam.

Zərdüşt Peyğəmbər həm də böyük astronom idi. Əbu Səid Əhməd ibn Əbdülməcid əs-Sicisi (950-1025) Zərdüşt əleyhissəlamın astronomiyaya aid kitabını ərəb dilinə tərcümə edib. **"Kitab Zərdüşt fi suvər dərəcat əl-fələk"** (Fələk dərəcələri haqqında Zərdüşt kitabı) adlanan bu əsər dünyanın bir sıra əlyazma kitabları saxlanclarında qorunur. Zərdüştün ulduz elmini kamil bilməyindəndir ki, Novruz sırf astronomik parametrlərə uyğun olaraq, təbiətin dəyişməsi bayramı kimi qeyd olunur. Bu onu bir daha sübut edir ki, xalqımız ən qədim zamanlardan başlayaraq, Ulduz elmindən xəbərdar olmuşdur. Yeni ilin – Novruz bayramının Günəşin Qoç bürcünə daxil olmasına görə keçirilməsi ənənəsi də məhz, alim babalarımızın Ulduz elminə verdiyi bir töhfədir.

Çətin qış günlərindən sonra yaşıl yazın gəlişini dünyanın demək olar ki, bütün xalqları milli mentalitetin qəbul etdiyi sevinc əhatəsində keçirir. Uzaq Şərqdə bu, fevrala, Rusiyada martın əvvəllərinə, sami xalqlarında isə aprel ayına təsadüf edir. Elmi baxımdan ən dəqiq günü və saatı isə ulu babalarımız təyin edə biliblər. Onu da xüsusi vurğulayaq ki, Beynəlxalq Astronomik il xalqımızın Novruz bayramı kimi qeyd etdiyi gündən – Günəşin Qoç bürcünə daxil olması ilə başlayır. Yaz bərabərlik nöqtəsində gecə ilə gündüzün hərəsi 12 saat olur. Mövlanə Məhəmməd Füzuli qəzəlində buyurub:

***Qılsa vəslin şamımı sübhə bərabər, yox əcəb***
***Rəsmdir fəsli-bahar olmaq bərabər ruzü şəb.***

*(Əgər vüsal günü heç yatmadım, gecəm gündüzümlə bərabər oldusa, gecəm gündüzə döndüsə, bu, təəccüblü deyil, axı bahar gələndə gecə ilə gündüz bərabər olur.)*

İldə iki dəfə gecə-gündüz bərabər olur: 21 martda və 21 sentyabrda. Zərdüştilər bu günləri ilahi ədalətin rəmzi kimi böyük təntənə ilə keçirirdi. 21 sentyabr gününü "mihran" adlandırırlar. Azərbaycanın Şimal-qərb zonasında Mihran günü yenə də bayram kimi qarşılanır.

Gecə ilə gündüzün bərabər olmasını babalarımız nə üçün bayram kimi keçirmişlər? Uca yaradanın işıq rəmzi gündüzə, qaranlıq rəmzi gecəyə fərq qoymadan eyni səviyyədə onları bərabər tutması kimi cəmiyyətin təbəqələri arasındakı fərqlər də bayram günlərində aradan götürülürdü. Kasıblar ildə iki gün özlərini kompleksiz hiss edə bilirdi.

Novruzun tarixi nə vaxtdan başlayir? – sualına cavab vermək üçün əldə tutarlı faktlar yoxdur, Misirdə, Şumerdə, Babildə yaz günlərinin əziz tutulması məlumdur, bəs bayramın əsl vətəni haradır? Bu suala cavab vermək üçün tarıxi əsərlərə müraciət edək...

Əbu Reyhan Biruninin "Əl asar ul-bağiyyə ən əl ğurun ul-xaliyyə" adlı əsərində Novruz bayramının Kəyumərsdən başlayan Pişdadiyan sülaləsinin IV şahı Cəmşid Təhmurəs oğlu zamanında Azərbaycanla əlaqədar yaranması ilə bağlı tarixi fakt təsdiqlənir. Əsərdə göstərilir ki, əfsanəvi hökmdar olan Cəmşid Azərbaycana atəşgahlarda ibadət etmək üçün gələrkən, insanlar onun qızıldan olan taxt-tacını günəş hesab edib günəşin çıxma anında oxunan duanı ona sarı dönərək oxumuşlar. Bu, Cəmşidin xoşuna gəlmiş, həmin günü təqvimə aldırıb hər il bayram keçirmələrini tapşırmışdı. Novruz bayramının mənşəyi haqqında hələ ki, bu ən qədim və yeganə tarixi mənbədir. Orta Asiya türkü olan Əbu Reyhan azərbaycanlı deyildi, ancaq bu tarixi faktı əsərində mühafizə etməklə xalqımız üçün fəxr yeri qoymuşdur. Əlimdə əsərin ərəbcəsi olmadığından, fars dilinə tərcümədə bəzi təhriflərin, məsələn "Azərbaycan" əvəzinə "Babilistan" yazılması bizi məcbur etdi ki, başqa tərcüməyə müraciət edək. Kitabdakı əsl mətn belədir: *"Cəmşid müxtəlif yerlərə səyahət etməyi xoşlayırdı və Azərbaycanda olmaq istəyəndə o, qızıl təxtdə oturdu, adamlar onu çiyinlərində daşıdı. Günəşin zərrin şəfəqləri Cəmşidin üzərinə düşəndə insanlar onu gördü, valeh olub sevindilər. Bu günü bayram elan etdilər." (Бируни Абурейхан. «Памятники минувших поколений». Избр. произведения. Т.1. Ташкент. Изд-во Ан Уз.ССР, 1957, стр. 226)*

XVII yüzildə yaşamış Məhəmməd Hüseyn bin Xələf Təbrizi "Bürhane-Qate" lüğətnaməsində Cəmşidin Azərbaycandan Novruz ideyasını götürdüyünü yazır.

Tarixi mənbələrə sonradan əl gəzdirən millətçi "redaktor"lar Novruz ideyasının Azərbaycandan gəldiyini dana bilməsələr də, mahiyyəti təhrif ediblər. Lap tutalım ki, Pişdadiyan sülaləsinin IV hakimi Cəm Azərbaycana gəldi və üzərinə günəşin şüası düşdü; "şid" günün şüası deməkdir. Azərbaycana gəlişindən sonra adına şid əlavə olunaraq Cəmşid oldu. Adamlar da gözəl geyimdə günəşə sarı durub sübh duası oxuyurdu. Şahı görüb onun üçün də dua oxudular, bu, şahın xoşuna gəldi, yanındakılara hökm etdi ki, həmən günü ölkəsinin hər yerində bayram kimi keçirsinlər.

Nə dərəcədə ağlabatandır? Sadə camaat şahı dualarla qarşılamalı idilər, bəlkə üzərinə lax yumurta atmalıydılar... Hadisənin məntiqi onu göstərir ki, Cəm Azərbaycana Novruz təmtəraqları vaxtında gəlib. Xalqın necə coşğuyla bayramı keçirməsindəт ruhlanaraq hər il bayramın təkcə Azərbaycanda yox, məmləkətinin hər yerində keçirilməsinə fərman verib.

Əbu Əli Hüseyn ibn Əbdullah ibn Sinanın (980-1037) **"Risaləyi-Nouruziyyə",** Əbu Əli Muhəmməd ibn Əli əl-Həsən ibn Bişr əl-Həkim ət-Tirmizinin (895-932) **"Salnamə"** və ya **"Nauruznamə"** adlarıyla tanınan əsərində, Qiyas əd-Din Əbu-l-Fəth Umar ibn İbrahim əl-Xəyyami ən-Naysaburinin (Nişapuri) (18.05.1048 - 04.23.1131) **"Nauruznamə"** (Омар

Хайям. «Трактаты». Москва, 1961, стр.187-224) adlı əsərində də Novruzun Cəmşid zamanından qalması faktı elə ilk sətirlərdə qeyd olunur. Daha sonrakı zamanlarda Novruzla bağlı ərsəyə gələn elmi əsərlərdə də Biruninin dedikləri bu və ya başqa şəkildə təsdiqlənmişdir. Folklorla məşğul olanlarımıza elmi mənbə kimi gələcək tədqiqatda yardımçı olacağını nəzərə alıb həmin əsərlərin müxtəsər siyahısını təqdim edirəm:

Xoca Nəsir əd-Din əbu Cəfər Muhəmməd ibn Muhəmməd ibn Həsən Tusinin (18.02.1201 - 25.06.1274) **"Kitabi-İxtiyariyyat"** adlı nücum elminə aid ensiklopedik əsərində "Novruznamə" bəhsi də var.

Məhəmməd ibn Talhanın (ölümü 1254-cü il) **"Faidə li-istiğrac əvail əş-şuxur və cəmi əs-sənavat"** (Bütün illərdə ay başlanğıcı təyininin faydası) adlı əsəri Berlində 5781 nömrə ilə mühafizə edilir.

Mahmud ibn Qütb əl Məhəlli əl-Kabbaninin (ölümü 1670-ci il) **"Risaləyi-Nauruziyyə"** adlı əsəri Tehran Universitetində 4865/3:3677 şifrəsiylə qorunur.

XVII yüzilliyin ikinci yarısında yaşamış Məhəmməd İbrahim Hüseyn Müdərris Xadimin **"Risalə dər Nauruz"** adlı əsəri Tehran Universitetində 4727/15 şifrəsiylə saxlanır.

Səyyid Əmir İsməil ibn Muhəmməd Bəkir ibn İsməil Husayni Hətunbadi İsfəhani Müdərrisin (1622-1705) **"Nauriziyyə"** adlı əsəri Tehranda 3053 nömrəsi altında saxlancdadır.

Muhəmməd Bağir ibn Muhəmməd Mumin əs-Səbzəvari əl-Xurasaninin (ölümü 1679-cu il) **"Nauruznamə"** əsəri Oksfordda 1559 nömrəsiylə qorunur.

Ən qatı fars millətçisi Həsən ibn Əli ibn Muhəmməd ibn Cəfər ibn Hüseyn ibn Muhəmməd ibn Səbbah "Sərgüzəşti-səyyidəna" (Ağamızın başına gələnlər) adlı əsərində Türk tarixinin daha qədim çağlara getdiyini görüb şiddətli qəzəblə yazırdı: *"Türklər Adəm oğulları silsiləsindən gəlmir. Türkləri "cinn və ya pəri" adlandırırlar. Adəm Peyğəmbərdən qabaq pərilər mövcud idi."*

Son onilliklərdə Ərgənikon dastanında baş verən hadisələrin guya Novruzda olması məsələsini ortaya atanların cəhdləri də faydasızdır; monqol dilində "deşik daş" mənası verən "ərgənikon"un Novruza heç bir dəxli yoxdur! İndi bəzi müəlliflərin "Novruz" sözünün etimologiyasına dair araşdırması da həqiqətdən uzaqdır. Onlar iddia edir ki, "nou" – Nuh, "ruz" isə Nuh Peyğəmbərin (s.ə.s.) gəmisindən çıxdığı gün deməkdir. Dil bilgisi baxımından heç bir tənqidə dözməyən bu iddianın müəllifi bilməliydi ki, "Nuh" sözü qədim ərəbcə "ağlamaq" mənasındadır. Dilimizdə indi də işlənən "nohə" sözü bu əsasdandır. "Novruz" kimi səslənən söz orta yüzillik farscasında – pəhləvicə "Nukərus" şəklində olub. Nuk/nou – təzə, rus/ruz isə gün deməkdir.

Novruz başqa adlarla da anılır. Məsələn, qazaxlar "Ulıstın ulı kuni" – Ulusun, xalqın ulu günü deyir, taciklər "Qulqardon" (gül gərdan – gül gəzdirən) və ya "Qulnauruz" (gül novruz), tatarlar "Narduqan", yunanlar "Patrix" adlandırır. "Təzə gün" mənası verən Novruzun ən qədim şəkli, Azərbaycana məxsusluğunu bildirən əsl adı necə səslənib?

Bunlardan ən qədimi Mayya xalqının əlifbasında qorunub. Mayya əlifbasındakı heroqliflərlə “yaş”  yeni, yaşıl mənasında, “kin”,  gün mənasında yazılır. Kolumböncəsi Amerika xalqları: olmeklər, mayyalılar və atseklər bizim kimi Yeni ili 21 martda keçirirdi. “Yeni gün” mənasını verən “Yaş kün” deyib bu şəkildə  yazırdılar.

Qədim Türk yazılı abidələrinin dilində “gün” sözünə  “kün” şəklində Kül-tiginin şərəfinə 732-ci ildə yazılmış kiçik mətndə və Türk hökmdarı Mogilyanın (Bilgə kağanın) şərəfinə miladın 734-cü ildə qoyulmuş abidədə, “yaş”  sözünə “il” mənasında Mogilyan abidəsində iki yerdə rast gəlirik.

Amerikanın yerli xalqlarının türklülüyülə əlaqədar maraqlı tədqiqat işləri ərsəyə gəlib. Rafis Səlimxanovun “Türklərin böyük dili” kitabında bu baxımdan maraqlı sətirləri oxuyuruq: “Kim təxmin edə bilərdi ki, 15 000-20 000 il öncəsi Amerika materikinin insanlarla məskunlaşması vaxtı Qədim Türk dili Sakit okeanın o biri sahilinə keçə biləcək. Bu fakt XX yüzilliyin sensasiyalarından birinə çevrildi. Geniş tədqiqata cəlb olunmayan Amerika hindularının dilinin ən qədim əcdad türk dili kimi araşdırılır.”

Bu sahənin araşdırıcılarından olan Abrar Karimulin yazır: “Amerikanın hindu tayfasından olan siuların dilində olan türkizmlərin indi də müxtəlif türk xalqlarının leksikasında işləndiyini görürük. Mahiyyətinə görə sözlər heyvanlar aləminə, toponomikaya, qohumluq əlaqələrinə, feillərə və başqa kateqoriyalara aiddir. Qohumluq həm də söz birləşmələrində özünü büruzə verir. Əgər təsəvvür etsək ki, Amerikanın məskunlaşması təxminən 10 000 il öncə olmuşdu (indi bu tarixi 25-30-50 min ilə qədər irəli çəkən nəzəriyyələr mövcuddur), Hind-Avropa dillərindən fərqli olaraq, Türk dillərinin “konservatizm”i, yad təsirlərə az uğraması indi heç kəsi təəccübləndirmir.” Novruzun qədim türk dilindən tərcümə olunub geniş yayılması heç bir şübhə oyatmır. Sonradan farsların tapındığı qədim atəşpərəstlik (mitraizm) ənənələrinin bu gözəl bayrama əlavə edilməsi, onun mahiyyətinin qismən dəyişməsinə səbəb oldu.

Müasir fars ənənəsinə görə, süfrəyə Novruzun ilk saatlarında yeddi ədəd “س “ (sin) hərfilə başlayan nəsnələr: səbzə (göyərti), süncid (küncüt), sir (sarmısaq), sib (alma), səməni, sirkə, sumax düzülməlidir. Sasanilərin hökmranlığı illərində yeddi ədəd adı “ش “ (şin) hərfilə başlayan nəsnələr: şam, şərab, şirniyyat, şəhd (bal), şümşad (ağac adıdır) budağı, şəqayiq (lalə), şərbət süfrəyə qoyulurdu. İslamın gəlişiylə şərabın sıradan çıxdığı, yerinə sirkə gəldiyi üçün şin hərfi sin ilə əvəzləndi. Novruzun tarixindən farsca yazan müəlliflər Bərxidən misal gətirərək Əhəmənilər dövründə bayram süfrəsiyçün yeddi “چ” (çim) hərfinin əsas olduğunu göstərirlər. Belə görünür ki, Novruz süfrəsində hansı hərflə başlayan sözlərin elə də əhəmiyyəti yoxmuş. Məsələ yeddi rəqəmindədir. Bu rəqəm zərdüştilərdə əbədi həyatın yeni gününü rəmzləşdirir. Yenə də söz Azərbaycan təfəkkürünə gəlib dayaqlandı.

Adət üzrə, Azərbaycanda Novruzun gəlişindən bir qədər əvvəl, növbəti ildə elin əsas problemlərinin; vəfat edənlərin yetimlərinə və bivaris qocalara

qəyyumluq, subay oğlanların, dul kişilərin, ərsiz qadınların, qarımış qızların yurd-yuva qurması kimi məsələlərin müzakirə edilib fəaliyyət istiqamətini müəyyənləşdirməkdən ötrü el ağsaqqalları bir məclisə toplaşardı. Ağsaqqal məsləhəti müzakirə edilməz, mütləq bir hökm kimi qəbul olunardı.

İndi qapılara papaq atıb ərzaq dilənmə keçmişdə mövcud olan gözəl ənənənin təhrifindən başqa bir şey deyil. Əsasən subay oğlanlar maddi imkanlı evlərin damına çıxar, hər evdə olan bacadan torba sallayar, ora hər kəs imkanı daxilində bayram töhfəsi qoyardı. Toplanan ərzaqlar bir yerə yığılar, səbətlərdə axşam vaxtı bayram ərzağı olmayan evlərin qapılarına qoyular, taqqılbabı döyəcləyib oradan qaçardılar ki, ərzağın kimlər tərəfindən gətirilməsi bilinməsin. Subay oğlanlara sevdikləri qızları daha bir dəfə görmək imkanı yarandığı üçün bu tədbirə sevə-sevə qoşulurdular.

Novruz günlərində xalq gəzintiləri, alimlərin, musiqiçilərin, şairlərin, sinədəftər insanların məclisləri qurular, meydan və oyuncaq teatrı tamaşaları, bayram dükan-bazarı, milli güləş, cıdır yarışmaları, atüstü oyunlar keçirilər, xoruz və it döyüşdürmələri təşkil olunardı ki, bu da insanların bayram ovqatını artırır, istirahətini məzmunlu edirdi.

23 fevral 2010-cu ildə BMT Baş Assambleyasında 64-cü sessiyasının "Sülh mədəniyyəti" adlı 49-cu bəndi altında Azərbaycan Respublikasının təşəbbüsü ilə irəli sürülmüş, Əfqanıstan, İran, Tacikistan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Gürcüstan, Rusiya ərazisində Dağıstan, Tatarıstan, Başqırdıstan, Çinin Sinsyan-Uyğur muxtariyyatı, İraqın Kürdüstan əyaləti, Türkiyə Cümhuriyyəti, Albaniya, Bosniya və Herseqovina federasiyası, Hindistan və Makedoniyanın da qutladığı "NOVRUZ BEYNƏLXALQ GÜNÜ" adı ilə bayram edilir. Bu bayram təkcə azərbaycanlıların, Yaxın və Orta Şərq xalqlarının deyil, indi bütün dünya xalqlarının əziz günü olmaqdadır.





*Rafiq YUSİFOĞLU*

**ÖZÜMÜZ DÜZƏLSƏK, DÜZƏLƏR DÜNYA**

***"Dünya düzəlmir ki, düzəlmir, babam"...***
***Məmməd Araz***

Sevdalı qəlbimiz düşər tilsimə,
Yarpağı çevirər xəzələ dünya.
Ona "düzəlmir ki, düzəlmir" – demə,
Özümüz düzəlsək, düzələr dünya...

Əsrlər, nəsillər düzülüb səfə,
Allah yurd eləyib dünyanı bizə!
Qoynunda dönmüşük əziz-xələfə,
Biz ona borcluyuq, dünyamı bizə?

Arxa, dayaq olub yetim-yesirə,
Kimin bostanına daş atıb dünya?
Qoynunda yer verib neçə nəsilə,
Yedirdib, içirdib, yaşadıb dünya!

Çoxdur bu yazıqdan inciyən, küsən,
Haqqı var yandırsa,

dünyamı yaxsa...
Özü oturduğu budağı kəsən
İnsan günahkardı,
Dünyamı yoxsa?

İşinə qarışsan, qırğın eləyər,
Saat əqrəbi tək fırlanar dünya...
Gecə qaranlığı yorğan eləyər,
Günəş boylananda nurlanar dünya...

Odur qovuşduran bizi sabaha!
Qəlbin bülbül kimi ötməyi də var...
O yazıq bizimçün neyləsin daha? –
Dünyaya gələnin getməyi də var...

Həmişə yanında dilimiz gödək,
Borcluyuq ona da, elimizə də...
Başqa bir yer varmı dünyadan gedək? –
Qoynunda yer verir ölümüzə də...

Kim dönə bilib ki, ömrün qışından?
Ölüm mələyinin əli yaxamda...
Odur insan kimi bizi yaşadan,
Odur qəbrimizə sahib çıxan da...

Bizi xilas edər dardan, çətindən,
Sərrafı tapılsa, bir incidir o.
Çıxmaz zərrə qədər öz orbitindən,
Mizan-tərəzidə birincidir o!

Bostanın öz yeri, bağın öz yeri.
Böcəyi yerində, quşu yerində...
Dərənin öz yeri, dağın öz yeri,
Payızı yerində, qışı yerində...

Dənizi yerində, çayı yerində,
Necə çirkin deyək gözələ, şair?
Günəşi yerində, Ayı yerində,
Dünya əyridi ki, düzələ, şair?!

## GƏRƏK YER KÜRƏSİ VƏTƏNƏ DÖNƏ

Köksündə ürəyi çevrilib daşa,
İnsan olduğunu insan unudub.
Qənim kəsilibdir qardaş qardaşa,
Bizə Yaradanın qəzəbi tutub...

Havaya buraxdıq hisi, pasağı,
Ayın da üzündə ləkə çoxalıb.
Günəşin önünü kəsib hasarlar,
Ana yurdumuzda kölgə çoxalıb....

Suya zəhər qatdıq, göylərə tüstü,
Yerdə insan üçün hava, su çatmır.
Küləyin önündə bəndlər qurmuşuq,
Anamız torpağın havası çatmır...

Bütün canlılara Yer vətən olsa,
Görərik dünyanın əvəzi yoxdu.
Elə yüklənib ki, bu yer kürəsi,
Daha fırlanmağa həvəsi yoxdu....

Didərgin salmışıq onu ürəkdən, –
Gərək ilahi ruh bədənə dönə!
İnsanı kiçildər kiçik vətənlər,
Gərək Yer kürəsi vətənə dönə...

## SEVDA GÖYLƏRİNDƏ SÜZÜRƏM HƏLƏ...

Doğmalar içində dönmüşəm yada,
Ürəyim baxmayır sözümə yenə.
Bu nazlı dünyada, gözəl dünyada
Yer tapa bilmirəm özümə yenə.

İşarır, çırtlayır sönən közlərim,
Bu dərdin əlindən hara köçüm mən?!
Havadan nəm çəkir həsrət gözlərim,
Yenə qəm karvanı keçir içimdən.

Bənövşə arzular boynu bükülü,
Nəfəsin ayrılıq küləyi olub.

O ötən ayların, illərin külü
Arzu közlərimin bələyi olub…

Gözümdə bir eşqin şimşəyi çaxar,
Göylər qəm yağışı tökər dünyaya.
O közlər kül altdan sıyrılıb çıxar,
O kül duman olub çökər dünyaya.

Həsrətin əlində qalıbdır yaxam,
Bu dərdə, ağrıya dözürəm hələ.
Yayından sıyrılan bir qızıl oxam,
Sevda göylərində süzürəm hələ…

## GÜZGÜDƏ GÖRDÜYÜM ADAM

Güzgüdən bir adam baxıb,
Elə bil bizi izləyir.
O güzgünün arxasında
Görən bizi nə gözləyir?

Güzgüdə gördüyüm adam,
Dikilib gözün gözümə.
Sənin üzünə baxanda
Yazığım gəlir özümə.

Dodağın niyə səyriyir?
Baxışların nə qəmlidi!
Niyə üzünə qəm çöküb,
Niyə gözlərin nəmlidi?!

Bu qədər yaxın olsaq da,
Duyuram ki, çox uzağıq.
Üz-üzə dayansaq belə,
Ikimiz də yalquzağıq…

Bəbəklərinə baxanda
Vəlvələ düşür canıma.
Mən güzgüyə necə girim? –
Sən ordan çıx, gəl yanıma!

Güzgüdə gördüyüm adam,
Bu dünyaya heyrətimsən!

Mənmi sənin surətinəm,
Sənmi mənim surətimsən?

Güzgüdə gördüyüm adam,
Biz tuta bilsək əl-ələ,
Yer qopar öz məhvərindən,
Dünyada qopar vəlvələ.

Dərk eləmirəm özümü,
Mən nə qədər əzab çəkim?!
Keçib güzgü arxasına
Səninlə haqq-hesab çəkim?!

Güzgüdə gördüyüm adam,
Bir gün cana doyacağam,
Güzgüyə baxmayıb, səni
Yana-yana qoyacağam…

Sinəmə ayna çıxanda
Biz kamala dolduq bəlkə?!
O güzgünün arxasında
Eyni adam olduq bəlkə?!

## SEVDALI ÖMÜR YAŞADIM

Gözün görürsə, xoşbəxtsən,
Bu dünya bir tamaşadı…
Qəlbimdə güllər açsa da,
Karvanım üzü qışadı…

Nifrət etdim yalanlara!
Həyat verdim solanlara,
Yayda təşnə olanlara
Zirvələrdən qar daşıdım…

Qəlbimi üzsə də kədər,
Ömrümü sürmədim hədər,
Yatmadım səhərə qədər,
Kirpiyimlə qor daşıdım.

Nadan yanında susanam,
Sevgidən çətin usanam!

Mən qosqoca bir insanam, –
Bu dünya mənim yaşıdım…

İşi tapşır yarıdana,
Qəlbim çətin yarı dana,
Şükür olsun Yaradana,
Sevdalı ömür yaşadım!

## XİFFƏT XƏZİNƏSİ

Qəm kəsib könül qapımı,
Çaylaq daşı tək üzü var.
Ömür də ümman kimidi,
Sahili var, dənizi var...

Dərd içimdə ocaq çatdı,
Şöləsi hər yana çatdı,
Sevdalı qəlbim çat-çatdı,
Hər ağrının bir izi var...

Yol gedəndə dizim əsir,
Dodağımda sözüm əsir,
Qəlbim – xiffət xəzinəsi, –
Həmişə ağlar gözü var...

Son yol ayrılıq yoludu,
Mən səni necə unudum?
Başımda kədər buludu,
Qəlbimdə həsrət közü var...

Yağış yağıb getməlidi,
Sellər axıb getməlidi,
Hamı çıxıb getməlidi,
Bir gün gec, bir gün tezi var...

## TƏSKİNLİK DÜŞÜNCƏLƏRİ

Bizi yüz yerə aparır
Sahilsiz fikir, düşüncə...
Həyat düşməsin gözündən,
Yadına ölüm düşüncə...

Dünyadan bəndə baş açmaz,
Bu qədər eləmə fikir.
Öz sevdalı ürəyinin
Bir sözünü etmə iki...

Çəkinmə sözdən-həkətdən,
Qəlbin istəyən tək yaşa!
Öz əlinlə arzuların
Kuzəsini vurma daşa.

Yüz fikir bir borc ödəməz,
Bir belə üzmə özünü...
Ömür boyu biz görmüşük
Bu dünyanın hər üzünü...

O heç özü də baş açmır
Gəlirindən, çıxarından...
Kim saxlaya bilib axı
Zamanı öz axarından?

Hər çiyin tab edə bilmir, –
Zindandı ayrılıq yükü.
Bu dünyada kim qalıb ki?!
Bu dünya kimə qalıb ki?

*Hörmətli Rafiq müəllim!*

*Sizin 75 yaşınızı təbrik edirik. Siz bir şair, bir ədəbiyyatşünas alim kimi ədəbiyyatımızın inkişafına vicdanla xidmət edirsiz. Qələminiz daha məhsuldar, ömrünüz uzun olsun!*

**"Azərbaycan" jurnalının redaksiyası**



*Adil MƏMMƏD*

## BİR ZAMANLAR

Bir gözələ deyilməmiş söz oldum,
Göz yaşıtək kirpiyinə düzüldüm.
Bir gözəlin göz odunda köz oldum,
Qoru sönmüş kül olmuşam indisə...

Qala idim, möhrə-möhrə söküldüm.
Xəzəl olub yollarına töküldüm.
Bir vulkandım, yer təkinə çəkildim,
Qoru sönmüş kül olmuşam indisə...

Bir zamanlar sevgi kimi çağladım,
Ürək idim, ürəklərə ağladım.
Göz atəşim gözəlləri dağladı,
Qoru sönmüş kül olmuşam indisə...

İllər məni mürgülətdi, uyutdu,
Hisslərimi xırdaladı, üyütdü.
İllər mənim ürəyimi soyutdu,
Qoru sönmüş kül olmuşam indisə...

## "MƏNSURİYYƏ"

***IX əsrdə Şərqdə ilk dəfə Həllac Mənsur "Ənəlhəqq" – "Haqq mənəm" söyləmiş və onu dar ağacından asmışlar.***

Bu gün "Mənsuriyyə" dinlədim yenə,
Yandırdı ruhumu bir göz qırpımı.
Dara gətirilən Həllac Mənsurun
Odlu harayımı, odlu ahımı?

Oxuyan müğənni, çalınan kaman,
Bəs belə ilahi səslər nələrdir?
Bəlkə də onların başı üstündən
Dara gətirilən Həllac Mənsura
Yas tutub hönkürən hürufilərdir?

Alovsuz, ocaqsız məni yandırır,
Bir ulu, bir odlu nəğmə çağlayır.
Qəlbim də, ruhum da dara çəkilir,
Ustad haray çəkir, kaman ağlayır.

Bu odlu haraydan oyana bilsə,
Gözündə bir atəş, üzündə qürür
Qalxaraq zamanın fövqünə yenə
Təzədən "Ənəlhəqq" söyləyər Mənsur.

## QƏFİL YAZ YAĞIŞI YAĞDI ÖMRÜMƏ...

Qəfil yaz yağışı yağdı ömrümə,
Bir sevda küləyi qəlbimə əsdi.
İlahi baxışla baxıb gözümə
Sənin məhəbbətin yolumu kəsdi.

Qıymadı yaşayam ötəri hisslə,
Qoymadı özgələr oduna düşəm.
O vaxtdan çoxuna yadlaşdığımçün
Çətin ki, kimsənin yadına düşəm.

Gözəllər gözümdə adiləşdilər,
Gözəllər nazına susuram indi.
Neçə gözəllərin eşqin öldürüb,
Sənin tellərindən asıram indi.

Bu ülvi sevginin qanadlarında
Ürəyim kim bilir hara ucalıb.
Məni təlatümsüz, odsuz görənlər
Yəqin düşünürlər: yazıq qocalıb.

Onlar görə bilmir, yaxşı ki, görmür,
Qəlbimdə, ruhumda xəyalımda sən.
Bu cavan eşqimi, qoca eşqimi,
Özgə gözlərindən qoruyuram mən.

## ƏXLAQ

Çoxdan dəbdən düşüb
babaların çuxası,
buxara papağı,
xəncər asılmış kəməri kimi,
qızların, gəlinlərin
yaxası naxışlı köynəyi,
nənələrin qırçınlı tumanı,
kəlağayısı, örpəyi kimi.
Deyirlər köhnəliyin,
geriliyin nişanəsidir.
Buxov olur
tərəqqimizə, yüksəlişimizə.
Əcdadlar necə yaşayıb
nə işimizə?
Əxlaqlı olmaq
ətalətmiş,
Lap irəlidə gedənlərin
zövqünə görə qəbahətmiş.
Əxlaqsızlıq məngənəsində çırpınır
ulu, qədim bir xalq.
Əxlaqsızlar efirdən, ekrandan
hər gün moizə oxuyur...
Mövzusu: əxlaq.

## İKİ YOL AYRICINDA

Nə getməyə yerim var,
Nə də qalmağa üzüm.
Qulağa inanmıram,
Zəif görür də gözüm.

Mənim şıltaq ürəyim
Tanrının bəlasıdır,
Bəlkə heç ürək deyil,
Bir şeytan balasıdır?

Rahatlığım, dincliyim
Hansı küncə qısılıb?
Ürəyimin dərdləri
Kirpiyimdən asılıb.

Ürəyim pıçıldayır:
Hələ bu harasıdı,
Yağış yüklü o bulud
Gözümün qarasıdı.

Yəqin çoxdan ölmüşəm
Ömrümün yarısında.
Sağ qalanı axtarın
Misralar arasında.

Dərdə sirdaş olmağı
Neylim, tərgidəmmədim.
Çox şeydən üz döndərdim,
Şeiri tərk edəmmədim.

Sərhədlə əzablanmış
Bir balaca ölkəyəm.
Mən bir azca işığam,
Bir azca da kölgəyəm.

Zor ilə varlığımı
Yerə bağlayan mənəm.
Göydən əsir cismimə
Baxıb ağlayan mənəm.

İllərdir öz-özümlə
Yola getmirəm nədən?
Nə sayaq dil tapsınlar
Azad ruh, kölə bədən?

**BU BULUD NİYƏ GÖZÜ YAŞLIDI...**

Kim bu buludları burdan daşıdı?
Deyirsən yağacaq, Tanrı işidi.

Bu bulud çoxdanın çoxbilmişidi,
Hara yağacağın çox yaxşı bilir.

Bu göylər çoxdandı beləcə durur,
Bir gözündə bulud, bir gözündə nur,
Bu bulud təzə bir ömür axtarır,
Yerdə doğulmaqçün o, göydə ölür.

O bulud dərdlidi, aman-ahlıdı,
Bu isə yamanca qaşqabaqlıdı,
Biri hönkürtüsün qəfil saxladı,
Buludun göz yaşın görən kim silir?

O bulud bəs niyə belə yaslıdı?
Bəlkə, mən Kərəməm, o da Əslidi.
Biri dəyişməyə çox həvəslidi,
Bir gözü ağlayır, o biri gülür.

O bulud dinc durmur, çox təlaşlıdı,
Bu bulud zəncitək qıvrım saçlıdı.
O bulud bəs niyə gözü yaşlıdı?
Bəlkə də, Adilin yasından gəlir.

## HAQDAN BİR DİLƏK DİLƏDİM...

***El arasında bəxti gətirməyən adam haqqında deyirlər: "Onun qaraçuxası yatıb"***

Oldum dərdinin ortağı
Dərdləri hədsiz artanın.
"Qaraçuxası yatanın"
Yatdım qara çuxasında.

Bu dünyada nə durmuşam,
Niyə illəri yormuşam,
Heç bilmirəm nə görmüşəm
Bu dunyanın sovxasında.

Haqdan bir dilək dilədim,
Vermədi, başdan elədi,
Əllərim Kərəm əlidi,
Qalıb Əsli yaxasında.

**ON DÖRD...**

***Ömür dostuma***

Bədirlənmiş aydır on dörd
Başımızın üstündəcə.
Onun südtək işığından
Nura dönür zülmət gecə.

Bəlkə on dörd bir həftədir.
Yeddi gündüz, yeddi gecə.
Taleyimiz ağ-qaradır,
Gör oxşayır bizə necə.

On dörd yaşım çox uzaqda,
Ona yetməz səsim, ünüm.
On dörd sevgi ünvanıdır,
On dörd sənin doğum günün.

***Göyçay***

**OXUCULARIN NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"**

**jurnalına abunə yazılışı davam edir.**

**Əlaqə nömrələri:**

**+ 99412 498-78-10**
**+ 99455 668-78-79**

**Jurnalın bir nüsxəsinin qiyməti 2 manat, illik abunə qiyməti 24 manatdır.**
**İNDEKS: 76300**



## *Elçin MƏLHƏMLİ*

### QƏZƏL

Çəkirəm dərd, nə qədər var yenə ver, mən çəkərəm,
Elə zənn eyləmə ki, dərdi görüb tez çökərəm.

Ürəyim dərd gəmirir, eynən ipək qurdu kimi,
Yeməyə mən ona tut yarpağıtək dərd tökərəm.

Biləsən kaş necə çat-çat bölünübdür ürəyim,
Özü hazır dayanıb, hər çata bir dərd əkərəm.

Nə zaman zəbt eləyib könlümü, yoxdur xəbərim,
Ayılanda görürəm dərd ağadır, mən nökərəm.

Necə? Təslim eləyim varlığımı "Dərd ağa"ya?
Yıxaram dərd evini, tam özülündən sökərəm.

Dözə bilməz bu qədər ağrıya heç kim, dözürəm,
Elçinəm, çox belə dərdin dizini mən bükərəm.

### ÇIX

Batmış günəşim, ləngimə çox, bəxtimə tez çıx,
Zülmətdə olan ruhumu bir hiss elə, sez, çıx.

Tutmuş yenə hər yanımı qapqara qaranlıq,
Heç olmasa sən zərrə qədər nurunu süz, çıx.

Bir tuti dilim var idi, lal oldu o dil də,
Nitqim tutulur, bax, üzə gülmür daha söz, çıx.

Heyhat, neçə vaxtdır ki, ömür zülmətə məğlub,
Heç cür bu qaranlıqlara öyrənmədi göz, çıx.

Sönmüşmü alovlar, görəsən, bitdimi tale,
Qoyma sönə, tezdir hələ, qəlbimdəki köz, çıx.

Yoxdur ümidim, bil, sabaha, sən ki, görürsən,
Səbrim tükənib, söyləmə Məlhəmliyə "döz", çıx.

## GÜNLƏRİMİZ

Qəmi qovduq, gülüşü verdi zəfər günlərimiz,
Çağırır yurd bizi, başlandı səfər günlərimiz.

Cəmi qırx dörd günə məğlub elədik düşməni biz,
Bu günə sərf olunub gör nə qədər günlərimiz.

İti qovsaq da gərək biz çomağı tullamayaq,
Yenə peşman olarıq getsə hədər günlərimiz.

Üzü gülsün, daha xoşbəxt yaşasın el-obamız,
Geri dönməz yaşanan qüssə, kədər günlərimiz.

Gecə, zülmət dağılıb taleyimizdən əbədi,
Açılıb ömrümüzə indi səhər günlərimiz.

Daha Məlhəmli qoşar sözləri şən ruh ilə, çün
Silinib getdi, qayıtmaz o qəhər günlərimiz.

## AZ DEMİŞƏM

Sənə mən, nazlı nigarım, həmişə "can" demişəm, az demişəm.
"Məni candan eləyən sevgili canan" demişəm, az demişəm.

Nə atam var, nə anam, gör neçə vaxtdır aparıbdır Yaradan,
O səbəbdən də sənə "ən əziz insan" demişəm, az demişəm.

Döyüşərkən mələk ilə nəzər etdim tökülən göz yaşına,
Gözü şəhlam, gözünə canımı qurban demişəm, az demişəm.

Məni məftunmu edər hər gözü muncuq, dili şəkkər, sözü bal?
"Olmuşam dünyada yalnız sənə heyran" demişəm, az demişəm.

Demə eşqimlə bu şair itirib ağlını, sərsəm dolanır,
"Ürəyindir bu dəli eşqimə ünvan" demişəm, az demişəm.

Gecətək qapqara Məlhəmli günün, ay gözəlim, ağ elədin,
Səni öz bəxtimə sübhtək açılan dan demişəm, az demişəm.

**SƏNƏ QURBAN**

Qaldım sənə həsrət, gözəlim, gəl, sənə qurban.
Sənsiz ölürəm, yox sabahım, bil, sənə qurban.

Getdin, günəşim söndü, ürək doldu buludtək,
Gözdən süzülən jaləni gəl sil, sənə qurban.

Gəlsən doğular gün, əriyər buz, oyanar ruh,
Könlüm də açar çoxlu çiçək, gül, sənə qurban.

Hicran nə qədər yandıracaqdır məni? Rəhm et,
Qəlbimdəki közlər olacaq kül, sənə qurban.

Sənsiz nəyə lazım bu ömür, ay gözü şəhla,
Hər gün olacaqdır mənə bir il, sənə qurban.

Məlhəmli açıb tanrıya əl, hey dua eylər,
Yandır, nə olar, bəxtinə qəndil, sənə qurban.

## ♦Yeni tərcümələr

*Mixail VELLER*

# Qılınclarla rəqs




*Mixail İosifoviç Veller 1948-ci ildə Ukraynada doğulub. Uşaqlıq və yeniyetməlik dövrü Sibirdə keçib. Orta məktəbi qızıl medalla bitirib. 1972-ci ildə Leninqrad Dövlət Universitetinin filologiya fakültəsindən məzun olub. Ömrü boyu otuza yaxın peşə və sənətdə özünü sınayıb: tayqada meşəqıranlıq, Altay dağlarında çobanlıq, ali təhsilini başa vurandan sonra isə jurnalistlik və müəllimlik fəaliyyəti də bunların sırasına daxildir.*

*İlk hekayəsi 1971-ci ildə, "Süpürgəçi olmaq istəyirəm" adlı ilk kitabı isə 1983-cü ildə işıq üzü görüb. Maraqla qarşılanan bu kitabın ardınca yazarın daha üç nəsr toplusu çıxıb: "Ürəkləri parçalayan" (1988), "Hekayət texnologiyası" (1989) və "Bir məşhur ilə görüş" (1990).*

*Sonradan məşhur qələm sahiblərinə çevriləcək İosif Brodskinin və Sergey Dovlatovun əsərlərini SSRİ-də ilk dəfə məhz o, həm də Estoniyada çalışdığı mətbuat orqanlarının səhifələrində çap etdirməyə nail olub.*

*Yazarın sonrakı "Mayor Zvyaginin sərgüzəştləri" (1991) və "Neva prospektinin əfsanələri" (1993) kitabları isə öz dövrü üçün əsl bestsellerə çevrilib.*

*Onun "Sergey Dovlatovun cib bıçağı" (1994) adlı mini-romanı və "Pizalı çapar" (2000) romanı həm oxucular, həm də tənqidçilər tərəfindən böyük rəğbətlə qarşılanıb. M.Vellerin təkcə 2000-ci ildə çap olunan kitablarının ümumi tirajı 400.000 nüsxəyə çatıb.*

*Ədəbiyyatşünas və pedaqoq kimi o, çağdaş rus nəsri barədə Milan, Yerusəlim və Kopenhagen universitetlərində mühazirələr oxuyub.*

*Sonrakı dövrdə yazarın aşağıdakı kitabları çap olunub: "Qəddar" (2003), "Mənim missiyam" (2006), "Sevgi amansızdır" (2006), "Maxno" (2007), "Arbat əfsanələri" (2009), "Sərgərdan və onun vətəni" (2014), "Bizim knyaz və xan" (2015), "Kölgələrin cingiltisi" (2018), "Buzlaqda təkbaşına" (2019), "Qorxma, sabah" (2019), "Yəhudi notu" (2022) və "Ağ adamlar üçün ada" (2022).*

Sovet musiqisinin tarixi bir vaxtlar "Avropa" otelinin beşinci mərtəbəsindəki bufetdə yazılırdı. Ora dünyanın ən musiqili bufeti sayılmalıydı. Filarmoniyanın binası düz qarşıda, küçənin digər cinahında idi. Musiqiçilər məşqlərdən qabaq və sonra, bəzən isə elə məşq əvəzinə də mütləq bu sözügedən bufetə baş çəkirdilər. Barmaqları daha qıvraq, ruhları daha gümrah olsun deyə, belə davranırdılar. Konsertdən əvvəl və sonra, ya da sırf üz-gözləri öyrəşdiyindən ora yığışırdılar. Yerlilər və gəlmələr üçün də bu gəl-getlər az qala bir ayin halını almışdı.

Orada işləyən istənilən bufetçi qadının şəhərin musiqi həyatı barədə bildiyi təfərrüatlara hətta Leninqrad filarmoniyasının və ya Bəstəkarlar İttifaqının katibi də həsəd aparardı. Musiqiçiləri burada üzbəsurət tanıyır və hörmət bəsləyirdilər, bir çox artist hoqqabazlıqlarına isə hələ göz də yumurdular, çünki yaradıcı insanlar bu şəhərin baş tacıydılar... Müştərilərdən nə istədikləri əsla soruşulmazdı, onları başhesabı sayar, işəqədərki saatlarda adambaşına yüz, işdən sonra isə yüz əlli qram konyak süzərdilər. Həmin vaxtlar yüz qram konyakın qiyməti isə bircə manat idi.

Çoxdan qərar alınmışdı ki, Moskva ilə müqayisədə Leninqrad teatr yox, məhz filarmoniya mərkəzli bir şəhərdir. "Qaymaqlar" məhz filarmoniyada toplaşdığından orada müzakirəyə çıxarılan bütün məsələlər bir göz qırpımındaca Neva prospekti boyu yayılır, təhsilli və incəsənəti özünə doğma sayan insanlar arasındakı söhbətlərin dərhal başlıca mövzularından birinə çevrilirdi.

Sosialist Əməyi Qəhrəmanı, kim bilir hansı mükafatlar laureatı, Mravinski ilə Rojdestvenskinin və sairənin böyük dostu sayılan Aram İliç Xaçaturyan da musiqili Leninqradın daimi qonağı, tamamilə doğma bir adamı sayılırdı və Brodski küçəsinin Neva prospekti ilə kəsişməsindəki həmin o məkanda, liftdən sağ tərəfdəki bar dəzgahının qarşısında, təbii ki, o da az dayanmamışdı. Bu məşhur adam yetərincə səxavətliydi, qafqazlılara xas xoş ünsiyyətinə görə isə daim arzulanan bir qonaq sayılırdı, Moskva ilə Leninqraddan tutmuş ta doğma vətəni Ermənistana qədərki ərazilərdə doğma adam idi: hələ mən vaxtaşırı səfərlər etdiyi Fransa ilə İspaniyanı heç demirəm...

Onun İspaniyadakı sonuncu qastrolu da görünməmiş bir uğurla keçmişdi. Ümumilikdə götürəndə, ispanlar – musiqisevər insanlardır, çılğın və qanı coşduran melodiyalara dəyər biçməkdə isə tayları tapılmaz. Deməli, qastrolun təşkilatçıları İspaniyada daha nələr görmək və ya nələr almaq arzusu barədə hörmətli qonaqdan soruşurlar, çünki onun kimi böyük və görkəmli bəstəkarın hər hansı istəyini yerinə yetirmək onlara görünməmiş həzz bağışlayacaqmış: bu səbəbdən də onun xidmətində durmağa, hədiyyələr verməyə, nədəsə yardımçı olmağa, qonağın könlünü xoş tutmağa hazır olduqlarını bildirməklə, latınlara xas hər cür dil-ağız edirlər.

Öz böyüklüyünə və şöhrətinə rəğmən, məişətdə Xaçaturyan yetərincə təvazökar, ləyaqətli bir insan imiş. Hər yerdə yüksək səviyyədə qarşılandığından o, qarşı tərəfdən uzaqbaşı "quş südü" istəyə bilərmiş. Ancaq o, süd içmirmiş, sevimli içkisi isə "Ararat" konyakı imiş. Buna görə də əllərini yana açaraq, təşkilatçılara

öz minnətdarlığını bildirib, bir az düşünəndən sonra isə öz dühası barədə az əvvəl səslənən iltifatlara qarşılıq vermək naminə deyib ki, İspaniyada konsertlər vermək ondan ötrü böyük şərəfdir, çünki bu ölkə iyirminci yüzilin ən böyük fırça ustası, dünyanın ən möhtəşəm rəssamı sayılan Salvador Dalinin vətənidir və o, özü də bu ustadın pərəstişkarıdır. İspanlardan gördüyü yüksək qonaqpərvərliyə bayılan bəstəkar hər hansı istəyinin olmadığını və ya ola bilməyəcəyini etiraf eləyib. Yeganə istəyi isə – imkan daxilində – ustad Salvador Dali ilə tanışlıqla bağlı ola bilərmiş, ona öz dərin saygı və heyranlığını bildirmək, tablolarının reproduksiyaları toplanan albomu imzalamasını ondan rica etmək istəyərmiş.

Bu təklifi eşidən təşkilatçıların üzlərindəki ifadə xəfifcə dəyişir, onlar bir ayaqlarını dincə qoyub, digərinə dayaq verirlər... Çünki Dali ipə-sapayatmazlığı, çılğınlığı ilə görünməmiş dərəcədə şöhrət qazanıbmış. Ona görə də bu xahişin yerinə yetirilməsi təşkilatçılara heç mümkün görünmürmüş... Həm də bu mümkünsüzlüyün ən başlıca və bəsit səbəbi Dalinin Amerikada yaşaması və İspaniyaya hərdən-birdən gəlməsi imiş.

Amma bu arzunun gerçəkləşməsi lap nağıllardakı qədər heyrətamiz bir asanlıqla mümkün olub. Okeanın o tayındakı Dali görüşməklə bağlı bu təklifi telefon xəttində etinalı bir tərzdə dinləyəndən sonra bildirib ki, bu böyük bəstəkarın pərəstişkarlarındandır, ona görə də onu İspaniyadakı kasıbyana mənzilində istənilən vaxt ağırlamaqdan sadəcə məmnunluq duyar. Bu bəxtəvərliyi dadmaqdan ötrü o, yəni kasıb və ahıl rəssam kimi, əlində olan – əslində olmayan – işləri bir kənara atmağa hazırdır, həm də axı onun kimi ahıl və yoxsul bir rəssam indi kimə lazımdır?! Bu səbəbdən də elə indicə aeroporta yollanıb, təyyarəyə minəcəkmiş. Sabah görüşsünlərmi? Məsələn, günorta saat ikidə? Əgər bu şərt misilsiz bəstəkar Xaçaturyan üçün də uyğundursa, onda adi, uğursuz, naməlum və zavallı bir “rəngsaz” sayılacaq Dali onun kimi dünya musiqisinin nəhəngi, hətta günəşi sayılan şəxsiyyətin marağına tuş gəldiyi üçün ömrünün qalan qismini əsl bəxtəvərlik içində, həm də görünməmiş bir bəxtəvərliyin ağuşunda başa vuracaqmış.

Sevincini gizlətməyən impressario ispanlara xas tərzdə dərhal Xaçaturyana bildirir ki, hətta ayrı-ayrı ölkə prezidentlərini də adam yerinə qoymayan ustad Dali əgər həm özünü növbəti qalmaqallı bir reklam hədəfinə çevirmək, həm şux ovqata köklənmək üçün, həm də maneəsiz şəkildə Xaçaturyanı qonaq qismində qəbul etmək niyyətinə düşübsə, deməli, öz şöhrətiylə bütün ağlasığan və sığmayan hədləri aşıb-adlayan bu böyük bəstəkara ev yiyəsinin hörmət və ehtiramı, həqiqətən də, sonsuzdur.

Səhəri gün saat ikiyə üç dəqiqə qalmış hökumət nümayəndələrinə layiq bir cüt limuzin Xaçaturyanı impressariosu, katibi və tərcüməçisi ilə birlikdə Daliyə məxsus Mavritaniya üslubundakı qəsrə gətirir: bəmbəyaz daşlardan inşa olunmuş bu əzəmətli tikilinin şişuclu bürc və qüllələri, diş-dişli çıxıntı və bayraqcıqları varmış. Gözqamaşdıracaq qədər zərbaftalı kostyumlar geyinmiş qapıçı və eşikağası darvazaları onların üzünə laybalay açarkən xəbər verirlər ki, qəsrin sahibi artıq qonağı gözləyir, həm də görüşün tamamilə məhrəm şəraitdə, haradasa doğmalıq ab-havasında keçməsini dilədiyi üçün o, tərcüməçiyə də eh-

tiyac duyulmayacağını əvvəlcədən bildirib: axı monsenyor Dalinin xanımı da əslən rusdur və hətta görüşdən sonra Dali qonağı öz maşınıyla yola salmaq barədə göstəriş verdiyi üçün onu gətirən maşını burada gözlətməyə də bir gərək qalmır: “Sinyor Xaçaturyan hansınızdır? Zəhmət olmasa, sinyor, siz içəri keçin. Yox, yox, bizə digərlərini içəri buraxmamaq barədə qəti göstəriş verilib-dir”.

Çiyinlərini çəkən müşayiətçi şəxslər buna zərrəcə heyrətlənmirlər, çünki bütün bu şıltaqlıqların Dalinin xasiyyətinə uyğunluğu ilə dərhal barışırlar. Xaçaturyanın əlini sıxan bu şəxslər ona xoş istirahətlər arzulayır, öz dahi həmyerlilərinə salamlarını çatdırmağı diləməklə, maşına əyləşib, gedirlər.

Xaçaturyan isə mərmərlə döşənmiş xiyaban boyu müşayiət edilir. Artırmada ona təzim eləyən şəxsin az qala saraylardakı mərasim rəhbəri qədər dəbdəbəli geyimini süzən Xaçaturyan öz əyin-başının bu şəraitə uyğunluğu barədə hətta şübhələrə qapılmağa da başlayır: bəlkə smokinq geyinməsi daha məsləhətli olardı... Amma ona bununla bağlı hər hansı xəbərdarlıq olunmamışdı axı, həm görüş gündüz saatlarında keçirilir, rəsmi səciyyə-filan daşımır... həm də onun özü də harasından baxsan, görkəmli bir şəxsiyyətdirsə, onda niyə özünü bunca sıxmalıdır ki?!

Mərasim rəhbəri qonağı dəbdəbəli qəbul zalına dəvət edir: içəridəki bəyaz rəngli qabartma süslər, zövqlü parket və aynalar onun diqqətini çəkir. Qonağa əyləşməyi təklif edərkən bildirilir ki, monsenyor Dali indicə, baxın, o qapıdan içəri girəcək. Bu dəm divardan asılan qədim saat iki kərə zəng çalır. Qonağa baş əyən mərasim rəhbəri qapını arxasınca örtərək, ortadan qeyb olur.

Və Xaçaturyan iri zalda təmtək qalır.

Budur, o, səthi qızılı saplarla işlənmiş və haradasa XV Luinin qarniturlarından sayılacaq dəbdəbəli divanda oturubdur: qarşısındakı mozaik işləməli kiçik masanın üzərinə isə erməni konyakları, ispan şərabları, meyvələr və siqaralar düzülüb. Zalın o biri başında qoyulan iriölçülü və qızılı qəfəsin içində gəzişən tovuzquşu isə arabir öz bərbəzəkli quyruğunu yelpik misalı açaraq, sanki qürrələnir.

Aradan əvvəlcə bir, sonra iki dəqiqə ötür. İspaniyada dəqiqliyə hər yerdə sən deyən məhəl qoyulmadığına yaxşı bələd olan Xaçaturyan maraqla ətrafına göz gəzdirməyə başlayır, saçına tumar çəkir, qalstukunu səliqəyə salır. Tərcüməçiyə gərək duyulmayıbsa, deməli, görüşə Dalinin xanımı Qala da qatılacaq. Odur ki, qonaq söhbətə giriş üçün ağlında bəzi götür-qoylar edir, şux iltifatlarını bir az da cilalamağa çalışır.

Üçə on dəqiqə işləyəndə o, hələ də zənn edir ki, indicə, yəni saniyəsi-saniyəsinə, Dali içəri girəcək. Buna görə də qulaqlarını addım səslərinə şəkləyir.

Saat üçə on beş dəqiqə işləmiş o, nisbətən rahat oturuşa keçir və qarşısındakı qutudan bir siqara seçir. Tüstünü havaya püfləyərkən isə hələ bir ayağını digərinin üstünə də aşırır.

Üçə iyirmi dəqiqə işləyəndə qonaq yüngülvarı narahatlığa qapılır: “Bu, özünü nə zənn edir görəsən?! Görüşü özün saat ikiyə təyin eləmisən də!” Və konyakla dolu qədəhi başına çəkir.

Saat üçün yarısında daha bir qədəh konyak, üstündən isə bir bokal şərab gillədir. Üzüm salxımından bir-iki gilə qoparır...

“Nəzakət qaydalarına hər hansı məhəl qoyulmadığı aşkar göz qabağındadır. Qabalıqdır bu! Bəlkə məni uşaq-muşaq sayır bu?!”

Yerindən qalxıb, pencəyinin yaxasını açır, qalstukunun düyününü boşaldır, əllərini ciblərinə dürtməklə, zalda var-gələ başlayır. Tovuzquşu ilə qarşılıqlı baxışırlar: “Bu sarsaq quşa bax hələ! Lap eşşək kimi anqırır!”

Saat isə ötən hər on beş dəqiqəni ona xəbər verməkdədir və üçə on beş dəqiqə qalınca, Xaçaturyanın bu görüşə bəslədiyi bütün maraq sönüb gedir. Dalinin içəri girəcəyi qapının dəstəyini burarkən, o, mərasim rəhbərinin zalı səhv salma ehtimalını da ağlından keçirir, amma qapı arxadan kilidlidir. Xaçaturyan artıq qəti qərara gəlir: saat üçə qədər gözləyəcək, sonra isə buradan rədd olub gedəcək: “Bu nə biabırçılıqdır belə?! Bu, adamı alçaltmaqdır axı!”

Saat üç tamamda o, siqarasının közərən ucuna tüpürür, gedərayaq “Axtamar” konyakından bir qədəh də gillədib, inamla qapıya tərəf yönəlir.

Amma məlum olur ki, özünün bu zala girdiyi qapı da onun üzünə açılmaq istəmir. Xaçaturyan heyrət içində qapının dəstəyini burur və çiyinlərini çəkir. Sonra qəsrin bu zalına aid bütün qapıları birbəbir açmağa cəhd göstərir, amma onların hamısının kilidli olduğunu öyrənir!

Çaşqınlıq və hiddət hisslərinə yenik düşən adam bütün qapıları var gücüylə itələyir – yox, hamısı kilidlənib! Zehni fəaliyyətinə təkan versin deyə, bir qədəh də konyak içir, uca səslə söyüş söyür, tovuzquşunun quyruğuna tüpürür, boynundan açdığı qalstuku isə cibinə dürtür...

Gözləri yaxın yan-yörədə bir zınqırov, ya da telefon aparatı arayır ki, bəlkə kamerdiner və ya xidmətçi ilə əlaqə yarada. Amma burada hər hansı xəbərləşmə vasitəsi tapmır: “Bəlkə Dalinin başına bir qəziyyə-filan gəlib? Bəlkə təyyarə ilə vətənə dönə bilməyib? Amma onu dəvət etməklə inandırmışdılar ki... Əcəb dəlixanaymış ha!”

Həm də içində qəfildən aclıq hissi baş qaldırır! Axı o, iştahalı birisidir, ağız dadına düşkün adamdır, naharın da vaxtı gəlib çatıb; həm də o, bilərəkdən əvvəlcədən heç nə yeməmişdi ki, Dali ilə eyni süfrədə qarnını gen-bol doyura bilsin. İstənilən halda ona nahar veriləcəkdi, ya yox?!

Masaya yaxın yerdə əyləşməklə o, dəymiş bir armud seçir, arada portağal şirəsini köynəyinə sıçradır, konyaka və meyvələrə isə girişir, nə girişir... Az sonra Aram İliçdə ayaqyoluna çıxmaq ehtiyacı yaranır. Amma bütün qapılar da... kilidlənibdir!!!



Artıq hansısa nəzakət və ədəb qaydasına riayət eləməyin bir mənası qalmayıb. Odur ki, qonaq bütün qapıları döyəcləməyə başlayır, əvvəlcə bunu abırla edir, sonra qapıları təpikləməkdən çəkinməsə də, heç bir cavab almır ki, almır. Belə olunca o, pəncərələri açmaq, ya da səsini başına atmaq niyyətinə düşür, ya da... Ancaq qəsrin tağvarı pəncərələri sırf çərçivədən ibarət olduğundan... açılmaq bilmir.

Bədəninə görə qısa ayaqlara malik Xaçaturyan zalda təlaş içində ora-bura qaçır, ağzından püskürdüyü söyüş dalğaları isə getdikcə güclənir. Saat dördə doğru onun səbr kasası ağzınacan dolur və o, öz-özlüyündə qət eləyir: "Bax, saat dördü də vursun, ondan sonra heççə nəyə baxan deyiləm! Lənətə gəlsin bunlar!"

Pəncərələrin arasındakı səhbanın üzərində Mavritaniya tərzində, hər halda kolleksiyalıq qədim bir vaza qoyulub. Həm gözəl biçimlərə, həm də xeyli iri tutuma malikdir o qab. Ondan yararlanmaq fikri get-gedə qonağın ağlına daha çox batmağa başlayır.

Və düz saat dörd tamamda o, yanlarını basa-basa həmin vazaya yanaşır, dərindən köks ötürməklə və əsl qisasçı təntənəsiylə onun içinə siyidikdən sonra düşünür ki, həyat elə də fəna deyilmiş: bax, qəsrdə şərab içərək, tovuzquşuna tamaşa edir... hələ içinə siyidiyi bahalı vazanın hündürlüyü də ona əl verir.

Saat dörd kərə zəng vurur, sonuncu zəng çalınanda haradasa qurulmuş səsgücləndiricilərdən "Qılınclarla rəqs"in qulaqbatırıcı melodiyası yüksəlir! Qapılar gurultuyla açılır və döşəməsilən taxtanı bir at misalı "minən" və əlindəki həqiqi qılıncı başının üstündə yelləyən, üstəlik də, anadangəlmə çılpaq olan Dali zala girir!

Öz "taxta atının" belində bütün zal boyu "çaparaq", qılıncını havada oynadan çılpaq dahi o biri başdakı qapılara tərəf cumur və üzünə açılan həmin qapıların ardında qəflətən qeybə qarışır!..

Və həmin an musiqi də kəsilir.

Zala girən mərasim rəhbəri qəbulun artıq bitdiyini qonağa bildirir və məkandan çıxmağı qonağa təklif edir.

Keyləşib-karıxan Xaçaturyan dərhal üst-başına əl gəzdirir, şalvarındakı sıçrantı izlərini övkələməyə çalışır. Dalinin Hollandiyada nəşr olunmuş, qızılı işləmələriylə adamın gözünü oxşayan və rəssamın bu unudulmaz görüş barədə təsirli ürək sözlərini öz dəst-xəttiylə üzərinə yazdığı albomu artırmada ikən dərin ehtiramla qonağa təqdim edirlər.

Sonra isə maşına mindirməklə, onu qaldığı otelə yola salırlar.

Yolda özünə gələn Xaçaturyan o lənətəgəlmiş albomu bir ara pəncərədən bayıra vızıldatmaq fikrinə düşsə də, nə isə fikirləşir və bu niyyətindən daşınır.

Oteldə gəlişini gözləyənlər isə onu sual yağmuruna tutur, bu iki dahinin görüşünün təfərrüatlarını öyrənməyə çalışırlar. O da məcbur qalıb, aralarında sənət mövzulu fikir mübadiləsi barədə ağızucu nələrsə uydurub deməli olur – təki paxırı üzə çıxmasın.

Həmin gün çıxan axşam qəzetlərində bu hadisə tam şəkildə işıqlandırılır. Üstəlik, Dali vəhşi Rusiyadan gələn bir qonağın dəyəri yüz min dollara, yaşı isə altı yüz ilə çatan kolleksiyalıq bir vazadan gecə çanağı kimi yararlanmasını adi hal saydığını və bunu dərin anlayışla qarşıladığını oxuculara bildirir.

Bu və ya digər səbəblər ucbatından Xaçaturyan bir daha İspaniyaya əsla ayaq basmır.

***Dilimizə çevirdi – Azad YAŞAR***



*Əhməd QƏŞƏMOĞLU*

**İLK EŞQ**

***Poemadan parçalar***

bir sarayı ildırım vuran kimi,
məni ilk eşqimin zərbəsi vurdu...
ağac idimsə budaqlarımı,
quş idimsə qanadlarımı qırdı...
götürüb məni
öz ömrümdən apardı,
didərgin elədi...

İlk sevgi, sevginin sübh üzüdü,
Ruha nur paylanır, qəlb pərvazlanır,
O elə bir sirdi ki, təkrarı yoxdu,
Ömrə qüdrət gəlir, könül nazlanır.

İlk sevdiyin insan ifallı, ülvi
Nəzər salsa hərdən, xoşbəxt olarsan,
Mələklər səninlə mehribanlaşar,
Kainatdan nizam, qüdrət alarsan.

Ruhunun gül fəsli coşub daşanda,
Gözündən ilahi işıqlar saçır.

Arzular, niyyətlər sənə güc verir,
Yolda yürüməzsən, qanadlanarsan.

İlk eşqi nə günə salır bu dövran?!
Tale torun qurur, yollar bağlanır.
Ağıl, hiylə səni hədəfə alır,
Yürüdüyün yolda tənha qalırsan.

Başıma gələni danışıram ki,
Bəlkə kimlərəsə faydası oldu,
Bəlkə də kimlərsə öz həyatını
Ögey ömürlərin əlindən aldı...

saçlarımda ağ xətlərlə yazılan
tale məktubları ürküdür
nakam arzularımı...
köksümdə tufan qaldırır həyat,
ovutmaq istəyir
ömrümdəki ağrılarımı...

yıxılan ağacın səsi gəlir hər yandan,
qəlbimdə müdhiş bir səksəkə gəzir...

bilirəm ömrümün üzü hayana,
dünya süzür məni
saymazyana...

bu vaxtımda yer üzündən
soruşdum yana-yana:
– başıma nə oyun açdın, insafsız?
bax, nə günə qoydun ruhumu mənim?
hansı günahlara düşmüşəm belə?
ömrüm ömür olmadı ki...
bəs nə oldu? bilmədim ki...

* * *

ilk eşq nədir axı, mənası nədir?
soruşdum özümdən, daldım xəyala...
bulud kimi, dalğa-dalğa
axdı cavablar
yarımçıq, süzgün, tala-tala...

yadımda nə qaldı, yazıram indi:
– Kainatı kainat eyləyən,
qüdrətli aləm eyləyən
Allahın əmriylə gələn
sehrdi eşq...

eşqdir zərrələri bir yerə yığıb
hər cürə varlığı bəyan eyləyən,
gözə görünmədən, kəlamsız, sözsüz
hamının qəlbində: – mən varam! – deyən!

hər zərrə köklənməz hər bir zərrəyə,
bir olmaz onların sevinci, ahı,
əgər köklənibsə, demək, onların
eyni aləmlərdən gəlibdi ruhu.

özlərindən ali, sirli aləmdən,
eyni nurdan onlar nur alıbdılar,
həyatda fərəhlə ömür sürməyə
onlar bir-biriycün yaranıbdılar...

belə bir deyim var el arasında –
ulduzları qoşa, torpağı eyni...
onlar da başqa cür deyiblər bunu,
elə mən düşünüb, mən dediyimi...

tel telə köklənsə, ahəng yaranır,
həmin o ahəngdi qeybin nizamı,
haqq yol dediyimiz o ahəngdədir,
heyif ki, bu sirri bilməyir hamı.

Bizim "yar" sözümüz müdrik, müqəddəs,
Yəni bir varlığın iki yarısı,
Eşq o yarıları yığır bir yerə,
Edir xoşbəxtlərin xoşbəxt varisi...

Hər yarın ögeyi, doğması olur –
Doğma yar ömürə ahəng gətirir,
Ögey yar dönür bir əfi ilana,
İnsana hesabsız əzab yetirir.

Bunu butalartək anıb müdriklər,
Hər kəs öz yarının bir butasıdır,
Hər ömrün butası, ruha bir sevinc,
Fərəhli həyatın astanasıdır.

İlk eşq deyil hələ ilk məftun olmaq,
İlk eşq – doğmalığın cazibəsidir,
İlk eşq kainata ahəng gətirən
Doğma olanların bir müjdəsidir.

İlk eşq öz qəlbinin bir surətidir,
Qəlbin, ilk eşqinin yaraşığında,
Ömrün hər vədəsi olar gülüstan
İlk eşqin ilk olsa eşq işığında.

Allahım! Lütfündür, qismət eylədin
Mənim də qəlbimin ilk eşqi oldu,
Didərgin etsə də məni həyatdan,
Ruhum ömrüm boyu nur ilə doldu.

Hər vədə andım ki, yanımdadır o,
Duydum nəfəsini, kəlmələrini.
Sehriylə qorudu çətin anlarda
Ömrümün qırılan ilmələrini...

Onun əzabını dəyişmərəm mən
Sevgisiz həyatın təntənəsinə,
Lap elə şöhrətlə, sərvətlə dola,
Yazıqdır deyərəm mən beləsinə...

Heyiflər olsun ki, həyatda hər vaxt
Həsrət qaldım ilk eşqin
ciçəyinə, gülünə...
Allahım! Yenə də şükür edirəm
Belə ilahi gözəlin
bu gözəl nisgilinə...

* * *

bu gün
elə kövrəlmişəm ki...

...bu gün xanımlar günü...
təbrik etdim ömrümə əziz olan
xanımların çoxunu...
qəlbim ağlaya-ağlaya dedi
onların arasında
ruhumun ən doğmasının
yoxluğunu...

...bir vədə, tələbə olanda,
xanımlar günündə
sənə bağışladığım
qızıl gülləri xatırladım...
o vədə
sənə oxşayırdı onlar...
gözlərim dikildi sənin yoxluğuna,
xəlvət-xəlvət ağladım...

bu gün xanımlar günü,
yollarım açıq olsaydı sənə
hansı hədiyyəni gətirməzdim ki!
səni gül-cicəyin içində
itirməzdim ki!?

...qəlbindən hansı bir hədiyyə keçsə,
onu bu aləmdən tapmaq mümkünsə,
hökmən gətirərdim, şübhən olmasın...
bunu düşündükcə, qəlbim necə
pıcıldayıb adını, kövrəlib ağlamasın?...

...yaxşı ki, yer üzündəsən,
yoxsa bu yer üzü
lap dözülməz olardı...
dünyada ən böyük sərvətim
bəlkə də
sənin yer üzündə olmağının
toxtaqlığı, işığıdı...
sənin yer üzündə olmağın
qəlbimin gümanıdı,
ömrümün yaraşığıdı...

* * *

ömrüm ömür olmadı,
bəs nə oldu? bilmirəm ki...
bu ötüb keçən illər
tez-tez ağlasam da ürəkdən,
ürəkdən gülmürəm ki...

qəlbimin telləri qarsdı alovda,
ömrüm özümdən hürkdü,
məni bu dövranın ögeyliyinə,
bədbəxtliyinə bükdü...

görmürsüz nə gündəyəm?!
məni nə günə salıb
bu ayrılıq,
dərdin, qəmin düzümü...
deməyin yanımda
ilk məhəbbət sözünü...

qardaşım, dostum, yoldaşım!
təəccüb eləməyin bir vədə
görsəniz ki, ağlayır
qəbrim üstə baş daşım...

* * *

mənə tez-tez
gördüyüm hər kövrək aləm
səni xatırladır...
indi eyvanımdakı iki göyərçin də
diksindirdi məni,
bu şeiri yazdım:

## YAN-YANA DAYANIB İKİ GÖYƏRÇİN

dənizdən boy verdi ağappaq bulud,
bir yanı sularda, bir yanı süzgün,
elə bil o dəniz qəlb aləmimdi...
buludu dindirdim mən üzgün-üzgün....

pəncərəm önündə iki göyərçin,
biri naz-qəmzəli, biri qürurlu,
amma hər ikisi eşq odundadı,
qəlbləri tərtəmiz, gözləri nurlu.

Allahım, bu yer üzündə
bəs quşların işi nədi?
kainat sirri içində,
quşlar nəyə nişanədi?

qızılgülə bənzəyirdi
göyərçinlərin hər biri,
hər tərəfə yayılırdı
sevda dolu nəğmələri.

dənizdən boy verən o gözəl bulud
qalxdı, gəlib durdu başımın üstə,
gözü dənizdəydi, qəlbi pərişan,
gördüm əhvalımız düşür üst-üstə.

biz qoşa seyr etdik göyərçinləri,
o eşqdən nur axdı qəlblərimizə,
dənizdə dalğalar sevdalandılar,
bizdən danışdılar hey üzə-üzə...

nə haldayam, bilən yox...
dərdim, dediklərimdən
daha dərin, daha çox...

Qızılgül düymə-düymə,
Daha xətrimə dəymə,
Sən yadıma düşəndə
Od düşür sümüyümə.

Qızılgül düymə-düymə,
Dəymə, xətrimə dəymə,
Sən bir kövrək nəğməsən
Ömrümə, ürəyimə.

Qızılgül düymə-düymə,
Düymə, qönçədi düymə,
Məni peşman eylədin
Dünyaya gəldiyimə.

Qızılgül düymə-düymə,
Geymə, hər donu geymə,
Qəm etmə, fikir vermə
Mənim hər dediyimə.

* * *

nə olsun həsrətindən
məğmun günlərə qaldım,
bilmədim həyat nədir,
mən həyatsız qocaldım...

amma
...sənə insafsız demərəm,
sənə zalım demərəm...
qəlbimdə elə bir məqamdasan ki,
mən səni hər zaman
dua kimi zikr eləyirəm,
əzizləyirəm...

sənə insafsız demərəm,
zalım demərəm...
həsrətinlə yaşadım,
həsrətinlə ölərəm...

* * *

Saflıqdan ki, doğulmadı məhəbbət,
Bulaşdı nəyəsə ürəkdə niyyət,
Onun adı məhəbbət yox, ayrıdı.

Qız sözündə ilahi,
Müqəddəs bir qüdrət var,

ömrümün ahəngi pozulsa da mən
ahəngyol adlı bir elm yaratmışam...
sən yoxsan, vecimə deyil
şeir də, belə də... məni bağışla...

* * *

hər kəsdə səni axtardım, heç kimdə olmadı...
bilsəydim ki,
bu günə qalacağam bu yer üzündə
aləmləri bir-birinə qatardım
gecənin gecəsində, gündüzün gündüzündə...
Səni alıb qaçardım...

# "SÖYÜDƏ BARSIZ DEMƏYİN"

Bəlkə də özü xatırlamır, amma "Azərbaycan" jurnalında 35 il əvvəl dərc olunmuş bir şeirində belə deyirdi. Şəhid körpülərdən, Hun qəbirlərindən söz açırdı, gözünün ucuyla "ütülü oğlanlar"a çəpəki baxırdı... Yox, ilk dəfə çap olunmurdu, amma fərqli baxışlı – havalı bu bir qom şeirdəki müraciətin tonu yadda qalırdı... Jurnalda isə ilk yazısı ("Vətənin hər yerində") 1982-ci ilin sonuncu sayında çıxmışdı, şeirinin gözləri hələ ki yol çəkirdi. Bir igidin ömrü qədər vaxt keçib o illərdən...

Əhməd Qəşəmoğlunun poetik düşüncəsinin "açar sözləri" haqqında düşünəndə yol, eşq, işıq, nur, haqq, ahəng sıralamasında hansının əvvəl, hansının sonra gəlməsinin əhəmiyyəti yoxdur; mühüm olan ilk baxışda fərqli, müxtəlif sözlərin, geniş mənada götürəndə, daxili kütləsinin eyniliyi, yaxud yaxınlığının olmasıdır. Bir halda ki, Eşq – ahəng olan yerdədir, // Qəlb dindirən şeirdədir, bir halda ki, insan həm də "kainatın görünməz nurlarından" doğulur, onda bölgüyə ehtiyac qalmayacaq, çeşidləmənin sonu belə oxunacaq: birin gücü çoxun birliyindədir!

Ahəng dediyin də budur. Yol dediyini də sona bu güc aparıb çıxaracaq. Bunun dərki üçün konsepsiyamı, elmmi, empirik nəticəmi gərəkdir?

Əhməd Qəşəmoğlu riyaziyyatı, iqtisadi bilikləri, sosioloji araşdırmaları introspeksiv süzgəcdən, şeirin ruhundan keçirə-yoxlaya yaratdığı nəzəriyyənin izlərinə ailə tərbiyəsi ilə ruhuna – düşüncəsinə hopmuş sabit və sağlam mənəvi-əxlaqi dəyərlərlə, Yaradanın qüdrətinə inamla və ilk gəncliyindən heyran olduğu Rəsul Rza yaradıcılığı ilə tanışlıqdan düşüb. Sonralar, yaşa dolduqca bədii və elmi təcrübə arasındakı nizamlı məntiqi əlaqə və qarşılıqlı bağlılığı dərk edə - edə pakistanlı nobelçi, fizik Abdus Salamın bu qənaətini yaddaşına yazıb: "Elm ona görə vacibdir ki, o, bizə əhatəsində olduğumuz dünyanı və uca Allahın əməllərini dərk etməkdə kömək edir". İqtisad elmləri doktoru, professor, sosioloq, Ahəngyol elminin yaradıcısı, azərbaycanlı Əhməd Qəşəmoğlu isə, bu işdə yeni nizam yaratmaq iddiası və cəsarəti ilə müasir elmi sistemin mükəmməl olmadığını sübut etməkdə israrlıdır. Nəzəriyyəsinin elmi tezisləri Lütfi Zadənin diqqətini cəkib, elə məhz onun tərəfindən hələ 2011- ci ildə dünyanın ən nüfuzlu elmi mənbələrindən olan BİSC elektron jurnalında yerləşdirilib. Bunun ardınca təqribən 20-yə yaxın ölkədə Azərbaycan elminin uğuru kimi dəyərləndirilən Ahəngyolun təqdimatı keçirilib, bu elmin qeyri-səlis riyaziyyatla əlaqəsi ciddi maraq doğurub. Əsasında təsəvvüf fəlsəfəsi, sistem nəzəriyyəsi, funksional-struktur nəzəriyyəsi və qeyri-səlis məntiq sahələrinin,..Qərb və Şərq elmlərinin durduğu bu sahə süni intellekt və robotların yaradılması, siyasət, idarəetmə, dinlərin və mədəniyyətlərin dialoqu, əslində, bütün kainatın mövcudluq və fəaliyyətində dünyəvi elmlərin köməyi ilə Allahın Yolunu getməyi öyrədir. Aydın məsələdir ki, bu nəzəriyyəsinin etiraf olunmasında "öz yerində peyğəmbər olmamaq" sıxıntısı da yaşayır. Amma dünyanın gedişatı "sosial-iqtisadi proseslərin idarə olunmasında ahəngyol

nəzəriyyəsindən istifadə" (müəllifin eyni adlı monoqrafiyası belə adlanır.) qaçılmaz zərurətə doğru gedir.

Əhməd Qəşəmoğlunun "Alternativ təhsil" konsepsiyasının Ahəngyolun praktikada tətbiqi kimi uğurlu olacağı həm də ona görə inandırıcıdır ki, istinad etdiyi tarixi təcrübə modeli – "Qori müəllimlər seminariyasının fəaliyyəti" sınaqdan çıxmış ahəngdar inkişafın parlaq nümunələrindəndir.

Şair Əhməd Qəşəmoğlu da alim Əhməd Qəşəmoğlunun yolundadır:

***Ümidim – getdiyim yoldur, // Bu yolun üzü Allaha.***

Onun şeir yaradıcılığı neçə-neçə kitabındadır, bu yaradıcılıq nümunələri yolun başlanğıcından onun şair obrazının rəngini-ruhunu duyurub: Qırxlar aləmi bilir ki, // Yer üzü deyil mənimki... Oxucu bu obrazın dürüstlüyünə inandığından, sevməyin çeşid-çeşid yolu olduğuna şəkk etməyib, əksinə, inanıb ki: təkcə ürəklə sevmək nədi ki, // qəlbin kökləndiyi // yerlə, göylə, "qaynayıb daşan aləmlərin sirri ilə", çiçəkli ağac üstündə ilahi nəğmə oxuyan ay kimi" sevmək də varmış və bu çeşid-çeşid sevgilərin hamısı birləşib - bütövləşib bir ahəngə kökləyir insan ruhunu. İnsan belədə düşünür ki: məni göylər dindirir,.. dünyanın harasıdır? // gündüzdür, yoxsa gecə?... və gecə-gündüz barışır bu ilahi ahəngdə...

Şeir ilk baxışda göründüyü kimi elm deyil, Amma... şeirinin mətləbi, sözünün hikməti də elmi - ictimai fəaliyyətinin davamı kimi ədalət, harmoniya axtarışlarına bələdçilik edir. Onun, bəlkə də, kütləvi oxucu auditoriyası geniş deyil, daha çox, belə demək mümkünsə, onun oxucuları daha çox "Azərbaycan akademizmi"nin nümayəndələri sırasındadır. Əhməd Qəşəmoğlu isə bu məqamda da kəmiyyətin nigaranı deyil, fərqli düşünür, "kütləvi" – "akademik" bölgüsündən də darılmır. Hətta şeirlərinin bədii məziyyətləri ilə bağlı birmənalı olmayan yanaşmalara, fikirlərə də fərqli baxır; onun üçün şeirdə qəliblər, ölçülər, qaydalar əsas deyil... Deyəsən, Əhməd Qəşəmoğlu, ustadına həsr etdiyi "Rəsul Rza" poemasında yazdığı kimi, o da şeirə "...kainatın nizamından, ahəngindən, qeybin sirrindən, qəlbin atəşindən, nurdan, işıqdan yazmaqçün vasitə, tribuna kimi baxır, oxucusunu da qəlb doğmasa, çəkir insan insanı düşüncəsiylə seçir.

Bədii yaradıcılığının inkişafı tərcümə vasitəsilə müxtəlif dillərdə izlənilib, elmi tədqiqatın diqqətini cəlb edib. Ustadının adını daşıyan Ədəbiyyat Fondunun Rəsul Rza adına və Mədəniyyət Nazirliyinin "Qızıl kəlmə" mükafatlarına layiq görülüb.

Əhməd Qəşəmoğlunun cəmiyyətdə bir sosioloq, bir ziyalı kimi sözünün – təhlillərinin təqdir olunmasının bir səbəbi çağın və gündəmin dəb - dəyər tərəddüdü yaşadığı xaosda ənənə-müasirlik balansında çox sezilən mütərəqqi dünyagörüşü, təlqin etdiyi mənəvi dəyərləri həyat və fəaliyyət tərzi kimi qavramasıdırsa, bir səbəbi də xalq arasında qazandığı şəxsi və ictimai nüfuzu ilə bağlıdır.

***Südabə AĞABALAYEVA***



***Pərviz QURBANLI***

* * *

Bu evin qapısı daha döyülmür,
Divarlar həsrətdir insan səsinə.
Xaraba qalmış da elə soyuqdur,
Əllərim qızınmır öz nəfəsimə.

Pəncərə önündə solan çiçəklər
Hələ də unutmur xatirələri.
Yalvarır hər səhər doğan günəşə
Qaranlıq otağın pəncərələri.

Bir taxtabiti də yeyir divanı,
Niyyəti taxtımdan salmaqdı məni.
Nə qədər qəribə olsa da belə,
Evimdə yaşayır evin düşməni.

Sonra bir taqqıltı yayılır evə,
Özün yerə atır anamın şəkli.
İntihar etdimi görəsən, yoxsa,
Mənə xatırlatdı öldüyü ili?

Nəhayət, qapımız döyüldü, Allah,
Mən dəli olardım yoxlamasaydın.

Qoşulub əcələ gələrdim vallah,
Bir şəkil dalımca ağlamasaydı.

* * *

Gecə saat bir olar, düşünürəm…
Saat onikidən süzdüyüm çay soyuyur,
üşüyürəm...
Qurunun oduna yaş da yanır,
sobadakı çır-çırpı qışqırır, diksinirəm.
Gecə saat bir olar, düşünürəm...

Pəncərədə bir pişik miyoldayır,
xəstə atam hərdən durur, danlayır.
Bir yarımçıq ümidlə yanında əyləşirəm,
Gecə saat bir olar, düşünürəm...

Soba sönür, çay soyuyur,
pişik hələ miyoldayır, atam amma deyinmir.
Gecə saat bir olar, düşünürəm…

* * *

Həyat qaldığı yerdən
Gedərdi öz tonunda.
Yuxudan oyanaydın
Qış səhəri fonunda.
Sonra nəsə baş verə,
Özündən də xəbərsiz
Telefona tələsəydin.
Dünən zəng eləsəydin...

Ürkək, sakit səs ilə,
İnan, mənə bəs eylər
Şikayətlər, gileylər.
Üstümə qışqıraydın,
Sözlərimi kəsəydin.
Dünən zəng eləsəydin...

Və sükuta qərq olub,
Sakitcə dayanaydıq.
Yenə əvvəlki kimi

Bir-birə yubanaydıq.
Axırda ağlayaraq,
Darıxmışam desəydin.
Dünən zəng eləsəydin,
Telefonu açardım.

* * *

Bu yuxusuz gecələrin xətrinə
Dönə bilsən, yaxşı olar.
Ağlamaqda məndən məşhur deyilsən.
Gülə bilsəm, yaxşı olar.

Dön, həsrətindən alışır bu divarlar, bu ev.
Zərdüşt ziyarətgahına çevrilib bu xaraba,
and olsun “Avesta” adlı kitaba.

Xəbərin var?
Bəşəriyyətin son ümidi biz olmuşuq, gəl.
Xəzər dənizində Nuhun gəmisinə
son cütlük biz qalmışıq.

Gəl, iki qədəh İsa qanı süzmüşəm.
Ata, oğul və müqəddəs ruh naminə dözmüşəm.
Keç bu “İncilin” altından, xoşbəxt olaq.

Sərxoş adamlar düzün deyir, bilirsən.
Darıxmışam və səndən əl çəkmərəm.
İnanmırsan, inanma.
Səndən ötrü Allaha and içmərəm.

* * *

İndi gözlərim danışır,
Dilimin susduğu yerdir.
Qəribə zad da deyil,
Hamının bildiyi yerdir.

Ayağım torpağı sığallayır,
Ölülərin nəvaziş saatıdır.
Əcəli narahat etmə!
Onun iş saatıdır.

Artıq qulaqlarıma inanıram.
Onlar da dil açıb danışır.
Əllərim yaman qaçır,
Günahımla yarışır.

Kimin alın yazısı
Dodaqlarımda qalıb?
Hardan tapım mən səni?
İndi halallıq alım.

Daha gecdi, əzizim.
Bayaq dediyim kimi
Hamının bildiyi yerdir.
Gordan harayçı gəldi,
Şairin öldüyü yerdir.

* * *

İndi şəhər tozlarını qaldıran
Xəfifcə bir meh də əsir küçədə.
Ümidləri tozdan betər sovrulan
Bir anasız yetim gəzir küçədə.

Saçları da üz-gözünə tökülən
Bir dilənçi qarı açır əllərin.
Yarıalqış, yarıqarğış ömürdən
Yavaş-yavaş yola salır günlərin.

Bir taksofon dəstəyindən qız səsi,
Uzandıqca uzanırdı sonacan.
Bir az sevinc, bir az qorxu, həyəcan
Eşidirəm, alo, alo, hardasan?

Bir yeşikdən zibil yığan adamlar
Gözləri kor pişikləri qovurdu.
Xatirəsi yada düşən qocalar
Kövrəlirdi, gözlərini ovurdu.

Bu Bakı şəhəri, bu dərd küçəsi,
Biz də bu şəhərin qonaqlarıyıq.
Bağışla ay Bakı, sevmədik səni,
Biz ayrı şəhərin uşaqlarıyıq.



## *Təranə DƏMİR*

* * *

Bu zülmət gecədə, bu dar otaqda
Divar xatirədi, tavan xatirə.
Min ildi ruhumu ac buraxmısan,
Gözünü doyurmur yavan xatirə.

Görən nə saxlayır səndən bu gecə,
Böyründə, başında nə qalıb görən?
Gözlərim çırpınır fikir torunda,
Kirpiyim asılıb xatirələrdən.

Xəyallar gözümü yorur eləcə,
Yuxuma daş atıb qaçır xəyallar.
Gecə öz taxtında dincələ bilmir,
Qapısın bağlayır, açır xəyallar.

Pəncərə-pəncərə səhər açılır,
Pəncərə-pəncərə bağlanır gecə.
Başımı qatıram sözlə, qələmlə,
Hər gün bir nağıla aldanır gecə.

Ayla danışıram, gecə boyunca
Göyün sinəsindən ulduz yığıram.
Bu təklik, tənhalıq vecimə deyil,
Səni unutmaqdan yaman qorxuram.

* * *

Yenə boğur arzuları gözündə,
Yenə batır min günaha bu payız.
Heç bilmirsən dərdi nədi, səri nə,
Fikrin salıb darıxmağa bu payız.

Hara baxsan, susuzluqdı, quraqdı,
Hardan tutsan, söz-söhbətdi, qınaqdı,
Gəlib-gedən töhmətinə qonaqdı,
Söz də tapmır ovutmağa bu payız.

Çölü sazaq, içindəkin bilən yox,
Əl uzadıb göz yaşını silən yox.
Həsrətinin öhdəsindən gələn yox,
Yol da vermir qayıtmağa bu payız.

Hey boylanır bu qapıdan, o camdan,
Bilən də yox nə istəyir adamdan.
Ara-sıra ürəyinin adından
Pıçıldayır ağ varağa bu payız.

Gah odlayır, gah da tutur yağışa,
Çəkir səni min enişə, yoxuşa.
Nə qoymur ki, başın eşqə qarışa,
Nə də qoymur unutmağa bu payız.

Günəşinin şəfəqləri ayazdı,
Təsəllisi, nəsihəti dayazdı,
Məhəbbəti ayrılığa boğazdı,
İnanma ki, vüsal doğa bu payız.

* * *

Gəl asılaq xəyalların gözündən
Gecə-gecə ulduz-ulduz darıxaq.
Ömrümüzün yanlışından, düzündən
Keçə-keçə ulduz-ulduz darıxaq.

Qaçıb gedək bu şəhərin əlindən,
Bu payızın, bu xəzəlin əlindən.
Nağıl yazaq ulduzların dilindən,
Küçə-küçə, ulduz-ulduz darıxaq.

Bax, görürsən, ulduzlar da qoşadı,
Qaranlığa hərəsi bir daş atır.
"Payız keçir, yollarımız qışadı"
Deyənəcən ulduz-ulduz darıxaq.

Sahil-sahil qarmaq ataq səhərə,
Dəniz-dəniz əl uzadaq səhərə,
Yavaş-yavaş gedib çataq səhərə,
Səhərəcən ulduz-ulduz darıxaq.

* * *

Elə bil ki, dəniz daşır səmadan,
Bu haçanın yağışıdı, İlahi?
Biz bilmirik, bəlkə elə bu yağış
Yazla qışın barışıdı, İlahi?

Sazaqlardan diri çıxan bu torpaq
Gedib gəlib göy üzünə əl açır.
Orda bulud ürəyini boşaldır,
Burda dağlar, burda daşlar dil açır.

Yağış yuyur ağacların saçını,
Meyvələrin üzü gülür budaqda.
Su içdikcə tumurcuqlar dirçəlir,
Bahar söz-söz şeirləşir varaqda.

Yağış deyil, buludlardan nur yağır,
Sehirlənir şeh altında göy otlar.
Göz yaşıyla öz eşqini torpağa
Damcı-damcı pıçıldayır buludlar.

Elə bil ki, dəniz daşır səmadan,
Bu haçanın yağışıdı, İlahi?
Biz bilmirik, bəlkə elə bu yağış
Yazla qışın barışıdı, İlahi?

* * *

Nə dünyadı bu, Allah,
Gəl günahdı, get günah,
Ömür də ki, baxtabaxt,
Nöqtələr...

Yoxdu mizan, tərəzin,
Nədir Yerlə qərəzin?
Düşüb dalınca gəzir
Kölgələr.

Elə bil daşdı hamı,
Ayazdı, qışdı hamı,
Vurub yıxır adamı
Hikkələr.

Sevgi nədi, eşq nədi?
Ürək dərdə təşnədi,
Heç yerinə düşmədi
Bəlkələr...

* * *

Kim bağlayıb bu qapını görəsən,
Bu qapını kim açacaq, İlahi?
Hirsə düşüb əvvəl-axır bu qapı
Üstümüzə yıxılacaq, İlahi.

Gecə-gündüz baxışları yol ölçür,
Bircə borcu ödəyəmmir yüz fikir.
Yörəsindən xeyir keçir, şər keçir,
Heç kim bilmir qapı yazıq nə çəkir.

Hansı ahın yiyəsidi görəsən,
Lənətlənib, küfürlənib bu qapı.
Biz bilmirik bəlkə elə əzəldən
Öz əliylə möhürlənib bu qapı.

Dili də yox öz baxtını ağlasın,
Bu qapının qapı boyda dərdi var.
Bu qapını öz üzünə bağlayıb,
Qapı-qapı, açar-açar yordular.

Kim bağlayıb bu qapını görəsən,
Bu qapını kim açacaq, İlahi?
Hirsə düşüb əvvəl-axır bu qapı
Üstümüzə yıxılacaq, İlahi.

* * *

Səsin qulağıma gəlmir haçandı,
Daha çağırmırsan yazı, qaranquş.
Yadından çıxıbdı bu yurd, bu yuva,
Deyən unutmusan bizi, qaranquş.

Yolunu çən, duman kəsib deyəsən,
Ürəyin bahardan küsüb deyəsən,
Kimsə qanadını kəsib deyəsən,
Yarana basıbdı duzu, qaranquş.

Getdin, qayıtmadın geriyə bir də,
Bizim bu bəndlərə, bərəyə bir də,
Dönüb boylanmadın bəriyə bir də,
Yoxdumu dönməyə üzün, qaranquş?

Qoyduğun bu yerlər qış qalıb hələ,
Tikan qalıb hələ, daş qalıb hələ,
Baharın qucağı boş qalıb hələ,
Yoldadı hamının gözü, qaranquş,
Yaman unutmusan bizi, qaranquş.

* * *

Gəl asılaq xəyalların gözündən
Gecə-gecə ulduz-ulduz darıxaq.
Ömrümüzün yanlışından, düzündən
Keçə-keçə ulduz-ulduz darıxaq.

Qaçıb gedək bu şəhərin əlindən,
Bu payızın, bu xəzəlin əlindən.
Nağıl yazaq ulduzların dilindən,
Küçə-küçə, ulduz-ulduz darıxaq.

Bax görürsən, ulduzlar da qoşadı,
Qaranlığa hərəsi bir daş atır.
"Payız keçir, yollarımız qışadı"
Deyənəcən ulduz-ulduz darıxaq.

Sahil-sahil qarmaq ataq səhərə,
Dəniz-dəniz əl uzadaq səhərə,
Yavaş-yavaş gedib çataq səhərə,
Səhərəcən ulduz-ulduz darıxaq.

♦ Ədəbi söhbətlər

# ÖZ "ÇEVRƏ"SİNDƏN "MƏTN QALAKTİKASI"NA ...





## *Tənqidçi Nərgiz Cabbarlı ilə şair Salam Sarvanın söhbəti*

**Dosye:** *Salam Sarvan. 1966-cı ildə Cəlilabad rayonunda anadan olub. N.A.Voznesenski adına Leninqrad Maliyyə-İqtisad İnstitutunu bitirib. Ölkənin tanınmış media orqanlarında redaktor kimi çalışıb. "EQO" yaradıcılıq ordeninin tərkibində hər həftə "Müsavat" qəzetinin səhifələrində oxuculara yazılar təqdim edib. Dövlət Tərcümə Mərkəzinin "Xəzər" dünya ədəbiyyatı jurnalında Baş redaktor müavini kimi fəaliyyət göstərib. "Sənə deyiləsi deyil sənə deyiləsi sözüm", "Mən gələr olmadım, yolu qarşıla", "Heykəl tənhalığı" adlı şeir kitablarının müəllifidir. Şeirləri ingilis, fransız, rus, türk, ukrayna, polyak, gürcü, özbək dillərinə tərcümə olunub. Azərbaycan Dövlət Tərcümə Mərkəzinin xətti ilə "Boğulmaq da olmur, dayazdır dünya" kitabı Ukraynada nəşr edilib.*

***Həmsöhbətim Salamdır. Salam Sarvan. 90-cı illər poeziyasının ən dəbdə olan, ən çox oxunan, ən çox "axın yaradan" simalarından biri... Bəlkə də, birincisi... O zaman mətbuatın ən aktiv dövrü idi. Ədəbiyyatın da mətbuatda təqdimatının ən aktiv zamanı... Salamın "qara üzlü" şeir kitabı əl-əl dolaşırdı. Ədəbiyyat təqdim edən mətbuat orqanları onun yeni şeirlərini nəşr etmək üçün çaba göstərirdi. O şeirlərdə Ölüm, Kədər nə qədər çox olsa da... Sonra kitabları bir neçə dəfə nəşr olundu. Kitablar dəyişdi, şeirlər eyni qaldı. Salam öz yaratdığı "çevrə" daxilində hərəkəti tamamlayıb başqa bir "mətn qalaktikası"na adlasa da, oxucu onun əvvəlki şeirlərinin "çevrə"sindən çıxa bilmədi. Yeni yazdıqlarında da o "hava"nı, o "təzad oyunu"nu aradı. Bəlkə, o mətnlərin təkrar-təkrar kitab halına düşməsinin səbəblərindən biri də bu idi... Salam yeni yazdıqları ilə oxucudan (onun əvvəlki şeirləri arayış marağından!) uzaqlaşsa da, "köhnə dostlar"ın izi, xatirəsi, təsiri oxucu yaddaşından silinmədi, unudulmadı, yadlaşmadı. Bu gün Salam yenə də həmin Salamdır... Tək şair kimi deyil, həmsöhbət kimi də maraqlı olan SALAM...***

**–Hansısa bir müsahibəndə "İçi qalstuklu olmaq" kimi bir anlayış işlətmişdin, çox bəyənmişdim. Qarşındakı həmsöhbətinin "qalstuklu olması" dərd deyil, əsl dərd "içi qalstuklu olmasıdır" – azadlığın sıxışdırılması anlamında, təbii ki. Həyatın boyu nə qədər bacardın, səncə, o "qalstuk"dan azad olmağı? Bacardınmı, ümumiyyətlə? Və istərdim ki, söhbətimiz o "qalstuksuz" alınsın... Hərçənd, şəxsən mənim düşüncəmə görə, sən ondan tam azad deyilsən...**

–Bu yaxınlarda təzə kitabım çıxacaq: şeir kitabı deyil, dəyərlər barədə subyektiv düşüncələrdir. Mən orda azadlıq haqqında fikirlərimi əhatəli yazmışam. Əslində, məsələ təsəvvür etdiyimizdən də qəlizdir.

Fikir ver... Aristotel deyirdi ki, azadlıq dərk olunmuş zərurətdir. Sartr isə deyirdi ki, insan azadlığa məhkumdur. Hər iki cümləni incələyəndə ortaya çıxan paradoks adamı məyus edir. Yəni bu cümlələr özləri öz içində dolaşıq düşərək, ixtiyarsız halda əsl mətləbi ələ verirlər: dünyanın gerçək həyatında azadlıq yoxdur. Axı «zərurət» və «məhkum» sözü olan cümlələrdə hansı azadlıqdan söhbət gedə bilər?!

Bilirsən, nə düşünürəm? Məncə, azad insan yoxdur, köləliyinin dairəsi nisbətən geniş və nisbətən dar olan insan var. «Azadlıq» bu dünyada yalnız quruca anlayış kimi mövcuddur və yalnız dilimizdə məskunlaşıb.

Həbsxana kamerasında havasızlıqdan boğulan dustağın arzuladığı nəfəslik azadlığın pəncərəsi kimi təsəvvür olunsa da, fakt olaraq kameranın divarındakı balaca bir bacadır.

Mən zamanda dustağam – saatın kəfkiri kimi müəyyən aralıqda yellənməkdən başqa əlimdən heç nə gəlmir. Mən məkanda dustağam – yaşadığım yerin qaydalarından kənara çıxa bilmərəm: hətta paltarımı da həmin coğrafiyanın iqliminə uyğun seçməliyəm.

Dünyəviyəmsə, sevgimin köləsi, nifrətimin əsiri, ehtiraslarımın quluyam. Dindaramsa, Allahımın qulu, taleyimin əsiriyəm.

Mən ideologiyaların, əqidələrin köləsiyəm. Ənənələrin, mentalitetin quluyam. Tez-tez dəyişən dəbin əsiri olmaq bacarığım mənim kölə xislətimin nə qədər çevik olduğunu göstərir.

**–Deməli, azad deyilsən... Söz azadlığımızın olduğunu dediyimiz bir zamanda...**

–Söz azadlığı... Mətbuat haqqında qanunun olduğu halda mətbuat azadlığı fiksiyadır. İçimizdə ayrı-ayrı vəziyyətlərə uyğun etik senzuranın olduğu halda söz azadlığı fiksiyadır: məsələn, biz hər yerdə söyüşlə danışa bilmirik axı...

Hə, səsvermə hüququm var: amma ən demokratik ölkədə belə, seçki qutusuna yaxınlaşarkən namizədin vədlərinin məndə yaratdığı təəssüratın əsiriyəm artıq. Hə, təhsil hüququm var: amma qabaqcadan müəyyən olunmuş fənnlər çərçivəsində.

Mənim hətta ömür azadlığım da yoxdur – istənilən vaxt əcəl götürüb apara bilər.

Bütün bunların üstünə «təbii fatalizm»i də gəlsəm, məsələ bir az da qəlizləşəcək. Yəni mənim valideynlərimi, doğulacağım yeri, dünyaya gələcəyim zamanı seçmək azadlığım da olmayıb. Hətta tərbiyə sistemimi də özüm seçməmişəm: uşaqlıqdan başlayaraq, məni başqaları öz istədikləri kimi yetişdiriblər – yəni hətta öz şəxsiyyətimi də özüm formalaşdırmamışam.

İndi mən bu həqiqətləri dilə gətirərkən sosiologiya soyuq-soyuq pıçıldayır: müəllim, həyatda azadlıq var – sadəcə, sənin azadlığının sərhədi başqasının azadlığının sərhədinə qədərdir. Mənsə, sosiologiyanın həmin cümləsini götürüb belə yazıram: mənim dustaqlığımın sərhədi başqasının kamerasının divarına qədərdir. Məzmun dəyişdimi? Yox. Elə isə, «azadlıq» anlayışını süni şəkildə həyata soxuşdurmaq çabalarının mənası nədir?

Bu zaman dikbaş fəlsəfə üstümə qışqırır: dünyada azadlıq var, sadəcə, mütləq azadlıq yoxdur. Mənsə düşünürəm: «nisbi azadlıq» ifadəsinin ehtiva elədiyi durumu «nisbi köləlik» ifadəsi də adekvat göstərir axı. Elə isə, nəyə görə «azadlıq» anlayışının yaxasından qır-saqqız olub yapışmışıq? Yoxsa, təbii halımız olan köləliyi ayıb saydığımıza görə anlayışlarla bu şəkildə oynayırıq? Nə hacət? Hətta materiyanın özündə də bir şeyin varlığı başqa şeyin varlığını şərtləndirirsə, insanın müəyyən şərtlərdən asılı olması niyə ayıb sayılsın axı?

**Haşiyə:** ***Əslində, çox dərinə getdin, Salam. Mən, çox sadə bir azadlıqdan – suallara cavab verərkən özünü içində bulundurduğun azadlıqdan danışırdım; Sənə cavab verməyə mane ola biləcək "daxili tabu"larından. İçinin istədiyi kimi sualları cavablandırarkən, elə qəlbinin də istədiyi kimi kimlərinsə bostanını daşlamaq, kimlərinsə mətn olmayan mətnini dağıtmaq, kimlərinsə yaratdığı ədəbiyyatı rahatlıqla – qısqanmadan (!!!) zirvəyə qaldırmaq azadlığından... Amma olsun... Ən azından, daxilindəki fəlsəfi düşüncələrə, hadisələrin, proseslərin***

***mahiyyətinə, daha dərinlərə enmək azadlığından gen-bol yararlandığını gördük... Hər zaman da vardı bu istək, indi bəlkə zamanla, bəlkə yaşadıqlarınla əlaqəli – daha da dərinləşib... Bu dəfə təzadları şeirlərində deyil, anlayışların mahiyyətində yaratdın. "Nisbi azadlıq"la "nisbi köləlik" arasında bir yerdə dayandığımız mesajını verərək.***

**–Azərbacyan ədəbiyyatında yeri olduğu mübahisə doğurmayacaq şairlərdən birisən. Ümumiyyətlə, "mənim yerim hardadır?" sualı, "mənim izim nə qədərdir? Hansı dərinlikdə, hansı uzunluqdadır?" – sualı nə zamansa ağlından keçibmi?**

–Qoy bu sualı həm Azərbaycan ədəbiyyatı çərçivəsindən, həm də Salam Sarvan imzasından kənara çıxaraq cavablandırım. Mən dünya poeziyasının çağdaş mənzərəsi ilə tanışam. Qətiyyətlə deyə bilərəm ki, Azərbaycanın müasir şeiri dünyanın indiki standartlarından geri qalmır. Hətta bir neçə şairimizin timsalında qabaqdadır.

**Haşiyə:** ***Hansı şairinin? Ad çəkmək istəmirsən... Kimlərisə incitməkdən qorxursan, ya da əksinə... Amma mən çəkmək istəyirəm... Ramiz Rövşən, Vaqif Səmədoğlu, Fikrət Qoca, Adil Mirseyid, Məmməd İsmayıl, Salam Sarvan... Sadəcə, onların yazdıqlarını yazdıqları səviyyədəcə tərcümə edib, təqdimatını alındırmaq lazımdır... Bu işi maddi və mənəvi anlamda lazım olduğu səviyyədə gerçəkləşdirənlərə ehtiyac var... Bəlkə, nə zamansa oldu... Yox, "bəlkə" deyil, məncə bu mütləq bir gün olacaq...***

**–Nə isə... Mən sadaladım və o sırada sən də varsan... Danılmaz olan da budur ki, sənin 90-cı illər poeziyasında fərqli, özünəxas və ən əsası isə, təsirə salan, arxasınca aparmağı, təsirində saxlamağı bacaran bir "hava"n vardı. Və o "hava" hələ də poeziyamızın – şairlərimizin başı üzərində dolaşmaqdadır. Hər gələn yeni nəslin hansısa nümayəndəsini yenə də təsiri altına salmaqdadır. Fərqindəsən, yəqin ki. Amma məsələ ondadır ki, özün o "hava"dan çıxmağı bacarsan da, çıxa bilməyənlər, ən pisi də, pis bir şəkildə səni təkrarlamağa çalışanlar var. Bəlkə, onlara da deyəsən: sən bunu necə bacardın?**

–Deyəsən, həmişə belə olub: şairlərin əksəri əvvəlcə üzdə olan şeir ənənəsinə ilişir, sonradan özünü axtarmağa başlayır. Bir "ilk kitab" sindromu var da... Ona görə də hansısa gənc yazarı təsirə düşdüyünə görə qınamaq düz olmaz.

Pis odur ki, bəzən o şeirlərin təkcə intonasiyasını, düşüncə tərzini yox, ayrı-ayrı fraqmentlərini də götürürlər. Belə hallarla rastlaşanda hər dəfə etiraz bildirməyə də ərinirəm.

Sənin sualının ən maraqlı yeri mənim özümün o havadan necə çıxmağımla bağlıdır. Bu barədə bir dəfə danışmışam. Məncə, şeirdə informasiya intonasiya

ilə birlikdə gəlir, düşüncə tərzi öz-özünə şeirin texnikasını da yaradır. Məsələ də, bax, elə burasındadır: yaş keçdikcə mənim düşüncə tərzim dəyişib, istər-istəməz, həmin tərzi ifadə eləyən şeirin texnikası da dəyişib.

"Torpaq yetişdirir" düsturunda həqiqət payı olduğu kimi, "dövr yetişdirir" qənaətində də doğrular var. Şairin şeirdəki yaşantıları həm də hansısa dövrün və ya yaşın reallıqlarından keçir axı. O səbəbdən də konkret zaman çərçivəsinin ovqatını da özünə hopdurur.

**Haşiyə:** ***Şeirdə informasiya öz intonasiyasını, düşüncə tərzi öz texnikasını yaradır. Tam razıyam. Sən, az qala, bir nəzəriyyəçinin verə biləcəyi tərzdə tərif verdin o dövrdəki şeir texnologiyana... Amma, nədənsə, mənə elə gəlir ki, dəyişən düşüncə tərzin olmayıb, məhz o texnikadır, formadır. Şəxsən mən sonrakı mətnlərində oxşar həqiqətlərin daha azad, sərbəst forma daxilində ifadəsini gördüm... Sanki yaradılmış, formalaşdırılmış struktur – qəlib sındırılaraq (və ya qapısını açaraq!) fikirlərə azadlıq verib. Bu, bir yandan gözəl olsa da, digər tərəfdən hədəfi vurmaqda (pozanı işləməkdə!) olan "zərgər dəqiqliyi"ni (sənətkarlığı, ustalığı, zərgərliyi) arxa plana keçirib!***

**–Yaxşı... O zaman belə bir sual: şeirlərinin ruhunu, strukturunu, formasını başqa mətnlərdə görəndə, ya da az qala, plagiat həddində "hava" oğurlandığının şahidi olanda bundan necə təsirlənirsən? "Havasız" qalmırsan ki? Qısqanclıq duymursan ki? Düzünü de, yoxsa bu fakt səni sevindirir?**

–Bayaq bu məsələyə toxunsam da, dərinə getmək istəmədim. Yaxşı, qoy deyim. Belə hallar bəzən mənim üçün problem yaradır. Mənim kitabımdan bəhrələnərkən bəzən ifrata varırlar, nəticədə isə, özüm fakt qarşısında qalıram. Məsələn, bu yaxınlarda bir şeirimi, az qala, olduğu kimi internetdə öz imzası ilə yayan bir şair camaatı əməlli-başlı çaşdıra bilmişdi. Hətta saytlardan biri bu mübahisəyə münasibətimi öyrənmək qərarına gəlmişdi və həmin şeirin məhz mənim olduğunu sübut eləmək məcburiyyətində qalmışdım. Yəni əlavə vaxtım, enerjim gedir axı...

**Haşiyə:** ***Mənə qalsa, artıq işdir bunu sübut etməyə çalışmaq... Çünki o şeirlər möhürlüdür... Ədəbi mühit bilir bunu... Şeirdən azca xəbərdar olan insanlar da...***

**–Mühit demişkən... Salam üçün "ədəbi mühitdə olmaq" nə anlama gəlir? "Gündəmdə olmaq"la eynidirmi? Ümumiyyətlə, müasir ədəbiyyat bunu tələb edirmi?**

–Mənim futbola heç vaxt ciddi marağım olmayıb. Ancaq tək bir futbolçunun meydandan kənarda topla şou göstərməsinə həvəslə baxmışam. Messinin həyətdə topu iyirmi metr hündürlüyə atandan sonra ayağıyla rahat qəbul eləməsi kimi səhnələr çox gözəldir. Amma onun həmin vəziyyətdəki futbolçu

tənhalığının futbol mühitinə salınması başqa kontekst yaradır. Yəni söhbət tənha futbolçunun komanda tərkibinə, çempionat rəqabətinə salınmasından gedir. Şair də ədəbi mühitə, ədəbi təsərrüfatın içinə düşdüyü andan "şair tənhalığını" itirir, proses iştirakçısı olur: məşhurlaşır, ziyalılaşır, mükafatlaşır, qonorarlaşır, ədəbi-ictimai mühitin çirkabına bulaşır... Bu gedişat hökmü-zərdi. Başqa cür mümkün deyil, onda gərək çap olunmayasan – gərək Messi həyətdən çıxıb meydana girməsin. Çünki çap olunan kimi mən dediyim gedişatın içinə düşəcəksən. İstedadın naturası tənhalığa hesablanıb axı – mühit istedadın təbiətinə həmişə yaddır.

**Haşiyə:** ***Amma mühit həm də tələbatdır... Tənhalıqda yaradılanların prosesdə təqdimatını şərtləndirən şəraitdir... Məsələn, məncə, 90-cı illər ədəbi mühitinin o "qaynar qazanlığı, o çaşqınlığı, o arayışları olmasaydı, o çaşqın mühitin aclığı olmasaydı, tənhalıqda yaradılan bu nümunələr də o səviyyədə etiraf bulmazdı... Yəni mühitə borcluyuq...***

**–Salam, bəzi şairlər var ki, dillərindən, ifadə konstruksiyalarından, yaratdıqları obrazlardan xalq şeirinin, ana dilinin izi, ruhu qabarır. Bəzi şairlərdə xalq şeirinin – ənənənin ritmi, havası, tempi duyulur. Bəzi şairlərdə isə sözə verilən əzab, duyğunun, fikrin qəlibə salınması üçün çəkilən işgəncə, hətta proses olaraq "qəlibə salına bilmədən kənara sıçramalar" belə görünür. Hərdən uğurlu da alınır. Təbii ki, yaradıcılıq mürəkkəb, ziddiyyətli və intim prosesdir. Bir dəfə, məncə, poetik bir "oyun", "yanıltma" olaraq "şeirləri qələmlə yox, pozanla yazıram" demişdin. Əminəm ki, oxucu üçün maraqlı ola bilər. Həqiqət payı varmı bunda?**

–Əlbəttə, var. Fikir ver, indi interneti doldurmuş şeirlərdə hər şey tapmaq olar – müəllifin, cəmiyyətin, insanın əzablarını – ancaq bu mətnlərdə şeirin öz əzabı yoxdur. Məncə, artıq oxucunun ixtiyarına verilmiş mətnin sir-sifətindən təkcə müəllifin yox, həmin mətnin də yorğunluğu, o mətnə yazı prosesində müəllifin verdiyi əzablar da sezilməlidir. Şeirin birnəfəsə yazılması, əslində, fiksiyadır, absurddur. Məsələn, elementar bir məsələni deyim: poeziya həm də dil hadisəsidir, buna görə də birnəfəsə yazılan mətni sonradan dilin enerjisi baxımından işləmək mütləq lazım gəlir.

**Haşiyə:** ***Razıyam. Bircə onu əlavə edə bilərəm ki, birnəfəsə yazılmış şeirlərdə dərinlik, düşüncə və duyğu dərinliyi, yazanın mətnə zərgər dəqiqliyi ilə (o parametrlərlə!) yanaşmamasının gerçəkliyi dərhal hiss olunur. Çünki cilalanma prosesi təkrar-təkrar, sənin təbirincə desək, "pozanla" qayıdış tələb edir...***

**–Yaxşı, o zaman belə bir sual... Sən şeirlərində bəlli bir struktur qurmuşdun... Bəlli və dəqiq bir struktur... Sonra tamamilə fərqli bir**

**mərhələyə adladın. Səni o mərhələdə qəbul edənlərin sayı da dəyişdi, yanaşması da dəyişdi. Bu dəyişimi özün necə hiss etdin və necə qiymətləndirirsən? İrəliyə doğru addım kimi, ya əksinə?**

–Təbii, müəyyən tərəddüdlər oldu. Ümumən, insan təbiəti hər cür yeniliyi çox çətinliklə qəbul eləyir. İllərlə yaşadığın, öyrəşdiyin bir məkandan başqa yerə köçmək hər kəs üçün ağrılıdır, ağırdır.

**Haşiyə:** ***O ağrını deyə bilmərəm, hissiyyatı da həmçinin, amma bir oxucu kimi ilkin mərhələdəki şeirlərini zirvə sayıram.***

***Atdı, atdı səni düşmənlərin də,***
***İlahi, belə də adam tək olar?***
***Bu ki sürünməkdir, cəhənnəmə ki,***
***başı dik tutub da sürünmək olar.***

"Başı dik tutaraq" sürünən insan obrazı, məsələn, indi də mənim gözlərimin önündədir. Burada o dövrün – və bir çox dövrlərin mərd insan modelinin elə bir fərqli çalarını görürəm ki... Və yaxud "İlahi, belə də adam tək olar?" misrasında insan tənhalığının elə bir intonasiyasını duyuram ki... Bir misra ancaq bu qədər ağrı ifadə etmək gücündə ola bilər... Ya da "düşmənlərinin belə atdığı biri" obrazı... Bir sözlə, bir bənd daxilində bir hala, bir insana, bir ağrıya fərqli rakurslardan yanaşma təsvir edilir. Bu, böyük bir enerji, böyük bir güc deməkdir...

**–Yeri gəlmişkən, Salam, şeirlərinin əsas xüsusiyyəti "təzad oyunu" olub. Çox sevirsən bunu. "Səndən vəfalıymış sənin yolların – hələ də keçirlər baxdığım yerdən"... "Gördüm ki tutmağa özgə yerim yox, tutdum yıxılmağa qorxduğum yerdən". Yollar baxdığım yerdən keçməz, mən onların keçdiyi yerə baxaram, insan yıxılmağa qorxduğu yerdən yapışmaz, əslində, amma yapışarmış və s. və i.a. Yaxud "bir göz qırpımı" ömür arzulamaq – onu da yaşamaq üçün deyil, "gözləri qapamaq üçün"... Təzad... Sən bunları şeirlərində var etdin. Dərindən düşünəndə, əslində, bunlar həyatımızın həqiqətləri imiş... Amma onlara çatmaq üçün müəyyən yaşantılar vacibdir... Bizi incidənləri sevirik, bizə dəyər verənlərdən qaçırıq, arzu olunmadığımız, əlimiz çatmayan yerlər bizi özünə cəlb edir, yanacağımızı bilə-bilə oda əl uzadırıq və s. və i.a. Mənim üçün maraqlıdır, sən bunları yazarkən bu qədər dərinliklərə baş vuraraq, yəni düşünərəkmi yazmısan, yoxsa nələrinsə spontan, təhtəlşüur ifadəsi də olub?**

–Qırx yaşa qədər yazdıqlarım spontan şeirlərdi. Sonrakı şeirlərdə isə müəyyən düşüncə süzgəci var. Hətta deyərdim, bu düşüncə bir sistem şəklindədi.

**Haşiyə:** ***Mən daha çox "sistem" fikri ilə razılaşıram.***

**–Gözəl bir yaradıcılıq aktı üçün – gözəl bir nəticə üçün şairə vacib olan nədir? Ovqat, ideya, düşünmək, təsirlənmək?....**

–Bu suala tarix boyu bir-birindən fərqli olan xeyli cavablar verilib. İlk yadıma düşən Kantın fikridir: poeziya hisslərin oyunudur, düşüncə, sadəcə, ona sistem verir. Amma başqa mövqedə olanlar da var: şeir duyğuyla yox, fikirlə yazılır.

Hərçənd, şeiri başdan-ayağa dil hadisəsi sayanlar da var. Elə şairlər də var ki, təfəkkürün dildən təmizlənməsinin, dil normalarının buxovlarından azad olmağın tərəfdarıdılar: deyirlər ki, əslində, biz dili yox, dil bizi mənayla doldurur və bu normal hal deyil, yəni əsl poeziya söz mərkəzçiliyindən qaçmalıdır.

Bir münasibət də belədi ki, şeirdə hər şey cütlük kimi önə çıxarılmalıdı: hərfi-məcazi, ciddi-bayağı, transsendent-empirik.

Belə münasibət də var ki, mədəniyyət gerçəkliyə yox, mədəniyyətə istiqamətlənməli, şair yeni gerçəklik yaratmalıdır. Bəzi şairlər gerçəkliyin fəlsəfəsinə də başqa cür baxırlar: əmindirlər ki, real həyatda təkcə adamlar və əşyalar yox, adamların yaratdıqları simvollar da bir canlı kimi yaşayır.

Belə bir düşüncə də var ki, vacib olan ideyadı, emosional yaşantılar yox, deməli, söhbət əsəri yaratmaqdan yox, əsərin ideyasını yaratmaqdan getməlidir...

İddialardan biri də budur ki, çap sətri sözü qəfəsə salmaqdan başqa bir şey deyil, sözə canlı nəfəs vermək lazımdı. Yəni canlı insan səsi şeiri kitab rəflərindən xilas etməli, ona həyatilik verməlidir: şeir səslənməlidir. Burda söhbət bizdəki meyxana ənənəsindən, sinədəftərlikdən, bədahətənlikdən getmir, sadəcə, yazılmış şeirin oxucuya yazı kimi, çap məhsulu kimi yox, səslə çatdırılması arzulanır. Ancaq başqa bir məqam da var: şeirin yazıda səslənməsi. Yazıda səsləniş yuxuda sayıqlamaya bənzər bir effektdir: müəllif şeiri deyir, ancaq auditoriyaya, mikrofona yox, birbaş kağıza. Oxucuya isə bu səsin əks-sədası qayıdır.

Və sairə və ilaxır... Mən bir şeir oxucusu kimi bu düşüncələrin hamısını qəbul eləməyə hazıram. Poeziyaya yanaşmada bu rəngarənglik təbiidir, normaldır.

**Haşiyə:** ***Mən daha çox "yazıda səsləniş"lə razılaşdım. Çünki söz yazıda "qəfəsə salınmış" kimi görünsə belə, oxu prosesində - əlbəttə ki, burada oxucunun intellekti, hazırlığı və s. də şərtdir – onun daxilindəki azadlığı hiss edir, yaşayır və qəbul edə biləcəyi səviyyədə qəbul edir. Nə üçün "qəbul edə biləcəyi səviyyə" dedim? Çünki bayaq da söylədiyim kimi, iyirmi il bundan əvvəl bir oxucu kimi, məsələn, mənim üçün sənin şeirlərində maraqlı olan oyun idisə, təzad idisə, gözəl poetik ifadə idisə, bu gün – həyatının müəyyən yaş həddini və həqiqətlərini görmüş biri kimi alt mənalandırma, əslində, təzadla ifadə olunmuş HƏQİQƏTLƏRDİR...***

**–Bəlkə, qeyri-ciddi səslənə bilər, amma hər bir yaradıcı şəxsin "sevimli balası" və "ögey balası" olur... Heç şeirlərin arasında belə bir seçim apardınmı? Əgər aparmalı olsan?..**

–Mən indiyəcən yalnız "Heykəl tənhalığı" kitabımı özüm çıxarmışam. O biri kitablarımın çıxarılmasında iştirak etməmişəm: onları ayrı-ayrı nəşriyyatlar öz təşəbbüsləri ilə çap ediblər. Nəyi demək istəyirəm? Bu kitabı hazırlayanda cavanlıqda yazdığım bir neçə şeirdən imtina elədim. Çünki həmin şeirlər mənim indiki təfəkkürümün nəzərində ölməsələr də, ölüvay hala düşmüşdülər.

**Haşiyə:** ***Amma bu məqamda mən bir faktı qeyd etmək və oxucularımızın da nəzərinə çatdırmaq istəyirəm. Əgər sənin də xatirindədirsə, "168 saat" qəzetində işləyərkən sənin o ilk şeirlərindən bir neçəsini – həm də heç çap etdirmədiyin şeirləri birtəhər əlindən alıb dərc etdirmişdim. Bizim qəzetin "Yaradıcı" səhifəsində. Çoz bəyənmişdim. Məhz o anlamda ki, o şeirlərdə "pozanla" yazılma deyil, səmimi bir "birnəfəsə yazılma", "saf ifadələnmə" vardı. Və məncə, o mərhələdən adlamasaydın, sonrakı Salamı yarada bilməzdin...***

**–«Dekadans şair», «Simvolist şair», «Postmodernist şair», «Şeirlərində simvolist və postmodern elementləri birləşdirən şair»... Sənin yaradıcılığınla bağlı işlədilən bu anlayışların sənin üçün bir əhəmiyyəti varmı? Çünki bizim ədəbiyyat – elə dünya ədəbiyyatı da nəzəriyyədən mətnə adlayan çox müəllif görüb.**

–Bilirsən, ədəbiyyatşünaslar poeziya barədə kateqoriyalar vasitəsilə düşünürlər, elmi modellər, nəzəri şablonlar çərçivəsində mühakimə yürüdürlər. Mənim özümçün isə məsələ həddindən artıq sadədir. O şeirlərin bir qismi ənənəvi şeirimizi doldurmuş "ölüm", "dərd", "göz yaşı" "sevgi" pafosuna ironiyadır. Məsələn:

***Dərdin doqquzuncu mərtəbəsində***
***bizim gözümüzdə saatnandı su.***

Amma ironiyasız, müəyyən yaşantılardan yaranan məqamlar da var. Məsələn:

***Hər şeyi, hamını unutmaqla ölü kimi bir şeysən,***
***təkcə soyuducunun fasiləli səsidi həyatı arabir yadına salan.***

Elə məqamlar da var ki, həyatilikdən uzaq təxəyyül kombinasiyalarıdı. Onları ədəbiyyat yuxuları da hesab eləmək olar. Məsələn:

***Öləsən...***
***Gözünü qapaya bir qız əlləri –***
***bu, sənin ilk qadın sığalın ola!***

Elə şeirlər də var ki, sadəcə, müşahidədən gəlir:

***Zibil qutularında hər gün***
***çörək tullantılarını yığan bomj***
***bu dəfə tullanmış solğun gülləri yığırdı***
***qadınına bağışlamaqçün.***

Nəhayət, həm də söz texnikasının qabarıqlığı:

***Sənə deyiləsi deyil***
***sənə deyiləsi sözüm.***

**Haşiyə:** ***Deməli, belə bir qənaətə gəlirəm: sən bunları duyduqların, hiss etdiklərin, düşündüklərin və ifadə etdiklərin səviyyəsində təhlil edirsən, nəzəriyyəçilər, ədəbiyyatşünaslar anlayışlara uyğunluq səviyyəsində... Amma mən yenə də o fikirdə qalıram ki, yazdıqlarında sadəlövh, prosesdən və nəzəriyyədən xəbərsiz bir adam görünmür...***

**–Həyatında dünyaya, insana münasibəti dəyişdirməyə vadar edən – daha doğrusu, bu münübasibəti birdən-birə 180 dərəcə dəyişən hansısa bir hadisə olubmu? Şeirində necə?**

–Yox, həyatımda belə hal olmayıb. Amma son zamanlar düşüncələrimdə müəyyən dəyişikliklər olub.

**–Bəs yaşadıqların, duyduqların və yazdıqların arasında ziddiyyət, konflikt olurmu? Olanda daha çox kim yenilir?**

–Çox güman, sosioloqlar ürəklərinin dərinliyində belə düşünürlər: şairlər bizi zibilə salıb, poetik həqiqətləri ilə gerçəkliyi əməlli-başlı təhrif ediblər. Məsələn, şairlərə görə, tənhalıq sevgilisindən ayrılmış adamın düşdüyü haldır, sosioloqlara görə isə çeşid-çeşid tənhalıqlar mövcuddur.

Məsələn, kosmik tənhalıq var: kimsə özünü kainata xüsusi missiya ilə gəldiyinə inandırır və bu missiyanı yerinə yetirə bilmədiyinə görə daim özünü tənha sayır.

Məsələn, sosial tənhalıq var: cəmiyyət kiməsə öz potensialını gerçəkləşdirmək imkanı vermir və həmin adam tənhalıq girdabında çapalayır.

Bir də mədəni tənhalıq var: sən daşıyıcısı olmadığın dəyərlər sisteminin, həyat fəlsəfənə uyğun olmayan mentalitetin içində yaşamağa məhkum olmusan, özünü daim təfəkkür qürbətində hiss eləyirsən.

**Haşiyə:** ***Şairlər, məncə, tənhalığın bütün bu hallarını fərqli-fərqli məqamlarda yaşayan insanlardılar. Çünki şairlik özündə həyatda yaşanan tənhalıq halı ilə mətndə yaşanan tənhalıq və oxu zamanı oxucu ruhunda yaşanan tənhalığı birləşdirən bir haldır. Üçüncü mərhələ, ola bilər ki, reallıqda şair üçün o qədər də əhəmiyyətli və ya təsirli görünməsin. Amma sözün gücünə inanan bir insan kimi deyə bilərəm ki, şairin ruhunda yaşanan, daha sonra mətnə ötürülərək***

***orada yaşayan tənhalıq oxu prosesində (oxucu ilə ünsiyyətdə) öz yaşanmışlıq təəssüratını (enerjisini, ağrısını, gücünü) hansısa bir formadasa diri saxlayaraq mütləq şairə – ilkin qaynağa ötürür, göndərir...***

**– Salam, səncə, şöhrətli şair olmaq maraqlıdır, sevilən şair olmaq maraqlıdır, yoxsa maraq doğuran şair olmaq?**

–Bunlar, deyəsən, bir-birini yaradan məqamlardır axı.

**Haşiyə:** ***Məncə, o qədər yox... Şöhrət var ki, qazandırılır, amma altında maraqlı şairi görə bilmirsən...***

**–Heç şair obrazı oynamaq kimi bir proses haqqında ciddi düşünmüsənmi? Ya da oynamaq deməyək, yaratmaq deyək. Özünün illərlə yaratdığın o obrazdan razısanmı?**

–Gəl bu barədə konkret sənət kontekstində yox, daha geniş müstəvidə düşünək. Bax indi biz bu müsahibəni edərkən hansı çayxanadasa iki nəfər söhbət eləyir. Biri yalan danışır, digəri isə özünü bu yalana inanmış kimi göstərir. Belə ünsiyyət özlərinə də, kənar adamlara da son dərəcə təbii görünür: onlar bir-birinin dilini tapdıqlarına görə rahatdırlar.

Çayxanada söhbət eləyən həmin adamların ünsiyyət modelini daha geniş miqyasa proyeksiya eləsək, maraqlı görüntü alınacaq: belə çıxacaq, riyakarlıq cəmiyyətdəki münasibətlərin nizamda qalmasının yeganə yoludur. Yəni biz rollara girib yaşayırıq və bircə anlıq həmin rollardan çıxsaq, əsrlər boyu qurulmuş bütün mexanizmlər darmadağın olar. Ənənələr, qanunlar, ünsiyyət etiketləri, konkret hallarda necə davranacağımızı bəri başdan diqtə eləyən təcrübə, dinimizin və mentalitetimizin ehkamları... Bunların hamısı rollarımızın ssenarisidir.

Biz işdə başçının müavini rolundayıqsa, evdə ailə başçısı rolundayıq. Ölümünə sevindiyimiz bir qonşunun yas məclisində kədərli görünmək istedadımıza kimin şübhəsi var?

Ümumən, həyat nəsildən-nəsilə ötürülən eyni vərdişlərin yığınıdır – biz indi min illər əvvəlin xörəyini yeyirik, dəyişən təkcə qaşıqlardır.

Adətən, səhnədəki aktyorun məharəti onun həm komik Miriş roluna, həm də ciddi Kərbəlayi obrazına girə bilməsi ilə ölçülür. Biz həyatın da Şekspirsayağı səhnə olduğunu qəbul ediriksə, onda nəyə görə insanın sifətdən-sifətə düşmək bacarığını roldan-rola girmək məharəti kimi normal qarşılamırıq? Hansı məntiqlə fəsillərə uyğun paltar dəyişmək adi qəbul olunur, vəziyyətlərə uyğun maska dəyişmək isə ayıb sayılır? Nəyə görə kosmetik əməliyyatla burnu dəyişmək olar, məsləki isə yox? Bizim dəbdən-dəbə girmək azadlığımız varkən, cilddən-cildə girmək azadlığımız niyə olmasın?

Ümumən, bizi məst eləyən xoş qoxunun mənbəyi olan çiçəyin riyakar olub-olmadığını yoxlayırıqmı? Bu suallar amansız suallardır.

Məsələ bununla bitmir e, sən həyatda aktyor olduğunu qəbul elədiyin anda qəribə bir düşüncə konteksti də yaranır: belə çıxır, həyatdakı uğursuzluqlarının və sarsıntılarının səbəbi də rollarını istedadla oynaya bilmədiyinə görədir. Məsələn, «zalım» roluna, «mərhəmətli» roluna düz-əməlli girə bilmədiyinə görədir.

**Haşiyə:** ***Bütün söhbətimizin kontekstində fəlsəfi mənalandırmaya olan marağın diqqətimdən qaçmır. Məsələlərin mahiyyətinin dərinliklərinə enmə çabanı deyirəm...***

**–Yaxşı, bir şair kimi, redaktor kimi, nəriyyat rəhbəri kimi, QHT rəhbəri kimi.... sadəcə, insan kimi həyatda yanlış seçimlərin olub, yəqin ki... Bəzən etdiyimiz hətta ən xırda yanlış seçim belə, həyatımızı çox pis bir şəkildə yönləndirə, çox ağır bədəllər ödəməyə vadar edə bilər. Heç belə bir "keşkən" varmı?**

–Adətən, biz bu günümüzlə dünənimizi müqayisə edərkən üstünlüyü keçmişimizə verməyə meyilliyik. Başqa cür ola da bilməzdi: çünki insan daim bu günündən narazıdır və onu yalnız keçmişlə müqayisə eləmək imkanı var. Adətən, xatirələrimiz arzularımızdan şirin olur: çünki yaşamışıq artıq. Gerçək yaşantıların həzzi xəyali yaşantıların ləzzətindən böyükdür axı.

Keçmişimiz vətəndir, bu günümüz qürbət: daim qayıtmaq istəyirik. Qayıdış fəlsəfəsinə bağlılığımız hətta me¬yitimizin ata yurduna qaytarılmasında israr eləyən yurdçuluğumuzdan da məlumdur. Gələcəyə yönəlik düşüncələrimiz də «hara ge-dək?» sualı ətrafında yox, «hara qayıdaq?» sualı ətrafındadır. Bəzilərimiz tarixdə geri qayıtmaq – məsələn, XVII əsrə dönmək istəyir. Bəzilərimiz ömürdə geri qayıtmaq – məsələn, uşaqlığına dönmək istəyir.

Gələcəyə can atmaq uşaqlara xas olan haldır: tezliklə böyüdüklərini, boylarının artdığını görmək istəyirlər. Böyüklər isə daim keçmişə dartınırlar. Lakin mən heç zaman keçmişə boylanmaq istəməzdim: çünki keçmişə baxan kimi görürsən ki, indiyədək atdığın bütün addımlar səhv olub.

**Haşiyə:** ***Hətta "bütün addımlar" deyirsən... Həqiqət payı nə qədərdir, bilmirəm, amma çox iddialı bir qənaət oldu!***

**–Belə bir iddia ilə ancaq ironiya etmək olar. Şeirlərində ironiya çoxdur... Bəzən hətta bunu ağrıdan qurtulmağın yeganə çıxış yolu olduğunu da düşünmüşəm. Sanki ironiya ağrını keyləşdirən bir vasitə kimi görünür şeirlərində... Bəs... Özünə ironiya etdiyin hansısa bir məsələ... "Mən"imizlə çəkişmədə bəzən ironiya dadımıza çata bilər...**

–Düzü, bəzən qəribə düşüncə stixisiyasına düşürəm. Fikirləşirəm ki, mən müəyyən yaşacan özünütəsdiqlə məşğul idim, indi isə özünüinkar zamanıdır. Yəqin, bir azdan özünüifşa barədə də düşünməyə başlayacam.

**Haşiyə:** ***Maraqlı bir mərhələ ola bilər. Şair Salam üçün olmasa da, şair olduğu üçün cəmiyyətdə maraq doğuran İnsan Salam üçün...***

**–Bu gün Salam yazdıqlarında, bioqrafiyasında, indiyə qədər gəldiyi qənaətlərdə nəyisə dəyişdirmək imkanı qazansaydı, nəyi dəyişdirərdi?**

–Yazdıqlarımda cüzi redaktələr edərdim. Həyatda isə personajları olduğu kimi saxlayıb, sadəcə, süjeti dəyişərdim.

**–Bir dəfə fəlsəfə ilə bağlı üçcildlik hazırladığını demisən. Nə oldu o kitab?**

–Çox güman, gələn ilin sonunda çıxacaq.

**–Belə bir kitab həyatla, yaradıcılıqla, insanın var oluşu ilə bağlı hansısa fəlsəfi ideyanın, qənaətin əldə edilməsi ilə nəticələnir. Əgər dəqiqləşdirməli olsaq, hansı qənaəti bölüşərdin mənimlə və oxucularımızla?**

–İnsanı bir kitab dəyişə bilməz, inandırıcı deyil. Fəlsəfə tarixi, sadəcə, beyinə, düşüncəyə hörmət bəsləməyi öyrətdi mənə. Məsələn, imkanım olsaydı, qədim yunan filosoflarının büstlərini yaşadığım məkanda düzüb hər gün səcdə eləyərdim. Bilirsən, niyə? İndi hansısa düşüncə sistemi qurmaq qabaqkı kimi çətin deyil, çünki əlimizin altında bizəqədərki fikir tarixi, yazılı mənbələr mövcuddur və onlara istinad eləyə bilirik. Əlimizin altında müəyyən texniki vasitələr, cihazlar var – hansısa fərziyyəmizi onların köməyi ilə yoxlaya bilirik. Qədim yunan filosoflarının zamanında bunların heç biri olmayıb e, yalnız beyinin, məntiqin umuduna qalıblar.

**–Amma mən... Söhbətin əvvəlində də azadlıq haqqında danışdıq... Söhbətin sonunu da bu anlayışa çıxarmaq qəribə alındı... Hə, mən sənin bir qənaətini demək istərdim... Çox sevdim: “İş uçmaqda deyil ki, qəfəsdəki quş göy üzünə baxa bilirsə, deməli, azaddı”...**

–Hə, belə-belə işlər...

# ƏLİ VƏLİYEV



***28.02.1901 - 02.02.1983***

Əli Qara oğlu Vəliyev Zəngəzurun Ağdü kəndində anadan olub, ilk təhsilini üçsinifli rus məktəbində alıb, 22 yaşında Şuşada birinci dərəcəli firqə (partiya) məktəbində iki il oxuyub. İlk mətbu yazıları, eləcə də "Zəngəzurlu" imzası ilə "Mərdəkan" felyetonu "Kommunist" qəzetində çıxıb. 24 yaşından partiya üzvü olub, doğulduğu bölgədə təbliğat-təşviqat sahəsinə rəhbərlik edib. 1928-1931-ci illərdə Azərbaycan Dövlət Darülfünununun pedaqoji fakültəsinin tarix-ictimaiyyət şöbəsində ali təhsil alıb. "İnqilab və mədəniyyət" jurnalında ilk hekayəsi də bu dövrdə dərc olunub, ali məktəbdən məzun olanda həm də "Allahın səyahəti", "Nənəmin cəhrəsi" kitablarının müəllifi idi. Sonrakı illərdəki fəaliyyəti mətbuat və partiya işi ilə bağlı olub. Müharibənin ilk illərində müxbir kimi cəbhə bölgələrində olub və "Cəbhə hekayələri" kitabı nəşr edilib. Elə həmin dövrdən 50-ci ilədək "Kommunist" qəzetində müavin və redaktor işləyib. 50-ci illərin sonunadək ədəbi mühitdə vəzifə tutub; Azərbaycan Yazıçılar İttifaqında məsul katib, "Azərbaycan" jurnalında məsul redaktor işləyib.

Əli Vəliyevin "Azərbaycan" jurnalın məsul redaktoru olduğu dövr (1954-1959) ölkənin ictimai - siyasi həyatında yeni mərhələnin başlandığı illər idi. Nəfəsdərmə imkanı "əta olunmuş" cəmiyyət illərlə içinə qısılmış XOFdan silkinmə, humanitar siyasət də "remissiya" dövrünə qədəm qoymuşdu. Repressiya olunmuş, sürgünlərdə, məhbəslərdə məhv edilmiş insanların adları "adaptasiya" edilir, yenidən dövriyyəyə qaytarılırdı.

Əlbəttə, "tam remissiyadan" danışmağa dəyməzdi, bu, olsa-olsa, "qismən remissiya" idi.

Hələ də Leninin "Avropa və Amerika imperializminə qarşı azadlıq hərəkatını xanların, mülkədarların, mollaların və s. mövqeyini möhkəmlətməklə birləşdirməyə çalışan panislamizmə və bu cür cərəyanlara qarşı mübarizə aparmaq lazımdır" tələbi gündəmdə idi və bu sırada "Molla Nəsrəddin" jurnalının pantürkizm, panislamizmə qarşı mübarizədə mövqeyi alqışlanırdı. Sistemin tələb etdiyi mövqedən çıxış edən sosrealizm ədəbi tənqidi bu "cərəyanları" belə şərh

edirdi ki, onlar “Türkiyə sultanı II Əbdülhəmidi müsəlmanların “xəlifəsi”,“ruhani rəhbəri” adlandırır, Məkkəni müsəlmanların “ruhani”, İstanbulu isə siyasi mərkəzi elan edir və müsəlman dinində olan bütün ölkələri... sultan Əbdülhəmidin başçılığı altında osmanlı imperiyasında birləşdirməyə çalışırdılar (Muxtar Qasımov. “Molla Nəsrəddin” jurnalı panislamizm və pantürkizm əleyhinə mübarizədə”. “Azərbaycan” jurnalı. 1956, № 9, səh. 132).

Hələ də sənətin mahiyyətini ictimai-siyasi hadisələrlə bağlılıqda görən ədəbi-tənqidi düşüncə ədəbiyyatı da “sovet-burjua” müqayisəsilə qarşılaşdıraraq, ideyalı ədəbiyyata üstünlük verən çağırışları nümunə gətirirdi və... yenə də Müşfiqin “proletar sənəti” şeirinə istinad edirdi. Əslində, bu “qayıdışı” səssiz ittiham kimi də qiymətləndirmək mümkündür: “Yad siniflər sənətindən – ictimai həyatı // aydan arı, sudan duru // daha doğru // daha sərt, daha qıvraq // daha aydın, daha parlaq // idrak edən bir sənətdir // proletar sənəti (M.Müşfiq. “Günün səsləri”, 1932, s.12).

İdeoloji vasitələr, dövri nəşrlər 20 illik bir dövrü – repressiya dövrünü hesaba almadan “davam edirdi”, heç nə olmamış kimi, : “M.Müşfiqin ədəbi irsi sovet ədəbiyyatında görkəmli yerlərdən birini tutan istedadlı bir şairin ürək sözləri kimi Azərbaycan poeziyasında həmişə yaşayacaqdır” (C.Xəndan. “İstedadlı şairimiz Mikayıl Müşfiq”. “Azərbaycan” jurnalı, 1956, №3, s.147-157).

Kimsə də soruşa bilməzdi ki, belə idisə, bəs, onda ”siyasi-ictimai fikirləri yüksək sənətkarlıq səviyyəsinə qaldırmağı bacarmış bir “proletar şair”, o acı nəsibə niyə düçar edildi?!.. Siyasi riyakarlığın adını “ziddiyyətli məqamlar” qoymaqla Böyük Suallardan qaçmaq hər zaman, hər şəraitdə vəziyyətdən çıxış yoludur.

Əlbəttə, bunlar həmin dövrün reallıqları idi və siyasətin “gəl-getləri”, “qabarma-çəkilmələri” arasında duruş gətirmək asan deyildi, buna görə bu gün həmin dövrü “ittiham etmək qəhrəmanlıqları” ilə öyünən “ədalət carçılarının” ikrah doğuran canfəşanlıqları fonunda xatırlanası məqamlar da var; despotik hökmə qarşı qətiyyətlə etiraz etmək, həqiqəti deməkdən çəkinməmək nümunələri sırasında Əli Vəliyevin Mircəfər Bağırovla “kiçik mükaliməsi” kimi; müharibədən sonrakı ədəbiyyat müşavirələrinin birində çıxış edən Mircəfər Bağırovun Səməd Vurğuna qarşı ittihamı ilə qızışan mühakimədə çıxış edənlər, sözsüz ki, rəhbərin iradəsini təsdiqləyiblər. “Kommunist” qəzetinin redaktoru Əli Vəliyevsə, belə demək mümkünsə, “unison ifası ilə”, bəlkə də, öz aqibətini zərbə altına salaraq, cəsarətlə şairi xilas edib: “Yoldaş Bağırov, düzdür, Səməd Vurğunun nöqsanları var, amma o, böyük talantdır!” Bağırov Əli Qara oğlunun sözünü kəsib: “Səməd Vurğun talant idi!” Əli Vəliyev: “Xeyr, Səməd Vurğun indi də talantdır!” – deyərək, üzünü yana çevirib susub! Hadisənin şahidi olmuş İlyas Əfəndiyevin təbirincə desək, “...Bağırovun qalın şüşəli eynəyinin arxasından Əli Vəliyevə zillənmiş gözlərində, gözlənilməz zəhmlə heyrət bir-birinə qarışmışdı... ”

***Əli Vəliyevin öz qanun məcəlləsi vardı. Bu məcəllə onun hər şeydən müqəddəs sandığı vicdanı tərəfindən yazılmışdı.***

***Atif Zeynallı***

İllər sonra, "Azərbaycan SSR Xalq şairi" fəxri adının təsis edilməsi və Səməd Vurğuna bu fəxri adın verilməsi ilə bağlı rəsmi fərmanların (1956-cı il, №3) da, Səməd Vurğunun Lenin ordeni ilə təltif edilməsi haqqında sərəncamın (№5) və 50 yaşlı ilk Xalq şairinin vəfatı ilə bağlı teleqram və vida sözlərinin (№6) də jurnalda çapını Əli Vəliyev imzalamışdı.

İşə bax ki, atasının "böyük talant"la bağlı dəyişməyən inamını ədəbiyyatşünas Məsud Əlioğlu elə atasının rəhbərlik etdiyi jurnalda "daxili irticanın" caynağından xalq və dövlət tərəfindən eyni dərəcədə məhəbbətlə sevilmiş Səməd Vurğunun yaradıcılığının müxtəlif aspektlərini araşdırdığı məqalələrində davam etdirmişdi: "Səməd Vurğun beynəlxalq irticaya qarşı" (№9, 1951), "Qəhrəmanlıq dramları (S.Vurğunun yaradıcılığı əsasında)" (1956, №5), "Səməd Vurğunun tənqidi görüşləri" (1957, №5). Bu tandem yalnız şəxsi müstəvidə ata-oğul münasibəti deyildi, geniş mənada irs-varis, "Azərbaycan ədəbiyyatında atalar-oğullar problemi" ( M.Əlioğlu."Azərbaycan" jurnalı, 1957, № 11; № 12) çərçivəsində sağlam düşüncə nümunəsi idi. Yəni Əli Vəliyev müasir milli ədəbiyyata fərdi yaradıcılıq faktı ilə deyil, klassik irs – müasir ədəbi proses tədqiqatları sahəsində dəyərli bir ədəbiyyatşünas – oğulun simasında layiqlə xidmət etmişdir.

"Azərbaycan" jurnalında bir neçə il redaktorluq eləyənlərdən biri də mən olmuşam. Redaksiya heyəti üzvləri ilə, müəlliflərlə bərabər daim çalışırdıq ki, jurnalın mübariz partiyalılıq, xəlqilik ənənələrini davam və inkişaf etdirək, elə əsərləri seçib çap edək ki, onlar doğma sovet xalqının tarixi quruculuq işinə, mədəni yüksəlişinə səmərəli kömək etsin, vətənpərvər nəsillər tərbiyə etsin... Mənim birinci hekayəm" – "Gülara" "Maarif və mədəniyyət" jurnalında çap olunmuşdur. Bundan sonra, demək olar ki, redaksiyanın fəal müəlliflərindən biri kimi vaxtaşırı hekayələrimi redaksiyaya təqdim etmişəm. İlk romanım "Qəhrəman" da oxucularla jurnal vasitəsilə görüşmüşdür. "Çiçəkli", Gülşən", "Turaclıya gedən yol", "Ürək dostları", "Budağın xatirələri" romanları, "Jurnalist kəndə gəlir", "Narahat adam", "Bir cüt tərlan" povestləri "Azərbaycan" jurnalında buraxılandan sonra ayrıca kitab şəklində çapdan çıxmışdır".

"Azərbaycan" jurnalının 1973-cü ilin 3-cü nömrəsində jurnalın 50 illik fəaliyyəti ilə bağlı "ədəbiyyatımızın müxtəlifliyinə, nəsrimizin əlvanlığına, şeirimizin, dramaturgiyamızın dərinliyinə və genişliyinə, tənqidi və nəzəri məqalələrimizin yüksəkliyinə, elmi dəqiqliyinə ciddi və tələbkarlıqla yanaşmasından" söz açdığı "Mədəniyyətimizin carçısı" məqaləsində bütün qəlbi ilə kommunist olan Əli Vəliyev belə yazırdı.

Əli Vəliyevin əsərləri ona yaxın dilə tərcümə edilib, həyat və yaradıcılığının müxtəlif aspektləri elmi - tədqiqat süzgəcindən keçib, "Xalq yazıçısı" fəxri adına layiq görülüb, ictimai-ədəbi fəaliyyəti yüksək dövlət təltifləri ilə təqdir olunub. Onun yaşadığı, mənsub olduğu cəmiyyət ictimai münasibətlər sisteminin iflasını yaşayıb. Bu iflas tapındığı, inandığı, təbliğ etdiyi çox dəyərləri də zamanın səhnəsindən endirib. Amma Əli Vəliyevin şəxsiyyəti, xarakteri insani keyfiyyətləri ilə bağlı fikirlər onun obrazının silinməz cizgilərini bütövləşdirib, bərkidib:

***Son dərəcə namuslu, saf, sədaqətli, təmiz, obyektiv, misilsiz dərəcədə xeyirxah bir insan.***

***Hüseyn Şərif***

Müasirlərinin "Bizim Əli" (R.Rza), "Mənəvi ata", "Bir sözlü, bir üzlü" (M.İbrahimov) deyə andıqları Əli Vəliyevin mənəvi mədəniyyətimizi yaşadan yaradıcılığının əsas məziyyətini :

***"...dilimizə minlərlə söz gətirib, əsərləri Azərbaycanın, Qarabağın tarixinin, qədim ərazilərimizin öyrənilməsi üçün qiymətli məxəzə çevrilib. "***

***Afaq Məsud***

sözləri sərrast ifadə edir.

XX əsrin 70 illik bir dövrünü ittiham edənlər bir məsələni unudurlar: nə olur-olsun, bu tarixi silməyə kimsənin gücü yetməz, bu tarixdə yaşayıb, sistemə qulluq etmiş insanları qınamaq, ittiham etmək, onlara çamur atmaq cəhdləri nadanlıqdan başqa bir müqayisə tanımır. Adama elə gəlir ki, hər belə cəhddə "müttəhimlərin "ruhu Elə bil ki, dil-dil ötür // Hər hüceyrəmdə // Göz-göz açılmış yaralarım (Rəsul Rza) göynəyi yaşayır.

Onlar inanırdılar, inamına, əqidəsinə sadiqlik həm də minnətdar olmağı bacaran, əqidəni vasitə yox, məqsəd bilən insanın təsəllisi, inamı sarsılan nəsillərin özünüqoruma, "təmizəçıxarma" instinkti kimi yox, tutalqası kimi səslənən misralarına sığınır: Hansı böyük məqsədi // çətin günlər sınamır?! (Rəsul Rza)

***"...Əli Vəliyev həqiqi kommunist idi və mən bu gün də bunu fikirləşəndə həmin "həqiqiliyə" hörmətlə yanaşıram, çünki Əli Vəliyev gündüzlər iclaslarda çıxış edəndə Lenindən sitatlar gətirən, Kommunist Partiyasının maraqlarını güdən, şəninə şüarlar deyən, xəlvətə düşəndə isə axşamlar Lenindən, Kommunist Partiyasından anekdot danışan kommunistlərdən deyildi. O, kommunizmə inanırdı..."***

***Elçin***

Əli Vəliyevin bacarığı, qabiliyyəti, məqsəd və niyyətləri onun nüfuzuna, cəmiyyətdəki mövqeyinə, başqa sistemdə yaşamış olsaydı, nə qədər kömək edəcəkdi, demək çətindir, amma fakt budur ki, onu bu mərtəbəyə gətirən Kommunist partiyası, Şura hökuməti olub. Amma bir məsələ gün kimi aydındır: Əli Qara oğlu onu muzdurluqdan ali mənsəblərə çatdıran bu quruluşa, onun siyasətinə sidq-ürəkdən bağlı olub. İctimai-siyasi vəziyyətin mürəkkəb, ziddiyyətli gedişlərində də dünən söydüyünü bu gün öyməyib, dünən öydüyünü sabah söyməyib və elə "dili bir, ürəyi bir" qala bildiyi üçün ehtiramla anılmağa layiqdir.

***Südabə AĞABALAYEVA***

# Elçinin “Qarabağ şikəstəsi”: Vətəndaş yazıçının katarsisi



İnsan qəlbi şüşə kimidir. Şüşə bütöv olanda zərəri olmaz heç kimə. Hələ bir çərçivəyə yerləşdirilərsə, faydalı da ola bilər. Şüşə kimi, ürək də bütöv olanda bir pəncərə çərçivəsinə sığar. O pəncərədən baxınca aydın mənzərələr görər insanlar. Parçalandımı, sahibi-ixtiyarı o çərçivə olmaz. Çiliklənmiş qırıqları çox yerə səpələnər, harada rast gəlsə, batar, qanadar. Dağılan qırıqlarını da heç kim özünə aid etməz. Qırılmış, parçalanmış qəlblərin katarsisə ehtiyacı var... demək ki, hamımızın...

...2019-cu ildə Konyaya konfrans səfərimizdə Mövlanə Cəlaləddin Rumi türbəsini də ziyarət etdik. Ziyarətgahın bir kənarında ziyarətçilərə mane olmadan bir neyzən həzin musiqi çalırdı. Öyrəndik ki, o bunu 15 ildir təmənnasız, hər gün edirmiş... Kim bilir, hələ neçə illər ondan sonra də edəcəkdi. İndi düşünürəm ki, o müqəddəs ziyarətgahı bir az da müqəddəs qılan, bəlkə də, elə o neyzənin qəlb səsinə oxşayan yanıqlı neyinin melodiyası idi. Neyinin çalğısını dərin bir düşüncə müşayiət edirdi. Bu düşüncə illərdir ki, onun qəlbində, beynində dolaşır, saflaşıb nəfəsi və barmaqları ilə neydə əsrarəngiz melodiyaya dönürdü. O ney səsinin sehrinin ziyarətgahdakıların şüuraltında sıxılmış, basdırılmış duyğularının açığa çıxması və sərbəst qalması ilə bərabər, bütün psixoloji sıxıntıların da ortadan qalxmasına – mənən arınmalara, paklanmalara rəvac verdiyinə inanıram. Ziyarətimizin sonunda oradan özümüzü çox rahatlamış, sanki çiynimizdəki ağır bir yükdən azad olmuş, qəlbimizdəki kəsafətdən qurtulmuş, hər şeyin yaxşılığa doğru gedəcəyinə inamla, ümidlərlə ayrılmışdıq. Musiqinin təsir gücü danılmazdır. Nəfəs alətləri içərisində neydə hiss olunan bir özəllik də var; üfləndikcə neyin səs qutusu deyilən iç qismi vaxt keçdikcə qaralır. Bu, yanma adlanır və neyzənin nəfəsindən yaranır. Ney çalınmağa başlandıqdan sonra keçən ilk 6 ayda kiçik bir ləkə halında olan bu qaralma getdikcə neyin bütün iç hissəsini örtür. Uzun illər ərzində yaranan tam qaralma neydən çıxan səsə yanıqlı effekt qazandırır. Neydə əsrarəngiz keçidlərlə ardıcıl 7 muğam bir-birinə bağlı olaraq çalınır ki, bu da musiqinin cazibəsini qat-qat artırır... Bütün bunları nəzərə alsaq, neyzənin ziyarətçilərə nə dərəcədə təsir edə bildiyini təsəvvür etmək olar. Qəribədir, o ziyarətdə

bu neyin səsi mənə həm də Elçinin “Sarı gəlin” əsərindəki balabanı xatırlatmışdı. Həmin səfərimizdən illər keçəndən sonra Elçinin “Qarabağ şikəstəsi”ni oxuyanda isə qulağımda səslənən şikəstənin yanıqlı ahənginə uzaqlardan gələn o ney səsi də qarışdı. Oxuduqca anlayırdım ki, bu, təkcə bir hekayə deyil, bu, vətəndaş yazıçının katarsisidir...

Elçinin: “...bədii əsərlərimdə, ədəbi tənqiddə heç vaxt kompromisə getməmişəm. Nə yazmışamsa, vicdanımın səsiylə, düşüncəmə görə yazmışam və bu gün də belədir” – fikrinin bu düşüncələrimin davamına işıq tutacağını umuram. Onun yazıçı istedadının arxasında xeyli dərəcədə zəngin, mənalı, mükəmməl bir həyat yolu və təcrübəsi dayanır. Elçinin yaradıcılığı ədəbi-estetik, fərdi-üslubi qüdrəti ilə nə qədər genişmiqyaslıdırsa, o qədər də çoxşaxəlidir. Görkəmli ədib üslubunun özünəməxsusluğu ilə milli ədəbiyyatı yaradanlardan biri olmaqla yanaşı, həm də onun metodologiyasının nədən ibarət olduğunu müzakirə edənlərdən – ədəbi əsərlərə tənqidçi gözü ilə baxanlardan biridir. Ən başlıcası, o, milli həyatın təəssübünü çəkənlərdən biridir. Bu təəssübkeşliyin miqyası təkcə ədəbi və elmi yaradıcılıqla kifayətlənmir, Elçinin ictimai xadim kimi fəaliyyətinin də hər addımında özünü büruzə verir. Xalq yazıçısı yazır: “Sovet İttifaqı qapalı bir ölkə idi və o qapalı ölkədə "Vətən" cəmiyyəti xarici dünyaya açılan bir gözlük idi. ...Biz Sistemin unutdurmağa çalışdığı və heç vəchlə yaxına buraxmaq istəmədiyi Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli Xan Xoyski, Yusif bəy Nəsibbəyli və bu kimi siyasi-ictimai xadimləri yenidən xalqa təqdim etdik, Məmməd Kəngərli kimi bir sıra siyasi mühacirləri ilk dəfə Azərbaycana dəvət etdik və onları sovet KQB-sinin hər cürə təxribatlarından qoruduq”. Bu fikir yenidənqurma hərəkatı, siyasi təlatümlərlə, maddi çətinliklərlə, daha sonrasında mintiqlərlə xarakterizə olunan, stereotiplərin yıxıldığı, yeninin daha başlamadığı, köhnənin isə dağılmaqda olduğu unikal bir dövrdə – 1987-ci ildən başlayan və davam edən dövrdə yazıçının ictimai fəaliyyətinin orbitini müəyyənləşdirməyə kömək edir. 1990-cı illərin əvvəllərində hələ rüşeym halında olan bu tendensiya həmin mərhələnin ortalarından başlayaraq geniş vüsət almağa başlayır. Bəlkə də bu illər ərzində baş verən kataklik hadisələr, bir-birini əvəzləyən torpaq itkiləri və nəhayət, Qarabağda birinci müharibənin atəşkəslə bitən sonluğunun təhtəlşüurda acizlik sindromunun yaranmasına rəvac verməsi belə bir tendensiyanın yaranmasına gətirib çıxarmışdır. Bu düşüncədən yola çıxaraq həm də xatırlayıram ki, Elçinin bir çox qəhrəmanları başladıqları işi yarımçıq qoymaq istəməyən, bunun təlaşını yaşayan insanlardır. “Mənim ərim dəlidir” , “Talvar”, “Bülbülün nağılı”, “Baladadaşın ilk məhəbbəti” əsərlərindəki obrazların psixikası bir qədər yazıçının özünün həyat hadisələrinə münasibətini də ifadə edir. O da vaxtilə sədrlik etdiyi “Vətən“ cəmiyyətinin xətti ilə başladığı işləri sonralar bədii yaradıcılığında davam etdirdi. Ziqmund Freyd hesab edir ki, hər bir bədii əsərdə real həyatda gerçəkləşdirilə bilməyən gizli mənalar və istəklər vardır. Deməli, yazıçı qəlbində yaşadıqlarını təxəyyülü vasitəsilə canlandırmağa can atır. Bir əsərdə xəyal dünyasının təsirli olmasında yazıçı ilə onu əhatə edən mühit arasındakı basdırılmış münaqişələr, dərində qalan sarsıntıların rolu vardır. O, bir növ, içində tüğyan edən duyğularını çölə atmaqla özünü sağaldır, oxucusuna

da çıxış yolu göstərir. Bunu Elçinin bütün əsərlərində, xüsusən, “Qaçqınlar” silsiləsindən olan əsərlərində aydın görmək olur. “Sarı gəlin” (1993), “Bayraqdar” (2003), “Qarabağ şikəstəsi” (2004) əsərlərində bədii tədqiq obyektinə çevrilən problemlər mahiyyətcə bir-birini şərtləndirir və inkişaf etdirir. Bu baxımdan sözü gedən əsərlərin problematikasının milliliyi və bəşəriliyi, tarixiliyi və müasirliyi özündə ehtiva etməsi təbiidir. Müəllifin konseptual bədii düşüncə axarında çeşidlənib incələnən qənaətləri sonucda belə bir fikir formalaşdırır ki, qaçqınlar dünyasının övladları olan insanlar qibləsini itirmiş batil bir cəmiyyətin, öz günahlarında boğulmağa məhkum bir dünyanın zərərdidələridir. Yazıçı hadisələrə məhz bu aspektdən yanaşdığı üçün oxucunun mövzu ilə bağlı düşüncə sferasını kifayət qədər genişləndirir və dərinləşdirir.

Qarabağ müharibəsi mövzusu müstəqillik dövrü nəsrinin aparıcı istiqamətlərindən birini təşkil edir. Bu mövzuda xeyli əsər yazılsa da, xalq yazıçısı Elçin “Qaçqınlar” silsiləsindən olan əsərləri ilə, eləcə də 2004-cü ildə qələmə aldığı “Qarabağ şikəstəsi” hekayəsi ilə mövzuya yeni rakurs gətirdi. Bu əsər yazılanda 11 il idi (hələ 17 il də ondan sonra qalacaqdı) torpaqlarımız düşmənin əlində idi. Elçin bu hekayədə üç tale yaşantısı arasındakı oxşar və fərqli, əlaqəli və əlaqəsiz, uyğun və ziddiyyətli vəziyyətləri üzə çıxarmağa imkan verən müxtəlif hadisələri, əhvalatları təsvir yolu ilə yurd-yurddaş asılılığına aydınlıq gətirir, vətəndaşlıq problemini qabardır, işğalçı siyasətin acı nəticələrini, ağır fəsadlarını üzə çıxarır, Qarabağın taleyinin bu kiçik görünən problemlərdən, onların həllindən keçdiyini göstərir.

Hekayənin əvvəllərində zahirən oxucuya elə gəlir ki, yazıçı hadisələri çox dağıdır, əhvalatları Cümü, Ziba, Ağadadaş xətləri üzrə çox səpələyir. Lakin zahirən bir-biri ilə əlaqəsiz görünən bu hadisələri Elçin qələminin görünməz maqniti ilə sonda bir yerə toplayıb əslində bir-birinə zəncirin halqaları kimi bağlı olması gerçəyini göstərir. Hekayədə Ziba-İzabel xətti ana ilə bala arasındakı bioloji bağlılıq, doğmalıq hissiyyatı müstəvisində qurulub, anadan balaya ötürülmə informasiya, yaddaş elementi şəklində inkişaf etdirilirsə, Cümü – qaçqın xətti ilə etnik kökə, milli mənəvi mühitə ruhən bağlılıq üzərində qurulub həll edilir. Odur ki, İzabel üçün sadəcə ötürülmə olan "yurd həsrəti" anasının xatirələrinin oyatdığı maraq səviyyəsindən o tərəfə getmir və qaçqın Cümünün (Cümülərin) yalnız fiziki deyil, həm də mənəvi mənada əzablı yaşantısının ayrılmaz tərkib hissəsinə çevrilmiş yurd həsrəti ilə müqayisədə zəif görünür.

Əslində, hekayənin adı ilə bərabər, epiqraf kimi görünə bilən ”Fransız ətri və Ağadadaş ilə Balacaxanımgilin Qırmızı xoruzunun bəy axtarışı haqqında hekayə” başlığı da bunun siqnalını öncədən verir. Beləliklə, ata-baba yurdundan zorla qovulmuş Cümü, "Vətən" deyib sevdiyi Azərbaycanı öz xoşuna tərk edib İsrailə köçmüş Zibanın qızı İzabel və Buzovnada özünəxas sakit həyat tərzi keçirən Ağadadaş obrazları vasitəsilə hadisələrin müəyyən xətt üzrə inkişaf etdirilməsi, əlaqələndirilməsi, finalda başlıca qayənin açılması yüksək bədii-estetik səviyyədə təmin edilir.

Yazıçı özünəməxsus orijinallıqla, fəlsəfi təfəkkürünün gücü ilə milliliyi ümumbəşəriliklə, fərdiliyi ümumiləşdirmə ilə ənənəviliyi novatorluqla, mistikanı gerçək həyatla paralel inkişaf etdirib tükənməz ədəbi istedadının sayəsində yaratdığı bədii

məhsulu oxucuya təqdim edir. Elçinin vaxtilə yazdığı "Mahmud və Məryəm"də Ziyad xanın verdiyi "Qarabağda nəyin qalıb?" sualına gələn cavab bu idi ki, Qarabağda ürəyimiz qalmışdı. Zaman keçdi, illər bir-birini əvəz etdi, bu əsərdən sonra Elçin onlarla dəyərli əsərlər yaratdı, amma sualın cavabı dəyişmədi, əksinə, müstəqillik dövründə cavabın özü qədər sual da aktual oldu. Bəli, düşmən əlində olan torpaq deyildi, bizim ürəyimiz idi, düşmən çəngələdikcə öz içində əzilən, qanı içində çürüyən ürəyimiz. Heç bilmədik torpağın xiffətini çəkək, ya dağılmış yurd-yuvaların, heç bilmədik gedib qayıtmayanların dərdini çəkək, ya onların sönmüş ocaqlarının başındakı başsız qalanların. Heç bilmədik əli-qolu bağlı dara çəkilən ərənlərin dərdini çəkək, ya onların gözü qabağında təhqir olunan qız-gəlinlərin...

...Qarabağ itkimiz təkcə torpaq itkisi deyildi. Bu savaşda hammurapi qaydaları da, hammurapinin özü belə, unudulmuşdu, düşmən təkcə torpağı istəmirdi, namusu da, qeyrəti də, tarixi də, ənənəni də istəyirdi. O bizi yer üzündən silməyə qərar vermişdi. Bu utopik istəyi düşmənin bizə qarşı nifrətini, kinini hədəqəsindən çıxarmışdı; uşaqları diri-diri soyduqca qəzəbi coşurdu, amma hirsi soyumurdu, evlərə od vurub yandırdıqca, kini də alovlanırdı, insanların gözlərini oyurdu, amma gözü doymurdu... Qarabağ münaqişəsi bütün dünyanın indiyə kimi gördüyü müharibələrdən deyildi, bəlkə elə ona görə dünya Qarabağdakı həqiqətləri görə bilmirdi, görməkdə, anlamaqda aciz idi...

Elçinin fikrincə, insan qürurunu, mənliyini, heysiyyətini, mənəviyyatını aşağılayan, rəzalətə rəvac verən cəmiyyət qanunları hər cür şəxsiyyət aşınmasına gətirib çıxarır. "Qarabağ şikəstəsi"ndə də yazıçı mənəvi zənginliyi mənəvi müflisliyə çevirən bir cəmiyyətdə yaşamağın doğurduğu çətinliyi bədii müstəviyə çıxarmış, ictimai-siyasi keçid dönəmində mənəviyyat aşınmalarının qaçılmazlığı barədə mövqeyini ortaya qoymuşdur. Tarixin gərdişinə bu kontekstdə dəyər verən yazıçı "Qarabağ şikəstəsi"ndə müharibənin yaratdığı fəsadlara 1990-cı illərdən yeni əsrin ilk illərinədək bəlalı Azərbaycan cəmiyyətində baş verən olaylar prizmasından baxış keçirir.

"Qarabağ şikəstəsi" hekayəsində yazıçı real gerçəkliyin mahiyyətindən doğan hadisələr fonunda həqiqətdə baş verənlərin mahiyyətini başa düşmək, ayrı-ayrı obrazların daxili aləmini üzə çıxarmaq üçün eyni zamanda zahiri cəhətlərinə də xüsusi diqqət yetirir. Daxili və zahiri cizgiləri birləşdirərək canlı insan obrazı yaradan yazıçı ruhu Şuşa qalasına hopub, cismi-canı ilə Bakıya sürüklənən soydaşlarımızın, vətəndə vətənsiz qalan qardaşlarımızın obrazını hamı kimi baxan, lakin hamının gördüyünü görməyən, millət dənizdən qağayı səsi eşidəndə qulağı şikəstə ilə dolan bədbəxt qaçqınımız Cümşüdün (Cümü) və ailəsinin, bütövlükdə Buzovnada yataqxanada məskunlaşmış qaçqınların simasında ümumiləşdirib. Bu obrazın daxilində baş verənlər elə zahirdə baş verənlər qədər təsirlidir. Qəhrəmanın, xüsusən, Cümünün öz təkliyini, kimsəsizliyini tədricən anlaması, bir gün bunu birdən-birə daha dərindən dərk etməsi və nəticədə psixoloji cəhətdən sarsılması motivi Elçinin yaradıcılığında çox müxtəlif ifadə təzahürləri ilə ortaya çıxmaqla yanaşı, ədəbi-bədii, sosial-psixoloji mahiyyəti ilə maraq doğurur. Müəllifə görə, insanın həmin "böhranlı" anlarda hansı qərarı qəbul etməsi onun gələcəyi baxımından həlledici əhəmiyyət daşıyır.

"Onda Cümüyə elə gəlirdi ki, o dəmir çarxların səsini, sədasını Şuşa dağlarından gələn bir "Qarabağ şikəstəsi" müşayiət edir və o şikəstə müşayiətli tukkatuk Cümünü təkcə üniversitet imtahanlarına yox, başqa bir dünyaya aparırdı və o başqa dünya coğrafiya xəritələrində deyildi, Cümünün fikrində, xəyalında idi, o başqa dünya – işıqlı, hərarətli, sirli-sevincli bir gələcək idi və əlbəttə, o zaman Cümü haradan biləydi ki, həmin gələcək lax yumurta kimi bu qədər iyli-üfunətli olacaq..." – parçasından məlum olur ki, Şuşa düşmən əlində olmasa, Bakıya gəlmək, orada yaşamaq ən böyük xəyalı imiş Cümünün. Dostoyevski deyir: "Xoşbəxt olmanın iki yolu var; ya istəklərinizi azaldacaqsınız, ya da imkanlarınızı zorlayacaqsınız". Cümü də belə bir fəlsəfəyə uydurmuşdu həyatını. O, Bakıya gələ bilməsə də, bir vaxtlar Şuşada xoşbəxt yaşaya bildi; sevdiyi Sonası ilə evlənib sevdasının gözəlliyini, doğma Şuşasının saf havasında sadə səadətini, sürücülüyü ilə zəhmətinin zövqünü, həyatində öz əlləriylə əkdiyi ağacların bəhrəsi ilə əməyinin bərəkətini yaşayırdı. Bakıya gedib təhsil almaq bir xəyala çevrilmişdisə də, bu ona bədbəxtlik gətirmədi. Keçmişdəki xoş xatirə kimi səadət dolu günlərində xatırlayacağı şirin bir xatirəyə çevrildi.

Amma qaçqın olub Bakıda yaşaması ona gənclik xəyallarındakı xoşbəxtliyi gətirmədi. O, Şuşasız qalmışdı. Bakı ona xəyalını qurduğu xoşbəxtliyi bəxş etməyə yetərli deyildi. O keçmiş, ötmüş zamandan dəyişməyən bircə şey vardı: "Qarabağ şikəstəsi". Cümünün həvəsi elə qırılmışdı ki, səsi ta ilk gəncliyindən gəlirdi. O gəncliyin ilahi saflığının və təmizliyinin sayəsində isə Qarabağ şikəstəsini eşidirdi. Bu səs gərgin hadisələrin məngənəsində sıxılan insanın dərin ruhi böhranının xəbərçisi idi. Yeniyetməlik və gəncliyində gələcəklə bağlı ona şirin xəyallar quran bu həzin melodiya indi ona gələcəyi göstərə bilmirdi, keçmişin acı xatirələrini canlandırırdı. Beləcə, Cümü Şuşasını itirməyin əzabını yaşayırdı. Təsvirlərdən görünür ki, çarəsizlik onu boğur, yaşamağı dözülməz hal alır; əl yorulub, ayaq yorulub, ürək yorulub... Hamı gecəni eyni zamanda yaşayırdı bu qaçqın yurdunda, amma hamının qaranlığı fərqli idi. Qəlbinin zənginliyini göstərə bilmədiyi, gül xatirələrinin tikanlı bataqlıqlara qərq olub boğulduğu və hər gecə onu boğan bu təlatümün gətirdiyi yeknəsəq sabahları vardı Cümünün... "Şuşasızam" – deməyə ürəyi varmırdı, bu miskin yataqxana küncündə "Şuşalıyam" deməyə də "sübut"u yox idi... Çəkdiyi hədsiz maddi və mənəvi sıxıntı içərisində ən böyük yoxsulluğu bu idi. Beləcə, bir şikəstənin içindən keçirdi Cümü, elə şikəstə də Cümünün içindən keçiridi, ara vermədən qulaqlarında səslənir, ona dinclik vermirdi. Bu şikəstə ürəyi ilə dilinin arasında sıxılıb qanayan sevdası idi Cümünün.

Yaşamaq çox nadir rastlanan bir şeydir. Çox insan sadəcə var olur. Yaşamaqla var olmaq arasında qalmışdı Cümü. Kəlmələrə tökə bilmədiyi içində şikəstə səsləndikcə yaşaya bilmədikləri gəlirdi ağlına... Qarabağ şikəstəsi onun xaraba olmuş ruhunu yenidən inşa etməyə çalışırdı deyəsən. Dənizin yaxınlığında yaşayırdılar, burada insanların çoxu suda boğulmağın nə olduğunu yaxşı bilirdi. İnsanın təkcə suda yox, öz içində də boğula biləcəyini isə hamıdan yaxşı Cümü bilirdi... Lakin uzun-uzadı baxdığı göyün dənizə birləşdiyi yerdə hələ də umudu vardı... O, yaşamaq istəyirdi...

Cümü bütün qaçqınların yaşadığının eynisini yaşayırdı. Bədii ədəbiyyatımızdan yaxşı tanıdığımız bəxti üzünə gülməyən Sonalarımızdan biridir Cümünün Sonası.

Cümü uzaqlarda dumanların içindəki Şuşasına necə həsrət qalmışdısa, bir damın altında birlikdə yaşadığı Sonasına da eləcə həsrət qalmışdı... Sevdası yetim qalmışdı Cümünün. Bu sevginin xronologiyası Şuşada başlayıb yataqxanada davam etsə də, "yataqxanada bitmişdi" – desək, doğru olar. Yazıçı Sonanın daxili aləmini iki məqamda açır: 1.Qayalıqda Ağadadaşın tənəsinə – "Biz insan deyilik, biz qaçqınıq!.. Qaçqınıq!.. Qaçqınıq!.." – sözlərini deyərkən; 2. "Sona ona verilən hədiyyənin ətir olduğunu bilincə, sadəcə, gülümsündü və heç nə olmayıbmış kimi, çayniki götürüb krantdan su doldurmaq üçün həyətə düşdü" – məqamında. Sonanın bu gülümsəməyi "bu günümdə bircə ətirim əskik idi!" – ironik mənasını da ifadə edir. İndi Sona üçün qadınların ən çox sevdiyi hədiyyələrdən olan ətir tamamilə mənasızdır. O, həyatın bu kimi şirin dadlarından, ləzzətlərindən çoxdan məhrum olub, özünü də, öz dediyi kimi, bir insan, bir qadın kimi deyil, qaçqın kimi görüb-hiss edir, dəyərləndirir.

Adətən, bir hadisə və ya hər hansı bir yeri təsəvvür etməyə kömək edən amil obrazlı ifadələr olur. Elçin isə sözün poetik funksiyasından çox, səlis, cilalanmış, özünəməxsus koloritli dili ilə təkrara və detallı izaha yol verir. Yəni qəhrəmanlarının intim dünyasını, vəziyyətləri xırda detallara qədər anladan cazibədar bədii təkrar və təsvirləriylə, bəzən yaxşı mənada estetik söz oyunları ilə süjetdən yayınmır, gedişat bundan axsamır, əksinə, əsas xəttə təkan verərək, onu dolğunlaşdırır. Bu onun fərdi yaradıcı passionarlığının üzvi tərkib hissəsidir. Yazıçı belə vasitələrlə dəqiq təsəvvürə nail olur, insanda əşyanı, əşyada insanı, hissiyyatda hissizliyi, hissizlikdə hissiyyatı axtarır. Oxucu bəzən təfsilatın içində itib-batsa da, yorulmur. Estetik rayihəsi olan bu təkrarlar bəzən xatırlatmaq üçün, bəzən vurğulamaq üçün, bəzən də sözün emosionallığını artırmaq üçün güclü bir vasitəyə çevrilir. O, təkrar edə-edə yeni söz, yeni cümlə, yeni fikir yaradır. Dediyinə bir də qayıdıb oradan yenidən başlayır. Oxucu yazıçının hər təkrarında onun indi nəyə işarə etdiyini qavrayır, bu zaman təkrar olunanlar yeni söz assosiasiyası yaradır.

Dərin müşahidə qabiliyyətinə malik Elçin, bəzən, standart təhkiyə tərzindən bir qədər uzaqlaşıb hadisələrin gərginliyini psixoloji qata keçirir. O, insanı daxildən, psixoloji aləminin mürəkkəbliyi ilə təsvir edən zaman rənglərin zənginliyinə fikir verir, ağ və qara ilə məhdudlaşmır. Bu, yazıçının sınadığı bir üsuldur. Elçinin qulağına musiqi səsi gələn obrazı tək Cümü deyil. "Toyuğun diri qalması" povestində Zübeydənin qulağına gələn tar səsi, "Açıq pəncərə" povestində Həsənin qulağına gələn mahnı sədası, "Aman, ovçu, vurma məni ..." kinopovestində uzaqdan eşidilən sanki Topxana meşəsinin mahnısı da "Qarabağ şikəstəsi"ndə olduğu kimi insanın daxili, ruhi ovqatındakı mürəkkəbliyi göstərir. Elçinin özünəməxsus aydın və lakonik dili ilə bərabər hiss və psixologiyanı predmetdə, detallarda əyaniləşdirmə bacarıqları da onu fərqli və özünəməxsus edir. Elçinin "Sarı gəlin" hekayəsində balaban necə öz-özünə ifa edirdisə, "Mahmud və Məryəm"də Sazlı Abdulla edam olunanda onun sazı necə öz-özünə çalırdısa, burada da şikəstə elə öz-özünə ifa olunurdu... Bu, Elçinin sənət dünyasında musiqinin, əsl sənətin zamana, həyata meydan oxuması, musiqi alətlərinin ifaçı ilə ruh birliyindən yaranan reformasiyası idi. İfaçının arxa planda olması onun universallaşdırılmasıdır. Bu istənilən ifaçı ola bilər, musiqi isə dəyişmir, ya da alət dəyişmir. İfaçı ötəridir, sənət

qalıcıdır. Həmin əsərlərin hər biri ruhun əbədiliyinin, milli yaddaşın ölməzliyinin, mədəni atributların daimiliyinin milli-mənəvi yaddaşı ölməyə qoymadığı düşüncəsinin təsiri ilə yazılmış əsərlərdir.

Elçin müasir insanın problemlərinə heç vaxt laqeyd qalmamışdır. Onun ömür yoluna, taleyinə, qayğılarına tərcümanlıq edir, fərdi mənəvi təbəddülatları incə eyhamlarla təsvir etməkdən çəkinmir, ona aid bütün zəruri məsələlər üzərində oxucusunu düşünməyə sövq edir və bu, yazıçı mövqeyinin dəyərli ictimai məziyyəti kimi ortaya çıxır.

Əsərdəki Məmməd dayı obrazı isə onun yaratdığı heç bir obraza bənzəmir...

...Günbatımına bənzəyirdi Məmməd dayı... Fırtına qopmuşdu içində. Ona görə səssizlik bürümüşdü ətrafı, hər kəs birdən-birə olduğunu sanırdı, hansı ki, yavaş-yavaş olmuşdu hər şey... Hissedilən hər şeyə cümlə qurulmur... Bəzən qəlblərdə hisslər nəhayətsiz olsa da, lüğətlərdəki sözlər onu ifadə etmək üçün kifayətsiz qalır. Məmməd dayının da kəlmələrə tökə bilmədiyi zaman içində qanayan yaraları var idi... Zamanı tutub keçmişə gedə bilməzsən, ona “keçmə” – deyə də bilməzsən. Əgər zaman keçmişi bu günə daşıya bilmirsə, bu keçmiş yaddaşda yaşamağa məhkumdur. Yaddaşındakıları dilinə gətirə bilmədikdə ürəyinə həbs edərsən, ağırlığı üzündə əks edər, ağrısı isə gözlərindən çıxar. İnandığınız hər şeyin yalan olmasından daha pis bir şey var; inanmaq istəmədiyiniz bir çox şeyin həqiqət olması...

...Həyat yalnız əlindəkiləri deyil, içindəkiləri də almışdı Məmməd dayıdan. Bir vaxtlar hamının Gözlə-Gəlirəm Məmməd dayı adı ilə tanıdığı iş-gücü başından aşan bu kişi indi işsiz-gücsüz, dərd əlindən baş alıb getmək istəsə də, hər yerin qürbət olduğunu görüb bir skamyada oturardı səhərdən axşama kimi... İnsan bir gün öləcəyini bilərək yaşayır, ya da var olur bu həyatda. Bu bir həyat qanunudur, hamıya aid olduğu üçün faciə deyil, hamı da bu həqiqəti reallaşmasını gecikdirmək üçün savaşar həyatla. Ən böyük savaşı keçmişdə yaşadıqları ilə bu gün qəlbinin hiss etdiklərinin arasında gedirdi Məmməd dayının, ölümü gecikdirmək keçmirdi xəyalından... Nə vaxtsa həqiqətən yaşayacaqlarını xəyal edərək ölməsini gözləyirdi o. Bir gün Məmməd dayı Şuşasız bu dünyadan köçsə, xəyallarını bu yataqxananın sakinlərinə əmanət edəcəkdi, Şuşanın həsrətinin halallığını da elə o qaçqın sakinlərdən alacaqdı... İnsan özünü tapmadığı yerdə qərib olur, özünü itirdiyi yerdə məğlub... Məğlub olmuşdu Məmməd dayı....

İnsanları söylədikləri ilə, davranışlarıyla, sizə təqdim etdikləri ilə tanıya bilməzsiniz; bəzi insanların əsəbiləşməsində də mərhəmət var, bəzi insanların xoş rəftarında və nəvazişində belə hiylə ola bilər. Sözlər sehirlidir, bəzən silahdan da pis yaralayar, bəzən isə məlhəmdən də yaxşı sağaldar... Əsərin ən təsirli yerlərindən biri Məmməd kişinin arvadı Sürəyya xalanın Bakıya gəlib qaçqınların güzəranı ilə maraqlanan İzabel Xanukoffun qabağını kəsdiyi məqamdır: " – Bura bax, – dedi. – Bizə heç nə lazım deyil! Bizə humanitar yardım da lazım deyil! Onu da aparın ermənilərə verin! Bizə heç nə lazım deyil! A tövbə! Bizə Şuşanı qaytarın! – Sonra üzünü tərcüməçi qıza tutdu: – Az, tərcümə elə! Nətər deyirəm, elə də tərcümə elə! – Və tərcüməçi qız onun sözlərini tərcümə etməyə başlayanda, beşinci mərtəbədən düşüb uşaqlarla birlikdə xaricdən gələn növbəti qonağa tamaşa edən Qa-

libin – Cümü ilə Sonanın oğlunun – qolundan yapışıb irəli çəkdi. – Bax, bu, Şuşanı görməyib, burda anadan olub! Bunun vətəni bu yataqxanadı! Yataqxana adamın vətəni olar? Yataqxana adamın torpağı olar? – Sonra da aralığın açıq pəncərəsindən əlini uzadıb zeytun ağacının altındakı skamyada oturmuş Məmməd kişini göstərə-göstərə əməlli-başlı qışqırdı, elə bil, Şuşanı erməni yox, bu uzun, kürən qız onların əlindən almışdı. – Odur, bax, – dedi, – mənim kişim on ildi orda oturub öz-özü ilə danışır! Nər kimi kişi idi! Top atsaydın, yıxılmazdı! – Və daha da bərkdən qışqırdı: – Şuşanı qaytar bizə! Şuşanı!... Şuşanı..." Məmməd dayının arvadı Sürəyyanın bu sözləri Şuşaya məhəbbətindən daha çox, illərin təlaşında sovrulub gedən Məmməd dayıya sədaqət və rəhmindən qaynaqlanırdı. Bəli, bəzi adamlar söylədiyi sözlərə, bəzi sözlər isə onları söyləyən adama görə böyük görünür. Bir insana sadiq olmaq yalnız bir bədənə və ürəyə sadiq olmaq deyildir, həm də özünə, dəyərlərinə, insanlığına sahib çıxmaqdır, illər sonra dönüb arxaya baxanda təkcə sizi sevənlərin deyil, öz üzünüzə də utanmadan, peşmanlıq duymadan baxa bilməkdir. Sevgini həqiqi edən mübarizədir. Sevdiklərinizi taleyin ixtiyarına buraxa bilməzsiniz... "Açıq pəncərə" əsərinin qəhrəmanı Əli Ömərin dili ilə deyilmiş (əslində, müəllifin düşüncəsini ifadə edən) "canım, axı haçanacan biz bütün yenilikləri qərblilərin ayağına yazacağıq?! Nə vaxta qədər biz standartdan uzaq hər bir işə hoqqabazlıq kimi baxacağıq? Nə vaxta qədər novatorluq dırnağa alınacaq, hoqqabazlığın sinonimi olacaq? Bəs deyilmi?" – sözlərinin Sürəyyə xalanın dili ilə bir ayrı versiyası səslənir yuxarıdakı parçada. İnsan şəxsiyyətinə, onun psixologiyasına qarşı həssaslıq, münaqişə və problemlərin daha çox mənəvi-əxlaqi müstəviyə gətirilməsi, insanla mühit, cəmiyyət arasındakı münasibətlərin daha ciddi şəkildə nəzərə alınması müşahidə olunur. Yazıçı uzun illər düşüncəsində olan fikirləri yaratdığı obrazların dili ilə ifadə edir. Bu, sistemə qarşı bədii-estetik müxaliflik idi. Elçinin analitik təfəkküründən irəli gələn bir pozitivlik, gələcəyə nikbin yanaşma, ən qatı zülmətin içindən ağ bir işığın doğacağına inam var. Elçin problemlərin geniş realist mənzərəsini göstərməklə onların haradan nəşət etdiyini də göstərir, həm də hansı sosial-ruhi naqisliklərin məhsulu olduğunu aşkarlamağa yönəlir.

Əsərdə həm maddi, həm mənəvi etnoqrafiyasının zənginliyi və dolğunluğu ilə təsvir olunan Abşeron mühiti böyük Azərbaycan cəmiyyətinin kiçik modelidir. Ən maraqlısı da odur ki, bu əsərdə də rast gəldiyimiz abşeronlular bizim yazıçının digər əsərlərindən tanıdığımız insanlardır. Lakin bu dəfə həmin obrazların əsərə gətirilməsi yazıçının başlıca məqsədinə xidmət edir. Ağadadaşın qayalıqda Cümü və arvadına dedikləri – "Alə, it döyülsüz siz!.. Pişik döyülsüz!.. Adamsuz axı!.. İnsansuz axı!.." – sözləri, əslində, eyni yerdə yaşasalar da, qaçqın həyatına bələd olmayan, daha doğrusu, o həyatı zahirən görüb daxilinə bələd olmayan, ondan xəbərsiz olan cəmiyyət üzvlərinə bir qınaqdır. Yazıçı Ağadadaş obrazı vasitəsilə qaçqın dərdinə yalnız əcnəbilərin deyil, həm də Qarabağ dərdli Azərbaycanın özündə, hətta artıq on ildir ki, Cümü və Cümülərlə bir qəsəbədə yaşayan vətəndaşlarımızın biganə münasibət göstərdiyini açıqlayır. Bu halda İzabelin də qaçqınları dəqiq anlaması müşkül görünür.

İzabel çox yaxşı bilir ki, Azərbaycanın Ermənistanın işğal etdiyi torpaqlardan qaçmış, məcburi köçkün düşmüş, ağır vəziyyətdə yaşayan bir milyondan artıq

qaçqını var. İzabel onu da yaxşı bilir ki, cəmi səkkiz milyon əhalisi olan bir ölkənin bir milyon qaçqınının olması hər səkkiz nəfərdən birinin qaçqın olması deməkdir ki, bu da dünyada analoqu olmayan hadisələrdəndir. Lakin bütün bunlar, xüsusən də qaçqın anaların məişəti, qaçqın uşaqların güzəranı ürəyini ağrıtsa da, onlarla görüşmək İzabel üçün yalnız vəzifə borcunu yerinə yetirmək demək idi. Onu Azərbaycana gətirən yurd həsrəti, vətən dərdi yox, elə bu vəzifə borcu idi.

Bunu epiqrafdakı ideyanın həm davamı, həm də fəlsəfi şərhi kimi qəbul etmək olar. Ağadadaş yeknəsəq bir həyat yaşayır, bu yeknəsəqlikdən kənara çıxma isə xoruzun itməyi idi ki, onu da Abşeron mühitində çox işlənən ifadə ilə – “xoruzun təzə bəy axtarışı” ifadəsi ilə növbəti bir yeknəsəqliyə bağlayır. Xoruz mütləq sahib axtarır. Amma xəbəri yoxdur ki, bütün bu “bəy”lər ona yalnız qida kimi baxır. Heç kim ona gözlədiyi və arzuladığı rahatlığı bəxş edə bilməz. Ən maraqlısı odur ki, yazıçı zahirən əsas hadisələrlə bağlı olmayan bu hadisəni ümumi demək istədiklərinin fəlsəfi şərhinə çevirir. İzabelin fransız ətrini Sonaya verməsilə onun xoşbəxt, Sonanın isə bədbəxt tablosunun yaradılması Sona kimi oxucunu da sarsıdır. Lakin Elçin incə ştrixlərlə Sonanın qəlbində yer almış əsl sevgi müqabilində İzabelin qəlbinin boşluğunu da bir yerdə oxucuya təqdim etməkdən özünü saxlaya bilmir. "Ziba nostalgiyası" qızı İzabeldə azərbaycanlılar haqqında qəribə xoş hisslər, duyğular oyatmışdır və bu hisslər, duyğular hətta əsrarəngiz Qəçrəş gecəsində bir azərbaycanlı gənclə buradakı son gününü keçirtmək marağı yaradır, beləcə, onun Azərbaycana işgüzar səfəri məhəbbət sərgüzəşti ilə tamamlanır. Elə bu məqamda mətnin alt qatlarında yazıçı İzabellə bağlı bəzi sirləri pıçıldayır, zahiri təminat effektinin altında dayanan mənəvi təklik, deqradasiya, heçlik duyğusunun siqnallarını verir. İzabel maddi zənginliklə müşayiət olunan mənəvi yoxsulluğunu, Sona isə mənəvi zənginliyi ilə maddi yoxsulluğunu yaşayır.

Yazıçı insanlar-talelər kontekstində yurda – kökə bağlı üç obrazın (Cümü, İzabel, Ağadadaş) həyat tərzini və mənəvi dünyasını açıb ümumiləşdirməklə Azərbaycanın Qarabağ ovqatlı gerçəkliklərinə nüfuz edir. Göstərir ki, Azərbaycanda həyat İzabel üçün cazibəli və möcüzəli, Ağadadaş üçün sadə və yeknəsəqdirsə, qaçqın Cümü və Cümülər üçün cəhənnəm əzabıdır, usandırıcıdır. Yurd sahibi Ağadadaşla yurdsuz Cümünün tale yaşantısındakı kəskin fərqlər də bədii detallarla ümumiləşdirilir: əgər dəniz-qayalıq uğultusu sakit həyat tərzi keçirən Ağadadaşa bir rahatlıq və özü ilə bərabər yüngül bir sərinlik, bir yuxu gətirirsə, Cümünü yatmağa qoymur; Abşeron havası Ağadadaşa ata-babasını, onların da vaxtilə bu yerlərin sakini olduğunu xatırladıb qəlbində qürur hissi doğurursa, Cümü üçün nəm və istidir – onu darıxdırır, o, bu havada nəfəs ala bilmir, Ziba öz Qəçrəşini arzuladığı kimi, Cümü də öz səfalı Şuşasını, gül-çiçəkli həyət-bacasını xatırlayıb-arzulayır. Yazıçının insana həm təbiətin bir parçası, həm də sosial-mənəvi varlıq kimi baxışı sosial-psixoloji cəhətdən əsaslandırılmış qənaət doğurur: insanı insan edən və daim öz şirəsi ilə qidalandırmaqla mənən ucaldan, ruhən yaşadan etnik kök, doğma mühit, yurd-ocaqdır. İnsan bu həyat cövhərindən aralı düşüncə, kökündən qoparılmış gül kimi solmağa məhkumdur.

“Fransız ətri və Ağadadaş ilə Balacaxanımgilin Qırmızı xoruzunun bəy axtarışı haqqında hekayə” başlığı isə bədii mətnə uduzan primitiv epiqraf deyil. Ağadada-

şın həyatində böyüyən, sahilə çıxıb azan, sonra Cümünün motorollerinə minib onun evinə axşam yeməyi olmağa "gedən" "mərkəzi fiqur" xoruz ziddiyyətlər fonunda süjetin tərkibində əriməyən, ümumi materialdan qopuq görünsə də, İzabel Xanukoffun qaçqın Sonaya fransız ətri hədiyyə etməsi, Cümünün isə bu bahalı ətri satıb Sonaya don almaq fikri fonunda gündəlik həyatın içindən ən sadə iki nümunə gətirərək yazıçı həyat şərtlərinin ağırlığının nəfsin mənəvi aşınmasına yol açmasını xoruzun və fransız ətri ilə bağlı hadisələrin nümunəsində izah etməyə çalışır.

Elçinin yaratdığı obrazlar yaxşı və pis kateqoriyasına ayrılmır, nə yazıçı, nə oxucu tərəfindən. Bu əsərlərdə insan var. Yazıçı lap ən böyük səhvi edən obrazın da həyatına elə bir yerdən işıq salır ki, onun etdiyi səhvlərin alt qatında dayanan səbəbləri görə bilirik və haqq qazandırmasaq da, onu günahlandıra bilmirik. Yazıçı bu bədiiliyin içərisində elə bir atmosfer yaradır ki, birinin etdiyi günahda hamımızın payı görünür, birinin yaşadığı faciə hamımızın faciəsinə çevrilir. Həyatı bütün mürəkkəbliyi ilə, qayğıları, problemləri ilə birlikdə ədəbiyyatın predmetinə çevirmək, psixoloji detalların, ştrixlərin, çalarların vasitəsilə deyilməyənin deyilməsinə nail olmaq onun əsərlərinin, xüsusən, "Qarabağ şikəstəsi"nin vacib məziyyətlərindən sayılır. Tədqiqatlarının birində: "İki dünya fikirləşirəm ki, bizim bu dünyamızda, əslində, iki dünya var: Ölü Dünya və Canlı Dünya. Və iki tip də yazıçı var: ölü dünyadan yazan yazıçılar və Canlı Dünyadan yazan yazıçılar" – deyən Elçin, özü də bilmədən, Qarabağ mövzulu əsərlərində bu iki dünyanın arasındakı ərəfdə qalmışdı.

Yazıçı özünəməxsus orijinallıqla, fəlsəfi təfəkkürünün gücü ilə milliliyi ümumbəşəriliklə, fərdiliyi ümumiləşdirmə ilə ənənəviliyi novatorluqla, mistikanı gerçək həyatla paralel inkişaf etdirib tükənməz ədəbi istedadının sayəsində yaratdığı bədii məhsulu oxucuya təqdim edir. Həyatın paradokslarını əsərə gətirir. Saysız-hesabsız cavabsız suallar verir. Ümumən "Qaçqınlar" silsiləsindən olan əsərlərində formalaşdırdığı bu suallar – Biz kimik? Hara gedirik? Bu nə qədər davam edə bilər? – sualları idi ki, elə şikəstənin müşayiətilə hamımızın qulaqlarında səslənirdi.

Elçin illərlə qəlbində ağır bir yükə çevrilmiş ağrı dolu duyğularını Qarabağ dərdlərini "Sarı gəlin"lə, "Bayraqdar"la,"Qarabağ şikəstəsi" ilə vərəqlərə boşaltdı, dərd yükünü yüngülləşdirdi. Bu əsərlərin heç birində müharibənin özü təsvir olunmamışdı. Bu əsərlərdə müharibədən sonra açılan yaralar, aşınmaqda olan mənəviyyatlar, yoxluğa sürüklənən heysiyyətlər, əriyib gedən insani duyğular var idi. Müharibənin törətdiyi ən böyük faciə isə milli kimliyimizə dəyən zərbə idi. Bu dözülməz dərdin çarəsi tapılmalı idi. Bu yük xalqın şüurundan boşaldılmalı, yerinə daha sağlam, daha işıqlı, daha milli şeylər qoyulmalı idi. Elçin o boşalan yerlərə bir şikəstə melodiyası yerləşdirdi. Hekayəni oxuyandan bəri o melodiya təkcə Cümünün qulaqlarında deyil, hamımızın qulaqlarında səslənməyə başladı. Bu katarsislə şüurumuzun altına yerləşmiş ümidsizlik qorxusundan azad olub yerinə daha saf və təmiz duyğular yerləşdirildi. O duyğular ki, üstünü elə Şuşa dağları kimi qatı duman bürümüşdü. Bütün çiçəkləri xəzan vurub yellər sovursa da, bu, baharın gəlməyəcəyi mənasını verməməlidir, elə deyilmi?..

"Qarabağ şikəstəsi" ilə Elçin təkcə özünün katarsisini yaşamadı, o həm də böyük bir milli təəssübkeşliklə, vətəndaşlıq duyğusu ilə milli dəyərlərimizi, mənə-

viyyatımızı, keçmişimizi, tariximizi xatırladaraq bizə də bu katarsisi yaşatmağa çalışdı. Dərin kədərlə bu günlərə necə gəlib çıxdığımıza təəssüf edir, can yanğısı ilə bunu hamımıza xatırlatmaqla cəmiyyət fərdlərinin laqeydliyini, maddiyyat əsiri olmağını şiddətlə qınayır, bizi özümüzə qaytarmağa cəhd edir.

Biz özümüzə qayıtdığımız zaman kənar güclər olmadan da torpağı da, milli qürurumuzu da xilas edə bilərik. Sözün təsir etmədiyi məqamda qədim musiqimizi, bütövlükdə musiqi mədəniyyətimizi köməyə çağıran yazıçı şikəstə harayı ilə bizə təlqin edir ki, bu tarix itib-bata bilməz, bu keçmiş unudula bilməz, bu qədər özündən uzaqlaşmaq olmaz.

Nə qədər ki, o melodiyanın da səsi çox uzaqlaşmayıb, nə qədər ki, biz hələ onu aydın eşidə bilir, xatırlaya bilirik, elə onun axınına qarışıb geri dönməli idik – özümüzə dönməli idik! Çətin zamanlar qəhrəmanları yaratmaz, içimizdəki qəhrəmanı ortaya çıxarar. Bunun nə demək olduğunu “Qarabağ şikəstəsi”ni oxuduqda da, sonralar 2020-ci ildə tapdanmış, illərlə ayaqlar altında sürünən mənliyimizin xilasına yol açan müharibənin başlamasına sevinəndə də bir daha anladıq. O “yerdə qalıb qan, gedirik almağa” deyərək sevinə-sevinə, rəqs edərək avtobuslara doluşan Azərbaycan oğulları Cümünün məşəqqətlərini ya çəkmişdi, ya da qəlbən yaşamışdı, Məmməd dayı ilə ya söhbət etmişdi, ya da istəsə də söhbət edə bilməmişdi, onunla bərabər bəlkə də uzun-uzadı susmuşdu....

...Bir əfsanədə deyilir ki, mələklər xoşbəxtliyi gizlətməyə qərar vermişlər. Çətin bir yerdə saxlayaq, insanlar onu çətinliklə tapsalar, qədrini çox bilər, dəyərini anlayarlar, – demişlər. Mələklər xoşbəxtliyi gizlətmək üçün okeanın dərinlikləri, dağların zirvəsi, qayaların başını düşünərkən onlardan biri: “İnsanların öz içində saxlayaq. Oraya baxmaq ağıllarına gəlməz” – demiş. Elə o gündən xoşbəxtliyimiz içimizdə gizlədilmişdir. Ara-sıra baxsaq, orada bizi xoşbəxtliyə götürən şeyləri mütləq taparıq. Xoşbəxtliyimizin ünvanı bizim öz daxili dünyamızdadır. Onu kənarda axtarmayaq. Bu əfsanəni xatırlamaqla Elçin yaradıcılığının səciyyəvi cəhətlərini ümumi məxrəcə gətirib böyük yazıçı-vətəndaş, millət təəssübkeşinin yaradıcılığı haqqında yazdıqlarımı yekunlaşdırmaq üçün söykənəcək əldə etmək istədim. Ən böyük sənət əsərlərinin arxasında dərin iztirablar, yaşanmış ağır həyatlar var. O dəyərlər ki, yazıçı-vətəndaşa irsən keçib, şəcərənin saf ruhundan axıb gəlibdir, bunlar onun içində azad, zaman təsirindən xali mənəvi bir dünya yaratmışdır. Belə bir dünyadan olan ədibin insan haqları uğrunda mücadiləsi də təbii və qanunauyğundur. Onu bir müəllif kimi heç vaxt tərk etməyən milli heysiyyət, sosial ədalət duyğusu, mənəvi paklığın təntənəsinə inam Elçin nəsrinin bədii siqləti və ciddiyyəti, ən başlıcası, bədii əxlaqıdır. Xalqın ziyalısının fəaliyyətinin əsasında həmişə ədalət axtarışı dayanmışdır. Ömər Xəyyam kimi düşünsək, ədalət kainatın ruhudur. Ruhun meydana qoyduğu məhsul böyük harmoniyaya xidmət edir. Yazıçı bizə həm də ədaləti öz içimizdə axtarmalı olduğumuzu təlqin edir. Ədalət isə ən böyük xoşbəxtlikdir.



***Məhrux DÖVLƏTZADƏ***

# VAQİF SƏMƏDOĞLUNUN DUALARI



Aleksandr Blok 1902-ci ildə gündəliyinə yazırdı: "Şeir duadır". Rus şairinin bu sözlərini Vaqif Səmədoğlunun şeirlərinə şamil etmək olar. Dua sakral varlıqlara, fövqəlqüvvəyə müraciət formasıdır. "Əsli ərəbcə olan "dua" sözünün "çağırış", "yalvarış" və s. kimi mənaları var" (7, s.237).

"Dua" Allahla söhbətdir, Allahla dialoq imkanıdır. İnsanın Allahla söhbəti müqəddəs sirdir. Sevgi, doğum və ölüm sirri kimi, Məhz duada insan Allaha ürəyini tam açır, tövbə edir. Xalq yazıçısı Anar şairin kitabına yazdığı ön-sözünü həssaslıqla və haqlı olaraq "Allahla söhbət" adlandırıb. Şair özü Allaha ünvanlanan bütün şeirlərini dua kimi qəbul edirdi.

V.Səmədoğlu poetik aktı inanc aktı ilə eyniləşdirir, poeziyanı Allaha ibadət kimi qəbul edir. Şairin tənhalıqda ibadəti poetik dualarla gerçəkləşir. Bu haqda aforistik deyimi də var: "Din kimidir poeziya. gərək təklikdə ibadət edəsən. Allaha əsl inam təklikdə olmalıdır". (11, s.15)

"Dua" Vaqif Səmədoğlu lirikasının əsas janrlarından biridir. Onun yaradıcılığında bu nitq janrının işlənmə fəallığı şairin təfəkkür tipi (mediativ) ilə bağlı ola bilir. Azərbaycan poeziyasında dua janrı mədəni-tarixi mühitdən və müəllifin dünyagörüşündən, inanc təsəvvürlərindən birbaşa asılı olaraq formalaşmış, tarixən dəyişkən nitq hadisəsidir. M.M.Baxtin deyirdi ki, "...nitq janrları insan şüuruna dil ilə birgə verilir. Danışmağı öyrənmək söyləm qurmağı öyrənməkdir. Biz ayrı-ayrı sözlərlə və cümlələrlə deyil, söyləmlərlə danışırıq" (6, c.257).

Böyük şairin "Dua" adında bir pritçası da var. Pritçanın personajları daim dua edirlər: Aşıq Salehin oğlu görür ki, onun anası "dumanın üstündə ağlaya-ağlaya dua eləyir"; "Poylu Qasım vıtrezvitelin bir küncündə uzanıb dodaqaltı dua eləyir"; "Hüsü Ayıdağın zirvəsində ayaq saxlayıb Allaha dua eləməyə başladı" (3, s.142, 143, 144).

Vaqif Səmətoğlunun poetik duası sadəcə mistik-magik söyləm deyil, həm də Yaradanla "danışanın son instansiya ifadəsi"dir (6, c.231). "Allah" şairin üz tutduğu və güvəndiyi fövqəlgücün adıdır. Düşüncələrinə hakim kəsilmiş, taleyini müəyyənləşdirən mifik addır. A.F.Losev deyirdi ki, "mif genişləndirilmiş magik addır" (8, s.196). Bu mifik ad yaradıcılığın başlanğıcı, əsas

təhtəlşüur elementidir və arxetipdir. Arxetip isə "ümumbəşəri kollektiv təhtəlşüurun məzmununu təşkil edən və insan təfəkkürünü və davranışını spontan şəkildə müəyyənləşdirən universal anadangəlmə psixi strukturlarıdır". (9)

Allah arxetipi Vaqif Səmədoğlu yaradıcılığının təşkilində mühüm rol oynayır: "Arxetiplərə yalnız ilkin obrazlar kimi deyil, ədəbiyyatın da əbədi obrazları kimi baxmaq lazımdır."

***...Allaha inanan***
***Gecəmdir yenə.***
***Şeir oxuyuram***
***Dua yerinə... (2, s.142)***

***Və bircə quş səsi eşidilməyən,***
***bu həsrətin içində***
***bilsəydim sözlərini***
***bir dua oxuyardım.***
***Quş səsi istərdim göylərdən.***
***Ancaq dua bilmirəm.***
***Bildiyimi,***
***Şeirlərimi oxuyuram***
***Üzümü qibləyə tutub.***
***Şair sevməyən Allah***
***Şeir sevirmi görəsən? (1, s.261)***

V.Səmədoğlunun şeirlərini iki cəhətə görə "dua" janrına aid etmək olar: 1) 2-ci şəxsdə müraciət formasında olduğuna görə, 2) adresatın sakrallığına, fövqəltəbii mahiyyətinə görə. Allah bu şeirlərin hər "yerindədir", gizli və ya açıq adresatıdır. Bütün ritorik sualların və ritorik nidaların ünvanı Odur.

***Ay Allah, kömək et, // kömək et, ölümdən əvvəl, // çıxsın beynimdən // Füzulinin, // Pasternakın şeirləri. // Unudum // atamla gəzdiyim hər yeri. // Kəsilsin // İçərişəhərdə eşitdiyim // qız toyunun qarmon səsi, // yox olsun gözlərimdən // öküzlərin // şaxtadan buxarlanan nəfəsi... // ...Kömək et, unudum // sevimli valsın // son taktlarını...// Qoy ölümdən əvvəl // yadıma düşsün // Varşava hettosunda oxunan // Mahnıların bilmədiyim sözləri: // Qoy Praqadan götürülüb, // dünyada qoyulsun // Yan Qusun // gözləri əsgiylə bağlanmış heykəli. // Qoy qulağımda olsun // qoy əzilsin əlimdə // xunbeyinlərin səsi, // yumularkən gözlərim, // tapılmamış dərmanın reseptitək // Türkmənçay müqaviləsi... // Ay Allah, kömək et mənə, // kömək et, ölümdən əvvəl...*** *(1, s.84-85)*

Bu şeir Vaqif Səmədoğlunun ən uzun "dua"larından biridir və məzmun struktur planında ibadət dualarından fərqlənir, yəni tamamilə müstəqil lirik janrdır. M.M.Baxtin yazır: "Lirika özünü içdən, emosional gözlərlə başqasının emosional səsində görmə və eşitmədir" (sitat üçün bax: 10, s.412)

"Dua" Vaqif Səmədoğlu sözünün sadəcə ontoloji dərinliyini əks etdirmir, həm də ekzistensial arxetiplərin (ölüm, yuxu, tənhalıq, ağırlıq) ifadəsidir.

***Yağış çilədi qəflətən,***
***Qurban olum sənə, Allah,***
***Sənə də, Vətən.***
***Tək qalmadı***
***bu sərxoş küçədə***
***bu elin***
***Şair övladı...*** *(1, s.318)*

Bəlkə də onun dualarına tragik nəfəsi skeptik ovqatı şairin pessimist dünyaduyumundan və düşüncə tipindən gəlirdi? Şair özü də müsahibələrindən birində etiraf edirdi ki, "mən həyata vurğun pessimistəm..." (5, s.158).

Bu duaların bir özəlliyi də ritorik sualların üstünlüyə malik olmasıdır. Ümumiyyətlə, Allahı "suallarla yormaq" duaların səciyyəvi cəhətidir. ***İlahi, // hansı dildə yalvarım sənə? // Bir dua yetər, // Yoxsa sənə də // ağız açmaq gərəkdir dönə-dönə?*** *(2, s.125)*

*Yaxud:*

***Ay Allah, // qanın da haqqı, // nahaqqı olurmuş? // Necə? Niyə? // Gəl, insan oğlu, // Gəl, indi yat, // Gəl indi oyan // Bilə-bilə...*** *(1, s.291)*

Allahın mövcudluğu məsələsi onu daim düşündürsə də, yenə də şeirini Ona ismarlayır. Amma bütün bu şübhələr, tərəddüdlər, "suallar dənizi" onu nə fanatik möminə, nə də amansız ateistə döndərə bilmədi. Ömrünün sonunacan Onunla dialoqu kəsilmədi, Ona "bu dünyada" – "burada" olduğunu xatırlatdı.

***Özümü zorla***
***Darta-darta çəkib***
***Şeirlərimə gətirdim.***
***Gördüm yenə***
***bir sözə,***
***bir Allaha bəndəm,***
***İkisi də sap kimi nazik...*** *(1, s.194)*

Vaqif Səmədoğlunun duaları "şüuraltı axını"n, yaxud daxili dialoqun yazıya alınmasıdır və onları iki yerə ayırmaq olar: 1) xahiş, arzu-dilək duaları; 2) təşəkkür, şükranlıq duaları. V.Səmədoğlu lirikasında xahiş, arzu-dilək duası bayatı-oxşama havası üstündə qurulur: ***Külək sovurur qarı, // Ömür həmişə yarı. // Allah, insafın olsun, // bir az yubat baharı. // Qışda görmüşdüm onu, // qarla gələn yolunu...*** *(2, s.119)*

Yaxud:

***İndi dərd çıxıb yola, // gəzir bağ evlərini, // qonşulara dəyməsin, // dəyməsin, aman Allah, // ağlayan olmalısa // iki gözdən axan yaş // kaş mənim ola...*** *(2. s. 192)*

Şairin təhtəlşüurunda dua arxetipi o qədər dərinə işləyib ki, istənilən şeirin strukturuna sadəcə "Allah" formulunun daxil edilməsi həmin mətn

bu dua enerjisini dəyişir, yəni "dua"nın başqa, yeni bir varianta daxil edilməsi yaranır. 2005-ci ildə nəşr olunmuş kitabının adı – "Mən burdayam, İlahi" – həmin enerjinin təsdiqidir və təsadüfi deyil.

***Meşədə***
***adam öldürürlər,***
***Allah!***
***O qədər ağacın***
***gözü qabağında!*** *(2, s.172).*

Bəzən Allahla bağlı fəlsəfi düşüncələrində, Allaha xitablarında asiliyə cəhd edir. şikayətini bildirir və ümidsizlik notları güclənir, amma yenə də Ona müraciət edir və bəzən ona elə gəlir ki, insanlar duaları ilə Allahı yorurlar: ***Səhər-axşam Allahı // duayla yora-yora, // Onunla həmdərd olub, // yorulmaq günahmıdır?*** *(1, s.370).*

***"Dua" ilə bağlı söz birləşmələrinin (yarpaq duası, işləkliyi // Səni yuxu basdı durduğun yerdə, // Allahı duayla yorduğun yerdə (1, s.233). // Balta səsi gəlmir, Allah rahatdır, // Bir yarpaq duası yormayır onu*** *(2, s.177).*

Dua janrının elementlərinin, söyləm intonasiyasının bütövlükdə lirika şeirə transformasiyası, sakral xitabların lirik mətnin strukturunda daxil edilməsi Vaqif Səmədoğlu şeirlərində dua və lirik diskursların özünəməxsus vəhdətini yaradır. Dua janrı lirik şeirdə strukturyaradıcı funksiyanı yerinə yetirir.

***Aman Allah, // yer üzünə daha sığmır, // göy üzünə yayılır qürbət... (2, s.261) // Üzüqara ürəyimə // nəsə // bir şey damıb. // O baş versə, // aman Allah, // balalara, // bir də meşələrə heyf...*** *(2, s.256).*

Vaqif Səmədoğlunun dualarını lirik meditasiyalar adlandırmaq olar: Onun Allahla səmimi, ərkyana söhbəti "Mən – O" modeli üzrə deyil, "mən – sən" mövqeyindən aparılır.

Onun dua mətnlərində şəxsi lirik yaşantıları mühüm rol oynayır. Məhz tövbə mediativ (zikr) xarakterli yaşantılar hər bir poetik duanın kompozisiyasına təsir edir.

Vaqif Səmədoğlu "dua"larının fəlsəfi cövhərini irfani-metafizik düşüncələr təşkil edir. Bütün düşüncələr, əslində, Allahla bitib qurtarmayan söhbətin "fraqmentləri"dir. Şairin obrazlı yaddaşı vasitəsi ilə sakral varlığa ünvanlanan hər bir söhbət mifik mahiyyətlidir. Hər bir mifik məlumat isə kommunikativ aktdır. Anar demişkən: "Nədən yazır-yazsın, şair Allahla danışır: "Ömür barədə, ölüm barədə, amansız dövran barədə, əbədi tənhalıq barədə, bu tənhalıqdan qurtulmaq aldanışı – qadın sevgisi və bu sevginin mümkünsüzlüyü barədə" (Anar, s.36). "Həyat-ölüm", "işıq-qaranlıq", "bu dünya" – "o dünya" qarşıdurmaları dualarının emosional strukturunu müəyyənləşdirir.

Vaqif Səmədoğlu üçün dua sözü həqiqətin, gözəlliyin və xeyirin təcəssümü idi, özündə sevgini və imanı ehtiva edirdi. O, dua sözünün

gücünə inanırdı. Ona görə də bu və ya digər durumda Onunla dərdləşmək, ”Onunla söhbət” ehtiyacı duyurdu.

Deyilənə görə, bu, şairin son duasıdır, ölümündən bir neçə ay əvvəl yazılıb: Onun son duası Allahdan ağrısız yatmaq diləyidir.

“Ağrıdan yaranan şeir... Son şeirin... 2014-cü ilin oktyabrı... (5, s.275)

***İlahi, // Yatağın nə sağında // nə solunda, // nə bir gözəlin qolunda // yatmaq istəyirəm. // İlahi, // nə söyüd kölgəsində, // nə dünyanın // ən azad ölkəsində // yatmaq istəyirəm. // İlahi, // dar quyu dibində, // qaranlıq nəm içində, // ağrısız // yatmaq istəyirəm...*** *(5, s.275)*



Maraqlıdır ki, “yuxuya getmək” ölüm metaforasıdır. “Dar qaranlıq quyu” məzarı simvolizə edir. Beləcə, 28 yanvar 2015-ci ildə şairin son duası Allaha çatmış oldu, onun ruhlar və yuxular səltənətinə yolçuluğu başladı.

***Rüstəm KAMAL***

***Ədəbiyyat siyahısı:***


1. Səmədoğlu V. Uzaq yaşıl ada (şeirlər və poemalar). – Bakı, Gənclik, 1999, -448 s.
2. Səmədoğlu V. Mən burdayam, İlahi... (şeirlər və poema). Bakı, Gənclik, 2005, -452 s.
3. Səmədoğlu V. Gürzəçöl yazıları (pritçalar). – Bakı, “Parlaq imzalar” Nəşriyyatı, 2016. -160 s.
4. Anar. Allahla söhbət // V.Səmədoğlu. Mən burdayam, İlahi... (şeirlər və poema). – Bakı, “Gənclik”, 2005. s.3-4
5. Babayeva-Vəkilova N. Mən sənin yuxunam. Bakı, “Parlaq imzalar” Nəşriyyatı, 2022, -320 s.
6. Бахтин М.М. Проблемы поэтики Достоевского. М.: Искусство, 1979. -363 с.
7. Sadıqlı V. Qarışqanın yağış duası // V.Sadıqlı. Quran İslamı. – Bakı, “Ziya” NPM, 2020, -s.237-243
8. Лосев А.Ф. Миф. Число. Сущность. М.: Мысль, 1994
9. Юнг К. Душа и миф: шесть архетипов. М.: 1997
10. Skvoznikov V.D. Liriçeskiy rod literaturı// Teoriya literaturı. T. III. Rodı i janrı – M.:İMLİRAN, 2003.– s. 394- 421.
11. Belə demişdi Vaqif Səmədoğlu... (aforizmlər və fotolar, 3 dildə) – Bakı, Mütərcim, 2024. – s. 80.

# ADİL BABAYEV - 100



Adil Babayev cəmi 52 il yaşadı (1925-1977). Amma Azərbaycan ədəbiyyatında özünəməxsus bir şair ömrü yaşadı.

Onun şəxsi həyatı başlanğıcdan – uşaqlıq, ilk gənclik illərindən ürəkaçan olmadı. Atası Qafar Babayev Naxcıvan Muxtar Respublikasının daxili işlər komissarıydı, sovet hakimiyyətinə, yeni quruluşa sədaqətli bir insan idi, amma onu şər-böhtan girdabına qərq etdilər, uydurma sənədlər, üzünə duran adamlar vasitəsilə güllələnməyə məhkum etdilər. Yalnız otuz bir ildən sonra o, bəraət qazandı. İkiaylıq uşaq – Adil Babayevin gələcək həyatı necə olacaqdı? Amma o ağır illərdə bu atasız uşaq xeyirxah insanların, xüsusilə anası Xeyransa xanımın qayğısıyla orta məktəb bitirdi, ali təhsil də aldı, Tiflisdə yaşadığı illərdə «Sovet Gürcüstanı» qəzetində çalışdı, oradakı ədəbi həyatın fəal üzvlərindən birinə çevrildi, ilk şeirlərini də o illərdə yazdı.

Adil Babayev təbiəti etibarilə nikbin adam idi. Oğlu – tanınmış jurnalist Etibar Babayev də bunu qeyd edir ki: «Ağır keçən uşaqlıq illəri, narahat gənclik çağları bərkə-boşa düşən bu insanı bədbinləşdirməmişdi, əksinə, o, nikbin və mübariz idi. Bu mübarizlik təbiətən sakit, davranışda mülayim, ətrafdakı hər şeyə və hamıya son dərəcə həssaslıqla yanaşan bu adamın xırda hisslərə əsir olmamasında, saxtakarlığın, riyakarlığın, yaltaqlığın hər cür təzahürlərinə açıq düşmən kəsilməsində, amalından bir an belə dönməməsində, qəlbinə xəyanət etməməsində özünü büruzə verirdi. «Nə qədər xöşbəxtəm yer üzündə mən, Gözümü dünyaya açdığım gündən, Xırda duyğulara əsir olmadım».

Hər insanın həyatında gur işıq yandıran, onun tərcümeyi-halında müstəsna yer tutan bir şəxsiyyət olur. Adil Babayevin həyatında – şair ömründə belə bir şəxsiyyət böyük şairimiz Səməd Vurğun idi. Adil Babayevin «Çinar» şeiri... Vətəndən uzaqlarda yaşayan bir azərbaycanlı öz doğma yurduna qayıdır, cavanları başına yığıb ilk gənclik illərindən söz açır:

***Daddıqca aləmin hər nemətini,***<br>
***Dilbər guşələrdə ötdüsə ömrüm.***<br>
***Dünyanın ən böyük səadətini***<br>
***Bu boylu çinarın altında gördüm.***

Səməd Vurğun bu şeiri oxuyub və çox təsirlənib. O, «Mənim arzum» şeirini yazır və gənc şair Adil Babayevi ürəkdən alqışlayır:

***Şair, nə incədir rübabın sənin,***
***Uçurdu ruhumu çaldığın o saz!***
***Vətən torpağında bitən gülşənin***
***Yarpağı saralıb çiçəyi solmaz!***

Məhz Səməd Vurğunun göstərişi ilə 21 yaşlı Adil Babayev SSRİ Yazıçılar İttifaqına üzv qəbul olunur. Sonralar – atası bəraət alandan sonra o, kommünist partiyası sıralarına da qəbul olunur və ona təqdim edilən sənədlərdə atasının güllələndiyini gizlətmir.

Azərbaycan Yazıçılar İttifaqının sədri o zaman Səməd Vurğun idi. O, Adil Babayevi öz kabinetinə dəvət edir və burada gənc şair Adil Süleyman Rəhimovu, Süleyman Rüstəmi və başqa görkəmli sənətkarları görür. Səməd Vurğun Adil Babayevin "Çinar" şeirini tərifləyir və ondan xahiş edir ki, daha bir neçə şeirini oxusun. Gənc şair yeni şeirlərini ustadın qarşısında oxuyur. Səməd Vurğun elə ordaca "Kommunist" qəzetinin redaktoru Əli Vəliyevə zəng edir. Ondan xahiş edir ki, yanına Adil Babayev adlı şair gələcək. Onun şeirlərini bəyənmişəm. Sən də o şeirləri oxu, qəzetində dərc elə. Görüşün sonunda Adil Babayev üzünü Səməd Vurğuna tutub çəkinə-çəkinə deyir: "Səməd müəllim, mənim atam güllələnib, "Kommunist" qəzetində bu şeirlər gedərmi?". Səməd Vurğun deyir: "Oğlum, gedər, Stalin deyib ki, oğul atasına görə günahkar deyil".

Adil Babayevi birmənalı şəkildə «sovet şairi» hesab etmək istəməzdik. O, həyata, yaşadığı cəmiyyətə, təbiətə, gözəlliklərə və hər şeydən əvvəl, humanizm ideallarına sadiq idi. Onun müxtəlif illərdə çap olunmuş «Gənclik illəri», «Gecikmiş bahar», «Yolda görüş», «Ümid sərvləri», «Təzədən doğulur şair ölən gün», «Fəsillər dəyişəndə» və s. şeir kitablarında əsas mövzu İNSAN və onun mənəvi dünyasıdır.

Adil Babayev Azərbaycan ədəbiyyatında sonet janrının yaradıcısı kimi də tanınır. «Yaradıcı» sözünü əbəs yerə işlətmirik. Adil Babayevdən öncə də poeziyamıza Qərb ədəbiyyatından «qonaq» gələn sonetlər yazılıb (Seyid Səlmasi, Əlipaşa Səbur, Əmin Abid, Abdulla Şaiq, Hüseyn Cavid, Abbas Səhhət, Mikayıl Müşfiq, Əhməd Cəmil, Əliağa Kürçaylı), amma bunlar ilk təcrübələr idi. Adil Babayev isə, əsasən, italyan soneti qəlibində qələmə aldığı sonetləri ilə bu şeir formasını tamamən milliləşdirdi. Dahi Şekspirdən təsirləndiyini özü də etiraf edirdi. Amma Adil Babayevin sonetlərində Azərbaycan şeirinin özəllikləri öz əksini tapır. Və həm də bunu qeyd edək ki, onun sonetlərindən sonra bir çox şairlər (Abbasağa, Şəkər Aslan, Vaqif Hüseynov, İltifat Saleh, Sabir Mustafa, Əhməd Haqsevər, Elşad Səfərli, Balayar Sadiq və s.) sonetlər və sonetlər çələnglərini qələmə aldılar.

Sözümüzü Adil Babayevin bir soneti ilə tamamlayaq:

***Təzədən doğulur şair ölən gün,***
***O gündən başlanır təzə həyatı.***
***Ya düşür yoluna ölümsüzlüyün,***
***Ya da unudulur biryolluq adı.***
***Hər səmimi misra, hər odlu sətir,***
***Çıraqdır yolunda əbədiyyətin.***
***Hər kəs ki, könlünə xəyanət edir,***

***Günü ağır olur, həyatı çətin.***
***Günlərlə, aylarla girək yarışa,***
***Ömrü od içində çatdıraq başa.***
***Fitkrimiz bir an da sakit olmasın.***
***Təki illər boyu yazdıqlarımız,***
***Güllərlə örtüləntək məzarımız,***
***Dillərdən düşməsin, unudulmasın.***

...Adil Babayev həm də dramatur və teatrşünas idi. Onun neçə pyesi Azərbaycan teatrlarının səhnəsində uğurla tamaşaya qoyulmuşdur. Bir teatrşünas kimi isə Azərbaycan teatrının problemləri ilə bağlı monoqrafiyaları və məqalələri çap olunmuşdur.

# DİLSUZUN 80 YAŞI



***Bura Vətəndi,***
***Gülü bitəndi,***
***Əlim çatandı,***
***Ünüm yetəndi –***
***Bura Vətəndi.***
***Kəpəz ucadı,***
***Yolu xalçadı,***
***Gülü qönçədi,***
***Gedən gözəlin***
***Eli Gəncədi.***
***Bura Arazdı,***
***Suyu dayazdı.***
***Gəmim buz tutur –***
***Neynim, ayazdı,***
***Leylim, ayazdı.***
***Bu el Şuşadı,***
***Gözəl Şuşadı,***
***Üzmə gülünü,***
***Gülü qoşadı –***
***Gözəl Şuşadı.***

Bu gözəl mahnını (musiqisi Cavanşir Quliyevindir) tez-tez efirdən eşidirik. Bəlkə də çoxları mahnıya söz yazan müəllifin kim olduğunu bilmir.

Dilsuz Mustafayev – şair, publisist, tərcüməçi. «XX əsr Azərbaycan yazıçıları» ensiklopedik məlumat kitabçasını vərəqləyək. Dilsuz 1945-ci il martın 1-də Tərtər rayonunun Buruc kəndində anadan olub. Orta məktəbi bitirəndən sonra Politexnik İnstitutunun avtomatika fakültəsində təhsil alıb. Amma cəmi iki il öz ixtisası üzrə çalışıb. Buracan bəsdir...

Hansı bir qüvvə isə onu mühəndislikdən uzaqlaşdırıb. Təbii ki, şeirə, sənətə olan və içində get-gedə şiddətə çevrilən bir yanğı olub. Dilsuz on bir il Azərbaycan Radio və Televiziya şirkətində redaktor kimi çalışıb. On dörd il də «Azərbaycan» jurnalı redaksiyasında ədəbi işçi və şöbə müdiri olub (1979-1992).

Əlbəttə, biz Dilsuzun jurnalımızdakı fəaliyyətini, müəlliflərlə münasibətini, xüsusilə cavan şairlərə qayğısını unutmamışıq. Amma jurnalda işlədiyi bu on dörd il həm də onun bir şair, nasir, publisist və tərcüməçi kimi tanınmasını sübut elədi. 1981-ci ildə «Yazıçı» nəşriyyatı Dilsuzun «Ağatlı oğlanın nağılı» şeirlər kitabını çap etdi. 70 səhifəlik bu kitabda Dilsuzun 37 şeiri verilmişdi. Aşağıdakı bölümlərdə: «Dünya, səndən umacağım var», «Oğuz ellərinin öygüsü» və «Sevgi gülləri». Hiss olunurdu ki, ixtisasca mühəndis olsa da, Dilsuz şeirin mühəndisinə çevrilib artıq. Çünki onun təqdim etdiyi şeirlər poetexnikanın tələblərinə tam cavab verir. Necə deyərlər, şeirin mühəndisi avtomatika mühəndisinə qalib gəldi. Kitab «Vətən» şeiri ilə açılırdı və Dilsuzun bu şeiri şablon VƏTƏN şeirlərindən tamamilə fərqlənirdi. Obrazlı deyimlərinə görə.

***Bu yurdun buğdası günəşdən sarı,***
***Bu yurdun buğdası ulduzdan iri.***
***Gəl çıxart təndirdən, Sarıtel qarı,***
***Günəş kökələri, Ay kökələri.***

***Bu yurdun bir dağa boy verməz dağı,***
***Uçar qartalları Günəşə kimi.***
***Payız xınalanar əli-ayağı,***
***Yazağzı göyərər bənövşə kimi...***

Üstündən 44 il keçsə də, Dilsuzun «Ağatlı oğlanın nağılı» kitabındakı o şeirlər indi də öz poetik incəliyi, obrazlılığı, sözün əsl mənasında ürəyə yatımlılığı ilə heç də öz təravətini itirməyib. Dilsuz «Dədə Qorqud» dastanlarının, xalq şeirinin, türk poeziyasının aludəsi idi və şeirlərində bu təsir özünü göstərirdi. Əlbəttə, yamsılama kimi yox. Ənənədən gələn davam kimi.

***Bir nar ağacı var Gündoğanda,***
***Bir nar ağacı var Günbatanda;***
***Aralarında dünya.***
***Bir-birinə əyilib nar ağacları.***
***Bir qurd var Gündoğanda***
***Bir qurd vap Günbatanda;***
***Aralarında dünya.***
***Dünya qurda neyləyər?***
***Bir uşaq var Gündoğanda,***
***Bir uşaq var Günbatanda;***
***Aralarında dünya.***
***Amma ayrılıqları dünyadan böyük –***
***Dünyadan böyük olmaq sənə asan gəlməsin.***

O kitabdakı «Sevgi gülləri» bölməsi isə hazır mahnı – bayatı mətnləridir. Bir neçəsinə bəstəkarlar da müraciət etdilər.

***Əziziyəm şüşədi,***
***Pəncərəsi şüşədi.***
***Yuxudan duran qızın***
***Gözləri bənövşədi.***

Dilsuzun həmin illərdə «Azərbaycan» jurnalında «Yol» adlı çox maraqlı bir hekayəsi dərc edildi. Və hamı elə düşünürdü ki, Dilsuz nəsrdə də o yolu davam etdirəcək, yeni hekayələri ilə bu janrda da parlayacaq. Amma... 1993-cü ildən sonra onun yaradıcılığında bir fasilə yarandı. Dilsuz Nazirlər Kabinetində işə getdi. Təbii ki, içindəki yaradıcılıq, şeir-sənət odu sönmədi, amma çox az yazdı. Və son illərdə, yaşının bu səksəninci çağına gəlib çatanda bir hekayə müsabiqəsinə qatıldı, mükafatçılardan biri oldu.

«Azərbaycan» jurnalında vaxtilə onunla bir redaksiyada «külüng vuran» İntiqam Qasımzadə, Nəzakət Məmmədova, Məmməd Oruc və Vaqif Vaqifli 80 yaşlı Dilsuzu təbrik edir – «Kim ki yüz il yaşamasa, günah onun özündədir» misralarını ünvanına çiçək kimi yağdırırlar.

***Vaqif YUSİFLİ***

# GÖYLƏR QIZI



## *Nisə Bəyim – 70*

***Mənim ölümümə yanmayın, dostlar,***
***Gözünüz dolmasın adım gələndə.***
***Məni yanınızda bilin həmişə,***
***Sözümü danışıb deyib-güləndə.***

Allah-təala insanı həyata gətirəndə, onun həyat yolunu da əvvəlcədən yazır. Hərənin bəxtinə bir yol, bir məqam düşür. Şairlərə verilən ilham da bir Allah vergisidir. Bu vergi sahiblərindən biri də Azərbaycan Yazıçılar Birliyinin üzvü, tanınmış şair, nasir və publisist, iyirmiyə yaxın kitabın müəllifi Nisə Bəyimdir. Onun yaradıcılığı hələ sağlığında sevilmiş, dəyərləndirilmiş, bir sıra mükafat və diplomlara layiq görülmüşdür.

Hər bir şairin yaradıcılığında əsas diqqəti çəkən mövzu rəngarəngliyidir. Amma hər oxucunun da diqqətini çəkən, müəllifi ona sevdirən mövzuları vardır. Nisə Bəyim poeziyasında məni ən çox tutan, fikrimi uzaqlara aparan göylər mövzusudur. Şairin "Yerə, göyə, Tanrıya" (1997), "Ayla, günlə bərabər" (2002), "Yeddinci kitab" (2007), "Qürub rəngləri" (2011), "Duyğu yağışları" (2013), "Altı on – on altı" (2015), "Miraj" (2018), "Diri-diri" (2020) adlı kitablarını vərəqlədim, onun göylərlə bağlılığına heyran qaldım.

Mənimçün Nisə Bəyin göylər qızıdır. Onun şeirlərini oxuyanda düşünürəm ki, şair qısa ömrünün çox hissəsini göylərdə olub. Evdə olanda da, işdə olanda da, dərsdə olanda da, hətta yeyib-içəndə də...

***Mən özüm özümü anlamadım heç,***
***Ürəyim Tanrıdan, qəlbim Tanrıdan.***

***İlahi bir yolun müsafiriyəm,***
***İnamım Tanrıdan, qibləm Tanrıdan, -***

deyən şairin fikri "günahlarını ağlayan" buludlarda, "günahlarını yağan" yağışlarda, "dünyanı bürüyən yağış harayı"ndadır.

"Fələklə baş-başa qalıb" ona meydan oxuyan, ondan gələn zülmlərə, əzablara dözən, bunu adi qəbul edən, bir gün "bir bulud yaşa" dönəcəyini düşünüb, qəlbinin ən dərin guşəsində bəslədiyi yağış arzularını misralayan, göylərin yağışlarına qarışaraq "bir yağış günü" dünyaya yağacağına inanıb, göylərə üz tutan, "bir yağış duyğusuyla" dünyanın yuxusuna girəcəyini düşünən şair "göylərin bəxt zolağında" ruhlarının bəyaz tülə bürünəcəyinə, o zaman ölümün də, sevginin də gözəl görünəcəyinə inanır. "Orda qəlbimizi nə xatirələr, Nə də səhvlərimiz incidə bilməz" yazan müəllif düşünür ki, ora burdan daha gözəldir, orada heç kimin qəlbinə toxunmurlar, orda səhv etmək də yoxdur, səhvlərə görə danlanmaq da yoxdur.

"Keçərik dünyanın günahlarından" düşüncəsilə şair bu fani dünyanın hər cür pisliyindən, eybəcərliyindən qaçıb saf, təmiz göylərə uçmaq istəyir. O, "Bəlkə ruhumuzu çəkən bu sirdə Başqa bir dünyanın sevgisi vardır" deyəndə insanın zatən göylərə bağlılığına, göydən gəldiyə, bir gün ruhunun göylərə gedəcəyinə inanır. "Bizi xatırlarmı dualarında Göynəyə-göynəyə yağan yağışlar" nigaranlığı ilə öz arzularına çatmaq üçün yağışlardan dua gözləyir. "Başını qaldırıb göyə baxanda, Dolu gözlərinin yaşı üşüyər" kimi misralar şairin göylər həsrətini açıqlayır. Bu düşüncələr misralandıqca, şair böyüyür, möhkəmlənir, bu dünyanın sirlərini açmaq üçün daha yüksəklərə uçmaq istəyir və yazır:

***İsnişə bilməzsən yad küçələrə,***
***Soyuq ürəyinə bir anda köçər.***
***Könlündən nəyəsə qovuşmaq üçün***
***Köçəri quşlara qoşulmaq keçər.***

Nisə Bəyimin yağışa müraciətlə yazdığı şeirdə həm arzudan doğan xahiş var, həm üsyandan doğan qəzəb. Yağışdan həyəcanla yağmasını, yatan dünyanın duyğularını oyatmasını, "Yalan çirkabında batan dünyanın" ruhunu təmizləyib, günahlarını yumasını istəyən şair "Göylərin yağışla yağan sözünə" qulaq asmaq istəyir. Yağışlar göylərin sirrinimi gətirir şairə? "Həsrətin kütləşən iztirabları Yağış duyğusunda yenə dirilər" deyən şairi həm göylərin hikməti, həm yağışın hikməti maraqlandırır və özünü axtaran şair məhz bu vəhdətdə tapacağına inanır. Bu inam onu göylərə, buludlara, yağışlara bağlayır. Göy boyda sevgisi, bulud boyda qəmi, yağış boyda sevinci olan şairin kitab-kitab şeirləri yazılır. Göylər qızının "Yağış şeirləri" silsiləsindən olan əksər şeirləri belə yazılıb.

Göylər qızının göylə bağlı bir sərbəst şeiri də maraq doğurur: "Əllərim ağrıyır... göydən nəm çəkir, qollarım uçunur yaralı quş tək... ürəyim çırpınır barmaqlarımda, gizlənib kəsilir nəfəsimədək...

Ağrının adı var, ağrı nədir ki, gözümdən düşən yaş daşa çevrilir, çəkdiyim açılar hər gecə ölür, hər səhər dirilib quşa çevrilir... Mən lələk salırdım vaxtın üstünə, qonurdum göylərin buludlarına... zirvədən-zirvəyə uçurdu ruhum,

kimin gözü dəydi qanadlarıma?..". Burada "əlin göydən nəm çəkməsi", "gözdən düşən yaşın daşa çevrilməsi", "gecə ölən ağrıların səhər dirilib quşa çevrilməsi" maraqlı təşbehlərdir. Bu şeirdə keçmişə həzin bir həsrət var. Bir zaman vaxtın üstünə lələk salan, buludlara qonan şairin zirvədən-zirvəyə uçan ruhunu indi sarsılmış görürük. Şairin sondakı sualı da maraqlıdır.

Bir şeirində şair gözəl bir fəlsəfi məqamı misralamışdır. İnsan ağlınn bədənləri öldürüb yerə basdırdığını, zamanda insan ruhunun qanadlanıb İNSANı göyə çəkdiyini qeyd edən müəllif əvvəldən - axıra kimi insan varlığının yerlə göy arasında bölündüyünü, yarımızın, yəni ruhumuzun qeyblərdə yaşadığını, yarımızın, yəni bədənimizin bir ömür günahlarımızı daşıdığını obrazlarla təqdim edir. Şair burada get-gedə ayrılığın böyüdüyünü, insanın özünə yadlaşdığını, özümüzə gedən Tanrı yolunu unutduğumuzu təəssüflə bildirir və çıxış yolunu göstərərək, üsyankarcasına sıxılmış ölçülərdən çıxmağı, içindəki hasarları yıxmağı məsləhət görür və yazır:

***Dönəsən gözlənilən zamanın küləyinə,***
***Köçəsən bir eşq kimi göylərin ürəyinə.***
***Özünə qayıtmağın tək xilas yolu budur!***
***Ruhunu yaşatmağın tək xilas yolu budur!***

Kitabdakı digər bir şeirdə sözünə "Mən elə zaman kimiyəm" msrası ilə başlayan şair düşünür ki, kiminçünsə vardır, kiminçünsə yox, kimi onun qədrini bilir, kimi də onu boş yerə məhv edir, kimi onu anlamaq istəyir, kimi də kənara atır, kimi səbrlə nazını çəkir, kimi də üstündən keçir, kimi səbəb axtarır, kimi bəhanə və bunların hamını onda qalır. Şair zaman kimi hamını, hər şeyi özündə saxladığını, zamanla dərk olunub, zamanla qeyb olduğunu vurğulayır və "Mən zamanın özüyəm" deyir. Bir insanın, bir şairin zamanla müqayisəsi maraqlı paraleldir.

Bir sərbəst şeirində zamanın dərdlərinə şərik olan şairin ağrı-açılarına biz də şahid oluruq: "Gördüklərimə gözlərim şahid... Gözlərimə göz yaşlarım şahid... Göz yaşlarıma yaralarım şahid... Yaralarıma ağrılarım şahid... Ağrılarıma ürəyim şahid... Dəfnimə dörd şahidim yoxsa, Ölümümə Allah şahid...".

Əslində, şairə şahid lazım deyil. Hər olayın şahidi həm də başqa bir olaydır. Şair olayların bir-birini növbələdiyi bu dünyada həyatın fani olduğunu, sonunda ölüm deyilən bir həqiqətin durduğunu, onu da hamıdan əvvəl Allahın bildiyini poetik rənglərlə vermişdir.

Başqa bir şeirdə gözlərinə uzaqlardan çən düşdüyündən, ürək yollarının toranlaşdığından şikayət edən müəllif ara-sıra xatirələrin titrəşdiyini, yaraların qaynadığını xatırladır və ona elə gəlir ki, ötən ruzgarın səsini eşidir və düşünür ki, bəlkə, səssiz, soraqsız gedənlər sağdır, bəlkə, şübhələrdə itənlər bir xəbər gözləyir və fikrini belə sonlandırır:

***Hər tərəfim yağışlarla göllənir,***
***Qanla dolan ürəyimdən çıxıram...***
***Tale ilə bu təkbətək döyüşdə***
***Mən dünyaya ulduzlardan baxıram...***

Yenə yağışlar, yenə göylər! Nisə Bəyim yaradıcılığının şah obrazları!

Başqa bir sərbəst şeirində şair sanki ruhunun şəklini çəkir: “İlğım – yığım-yığım yığılan, dalğa-dalğa dalğalanan, dağılan, qumlanan, dənələnən, tamlanan, ləpələnən, Heçliklərə, boşluqlara, yoxluqlara yıxılan, lağım-lağım lağımlanan, yox olan, şırım-şırım şırımlanan, əriyən, tarım-tarım tarımlanan, kiriyən, sarım-sarım sarımlanan, səyriyən, salxım-salxım salxımlanan, sallanan, küləklərdə, dənizlərdə, dəryalarda kükrəyən, ürəkləri, duyğuları bürüyən, işığa, nıəfəsə, səsə dönən, mənə dönən, sənə dönən, duyum-duyum duyulan, uyum-uyum uyuyan yuxum, uyğum, duyğum, ruhum, ruhum,, ruhum – İlğım”. Burada şair əvvəlcə ilğımın tərifini verir. Sonda həmin ilğımın əslində şairin ruhu olduğunu görürük. Nisə Bəyimin belə ruha sahib olması heç də təəccüblü deyildir. Bu, Göylər qızının ruhudur...

Nisə Bəyimin maraqlı şeirlərindən biri də “Mənə ürəyimdən yol verin gedim” misrası ilə başlayan şeirdir. Şair ürəyindən yol istəyir, yarpaqdan, çiçəkdən, daşdan ayrılmağa, torpaqdan, göydən yol istəyir, bahardan, payızdan, qışdan ayrılmağa, gecədən, gündüzdən yol istəyir ruhunu çəkib aparmağa, gözlərindən göz yaşlarını, dərdindən ahını çəkib aparmağa. İşıq tək yuxusundan, ən böyük sevgisi olan şeirindən keçməyə, kirpiklərini ümidindən yığıb, xəyal kimi sıyrılıb ömründən köçməyə yol istəyən göylər qızı yenə də göylərə müraciət edir:

***Mənə ölümümdən yol verin, göylər!***
***Ən böyük sədləri uçura bilim.***
***Ən çətin sınaqdan yol verin mənə,***
***Yoxdan var olmağı bacara bilim.***

Növbəti şeirini “Göylərdən gəlir bu dərd, Nə sonu, nə əlacı var” misraları ilə başlayan şair qədim dua kitabında ölümün iki ucunun olduğunu qeyd edir, bu fəlsəfəni açmaq istəsə də, bir qədər mücərrədliyə gedir. Nisə Bəyimin bir sıra şeirlərində biz bunun şahidi oluruq. Bir sirri düşünür, öz fəlsəfəsiylə onun həqiqətini açmağa çalışır, amma ilhamı bir qədər gedir, sonra yorulub yarı yolda qalır. Şeirin sonunda tamam başqa bir məcraya yönəlir. Bəzən isə şeirin əvvəlində istədiyindən sonda imtina edir, sanki şair bir şeirdə bir fikrinin inkişafını izləyir, kamilliyə gedən yolu izləyir, sonda istədiyinə çatırsa, razılaşır, istədiyini tapmırsa, ondan imtina edir.

Bir sərbəst şeirində yazır: “Mənə göyləri deyil... Göyün yağışlarını verdin... ulduzların əvəzinə... göz yaşlarını verdin... İstədim dağım olasan... dağ oldun ürəyimdə... mənim özümdən böyük yük oldun kürəyimdə... Dərdini nə götürə... nə də ki ata bildim... Yolu nə gedə bildim... nə də qayıda bildim... Sən məni peşman etdin... sevincimdə... qəmimdə... mən özümü itirdim... yox oldum qədərimdə... Sən məni həm “sən” ilə... Sən məni həm “mən” ilə... Sən məni dünya ilə... Vaxtla üz-üzə qoydun... Sən məni Allah ilə... Haqla... üz-üzə qoydun...”. Şair sevgisinin onu göylərə qaldıracağını düşünür, amma əksinə olur, yerdə qalıb göyün yağışına tuş gəlir. Bu yağış, əslində, dərd yağışıdır. Ulduzları istərkən nəsibi göz yaşları olur. Onu arxasında dağ kimi görmək istərkən, sinəsində dağ olur. Özünü onda tapmaq istərkən, özünü də itirir. Sevən bir ürək sevgisiylə,özüylə, dünya ilə, vaxtla, nıəhayət, Allahla – Haqla üz-üzə qalır və sevdiyinə peşman olur...

“Gəl açaq taleyin fal kitabını, görək bəxtimizə nələr çıxacaq” misraları ilə başlayan şeirində şair aldanış da gözləyir, uğur da. Burada “Bizi olacaqmı heyrətləndirən”, “Yenə aldanacaq sadəlövh inam”, “Kimsə uduzacaq bütün ömrünü, Kimsə ölümünə qalib gələcək”, “Kimsə öz səhvinə baxıb güləcək”, “Kim bilir, kim udub, kim uduzacaq, Bu sirli oyunda udan varmı heç?” kimi düşüncələrini oxucularla bölüşən müəllif sonda əvvəlki fikrindən imtina edərək yazır:

***Yox, yox, bəxtimizə gəl fal açmayaq,***
***İnanaq ən təmiz,ən xoş niyyətə.***
***Göylərin ən ülvi duası kimi,***
***Qovuşaq ilahi bir şeriyyətə.***

Bir şeirində şair düşünür ki, yaşadığı bu ömür onun alın yazısına oxşamır, bu tale yazısı onun deyil. Onun açmaq istədiyi qapılar tamam başqadır. Amma şair sual qarşısındadır, bu qapılar yerinmi, göyünmü, bilə bilmir. Şair bu tilsimləri, bu sirləri açmaq istəyir, yer üzündə qərib bir adaya bənzətdiyi qəlbinin qəmini, kədərini bölən olmadığından, bir ovuc ağrıya, bir ovuc aha, bir ovuc yağışa bənzətdiyi ürəyinin dəliliyindən, alın yazısına oxşamayan ömrünün ona dünya kimi uzaq olduğundan şikayətlənir, sonda fikrini cavabsız sualla bitirir: “Özüm də bilmirəm, bilmirəm, Allah, Mən niyə girmişəm insan cildinə?!”.

Bir sərbəst şeirində şair yazır: “Dünya gözüm boydadır, Gözüm boyda təəccüblənirəm dünyaya, Gözüm boyda baxıram ulduza, aya... Bir qırpımda yox oluram, Bir qırpımda yığılıram, Bir qırpımda doğuluram, Dönürəm oda, suya... Gözüm boyda görünür nifrətim, məhəbbətim, Yağışlar gözüm boyda yağır, Dağlar gözüm boyda ucalır... Ürəyim gözüm boyda... Gözüm boyda gülüb-ağlayıram duyğularımda, Nə boyda oluram yuxularımda...”. Burada şairin həm təəccübü var, həm də heyrəti. Əslində, dünya böyükdür, insan onu elə gözü boyda, yəni görə bildiyi qədər görür. Bəzi insan çox şeyi görmək istədikləri qədər görürlər. Göylər qızına hər şeyi gözü boyda görmək bəs edir. Sonda şair gerçəkliklə yuxudakı görümün paralelini verir.

Başqa bir şeirinə “Mənə oxşamırdı o payız günü, o payız axşamı mənim deyildi” misraları ilə başlayan şair getməyə yer axtarır, amma hər yer ona qərib görünür. Dili sözlərindən, ağrısı ağrısından, canı canından, yaşı gözlərindən xəbərsiz olan o payız gününü şair dünyanın yalan çağı hesab edir. yağışların yerə yalan tək yağdığını, öz günahlarını yumağa çalışdığını və təqvimdə qəmli günlərə döndüyünü bildirir...

***Ağladım gecənin qaranlığına,***
***Gecə götürmədi göz yaşlarımı.***
***Buludlar ahını tökdüyü yerdən***
***Yığdım damcı-damcı yağışlarımı.***

yazan şairin gecədən ayrılıb içinə döndüyünün, könlünə yığılan qəmdən asıldığının, o qəlbsiz hesab etdiyi gecədə köz-köz düyünlənib, köz-köz açıldığının, ümidinin min yerdən sındığının, yaxını, uzağı seçə bilməməsindən gileyləndiyinin şahidi oluruq. Dünyanın hər əzabından keçən şair gecənin sirrindən keçə bilməməsini, özünün heçliyini anlamasını yalnız Allaha söyləyir.

“Gecələrin nazı ağır, dərdi çox, qərib olar gecələrin qəmi də” misraları ilə başlayan şeirdə gecənin tərifini verən şair küləklərin şərqisini dinləyir, çiçəklərin yuxusuna tamaşa edir, “Yağışların qəm gətirən qoxusu”nu içinə çəkir.

Vaxtın amansız hökm oxuduğu, duyğuların harayının eşidilməz olduğu, yalanların duman kimi çəkildiyi gecələr, bəzən həsrətlərdə yox olan, bəzən həsrətlərdə oxunan gecələr şairin qələmində misralanır, hərə öz naxışında, hərə öz zülmətində öz varlığını təsdiq edir.

Nisə Bəyim bir sərbəst şeirində yazır: “İçindəki daşqalaq uçqunların lal məzarlığı... qapqara şübhəyə bürünmüş gecə yadlaşmış kölgələrin xarabalığı... Kimsə canlı deyil ölü xatirələrdə, nəfəsi tükənmiş bütün sözlərin... cansız lövhələrlə danışmaq olmur, sancır... qapanmayan quru gözlərin... Qədrini bilmədiyin göz yaşlarına ehtiyac duyarsan, qanını içər... İlahi... bu anda bomboş içindən bütün yağışları diritmək keçər... içərsən göyün üzünü, ulduzları süsləyərsən... səsinə səs verənədək, öz-özünü səsləyərsən...”. Şair burada bir insan ruhunun portretini yaratmışdır. Bu ruhun sahibi illərlə bu fani dünyanın eybəcərliklərini görmüş, layiq olmadığı münasibətin, haqsız məzəmmətlərin zərbəsindən qəlbindəki bütün uca heykəllər uçulmuş, bir daş yığıntısına çevrilmişdir. İçində qaranlıqda kölgə kimi görünən varlıqların xarabalığından başqa bir şey yoxdur, çünki “Kimsə canlı deyil ölü xatirələrdə”. İçindən yenilənmək, yağışları yenidən diriltmək keçir. Ulduzları səsləyib köməyə çağırır, heyhat!...

Göylər qızının kədərinə şərik olan buludlar, yağışlar, gecələr, onu özündən alan dərdlərini ovudan, önu özünə qaytaran varlıqlardır. Göylərə üz tutan şair hər varlığın kədərini anlamağa çalışır. Bəlkə də insan başqalarının kədərini anladıqca, öz dərdlərini unudur. Bir şeirdə ürəyinin ağır dəmlərinin vaxtdan tez ötdüyünü, tez unudulduğunu misralan şair yazır:

***Düşərəm gecənin dərinliyinə,***
***Vaxtın da hökmünü unuda billəm.***
***Dünyanın ən səfeh adamı kimi,***
***Kim olsa, dərdləşib, qəlbimi bölləm.***

Burada maraqlı məqamlardan biri də şairin dərdini deyil, qəlbini bölməsidir. Dərdini bölən dərd verir, qəlbini bölən dərd alır. “Dərd bölmək” çox şairlərin şeirlərində var. Amma “qəlb bölmək” ibarəsi ilə mən ilk dəfədir ki, rastlaşıram. Nisə Bəyim poeziyasında belə tapıntılar az deyil.

“Bu dünyanın qaydasıdır” misrası ilə başlayan şeirində dünyanın gülənlə güldüyünü, çörəyini namərdlə, dərdini mərdlə böldüyünü, dirilərin yalandan yaşadığını, ölülərin gerçəkdən öldüyünü dünyanın qaydası kimi təqdim edən şair dağ başını qəm bürüyəndə göylərin yağan yağışını, gecələrin göz yaşını sabahın ümidinin sildiyini, güllər ətir saçanda bülbüllərin şeydalandığını, eşqə düşənlərin sevdasının Haqdan gəldiyini poetik obrazlarla oxuculara çatdırır və sonda yenə də göylərə üz tutur və sonda həyatın “Dərin-dərin dəryaların, şirin-şirin xülyaların, Yaratdığı dünyaların sirrini tək Tanrı bilər” qanunu ilə razılaşdığını bildirir.

... Nisə Bəyimin mənəvi ölümlərinin sayı beşdimi, ondumu, yüzdümü, mindimi, bunu ancaq şairin özü bilir. “itirib göz yaşını da, acı-acı güləcəyəm, itirdiyim itkilərin sayı qədər öləcəyəm” deyən şair hansı itkiləri yaşayıb, kimlər gəlib keçib həyatından, mənəvi ölümlərin, cismani ölümlərin ünvanı hardadır?

Haçansa belə bir yazım vardı: "Ürəyimdə adsız bir qəbristan var, oranın sakinlərini ancaq özüm tanıyıram". Nisə Bəyimin yaşantıları mənə o qədər yaxındır, çoxunu yaşamışam. Onu o qədər gözəl anlayıram. Sadəcə, bir şeyə təəccüb edirəm ki, ruhən bu qədər yaxın olan bir adamla niyə sağlığında yaxın ola bilməmişəm?!

Adam var sirri çoxdur, sirdaşı yoxdur. Nisə Bəyimsə "sirdaşı çox, sirri yox" insanlardandır. Bir sərbəst şeirində dünyanın dərdini çəkən, bütün dərdliləri düşünən şair yazır: "Dünyanın göz yaşlarını, dəryalarını, yağışlarını yığsam, Tanrıya aparsam, götürərmi? Hara yığırlar bu qədər ahı, bu qədər günahı, şeytan bazarında insandan baha olan silahı? Kədərlənən Tanrı "mənim silahım sən idin" deyəcək...". Şeirin sonunda "Bəlkə dünyanı yenidən başımıza yıxacaq, yağışlar yenidən yağacaq, göz yaşları yenidən axacaq, təzə bir dünya üçün..." yazan şairin yeni dünya arzusu var idimi? Yəqin ki, istədiyi dünyanı tapıb...

***Bu dünya göylərin yağışı kimi,***
***Gözündə saxlaya bilmədi məni.***
***Sıxıb kipriyimi tökdü yollara,***
***Üzündən, gözündən silmədi məni.***

deyən şair keçdiyi yollardan da, vaxtdan da, fələkdən də, baxtdan da gileylənir. Bu, əslində, zəmanədən şikayətdir və tarix boyu həqiqi şairlərin hamısı zəmanədən şikayət etmişlər. Sonda "Məni saxlamadı ayaq izlərim, Saxlaya bilmədi... yolmdan məni" deyən şair başqa bir şeirdə "Mənim gözlərimə sığmır ölümün, Sığmır gözlərimə gözümün yaşı", "Nəyin inadıdır, çəkir göylə yer, Nəyin ağrısıdır yağan yağışlar?", "Bu da bir fəndidir qoca fələyin" yazır və sonda maraqlı təkrir verir: "Mənim gözlərimə sığmır ölümün, Sığmır ölümünə gözlərim, heyhat!".

Şairin "İlahi, bir bəxtə yürüyür ömrüm" misrası ilə başlayan şeirində də maraqlı, məna tutumu, bədiiliyi, siqləti cəhətdən dolu misralar diqqəti çəkir: "Dolur əzablara, dolur ahlara, Hər dolan bulud tək yağmır ürəyim", "Məni qəbul edin, sevgili göylər! Mənim bu dünyada yerim daralır", Mənim bu dünyaya çatmır hövsələm, Mənim bu dünyaya nəfəsim yetmir".

Digər bir şeirdə "Kim deyir bilirəm mən öz sirrimi, Kim deyir, taleyim öz əlimdədir?", "Nə vaxt daşa döndü, nə vaxt qırıldı, Mənim ürəyimin uçmaq arzusu?" və s. bu kimi suallarla baş-başa qalan şairin cavabları da ağılabatandır. Sonda "Mənim öyrəndiyim, sevdiyim dərdlər Nə böyük əzabmış bu yer üzündə" qənaətinə gələn şairin maraqlı sərbəst bir etiraf şeiri diqqəti çəkir: "Heç nə ola bilmədim dünyada, Heç nə gəlmədi əlimdən. Cavan ola bilmədim, Qoca ola bilmədim. Ən saf uşaq oldum bu yer üzündə, Bir də... şair oldum uşaqlığımdan".

Nisə Bəyim yaradıcılığında göylər mövzusu, yerdəki haqsızlıqlardan ağlayan göylərin buludları, yağışları, göylər qızının göz yaşları o qədərdir ki, elə bu barədə bir kitab yazmaq olar. Amma biz məqalənin həcmini düşünüb, bu mövzulu şeirlərin yalnız bir qismindən bəhs etdik.



Allah Nisə Bəyimə rəhmət eləsin, ruhu şad olsun!

***Sona XƏYAL***



# Kitab rəfi




**MİRZƏ TALIBOV**
**"MƏN İNSANLAR TANIYIRAM Kİ..."**
**BAKI, "ÇAP ART" NƏŞRİYYATI, 2024**

Yazıçı-publisist, tədqiqatçı Mirzə Talıbovun "Mən insanlar tanıyıram ki..." publisistik salnaməsi Əməkdar incəsənət xadimi, yazıçı-publisist, alim, Dövlət Təhlükəsizlik Xidmətinin yüksək rütbəli zabiti, Ali Sovetin və Milli Məclisin sabiq deputatı Yusif Mirzə oğlu Nəsirlinin həyat və fəaliyyətinə həsr olunub. Kitab Yusif Nəsirlinin 85 illik yubileyinə həsr olunub.

Kitabın redaktoru professor Qəzənfər Kazımovdur.




**ALİ KAFKASYALI**
**"BÖYÜK TÜRK ŞAİRİ NAZİM HİKMƏT VƏ TÜRK DÜNYASI"**
**BAKI, "ELM VƏ TƏHSİL" NƏŞRİYYATI, 2024**

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi şurasının qərarı ilə çap olunan kitabın müəllifi Türkiyənin Ərzincan Binəli Yıldırım Universitetinin Ədəbiyyat fakültəsi və Türk dili və ədəbiyyatı bölməsinin rəhbəri professor Ali Qafqasyalıdır. Kitab AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəylinin "Nazim Hikmət sənətinin hikməti" adlı "Ön söz"ü ilə başlayır. Kitaba, həmçinin Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım "Ön söz" yazıb.




**TALEH CAVAD**
**"XƏYALLARIN RƏNGİ"**
**BAKI, "GÜNƏŞ MMC" NƏŞRİYYATI, 2025**

Kitab Taleh Cavadın oxucularla ilk görüşüdür. Şairin yeni kitabında müxtəlif illərdə yazdığı seçilmiş şeirləri toplanıb. Əsasən Vətən və sevgi mövzularında yazılmış bədii nümunələrlə müəllif ülvi hisslərini tərənnüm edir.




**ARİF SƏFİYEV**
**"DRAMATURGİYAMIZ KOMİZM İŞIĞINDA"**
**BAKI, "ELM VƏ TƏHSİL" NƏŞRİYYATI, 2025**

Kitaba ədəbiyyatşünas alim Arif Səfiyevin müxtəlif qəzet və jurnallarda 1964-2007-ci illərdə çap edilmiş məqalələri və Ədəbiyyat İnstitutu tərəfindən 1976-1984-cü illərdə hazırlanmış "Ədəbi proses" kitablarında müəllifi olduğu "Dramaturgiya" oçerkləri daxil edilib. Toplunun sonunda Arif Səfiyevin arxivindəki gənclik illərində yazdığı, çap edilməmiş lirik şeirləri və bir sıra şəkilləri də təqdim olunub.

Həmçinin tərtibçi Safurə Quliyevanın "İşıqlı alim, əməlisaleh insan" məqaləsi də kitaba daxil edilib.




**"YAŞILIM, YAŞILIM, HARA GEDİRSƏN"**
**(TƏBİƏTƏ HƏSR OLUNMUŞ ŞEİRLƏR TOPLUSU)**
**BAKI, "CN POLİQRAF" MMC, 2024**

"Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Yaşılım, yaşılım, hara gedirsən" kitabı Azərbaycan Yazıçılar Birliyinin təşəbbüsü ilə hazırlanıb. Topluda təbiətə həsr olunmuş şeirlərdən nümunələr yer alıb. Müxtəlif dövrlərdə təbiətə şair baxışını əks etdirən bu şeirlər diqqəti yaşıllığın qorunmasına, gözəlliyin tərənnümünə yönəldir.

Kitabın ön sözünün müəllifi Anar Rzayev, ideya müəllifi Rəşad Məciddir.

***REDAKSİYA HEYƏTİ:***
**Ağasəfa, Afaq Məsud, Azad Yaşar, Asim Yadigar, Elçin, Emin Piri, Elşad Barat, Əli Əmirli, Firuzə Məmmədli, Firuz Mustafa, Firudin Qurbansoy, Məmməd Oruc, Mustafa Çəmənli, Nərgiz Cabbarlı, Novruz Nəcəfoğlu, Paşa Qəlbinur, Rafael Hüseynov, Rəfail Tağızadə, Rəhilə Qeybullayeva, Rüstəm Kamal, Seyran Səxavət, Südabə Ağabalayeva, Vahid Əziz, Vaqif Yusifli, Vaqif Bəhmənli, Vilayət Quliyev, Vüsal Nuru**